# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

## OTUZ DOQQUZUNCU KİTAB

## NOYABR 2009 - FEVRAL 2010

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiyaya, Almaniyaya, Fransaya və İsveçrəyə rəsmi və işgüzar səfərləri zamanı, həmçinin Davos İqtisadi Forumunda görüşdüyü ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına dair danışıqlarından, bağlanan enerji və qeyri-neft sektoruna aid müqavilələrdən bəhs olunur. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları təşkil edir.

Dövlət başçısının mütəmadi olaraq bölgələrə səfəri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri və ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallar da bu cilddə toplanmışdır.

Kitabda, həmçinin Azərbaycan prezidentinin ölkəmizə səfərə gələn mədəniyyət xadimləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə və televiziya kanallarına verdiyi müsahibələri də dərc olunmuşdur.

İSBN 978-9952-8100-7-3

**Я** $\frac{\mathbf{0801000000}}{\mathbf{М-651(07)-2017}}$ **ББК - 32**

© Azərnəşr, 2017

**AVROPA İTTİFAQININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HERMAN VAN ROMPEYƏ**

Hörmətli cənab Prezident!

Avropa İttifaqının ilk Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, ötən illər ərzində Azərbaycan–Avropa İttifaqı münasibətləri uğurla inkişaf etmişdir. 2006-cı ildən başlayaraq «Yeni qonşuluq siyasəti» çərçivəsində səmərəli əməkdaşlıq etmişik. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış «Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında» Anlaşma Memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır.

Düşünürəm ki, «Şərq Tərəfdaşlığı» təşəbbüsü çərçivəsində əlaqələrimizi qarşılıqlı maraqlar əsasında quracaq, birgə səylərimizlə konstruktiv əməkdaşlığımızı daha da inkişaf etdirəcəyik.

Hörmətli cənab Prezident!

Bu ilin aprel ayında Sizinlə görüşümü yaxşı xatırlayır, bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 noyabr 2009-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GORANBOY RAYONUNA SƏFƏRİ

*20 noyabr 2009-cu il*

*Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboy rayonuna gəlmişdir.*

*Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Ölkəmizin iqtisadi potensialı artdıqca regionlarımız da abadlaşır, hərtərəfli tərəqqi dövrünə qədəm qoyur. Bu inkişaf və tərəqqi Goranboyun simasında da hiss olunur. Rayonda tikinti-quruculuq işlərinin həcmi genişlənmişdir. Regionların 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq yaşayış məntəqələrində bu sahədə işlərin aparılmasına daha çox diqqət ayrılmışdır. Şəhərin bütün küçələrinə asfalt örtüyü salınmış, kəndlərarası yollar təmir edilmişdir. Rayonda sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması daim diqqətdə saxlanılmışdır. Bu ilin 9 ayında əhaliyə göstərilən pullu xidmətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli artmışdır. Rayonda ümumi məhsul buraxılışı 5,7 milyon manat artaraq 112 milyon manata, adambaşına düşən gəlirlər isə 1157 manata çatmışdır. Rayonda səhiyyə və təhsil sektorunun inkişafı diqqətdə saxlanılmış, müasir məktəb və tibb ocaqları tikilmişdir. Bu işlər uğurla davam etdirilir.*

*Prezident İlham Əliyev şəhərin mərkəzində salınmış Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı parkı gəzdi, görülmüş abadlıq işləri ilə tanış oldu, rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İlham Əliyev:** Sabahınız xeyir! Necəsiniz, nə var, nə yox? İşləriniz necədir? Mən Goranboyda dörd il əvvəl ol-

muşam. Bu gün də sizi görmək, vəziyyətlə tanış olmaq və əlavə tədbirlər haqqında növbəti addımlarımızı müəyyən etmək üçün yenidən gəlmişəm.

Azərbaycanın bütün regionlarında quruculuq, abadlıq işləri aparılır. Mən istəyirəm ki, hər yerdə görülən işlər yüksək səviyyədə olsun. Çünki Azərbaycanın bugünkü inkişafı buna imkan verir. Dünya miqyasında ən ağır il olan 2009-cu ildə də Azərbaycan uğurla inkişaf edib. Demək olar ki, hər həftə Azərbaycanda hansısa çox önəmli bir məsələ öz həllini tapır.

Goranboyun ərazisində məskunlaşmış məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün yeni qəsəbə salınıb, bu gün onun açılışını edəcəyik. Həftənin əvvəlində Bakıda məcburi köçkünlər üçün doqquzmərtəbəli altı binanın açılışını etdik. Dünən Sumqayıtda böyük elektrik stansiyası işə qoşulubdur. Bu onu göstərir ki, dünyada davam edən böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatı inkişaf edir. Azərbaycanda bütün planlar yerinə yetirilir və ölkəmiz uğurlu inkişafını davam etdirir.

Regionların inkişafı əsas prioritet məsələdir. 2004-cü ildə qəbul edilmiş və uğurla icra olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bu gün yeni mərhələyə başlayır. 2009–2013-cü illərdə bütün əsas problemlər öz həllini tapmalıdır. Bunlar infrastruktur layihələridir – yollar, elektrik stansiyaları, qaz xətləridir. Dünən İpək yolunun bir hissəsi istifadəyə verildi. Mən Ucar–Yevlax yolunun açılışında iştirak etmişəm. Bu yol Gəncəyə, Gəncədən də sərhədə qədər davam edir.

Qazlaşma prosesi sürətlə getməlidir. Ümumi statistikanı götürsək görərik ki, Azərbaycanda əhalinin təxminən 85 faizi qazla təchiz edilib. Coğrafi vəziyyətə baxsaq görərik ki, faizlər hər yerdə özünü doğrultmur. Məsələn, Goranboyda qazlaşma təxminən 40 faiz həll olunub. Bu, davam etməlidir, rayon mərkəzinə yaxın olan kəndlər, sonra digər yaşayış məntəqələri qazla təmin edilməlidir. Biz burada həm qaz, həm də alternativ enerji mənbələrindən istifadə etməliyik.

Ölkəmiz üçün vacib olan başqa məsələlər də həll olunmalıdır. İçməli su ilə əlaqədar Dünya Bankı və Azərbaycanın dövlət büdcəsi hesabına böyük bir layihəyə başlamışıq. Elə etməliyik ki, hər bir rayonda insanlara təmiz içməli su verilsin. Meliorasiya, suvarma, kənd təsərrüfatının inkişafı – bütün bunlar bir-biri ilə sıx bağlıdır. Elə etməliyik ki, özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin edək. Təkcə məhsulların yetişdirilməsi ilə kifayətlənməməliyik, emal müəssisələri də yaradılmalıdır və yaradılır. Azərbaycan həm özünü təmin etsin, həm də ki, ixrac imkanlarını genişləndirsin. Bizim üçün ixracda heç bir problem yoxdur, məhsullarımız qonşu ölkələrə sərbəst şəkildə ixrac edilir.

Bu kompleks tədbirləri görmək üçün çox ciddi Dövlət Proqramı icra olunmalıdır. Bu proqram da vardır. Kənd təsərrüfatının inkişafı üçün kreditlərin, texnikanın verilməsi, güzəştli şərtlərlə gübrə, toxum və s. lazım olan tədbirlər görülür. Biz artıq özümüzü taxılla təmin edirik. Heç vaxt, Azərbaycanın heç bir dövründə biz özümüzü əsas ərzaq məhsulları ilə təmin edə bilmirdik. Başqa yerlərdən gətirilirdi. İndi də gətirilir, ancaq daxili istehsal da artır. Əgər biz nəzərdə tutulmuş bütün məsələləri növbəti dörd ildə həll etsək, ondan sonra Azərbaycanın uzunmüddətli inkişafı çox rahat olacaqdır.

Siz Goranboyda yaşayırsınız. Əlbəttə, istəyirsiniz ki, rayon daha da inkişaf etsin, gözəlləşsin, bütün problemlər həll olunsun. Mən də bunu istəyirəm. Bu məqsədlə rayonlara gedib vəziyyətlə tanış oluram, gözümlə görürəm. Bir var bunu arayışda oxuyasan, bir də var ki, özün görəsən. Əgər sizin hansısa sualınız və ya bir istəyiniz varsa, deyin. Çalışacağam ki, onu həll edim.

Biz müstəqil dövlətik, müstəqillik ən böyük sərvətimizdir. Müstəqilliyi əldə etmək nə qədər çətin olsa da, onu möhkəmləndirmək ondan da çətindir. Biz bu böyük sərvətimiz olan müstəqilliyimizi əməli işlərimizlə, quruculuqla, sənaye müəssisələrinin yaradılması ilə, iqtisadi inkişafla qoruyub saxlamalı, yaşatmalıyıq. Bunu etmək üçün bütün əhali fəal

olmalıdır. Rəhbər işçilərdən də çox şey asılıdır. Mən icra hakimiyyəti başçısını işə təyin edərkən dedim ki, sən yerli adamsan, burada doğulmusan, yaşamısan, səni insanlar tanıyırlar, elə et ki, mən səni həmişə dəstəkləyim. Get, bu etimadı doğrult və rayonun inkişafına xidmətini göstər.

## Məcburi köçkünlər üçün salınan yeni qəsəbənin açılışı mərasimi

*Noyabrın 20-də Goranboy rayonunun Veyisli kəndi yaxınlığında məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılışı olmuşdur. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısı qəsəbədə məskunlaşan Natiq Bayramovun evində oldu.*

**İlham Əliyev:** Necə evdir? Xoşunuza gəlirmi?

**Ev sahibləri**: Çox sağ olun, cənab Prezident, çox razıyıq Sizdən.

**İlham Əliyev:** Üçotaqlıdır?

**Ev sahibi:** Bəli, üçotaqlıdır. Biz 1993-cü ilin aprel ayında Kəlbəcər işğal olunduğu vaxtdan burada məskunlaşmışdıq, indi evlə təmin olunduq.

**İlham Əliyev:** İndi burada gözəl qəsəbə salınıb. Artıq çadır şəhərcikləri yoxdur, ləğv edilib. Növbəti mərhələdə bütün yararsız evlərdə yaşayan insanları köçürməliyik. Yataqxanalarda, məktəblərdə yaşayanlar vardır. İctimai binalarda, hərbi hissələrin ərazilərində dözülməz şəraitdə yaşayırlar. Çalışacağıq ki, müvəqqəti də olsa siz normal şəraitdə yaşayasınız. İşğaldan azad olunandan sonra Kəlbəcərdə belə gözəl evlər tikəcəyik.

Bu ədalətsizlik davam edə bilməz. Bu beynəlxalq hüquq normalarının pozulması nə vaxta qədər davam edəcək? Biz indi xoş niyyət göstəririk. Biz danışıqlarda iştirak etməklə güzəşt edirik – 15 il ərzində və daha da çox. 15 il sadəcə olaraq müharibə dayanıb. 1992-ci ildə Minsk qrupu yaradılıb. Müsbət hal idi ki, beynəlxalq birlik bu məsələ ilə əlaqədar, mövqeyini

bildirdi, Minsk qrupu işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi məqsədilə yaradıldı. Ona görə yaradılmadı ki, əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaradılsın.

BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. Dünyada Təhlükəsizlik Şurasından üstün heç bir başqa qurum yoxdur. Budur, əgər onun qərarları icra olunmursa, deməli, ya Təhlükəsizlik Şurasının təsiri aşağı səviyyədədir, ya da ki, beynəlxalq hüquq normaları, ümumiyyətlə, işləmir. Belədirsə, onda hər kəs öz işini bilsin. Əgər beynəlxalq hüquq işləmirsə, biz də işimizi bilək. Biz heç bir qanun pozuntusu etməmişik. Hər şeyi beynəlxalq hüquq normaları çərçivəsində etməyə çalışırıq. Ondan sonra ATƏT-in zirvə görüşləri olmuşdur, qərarlar qəbul edilmişdir, icra olunmur. Biz nə etməliyik? Gözləməliyik? Nə vaxta qədər? Niyə Azərbaycanın vətəndaşları öz doğma torpaqlarına qayıda bilməsinlər? Niyə kəlbəcərlilər Kəlbəcərə qayıda bilməsinlər? Nədir ki, ermənilər bunu istəmir. Nə üçün? Onların nə ixtiyarı var? Məsələlər artıq öz həllini çoxdan tapmalı idi, çoxdan. Sadəcə, biz istəyirik ki, bunu danışıqlar yolu ilə, sülh yolu ilə edək. Bu vəziyyətlə də barışmaq düzgün deyil, nə vaxta qədər barışmalıyıq? Hələ ki, çalışırıq bu məsələni sülh yolu ilə həll edək.

Bu yaxınlarda yenə Ermənistan prezidenti ilə görüşüm olacaqdır. Bu görüşlər bəzən uğurlu olur, bəzən də Ermənistan tərəfi vaxt uzatmaqla məşğul olur. Son görüşlər deyə bilərəm ki, heç bir nəticə vermədi. Çünki Ermənistan tərəfi tamamilə qeyri-konstruktiv mövqe nümayiş etdirirdi. Ola bilər ki, Türkiyə–Ermənistan münasibətlərinin normallaşması prosesi onları bir qədər ruhlandırdı. Onlarda yanlış fikir oyatdı ki, Türkiyə–Ermənistan sərhədi açılacaq, Qarabağ məsələsi kənara qoyulacaq. Ancaq gedən proseslər onu göstərir ki, bu, baş verməyəcəkdir. Həm Azərbaycanın qətiyyətli mövqeyi, həm Türkiyə ictimaiyyətinin qətiyyətli mövqeyi, həm Türkiyə rəhbərlərinin verdikləri bəyanatlar və bizə verdikləri sözlər onu göstərir ki, Türkiyə–Ermənistan münasibətləri Dağlıq Qarabağ

məsələsi həll olunmadan düzələ bilməz. Ermənistan tərəfi bunu dərk etməlidir.

Azərbaycanın hər tərəfində, demək olar ki, hər həftə çox vacib bir hadisə baş verir. Dünən 300 milyon avro dəyərində 525 meqavat gücündə yeni, müasir elektrik stansiyası açılıb. Yevlax–Ucar avtomobil yolu istifadəyə verilib. O da böyük vəsait tələb edir. Bu həftənin əvvəlində Bakıda məcburi köçkünlər üçün böyük vəsait tələb edən doqquzmərtəbəli 6 ev təhvil verilib. Bu gün burada bu qəsəbə açılır. Amma Ermənistanda iqtisadiyyat iflic vəziyyətindədir. Bizim iqtisadi, siyasi, diplomatik uğurlarımız, hərbi potensialın gücləndirilməsi, vətəndaş birliyi mövqelərimizi gücləndirir. Bu gün bizə lazımdır ki, işğalçılar torpaqlarımızdan tezliklə öz xoşları ilə çıxsınlar. Onda artıq heç kim deməyəcək ki, Azərbaycan niyə öz hərbi potensialını gücləndirir? Bəzən biz bəzi beynəlxalq dairələrdən eşidirik ki, Azərbaycan niyə silahlanır? Biz başqasının pulu ilə silahlanmırıq ki. Öz pulumuzla, öz imkanlarımız hesabına silahlanırıq. Bəs nə etməliyik? Bu məsələlər elədir ki, gərək biz ciddi fikirləşək və lazım olan addımları lazım olan vaxtda ataq.

Biz elə etməliyik ki, bu məsələ birdəfəlik və hərtərəfli həll olunsun. Mən 6 ildir bu danışıqlar prosesində iştirak edirəm. İndi deyə bilərəm ki, Ermənistan tərəfinin razı olduğu ilk variant ondan ibarətdir ki, qoşunlarını ancaq 4 rayondan çıxaracaqlar. O rayonlar ki, çayboyu, dəmir yolunun üstündə yerləşir. Ondan sonra qalan rayonlar da müəyyən olunmamış vaxtadək qalacaq onların təsiri altında, onların sərəncamında. Danışıqlar prosesində birinci mərhələdə 5 rayon başaldılacaq – ondan sonra 6-cı Kəlbəcər, sonra Laçın. Amma bu da hələ məsələnin tam həlli deyildir. Biz istəyirik ki, Azərbaycan vətəndaşları Dağlıq Qarabağa, Şuşaya qayıtsınlar. Şuşa bizim tarixi şəhərimizdir. Əgər bu olmasa məsələ birdəfəlik həll oluna bilməz. Əldə ediləcək razılaşmalar elə olmalıdır ki, daha bundan sonra hansısa xoşagəlməz hadisənin başlanması üçün əsas olmasın. Əgər əldə olunacaq razılaşma bizi tam şəkildə

qane etməsə, nə vaxtsa bu məsələ istər-istəməz yenidən qalxar, yenidən təhlükə yarana bilər. Mən Ermənistan tərəfinə həmişə deyirəm ki, siz elə edin ki, bu sazişdən biz razı qalaq. Çünki biz razı olmasaq, bu gün də olmasa sabah, 10 ildən sonra bu məsələ yenə də qalxacaqdır.

Kim harada yaşayıb orada da yaşasın. Biz öz torpağımızda yaşamışıq, o cümlədən Dağlıq Qarabağın ərazisində, Şuşada və başqa kəndlərdə. Biz oraya qayıtmalıyıq. Ermənilər, məsələn, Xankəndidə – baxmayaraq ki, oraya ancaq 19-cu əsrdə köçüblər – 100 ildən çox yaşayıblar, orada da yaşasınlar. Biz demirik ki, yaşamasınlar. Demirik ki, biz sizi buradan qovaq, etnik təmizləmə siyasəti aparaq. Halbuki dünyanın gözü qarşısında bizə qarşı etnik təmizləmə aparılmışdır. Kim harada yaşayıb orada da yaşamalıdır, ora qayıtmalıdır. Yalnız ondan sonra sülh yarana bilər. Başqa cür davamlı sülh ola bilməz. Ermənistan bu gün qorxu içində yaşayır. Onların bu qorxu içində yaşaması ona gətirib çıxarır ki, ölkə öz müstəqilliyini təmin edə bilmir. Çünki qorxur. Qorxanda kimdənsə nəsə yardım istəyəcək. Kim kimə müftə yardım verir? Heç kim. Yardım verir, amma əvəzində nəsə götürür. O nəsə çox önəmlidir.

Düzdür, bizim torpaqlarımız işğal altındadır, amma Azərbaycanın müstəqilliyi heç kimdə şübhə doğurmur. Biz öz taleyimizin sahibləriyik. Bəzi ölkələr var ki, torpaqları işğal altında deyildir, amma taleləri başqalarının əlindədir.

Bir daha sizi təbrik edirəm ki, belə gözəl evə köçmüsünüz. Arzu edirəm ki, siz burada çox yaşamayasınız. Çalışacağam ki, siz tezliklə öz doğma torpağınıza qayıdasınız.

**N a t i q  B a y r a m o v**: Siz idmana çox böyük yer verirsiniz. Biz də idmançı ailəsiyik. Söz veririk ki, bizim uşaq Azərbaycan bayrağını daha da yüksəklərə qaldıracaqdır.

**İ l h a m  Ə l i y e v:** Bizim idmançılarımız İrəvanda da Azərbaycan bayrağını qaldırdılar. Azərbaycanın Dövlət himnini səsləndirdilər. O vaxt gənclərin orada iştirakı ilə bağlı müxtəlif fikirlər var idi. Bəziləri etiraz edirdi, bəziləri elə fikirdə idi ki, lazım deyildir. Sonra mənə müraciət olundu. Dedim ki,

getməlidirlər və qələbə qazanmalıdırlar. Belə də oldu. Beş idmançı getdi, beşi də medalla qayıtdı. Biri isə Azərbaycana qızıl medal gətirdi. Azərbaycanın Dövlət himni İrəvanda səsləndi. Biz belə övladlar yetişdiririk.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev yeni qəsəbə ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yeni qəsəbədə Kəlbəcər rayonundan olan 596 məcburi köçkün ailəsi yerləşdiriləcəkdir. Qəsəbə prezident İlham Əliyevin 2004-cü ildə imzaladığı sərəncamla təsdiq edilən «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na uyğun olaraq salınmışdır. Qəsəbənin tikintisinə bu ilin iyununda Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə başlanılmışdır. Qısa müddətə tikilmiş qəsəbə üçün 120 hektar ərazi ayrılmışdır. Evlərin ümumi sahəsi 30.800, yaşayış sahəsi isə 19.445 kvadratmetrdən çoxdur. Evlərin 89-u bir, 275-i iki, 200-ü üç, 32-si isə dördotaqlıdır. Qəsəbədə bütün zəruri infrastruktur yaradılmışdır. Bura uşaq bağçası, ambulatoriya, klub-icma mərkəzi, poçt binası və digər inzibati binalar daxildir. Qəsəbədə fərdi elektrik stansiyası tikilmiş, bütün evlər təbii qazla təchiz olunmuşdur.*

*Dövlətimizin başçısı qəsəbədə Kəlbəcər incəsənət ustalarının və Kəlbəcər aşıqlarının çıxışlarına baxdı.*

*Prezident İlham Əliyev qəsəbənin baş planı ilə tanış oldu.*

*Dövlətimizin başçısı qəsəbədə inşa olunan 360 yerlik orta ümumtəhsil məktəbinin açılışında da iştirak etdi. Burada şagirdlərin təhsili üçün hər cür şərait yaradılmışdır. Məktəb zəruri avadanlıqlar və inventarla təchiz olunmuş, bütün siniflər əyani vasitələrlə təmin edilmişdir. Məktəbin idman zalında şagirdlərin fiziki sağlamlığı üçün hər cür şərait yaradılmışdır. Kompyuter sinfində müasir kompyuterlər quraşdırılaraq internetə qoşulmuşdur. Məktəbdə ölkəmizin azadlığı və ərazi bütöv-*

*lüyü uğrunda qəhrəmanlıqla şəhid olan Kəlbəcər sakinlərinin xatirəsi əziz tutulur, yetişməkdə olan nəslə onların şücaətindən söhbət açılır.*

## PREZİDENT İLHAM ƏLİYEVİN KƏLBƏCƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜ

*20 noyabr 2009-cu il*

**İ l h a m Ə l i y e v:** Mən bura gəlmişəm ki, yeni salınmış bu gözəl qəsəbənin istifadəyə verilməsi gününü bir yerdə qeyd edək. Bu çox əlamətdar hadisədir. 596 ev, gözəl məktəb, tibb məntəqəsi tikilib, yaşayış üçün bütün şərait vardır. Bu, müvəqqəti bir yaşayış ərazisidir. Mən arzu edirəm və ümid edirəm ki, tezliklə siz doğma torpağınıza qayıdacaqsınız. Bununla yanaşı, biz çalışırıq ki, məcburi köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdıraq. Bu məqsədlə çox böyük tədbirlər görülür, böyük işlər aparılır. Azərbaycan dövləti böyük vəsait xərcləyir ki, soydaşlarımız normal şəraitdə yaşasınlar. Bütün çadır şəhərcikləri ləğv edilir. İndiki mərhələdə yararsız yerlərdə, ictimai binalarda, məktəblərdə, yataqxanalarda yaşayan soydaşlarımızın yaşayış səviyyəsini yaxşılaşdırmalıyıq.

2004-cü ildə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı qəbul edilib və icra olunur. Proqram, demək olar ki, tam şəkildə həyata keçirildi və 2007-ci ildə Proqrama əlavələr etdik. Bax, bugünkü bu gözəl qəsəbə də həmin əlavələr hesabına yaradıldı. Ölkəmizin müxtəlif yerlərində belə gözəl qəsəbələr tikilibdir. Xüsusilə Ağdam və Füzuli rayonlarının işğaldan azad edilmiş ərazilərində böyük qəsəbələr tikilib. Ağdam və Füzuli rayonlarının əhalisinin, demək olar ki, 50 faizdən çoxu artıq o yerlərdə yerləşibdir. Düzdür, onların kəndləri deyildir, amma öz rayonlarının ərazilərində yaşayırlar.

Bakıda böyük işlər görülür. Bu həftənin əvvəlində Bakıda doqquzmərtəbəli altı binanın açılışında iştirak etdik. Orada da

400-ə yaxın ailə yaxşı şəraitlə təmin edildi. Yəni, Azərbaycan dövləti bu istiqamətdə apardığı işləri davam etdirəcək və ağır vəziyyətdə, pis vəziyyətdə yaşayan insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görüləcəkdir. Görülən bütün bu işlər Azərbaycan dövlətinin bir tərəfdən, siyasətini, digər tərəfdən, imkanlarını göstərir. Siyasət ondan ibarətdir ki, Azərbaycanda hər bir vətəndaş normal yaşasın.

Beş il əvvəl köçkünlər arasında yoxsulluğun səviyyəsi 75 faiz idi, bu gün 25 faizdir. 25 faiz də çoxdur. 2008-ci ilin yekunlarına görə ölkə üzrə yoxsulların sayı 13 faiz idi, qaçqınlar, köçkünlər arasında 25 faiz. Azərbaycanda, ümumiyyətlə, yoxsul adam olmamalıdır. Bizim istəyimiz ondan ibarətdir ki, yoxsulluq tamamilə aradan qaldırılsın və Azərbaycan dövlətinin sosial siyasəti bu məqsədi güdür. Digər tərəfdən, bu işlərin görülməsi bir daha göstərir ki, Azərbaycan dövlətinin imkanları vardır. İmkanlar olmasaydı, biz bu gözəl qəsəbələri tikə bilməzdik. Biz bunları Azərbaycanın dövlət büdcəsinin, Dövlət Neft Fondunun hesabına edirik. Yəni Azərbaycan bu işləri öz hesabına görür. Bu, böyük vəsait tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki insanların yaşayış səviyyəsi yaxşılaşdırılmalıdır. Müharibədən, işğaldan, etnik təmizləmə siyasətindən əziyyət çəkən insanlar dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdırlar.

Növbəti illərdə bu proseslər davam edəcəkdir. Azərbaycanın uğurlu iqtisadi inkişafı, Heydər Əliyevin neft strategiyası bizə bu imkanları yaratdı. Azərbaycan Dövlət Neft Fondu bu missiyanı öz üzərinə götürübdür. Növbəti illərdə yeni qəsəbələrin salınması nəzərdə tutulub, ancaq bu, məsələnin həlli demək deyildir. Məsələnin həlli Azərbaycan torpaqlarının işğalçılardan azad edilməsidir. Bu məqsədə çatmaq üçün biz nə lazımdırsa onu edirik. Həm danışıqlar prosesində gedən işlər, həm iqtisadi imkanlarımızın gücləndirilməsi, ordu quruculuğunda aparılan işlər Azərbaycanı gücləndirir. Biz güclü olmasaq, Dağlıq Qarabağ məsələsini həll edə bilmərik. Çünki beynəlxalq müdaxilələr heç bir nəticə vermir. Çünki bu

müdaxilələr ancaq siyasi xarakter daşıyır. Bəzən başqa yerlərdə, başqa ölkələrdə işğalçı beynəlxalq qüvvələr tərəfindən dərhal yerinə oturdulur. Biz bu hadisələri tarixdən görmüşük. Ancaq Azərbaycan torpaqları işğal altına düşəndə beynəlxalq birlik bu qətiyyəti nümayiş etdirmədi. Ona görə, biz öz gücümüzə arxalanmalıyıq, güclü olmalıyıq ki, məsələni ədalətli, Azərbaycanın milli maraqlarına uyğun və beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək. Şübhə etmirəm ki, buna nail olacağıq. Biz bütün səylərimizi səfərbər etmişik, həm siyasi müstəvidə, həm beynəlxalq təşkilatlarda, həm iqtisadi sahədə. Biz ordu quruculuğu sahəsində böyük uğurlar əldə etmişik. Bu, yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Artıq danışıqlar prosesində müsbət dəyişikliklər vardır. Ancaq Ermənistan tərəfi son addımı atmalıdır. O da ondan ibarətdir ki, qoşunlarını işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxarmalıdır. Belə olmasa, bölgədə vəziyyət gərginləşə bilər.

Biz 20 ilə yaxındır ki, belə vəziyyətdə yaşayırıq. Ancaq bununla barışa bilmərik. Çünki insanların sosial vəziyyəti çox ağırdır, qəsəbələrin tikilməsi ilə biz o vəziyyəti yüngülləşdiririk, yaxşılaşdırırıq. Lakin siz doğma torpağınıza qayıtmaq istəyirsiniz. Siz Kəlbəcərdə yaşamalısınız, burada yox. Bura müvəqqəti yaşayış yeridir. Ancaq Ermənistan tərəfi bütün beynəlxalq normaları pozur və danışıqlar heç bir nəticə vermir. Biz nə vaxta qədər bu vəziyyətlə barışmalıyıq?!

Bir neçə gündən sonra Ermənistan prezidenti ilə mənim növbəti görüşüm olacaqdır. O görüşə biz öz proqramımız ilə gedirik. O görüş danışıqlar prosesində həlledici rol oynamalıdır. Çünki bu il bir neçə dəfə görüşlər keçirildi, lakin heç bir nəticəsi olmadı. Əgər bu görüş nəticəsiz qalsa, onda danışıqlara ümidlərimiz tükənəcəkdir. Danışıqlara ümidimiz tükənsə, o zaman bizim başqa yolumuz qalmır. Biz buna da hazır olmalıyıq. Son illər ərzində ordu quruculuğunda görülən işlərin təbii ki, məqsədi vardır. Biz milyardlarla vəsait xərcləyirik, ordumuzu gücləndiririk, yeni silahlar alırıq, texnika alırıq, təmas xəttində öz mövqelərimizi gücləndiririk. Bizim tam

hüququmuz var ki, torpaqlarımızı hərbi yolla azad edək. Beynəlxalq hüquq normaları bu hüququmuzu tanıyır. Biz sadəcə istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə olmasın. Əgər Ermənistan fikirləşirsə ki, biz danışıqlarda daim iştirak edəcəyik, yanılır. Biz o vaxta qədər danışıqlarda olacağıq ki, ümidimiz var, məsələ həll olunacaqdır. Görsək ki, Ermənistan tərəfi sadəcə olaraq, vaxt uzadır və bu məsələni danışıqlar yolu ilə belə əbədiləşdirmək istəyir, o zaman danışıqlara son qoyulacaqdır. Biz görürük ki, başqa yerlərdə 30–40 il nəticəsiz danışıqlar gedir. Yəni o vəziyyət burada heç vaxt təkrarlanmayacaqdır. Birincisi, Azərbaycan ilə Ermənistan iqtisadi potensial baxımından çox fərqli ölkələrdir. Əgər 10 il, 15 il bundan əvvəl bizim aramızda həm hərbi, həm iqtisadi sahədə, demək olar ki, balans var idisə, bu balans artıq çoxdan pozulubdur. Son illər ərzində Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatı ilə müqayisəolunmaz dərəcədə artıb. Ordu quruculuğu prosesi sürətlə gedir. Əlbəttə ki, bütün amillər – həm beynəlxalq, həm siyasi, həm diplomatik amillər bizim mövqeyimizi dəstəkləyir. Beynəlxalq təşkilatların qərarları, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi bizə belə imkan verir ki, biz öz torpağımızı hərbi yolla işğalçılardan azad edək. Biz başqa ölkələrin ərazi bütövlüyünə müdaxilə etmək istəmirik. Hamı yaxşı bilir ki, indiki Ermənistan əzəli Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı – bütün bunlar Azərbaycan torpaqlarıdır.

1918-ci ildə İrəvan Ermənistana bağışlandı. O tarixdən 100 il keçməmiş bizə qarşı yeni iddia qaldırılır. Azərbaycan torpaqlarında bir erməni dövləti yaradıldı. İndi ikinci erməni dövlətini yaratmaq istəyirlər. Bu heç bir məntiqə sığmır, Azərbaycan xalqı, Azərbaycan dövləti heç vaxt buna razı ola bilməz. Heç vaxt Dağlıq Qarabağ müstəqil olmayacaqdır. Bunu biz də deyirik və beynəlxalq birlik də deyir. Bizim razılığımız olmadan Dağlıq Qarabağ heç vaxt müstəqil ola bilməz. Biz isə buna heç vaxt razılıq verməyəcəyik. Ona görə, danışıqlarda Ermənistan ciddi addımlar atmalıdır. Biz nəyi güzəştə

gedəcəyik?! Nəyi zəbt etmişik ki, güzəştə gedək. Biz heç bir güzəştə getməyəcəyik. Bizim güzəştimiz məsələnin sülh yolu ilə həll edilməsidir, vəssalam.

Onlar addımlar atmalıdırlar, işğal edilmiş torpaqlardan çıxmalıdırlar. Ondan sonra, həm ermənilər, həm də azərbaycanlılar oraya qayıdandan sonra Dağlıq Qarabağa muxtariyyət verilə bilər. Əvvəllər də belə olub, dünyada belə praktika vardır. Biz o təcrübəni burada da tətbiq etməliyik. Soydaşlarımız öz yurdlarına qayıtmalıdırlar. İkinci mərhələdə Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ondan sonrakı mərhələdə Dağlıq Qarabağın statusu həll oluna bilər. Amma bu status necə olacaqdır, onu biz deyəcəyik. Biz isə, qeyd etdiyim kimi, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməsinə razı ola bilmərik. Bax, bizim prinsipial mövqeyimiz bundan ibarətdir. Mən bu danışıqlara bu mövqe ilə gedirəm. Bu mövqeni o vaxta qədər müdafiə edəcəyəm ki, görəcəyəm danışıqlar əhəmiyyətlidir. Əgər danışıqlar bir imitasiya, görüntü yaratmaq üçündürsə, bizə belə danışıqlar lazım deyil. İndi deyirlər ki, gəlin əməkdaşlıq edək. Bəzi məsələdən xəbərsiz olan beynəlxalq dairələr də bizə deyirlər ki, Ermənistan ilə əməkdaşlıq edin. Niyə Azərbaycan əməkdaşlıq etmək istəmir? Mən də deyirəm, gəlin biz sizin torpağınızı zəbt edək, ondan sonra əməkdaşlıq edək. Necə əməkdaşlıq ola bilər? Bir ölkə o biri ölkənin torpağını zəbt edib, insanları evsiz-eşiksiz qoyub, etnik təmizləmə siyasəti aparıb, ondan sonra da deyir ki, gəl, əməkdaşlıq edək. Bu mümkün deyildir. Ona görə də biz imitasiya naminə danışıqları aparmayacağıq.

Bəzilərinə heç maraqlı da deyil ki, bizim insanlarımız hansı vəziyyətdə yaşayırlar. Özü də bir il yox, iki il yox, 20 ilə yaxın. Buna necə dözmək olar?! Bəziləri hesab edir ki, qoy, elə dondurulmuş vəziyyətdə qalsın, təki müharibə olmasın. Bu status-kvo bizi qane edə bilməz. Biz onsuz da böyük güzəşt etmişik ki, atəşkəsdən ötən 15 il ərzində sülh danışıqlarına sadiqik. Bir də 15 il gözləyək? Mümkün deyil. Mən bunu sizin qarşınızda və Azərbaycan xalqının qarşısında deyirəm, məsələ

ilə məşğul olan bütün tərəflər də bunu bilsinlər ki, bizim səbrimiz tükənmək üzrədir. Biz öz hüquqi imkanlarımızdan istifadə edəcəyik.

Əgər Ermənistanda fikirləşirlər ki, Dağlıq Qarabağ məsələsi kənarda qalacaq və onlar başqa bölgədə başqa məsələləri həll edəcəklər, bu, səhv bir fikirdir. Bu olmayacaqdır. Dağlıq Qarabağ məsələsi bölgənin bir nömrəli məsələsidir. Bu məsələ həll olunmadan heç bir başqa məsələ həll oluna bilməz. Biz buna imkan verməyəcəyik.

Mən müxtəlif dövrlərdə Azərbaycanın bu məsələ ilə bağlı mövqeyini bildirmişəm. Əmin ola bilərsiniz ki, mən Azərbaycanın mövqeyini həmişə müdafiə edəcəyəm, Azərbaycanın haqq işini həmişə müdafiə edəcəyəm və biz istədiyimizə nail olacağıq.

Sizi bir daha təbrik edirəm! Sağ olun.

## «Lalə-Tekstil» MMC-nin fəaliyyəti ilə tanışlıq

*Prezident İlham Əliyevin noyabrın 20-də Goranboya səfəri çərçivəsində «Lalə-Tekstil» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) Goranboy filialının fəaliyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu istehsal sahəsi Yevlax «Lalə-Tekstil» MMC-nin filialıdır. Müəssisənin tikintisinə bu ilin əvvəlində başlanılmışdır. Ümumi ərazisi 3,5 hektardır. Burada əsasən yataq dəstləri istehsal olunur. Müəssisənin aylıq istehsal gücü 3000–3500, günlük istehsal gücü isə 500–600 dəstdir. Xammal Türkiyədən alınır. Hazırda məhsullar ölkə daxilində satılmaqla yanaşı, xaricə də ixrac olunur.*

*Müəssisə ikinövbəlidir, hazırda 200 nəfər işlə təmin olunmuşdur. İşçilərin istirahəti diqqətdə saxlanılır, onlar iş vaxtı pulsuz yeməklə təmin olunurlar. Gələcəkdə işçilərin sayının artırılması nəzərdə tutulur. Burada hazır məhsulların saxlanılması üçün anbar da var. Ərazisi 200 kvadratmetr olan sex 24 saat su, işıq və istiliklə təmin edilmişdir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, gələcəkdə MMC-nin yeni istehsal sahəsi işə düşəcəkdir. Bunun sayəsində yeni iş yerləri açılacaqdır.*

## «Goranboy» otelinin açılışı mərasimi

*Noyabrın 20-də «Goranboy» oteli istifadəyə verilmişdir. Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, mehmanxana kompleksinin tikintisinə 2008-ci ilin iyununda başlanılmışdır. İnşaat işləri ən yüksək səviyyədə və qısa müddətdə görülmüşdür. Üçmərtəbəli mehmanxanada 18 nömrə qonaqların ixtiyarına verilmişdir. Mehmanxanada eyni vaxtda 36 qonağın qalması üçün bütün şərait vardır. Otaqların hamısı şəhərin və kompleksin daxili ATS-nə qoşulmuş telefonla, habelə internet bağlantısı olan kompyuterlərlə təmin edilmişdir.*

## «Gilan ənd Knauf Gipso-karton» Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə tanışlıq

*Prezident İlham Əliyev noyabrın 20-də Goranboya səfəri çərçivəsində «Gilan ənd Knauf Gipso-karton» Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, gips-karton istehsalı üzrə Qafqaz regionunda bənzəri olmayan bu müəssisənin fəaliyyətə başlaması 900-dən çox adamın işlə təmin olunmasına şərait yaratmışdır. Müəssisə müxtəlif növ gips-karton lövhələri istehsal etmək imkanına malikdir. Bu materialdan indi inşaatda – binaların daxili üzlənməsində, arakəsmə və asma tavan konstruksiyalarının qurulmasında daha çox istifadə olunur. Ekoloji cəhətdən təmizdir, tərkibində toksik maddələr yoxdur və ətraf mühitə zərərli təsir göstərmir, o cümlədən odadavamlıdır.*

*Daha sonra prezident İlham Əliyev müəssisənin ərazisində yeni kalsid zavodunun açılışında iştirak etdi.*

*Dövlətimizin başçısı zavodu işə salan düyməni basdı, zavodun istehsal etdiyi məhsullarla tanış oldu, kollektivə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ

*21 noyabr 2009-cu il*

*Noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Almaniya Federativ Respublikasının Münhen şəhərinə işgüzar səfərə gəlmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*Münhen*

*22 noyabr 2009-cu il*

*Noyabrın 22-də Fransanın Münhendəki Baş konsulunun iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun və Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyanın, ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkenin (ABŞ), Bernar Fasyenin (Fransa), Yuri Merzlyakovun (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşikin iştirak etdikləri görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına işgüzar səfərini başa çatdıraraq, noyabrın 23-də Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşılamışlar.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirliklərini möhkəm dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Əminəm ki, münasibətlərimizin qorunub saxlanması və hərtərəfli inkişafı üçün bundan sonra da qarşılıqlı səylərimizi davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2009-cu il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİDƏ

Əlahəzrət!

Milli bayramınız – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qardaş xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2009-cu il*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Rumıniya arasındakı ikitərəfli münasibətlər müvəffəqiyyətlə inkişaf etməkdədir. Bu yaxınlarda ölkənizə səfərim zamanı imzaladığımız «Strateji tərəfdaşlıq haqqında» Bəyannamə, eləcə də digər mühüm sənədlər əməkdaşlığımız üçün geniş perspektivlər açır.

Əminəm ki, həyata keçirmək niyyətində olduğumuz yeni iqtisadi layihələr, xüsusən də neft-qaz sahəsində nəzərdə tutduğumuz birgə işlər ölkələrimizin və xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2009-cu il*

## TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tailand arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2009-cu il*

## RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Sergey Narışkinin geniş səfər proqramı çərçivəsində keçirilən mühüm tədbirlərin ölkələrimiz arasında əlaqələrin gələcəkdə də uğurlu inkişafına xidmət edəcəyinə əmin olduğunu bildirdi.*

**S e r g e y N a r ı ş k i n:** Bu gün dolğun və maraqlı bir gün olmuşdur. «Rus kitabı evi»nin açılışı mərasimində iştirak etdim, şərəfli və xoş bir missiyanı həyata keçirdim. Vneştorqbankın Azərbaycandakı filialının açılışında iştirak etdim.

*Prezident İlham Əliyev görülən işlərin əlaqələrimizin müxtəlif istiqamətlərini, o cümlədən humanitar və iqtisadi sahələri əhatə etdiyini, həmçinin müxtəlif dini konfessiya nümayəndələri arasında əməkdaşlığın daha da möhkəmlənməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. Dövlətimizin başçısı bu baxımdan Rusiya Federasiyasının ən iri banklarından olan Vneştorqbankın filialının açılmasının önəmini qeyd etdi və bunun müxtəlif birgə iqtisadi layihələrin həyata keçirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı bundan sonra da Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin çoxşaxəli və uğurla inkişaf edəcəyini bildirdi.*

## ABŞ MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM SELEST VALLANDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də ABŞ Müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya məsələləri üzrə müşaviri xanım Selest Vallanderin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri, habelə bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*24 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin dəvəti ilə noyabrın 24-də Rusiyanın Ulyanovsk şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidenti Dmitri Medvedevin dəvəti ilə noyabrın 24-də Ulyanovsk şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Ulyanovskın «Vostok» Beynəlxalq Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevi Rusiya prezidenti Dmitri Medvedev qarşıladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

*Ulyanovsk*

*24 noyabr 2009-cu il*

*Noyabrın 24-də Ulyanovskda Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.*

**D m i t r i  M e d v e d e v:** Hörmətli İlham Heydər oğlu!

Sizi bir daha salamlamaq istəyirəm. Az qala deyəcəkdim Moskvada. Amma biz Moskvada deyilik, Sizinlə bərabər bizim mərkəzlərin birində – Ulyanovskdayıq. Bu məkan bir tərəfdən, ənənəvi Rusiya məkanıdır, digər tərəfdən də Heydər Əliyevin fəaliyyəti ilə görünməz tellərlə bağlıdır.

Bir az öncə Sizinlə bərabər iki tədbirdə iştirak etdik. Heydər Əliyevin adı, onun xatirəsi Ulyanovsk şəhərinin, Ulyanovsk vilayətinin sakinləri üçün çox dəyərlidir. O cümlədən təməli 25 il əvvəl qoyulmuş, lakin müxtəlif səbəblər üzündən tikintisi çox uzanmış körpünün açılışında olduq. Çox sağ olun ki, gəldiniz, körpünün açılışında iştirak etdiniz. Heydər Əliyevin adını daşıyan meydan və onun abidəsi – bunlar bizim dostluğumuzun rəmzləridir. İndicə biz Sizinlə bu barədə danışırdıq. Bunlar postsovet məkanında dövlətlərin münasibətlərini necə qurmaq lazım olmasının rəmzləridir. Ulyanovsk böyük şəhərdir, bunu Sizinlə bərabər yəqin etdik. Sağ olun ki, gəlmisiniz. Sizinlə təqdimat tədbirlərindən əlavə, söhbətlər üçün daha bir ayrıca gündəlik vardır. Sizi bir daha salamlayıram.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, Dmitri Anatolyeviç. Məni Ulyanovska dəvət etdiyinizə görə, bugünkü günə görə sağ

olun. Şübhəsiz, bu gün ölkələrimiz arasında münasibətlərin tarixinə daxil olacaqdır. Çünki bu gün biz həm Ulyanovsk sakinlərinə, həm də bizim vətəndaşlara çox əziz olan tədbirlərdə birgə iştirak etmişik.

Sovet dövlətinin inkişafının Heydər Əliyevin adı ilə bağlı səhifələri çoxdur. O, hökumət sədrinin müavini olduğu dövrdə dəfələrlə buraya gəlmişdir. Həm xoş günlərdə, həm də ağır günlərdə O həmişə xalqın yanında idi. Burada onun xatirəsini əziz tuturlar. Mən bunu bu gün bu şəhərin vətəndaşları ilə, sakinlərlə ünsiyyət zamanı gördüm. Bu bizim həm münasibətlərimizin, həm də inkişafın səviyyəsinin göstəricisidir. Mənə çox xoşdur ki, bu münasibətlər olduqca dinamik, səmərəli inkişaf edir. Biz həm rəsmi səfərlər çərçivəsində, həm də bu cür qısa, lakin mahiyyətcə heç də az məhsuldar olmayan işgüzar səfərlərin gedişində tez-tez görüşürük. Fikrimcə, bu gün biz ikitərəfli münasibətlərə, regional inkişafa dair bütün mühüm məsələləri, ölkələrimizin gələcək münasibətləri ilə bağlı məsələləri müzakirə edəcəyik. Ümidvaram ki, bizim tərəfdaşlıq, mehriban qonşuluq, dostluq əlaqələri kimi səciyyələndirdiyimiz bu əlaqələrin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi yollarını müəyyən edəcəyik. Bu gün şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə dediyim kimi, əgər bütün qonşular arasında münasibətlər bu cür olsaydı, dünyada problemlər olmazdı. Ümid edirəm ki, bu gün də səmərəli işləyəcək və irəliyə doğru gedəcəyik. Dəvət üçün bir daha sağ olun.

## VOLQA ÇAYI ÜZƏRİNDƏ YENİ KÖRPÜ-KEÇİDİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*24 noyabr 2009-cu il*

*Noyabrın 24-də Ulyanovskda işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Dmitri Medvedev Volqa çayı üzərində körpü-keçidin birinci hissəsinin – ikiyaruslu yeni körpünün təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Körpü «2002–2010-cu illər üçün Rusiyanın nəqliyyat sisteminin modernləşdirilməsi» məqsədli federal proqramına daxil edilmişdir və Rusiyanın Avropa hissəsini Ural, Sibir və Uzaq Şərqlə birləşdirən nəqliyyat dəhlizinin mühüm qovşağıdır. Tikintisi keçən əsrin 80-ci illərindən aparılan bu körpünün inşası barədə qərar o vaxt SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olan Heydər Əliyevin bilavasitə iştirakı ilə qəbul edilmişdir.*

*Mərasimə toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Prezidentlər mərasimdə çıxış etdilər.*

### Rusiya prezidenti Dmitri Medvedevin çıxışı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar! Biz bu günü çoxdan gözləyirdik. Tikinti işləri çox çəkmişdir. Bu işə ötən əsrin 80-ci illərinin əvvəlində başlanılmışdı. Bu barədə qərar qəbul edilməsi o vaxt hökumətin – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmiş Heydər Əlirza oğlu Əliyev ilə bilavasitə bağlı idi. Əslində bu tikinti 20 il ərzində müxtəlif dərəcədə uğurla davam etmişdir. Əsas odur ki, biz qüvvələrimizi cəmləşdirməyə nail olduq və bu gün

burada iştirak edənlərin hamısı olduqca xoş bir hadisənin – yeni körpünün istifadəyə verilməsinin şahidləridir.

Bu körpü ucsuz-bucaqsız ölkəmizin hissələrini – Avropanı, Uralı və Sibiri birləşdirir. Bir az öncə biz İlham Heydər oğlu ilə bu körpüdən keçdik. Biz maşınla gedirdik, söhbət edirdik, körpü isə hey uzanırdı. Mən ölkəmiz üçün çox gərəkli olan bu nadir və mürəkkəb obyektin inşasında iştirak edənlərin hamısına səmimi təşəkkürümü bildirmək istəyirəm. Mən burada iştirak edən, bu obyektin başa çatmasına və istifadəyə verilməsinə qüvvə sərf etmiş, can qoymuş inşaatçılara təşəkkür etmək istəyirəm. Müvafiq qərarlar qəbul edilməsində iştirak edənlərin hamısına, burada iştirak edən veteranlarımıza təşəkkür etmək istəyirəm.

Mən bu körpünün yaradılmasında aidiyyəti olan Heydər Əliyevi xatırlatmaq istərdim. Çox şadam ki, İlham Heydər oğlu burada iştirak edir. Heydər Əliyevin iştirakı barədə xatirə burada ehtiramla qorunub saxlanılır. Ulyanovsk şəhərində Heydər Əliyevin adını daşıyan meydan vardır. Bu gün biz həmin meydana gedib, Heydər Əliyevin abidəsini ziyarət edəcəyik.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Dmitri Anatolyeviç!

Əziz dostlar!

Dmitri Anatolyeviç, məni Ulyanovskda bu möhtəşəm körpünün açılışında iştirak etməyə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu həqiqətən möhtəşəm memarlıq və nəqliyyat qurğusudur. Avropa qitəsində onun analoqu yoxdur. Mən Azərbaycan prezidenti kimi, 1984-cü ildə bu körpünün tikilməsi haqqında qərar qəbul edilməsində iştirak etmiş Heydər Əliyevin oğlu kimi, burada iştirak etməkdən çox məmnun oldum.

Heydər Əliyev dəfələrlə Ulyanovska gəlmiş, həm xoş, həm də Ulyanovsk üçün faciəli günlərdə xalq ilə birlikdə olmuş, Volqada dəhşətli qəzanın nəticələrinin aradan qaldırılması üzrə

komissiyaya başçılıq etmişdir. Çox xoşdur ki, Ulyanovskda həmin işləri unutmurlar. Heydər Əliyev Moskvada işləyəndə də, Azərbaycan prezidenti olanda da çalışırdı ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı anlaşma, dostluq, qarşılıqlı dəstək və əməkdaşlıq olsun.

Bu gün ölkələrimiz arasında qarşılıqlı əlaqələr uğurla inkişaf edir, bizim aramızda çox sıx münasibətlər yaranmışdır, prezidentlər səviyyəsində tez-tez əlaqə saxlayırıq. Biz bu münasibətləri strateji tərəfdaşların, mehriban qonşuların, dostların münasibətləri kimi səciyyələndiririk. Bugünkü görüş və Ulyanovska dəvət də bunu təsdiq edir.

Dmitri Anatolyeviç mənə zəng vuranda məni bu tədbirə dəvət edəcəyini güman etmirdim. Bu, olduqca dəyərli dəvətdir, çox mütəəssir oldum. Bu məhz xalqlarımız arasında, ölkələrimiz arasında münasibətlərin ruhuna uyğundur.

Sizə onu da deyim ki, sözün hərfi mənasında dünən Bakıda «Rus kitabı evi» açılmışdır. Tədbir çox təntənəli şəraitdə keçdi. Bakıda, həmçinin Vneştorqbankın filialı açılmışdır. Beləliklə, dünən bizim ölkələrin iqtisadi və mənəvi həyatında iki mühüm hadisə baş vermişdir.

Bu möhtəşəm hadisə münasibətilə Ulyanovsk şəhərinin bütün sakinlərini, bütün rusiyalıları təbrik edirəm. Sizin hamınıza sülh və firavanlıq arzu edirəm!

## ULYANOVSKDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MEYDANININ AÇILIŞI MƏRASİMİ

*24 noyabr 2009-cu il*

*Noyabrın 24-də Ulyanovsk şəhərinin mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan meydanın açılışı mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev mərasimdə iştirak etmişlər.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Sovet İttifaqında ali rəhbər vəzifədə işləyərkən bu şəhərin inkişafı ilə bağlı mühüm qərarların qəbul edilməsində bilavasitə iştirak etmişdir. Şəhər sakinləri dünya şöhrətli siyasi xadimin xatirəsini daim əziz tuturlar. Buna görə də Ulyanovskın mərkəzi meydanlarından birinə Heydər Əliyevin adı verilmişdir. Meydanda ulu öndərin əzəmətli heykəli ucaldılmışdır.*

*Mərasimə toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Prezidentlər ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular, xatirəsinə ehtiramlarını bildirdilər.*

*Sonra prezidentlər İlham Əliyev və Dmitri Medvedev Ulyanovskda yaşayan Azərbaycan diasporunun nümayəndələri ilə görüşüb söhbət etdilər.*

**Diaspor nümayəndəsi:** Cənab Prezident, Sizi Ulyanovsk torpağında salamlamağa şadıq! Xoş gəlmisiniz! Biz bu abidəni keçən il ucaltmışıq. Bu, Rusiya ilə Azərbaycan arasında dostluğun rəmzidir. Bu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə və həyata keçirilən milli siyasətə böyük ehtiramın əlamətidir. Biz Ulyanovsk vilayətinin

qubernatoru Sergey İvanoviç Morozovun köməyi sayəsində belə bir gözəl abidə yaratmış, Azərbaycan Tarixi və Mədəniyyəti Muzeyi açmışıq. Muzeyin ayrıca bir stendi Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmişdir.

**Dmitri Medvedev:** Muzey haradadır?

**Diasporun nümayəndəsi:** 78 nömrəli məktəbdə, bura yaxındır, 200 metr aralıda yerləşir. Orada bazar günü məktəbi, yaradıcılıq dərnəkləri də vardır, folklor qrupları məşğələ keçirlər. Uşaqlar milli mədəniyyəti, bədii tikmə sənətinin, metal üzərində naqqaşlığın sirlərini öyrənirlər. Bizim hələ futbol komandamız da vardır – «Neftçi» adlanır.

**Dmitri Medvedev:** Burada neft var?

**Diasporun nümayəndəsi:** Taparlar. Bu torpağın hər qarışında həmvətənlərimizin əməyi vardır. Buradakı ağacları da həmyerlilərimiz və yerli fəhlələr əkiblər. Bu, azərbaycanlılara bəslənilən dostluq, mehriban qonşuluq münasibətlərinin parlaq nümunəsidir.

**İlham Əliyev:** Sağ olun. Mən çox şadam ki, siz burada yaxşı, mehriban yaşayırsınız, şəhərin, vilayətin həyatında fəal iştirak edirsiniz. İnsanın öz xalqını, mədəniyyətini, tarixi xadimlərini xatırlaması, yaşadığı ölkənin yaxşı, vicdanlı vətəndaşı olması çox vacibdir. Çox şadam ki, azərbaycanlılar burada yaxşı yaşayırlar, siz burada çox əhəmiyyətli dəyərlər yaradırsınız. Heydər Əliyevin xatirəsinə bu cür münasibətə görə vilayətin, şəhərin rəhbərlərinə təşəkkür etmək istəyirəm. Məni hər bir azərbaycanlı üçün çox əhəmiyyətli olan bu mərasimə dəvət etdiyinə və özü də həmin mərasimdə iştirak etdiyinə görə Rusiya Prezidentinə təşəkkür etmək istəyirəm. Mən burada özümü evimdə olduğu kimi hiss edirəm. Sizi gördüm, bu şəraiti gördüm. Bu, həqiqətən Rusiya–Azərbaycan dostluğu günüdür. Sağ olun və gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

**Dmitri Medvedev:** Bu bizim dostluğumuzun, birlikdə yaşamağımızın rəmzidir, Rusiyanın inkişafına azərbaycanlıların verdiyi töhfənin rəmzidir. Bizim birlikdə yeni dövlət qurmağımızın əlamətdar göstəricisidir, Rusiyada yaşayan

azərbaycanlıların tarixi köklərini yadda saxlamalarının, liderlərini yadda saxlamalarının rəmzidir. Heydər Əliyev bizim birlikdə yaşadığımız dövlətdə işləmiş və vaxtkı ortaq dövlətimizin inkişafı üçün olduqca çox iş görmüşdür. Bu gün biz 20 il müddətində yaradılmış, o vaxt SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini olmuş Heydər Əlirza oğlu Əliyevin fəal iştirakı ilə yaradılmış körpünü açdıq. Bunlar keçmişin və bu günün əlamətdar səhifələridir.

**İ l h a m Ə l i y e v:** Azərbaycanda da rus icması mehriban yaşayır. Onlar Azərbaycanın layiqli vətəndaşlarıdır, ölkəmizin inkişafına çox böyük töhfə verirlər. Onlar əsrlər boyu Azərbaycanda yaşayırlar. Bu yaxınlarda mən rus vətəndaşlarımızın yaşadığı böyük bir kənddə – İvanovka kəndində olmuşam.

**D m i t r i M e d v e d e v:** Kəndin adı da müvafiqdir.

**İ l h a m Ə l i y e v:** Həmin kənddə Heydər Əliyev də olmuşdur, mən də dəfələrlə orada olmuşam, adamlarla ünsiyyət saxlamışam. Orada məhsul bayramı idi. Bu da bizim xalqlarımız arasında dostluq bayramıdır. Buna görə də insanlar arasında münasibətlər və başqa millətdən olan insanlara münasibət dövlətlərimizi birləşdirən amildir. Bizim dövlətlərin gücü bundadır.

## Ulyanovskda Nəriman Nərimanovun abidəsini ziyarət

*Rusiya prezidenti Dmitri Medvedevin dəvəti ilə Ulyanovskda işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev noyabrın 24-də Nəriman Nərimanovun abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev Ulyanovskda yaşayan soydaşlarımızla görüşüb, onlarla söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Mənə verilən məlumata görə, Ulyanovsk vilayətində 20 minə qədər azərbaycanlı yaşayır. Bu, böyük icmadır. Bildiyimə görə, yaxşı da yaşayırsınız və Azərbaycanı təbliğ edirsiniz. Rusiya–Azərbaycan münasibətlərinin inkişafı üçün öz səylərinizi göstərirsiniz. Bu gün də

hamımız üçün çox əlamətdar bir gündür. Ulu öndər Heydər Əliyevin adını daşıyan meydan açılıb. Rusiya prezidenti və mən bu tədbirlərdə iştirak etmişik. Bu, Rusiya–Azərbaycan münasibətlərinin inkişafına çox dəyərli töhfədir. Burada yaşayan azərbaycanlılar üçün də əlamətdar hadisədir. Arzu edirəm ki, siz burada həmişə yaxşı yaşayasınız, Azərbaycan haqqında həmişə düşünəsiniz, əlaqələri heç vaxt itirməyəsiniz. Bilməlisiniz ki, Azərbaycan dövləti həmişə sizin arxanızdadır. Siz də burada, Rusiyada Azərbaycanı təmsil edirsiniz. Sizin buradakı fəaliyyətinizdən, əlbəttə ki, Azərbaycan haqqında mühüm fikir formalaşacaqdır.

## «Rusiya Federasiyası nəqliyyat kompleksinin innovasiya inkişafı» sərgisi ilə tanışlıq

*Noyabrın 24-də Volqa çayı üzərində körpü-keçidin açılışından sonra Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Dmitri Medvedev Ulyanovskda «Rusiya Federasiyası nəqliyyat kompleksinin innovasiya inkişafı» mövzusunda sərgi ilə tanış olmuşlar.*

*Prezidentlər İlham Əliyev və Dmitri Medvedevə Rusiyanın nəqliyyat sisteminin müasir tələblərə uyğun inkişafına xidmət edəcək innovasiya layihələri nümayiş etdirilmişdir.*

*Sərgidə sürücülərin iş zamanı əmək və istirahətinə nəzarət terminalı, yüksəksürətli qatarların maketləri, qaz-turbin güc qurğulu lokomotivlər, qatarların avtomatlaşdırılmış idarəetmə sistemi və sair layihələrə yer verilmişdir.*

*Prezidentlərə Qlonass texnologiyasına əsaslanan intellektual nəqliyyat sistemi layihəsi də göstərilmişdir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Ulyanovsk şəhərinə işgüzar səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.*

*Ulyanovsk şəhərinin «Vostok» Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Ulyanovsk vilayətinin yüksək vəzifəli hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtmışdır.*

*Prezident İlham Əliyevi Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «AQO» MONİTORİNQ QRUPUNUN SƏDRİ, RUMINİYANIN AVROPA ŞURASI YANINDA DAİMİ NÜMAYƏNDƏSİ STELİAN STOYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də «Aqo» monitorinq qrupunun sədri, Rumıniyanın Avropa Şurası yanında daimi nümayəndəsi Stelian Stoyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Stelian Stoyan monitorinq qrupu üzvlərinin ölkəmizə zəngin səfər proqramının həyata keçirilməsinə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Prezident İlham Əliyevin Avropa Şurasındakı məhsuldar fəaliyyətini xatırladan qonaq təmsil etdiyi təşkilatın Azərbaycana yaxın münasibət bəslədiyini bildirdi. Avropa Şurasının növbəti illər üçün də Azərbaycanla əməkdaşlığının intensivləşdirilməsi imkanlarını araşdırmağı zəruri hesab etdiyini bildirən Stelian Stoyan Avropa Şurasına üzv olan ölkələrin bir-birilərinə dəstək vermələrinin vacibliyini qeyd etdi.*

*«Aqo» monitorinq qrupunun Azərbaycana geniş proqramla səfər etməsinin önəmini qeyd edən prezident İlham Əliyev bildirdi ki, bu səfər ölkəmizlə yaxından tanış olmaq, insanlarla görüşüb müxtəlif fikirlər eşitmək, Azərbaycan haqqında həqiqətləri daha dolğun şəkildə öyrənmək üçün yaxşı imkan yaradır.*

## POLŞANIN MİLLİ MÜDAFİƏ NAZİRİ BOQDAN KLİXİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Polşanın Milli Müdafiə naziri Boqdan Klixin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Polşa arasında münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin intensiv və məhsuldar olduğunu qeyd edən prezident İlham Əliyev bildirdi ki, hər iki tərəf ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə genişləndirilməsində maraqlıdır. Prezident İlham Əliyev Polşanın Milli Müdafiə naziri Boqdan Klixin Azərbaycana səfərinin ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Polşanın Milli Müdafiə naziri Boqdan Klix Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi işinə töhfə vermək üçün yaxşı fürsət yaratdığını dedi və ölkəmizdə olduğu müddətdə məhsuldar görüşlər keçirəcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə, qardaşlıq və humanizmə dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın və dözümlülük mühitinin formalaşmasında islam dininin də müstəsna rolu olmuşdur.

Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il respublikamızda böyük təntənə ilə qeyd olunur. Ölkəmizin hər yerində qurbanlar kəsilir, xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu müqəddəs bayram günlərində bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2009-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞAMAXI RAYONUNA SƏFƏRİ

*26 noyabr 2009-cu il*

*Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonuna gəlmişdir.*

*Prezident İlham Əliyev rayon mərkəzində Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

### Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxıda Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, ərazisi əvvəllər 0,4 hektar olan parkın ətrafındakı yararsız tikililərin sökülməsi hesabına onun sahəsi 4,5 hektara çatdırılmış, ulu öndərin abidəsi bu istirahət mərkəzinin ərazisinə köçürülmüşdür. Parkda 5 fəvvarə, 270 yerlik yay konsert meydançası, kafe, uşaq əyləncə mərkəzi, istirahət köşkləri yaradılmışdır.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Noyabrın 26-da Şamaxıda Heydər Əliyev Mərkəzi açılmışdır. Mərasimdə prezident İlham Əliyev iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, Heydər Əliyev parkının ərazisində yerləşən Mərkəzin 2007-ci il mayın 10-da başlanılmış tikintisi 2008-ci ilin*

*sentyabrında başa çatdırılmışdır. Üçmərtəbəli binanın ümumi sahəsi 1200 kvadratmetrdir. Mərkəzdə multimedia, xalq yaradıcılığı, rəsm dərnəkləri, elektron kitabxana, kompyuter mərkəzi və digər bölmələr yerləşir.*

*Konfrans zalında ulu öndərin keçən əsrin 70–80-ci illərindəki fəaliyyətini və onun Şamaxı rayonuna səfərlərini əks etdirən fotoguşə vardır. 45 nəfərlik kino zalında ümummilli liderin Azərbaycanın müstəqillik illərindəki fəaliyyətini əks etdirən fotoşəkillər və filmlər nümayiş etdirilir. Açıq zalın bir hissəsində ulu öndərin fəaliyyətinin Moskva və Naxçıvan dövrlərini əks etdirən fotoşəkillər asılmış, digər hissədə isə «Heydər Əliyev dünyanın gözü ilə» guşəsi yaradılmışdır. Mərkəzdə ümummilli liderin həyat və fəaliyyətini əks etdirən sənədlər də nümayiş etdirilir. .*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı.*

## Bakı – Şamaxı avtomobil yolunun yenidənqurmadan sonra açılışı mərasimi

*Noyabrın 26-da Azərbaycan prezidenti İlham Əliyev yenidən qurulmuş Bakı–Şamaxı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*İnşaatçılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Dövlətimizin başçısı yolun açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, Bakı–Şamaxı avtomobil yolunun yenidən qurulması layihəsi Azərbaycan hökuməti ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında imzalanan «Azərbaycan magistral avtomobil yolu-2» layihəsi üzrə sazişə uyğun həyata keçirilmişdir. Ölkəmizin əsas magistrallarından biri olan bu yol ən müasir texnologiya əsasında qurulmuşdur. Yolun ümumi eni 15–17 metrə, bəzi yerlərdə 22 metrə çatır. Yolun hərəkət hissəsi iki, bəzi yerlərdə isə dördzolaqlıdır. Yola 314 min 952 ton iridənəli asfalt-beton örtük döşənmişdir.*

*Dövlətimizin başçısı inşaatçıları salamladı.*

**İ l h a m Ə l i y e v:** Ən başlıca amil keyfiyyətdir. Bu yol da çox keyfiyyətli salınıb. Azərbaycanda bütün yollar bu səviyyədə olmalıdır. Yolun tikilməsi və istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm, burada göstərdiyiniz xidmətlərə görə sizə minnətdaram. Bu, gözəl bir nəqliyyat infrastrukturudur. Hamımız yaxşı xatırlayırıq ki, əvvəlki yolun vəziyyəti çox bərbad idi. İnsanlar əziyyət çəkirdilər. Bu gün isə Bakı–Şamaxı yolu dünyanın ən yüksək standartlarına cavab verir. Bu həm müasirlikdir, həm inkişafdır, həm də insanlar üçün rahatlıqdır. Nəzərə alsaq ki, gələcəkdə bu yolun tikintisi Azərbaycanın dövlət sərhədinə qədər davam edəcək, hələ işlər çoxdur.

Bu yolun tikintisində həm xarici şirkətlər, həm yerli sub-podrat şirkət işləyib, beynəlxalq maliyyə qurumları tərəfindən ayrılan vəsaitdən də istifadə olunubdur. Yəni bu, beynəlxalq əməkdaşlıq nümunəsidir. Azərbaycanda həm beynəlxalq maliyyə dəstəyi, həm öz resurslarımız hesabına müxtəlif yol layihələri icra edilibdir.

Növbəti ildə yol infrastrukturunun inkişafı üçün əlavə vəsait nəzərdə tutulub. Çox iş görülüb və çox iş də görülməlidir. Tez-tez Azərbaycanda yeni yol marşrutu istifadəyə verilir. Keçən həftə Yevlax–Ucar yolunun istifadəyə verilməsində iştirak etmişik. Bu gün Bakı–Şamaxı. Növbəti aylarda və illərdə ölkəmizin digər yollarını da belə gözəl keyfiyyətlə istifadəyə verəcəyik.

Sizi bir daha bu hadisə münasibətilə təbrik edirəm. Eyni zamanda, sizi Qurban bayramı münasibətilə də təbrik edirəm və uğurlar arzulayıram! Sağ olun!

## Şamaxı Astrofizika Rəsədxanasında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxı Astrofizika Rəsədxanasında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası 1959-cu ildə Azərbaycanın tanınmış alimləri Həsən Əliyevin və Yusif Məmmədəliyevin təşəbbüsü ilə yaradılmışdır. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən rəsədxana çətin müşahidə edilən cənub səmasının öyrənilməsində üstünlüklərə malikdir. Rəsədxanada inzibati bina, 6 teleskop, 40 mənzilli beşmərtəbəli bir, ikimərtəbəli beş yaşayış binası, 4 kottec və mehmanxana vardır. Uzun illər təmir olunmadığından rəsədxanada tikililər yararsız vəziyyətə düşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyevin 2008-ci il 5 sentyabr tarixli Sərəncamı ilə Şamaxı Astrofizika Rəsədxanasının maddi-texniki bazasının gücləndirilməsi və burada əsaslı təmir-tikinti işlərinin aparılması üçün prezidentin ehtiyat fondundan 5 milyon manat, 2009-cu il 21 iyul tarixli sərəncami ilə 3 milyon manat vəsait ayrılmışdır. Hazırda burada işlər sürətlə davam etdirilir.*

*Rəsədxananın planı ilə tanış olan dövlətimizin başçısı yenidənqurma və təmir işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Fondu tərəfindən bərpası nəzərdə tutulan Cümə məscidi ilə tanışlıq

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxıda Heydər Əliyev Fondu tərəfindən bərpası nəzərdə tutulan Cümə məscidi ilə tanış olmuşdur.*

*Məscidin yenidən qurulması layihəsi ilə tanış olan dövlətimizin başçısına məlumat verilmişdir ki, Cənubi Qafqazda ikinci qədim dini mərkəz olan Cümə məscidi 743-cü ildə tikilmişdir. 1859-cu ildə baş vermiş dəhşətli zəlzələ nəticəsində dağılan məscid sonradan bərpa edilmişdir. 1902-ci il zəlzələsində də Cümə məscidinə ciddi ziyan dəymişdir. Bu zəlzələdən sonra məscid Şamaxıdan olan Azərbaycanın ilk ali təhsilli*

*memarı Zivər bəy Əhmədbəyovun və polşalı mühəndis İosif Ploşkonun layihəsi əsasında yenidən bərpa edilmişdir.*

*Cümə məscidi, həmçinin 1918-ci ildə erməni daşnaklarının Şamaxıda törətdikləri qırğının şahididir. O vaxt daşnaklar 1800 nəfər yerli sakini – uşaqları, qadınları, qocaları zorla bu məscidə dolduraraq diri-diri yandırmışlar. Yanğının izləri məscidin divarlarında bu gün də durur.*

*Sovet dövründə cüzi təmir işləri aparılmasına baxmayaraq, Azərbaycanda ən qədim ibadət yeri sayılan Şamaxı Cümə məscidi bərbad vəziyyətdədir. Hazırda Heydər Əliyev Fondunun «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində məscidin yenidən qurulması nəzərdə tutulmuşdur.*

*Ümumi sahəsi 0,8 hektar olan məscidin ibadət yeri 1316 kvadratmetrdir.*

*Prezident İlham Əliyev məscidin binası ilə tanış oldu.*

## Müalicə-Diaqnostika Mərkəzinin açılışı

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxıda Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərkəzin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev kollektivi və ictimaiyyətin nümayəndələrini Mərkəzin açılışı münasibətilə təbrik etdi.*

**İlham Əliyev:** Bu gün Şamaxıda diaqnostika mərkəzinin açılışı və Qurban bayramı münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm, cansağlığı, xoşbəxtlik arzulayıram.

Bu gün səhər Bakı–Şamaxı yolunun açılışında iştirak etdim. Çox gözəl, keyfiyyətli yoldur. Bakı ilə Şamaxı arasında məsafə o qədər də böyük deyil, yeni yol bu məsafəni bir az da yaxınlaşdıracaq.

Şamaxı üçün çox vacib olan Müalicə-Diaqnostika Mərkəzinin açılışında bərabər iştirak edirik. Bu, müasir standartlara cavab verən tibbi mərkəzdir. Həm müayinədən keçmək, həm müalicə almaq – bunlar artıq Azərbaycanın reallıqlarıdır. Ən

müasir avadanlıqlar quraşdırılıb, ən gözəl imkanlar vardır. Arzu edirəm ki, rayonun hər bir sakini ildə bir dəfə gəlib burada müayinədən keçsin. Nəzərə alsaq ki, burada tibbi xidmət pulsuzdur, hər bir vətəndaş ildə bir dəfə həkim məsləhətinə qulaq asmalıdır. Əgər hər hansı bir xəstəlik varsa, bu gözəl imkanlardan istifadə edib xəstəliyi aradan qaldırmalıdır.

Şamaxı Azərbaycanın gözəl bölgələrindən, rayonlarından biridir, çox böyük potensialı vardır. İndi Bakı–Şamaxı yolunun istifadəyə verilməsindən, belə gözəl obyektlərin tikilməsindən sonra, əlbəttə ki, Şamaxıya gələnlərin sayı daha da artacaqdır. Biz gərək rayonun turizm imkanlarından səmərəli istifadə edək. Burada gözəl təbii şərait vardır. Bir müddət əvvəl olimpiya kompleksinin açılışında iştirak etdik, bu gün Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilir. Şamaxı rəsədxanası təmir edilir. Prezidentin ehtiyat fondundan rəsədxananın təmirinə böyük məbləğdə vəsait ayrılıbdır. Həm elmi məqsədlər, həm də turizm məqsədləri üçün rəsədxanadan səmərəli istifadə edəcəyik.

Bu gün ölkədə yeni sənaye müəssisələrinin istifadəyə verilməsini qeyd edirik, həmçinin Şamaxıda. O müəssisələr ki, hazır məhsul istehsal edir, məişət avadanlığı istehsal olunur. Əvvəllər biz bunu heç təsəvvür edə bilməzdik ki, Azərbaycanda müasir avadanlıq, məişət avadanlığı istehsal olunacaqdır.

Mən Şamaxıda əvvəllər də dəfələrlə olmuşam, prezident kimi də bir neçə dəfə gəlmişəm. Hər gəlişimdə burada yenilik, gözəllik, abadlıq görəndə çox sevinirəm. Bu gün də proqramım böyükdür, çoxlu obyektlər istifadəyə veriləcək. Bunlar iqtisadi sənaye və sosial xarakterli obyektlərdir. Son 5 ildə 14 məktəb tikilibdir. Yəni sosial infrastruktur da güclənir. Mənə verilən məlumata görə, 2004–2008-ci illərdə istehsal olunan məhsulun həcmi 5 dəfə artıb. Azərbaycan üzrə 2,6 dəfə, Şamaxı üzrə 5 dəfə. Bu, ən gözəl nümunədir, ən gözəl göstəricidir. Burada neft hasil olunmur ki, deyək neftin qiyməti qalxdı, istehsal artdı. Artım ancaq insanların zəhməti, düzgün siyasət, görülən işlər və belə gözəl ocaqların yaradılması, kənd təsərrüfatının inkişafı

hesabınadır. Kənd təsərrüfatının inkişafı üçün də böyük səylər göstərilir və istehsal ildən-ilə artır. Fermerlərə, sahibkarlara dəstək göstərilir. Yollar salınır, elektrik stansiyaları, xəstəxanalar, idman qurğuları tikilir – hamısını sadalamaq üçün çox vaxt lazımdır.

Biz elə etməliyik ki, Azərbaycanın uzunmüddətli inkişafını təmin edək. Bunu etmək üçün də hər bir şərait vardır. Hətta ən ağır, bəlkə son 100 il ərzində dünya üçün ən ağır il olan 2009-cu ildə də Azərbaycan inkişafdadır. İqtisadiyyat artır, sənaye istehsalı artır, bütün sosial proqramlar icra olunur.

Əlbəttə ki, böhran bizə də təsir etdi. Buna baxmayaraq bizdə bütün sosial obyektlər vaxtında istifadəyə verilir. Bu gözəl xəstəxana, Bakı–Şamaxı yolu böyük keyfiyyətlə istifadəyə verilib. Növbəti illərdə Şamaxı rayonunun hərtərəfli inkişafı üçün nə lazımsa onu da edəcəyik. 2009–2013-cü illər üzrə Dövlət Proqramı artıq icra olunur. Proqramda rayonun bütün ehtiyacları nəzərdə tutulub və onlar hamısı təmin ediləcəkdir.

Sizi bu gözəl Mərkəzin açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, xəstələnməyəsiniz, şamaxılılar fiziki cəhətdən çox sağlam insanlardır. Burada həm təbiət, həm gözəl hava vardır. Ancaq işdir əgər bir xəstəlik olsa, burada müalicə üçün də şərait vardır.

* * *

*Sonra dövlətimizin başçısı səhiyyə ocağının açılışını bildirən lenti kəsdi və Mərkəzlə yaxından tanış oldu.*

*Təməli 2007-ci il martın 1-də prezident İlham Əliyev tərəfindən qoyulmuş və sahəsi 1,5 hektar olan Mərkəzin inşaat işləri bu ilin oktyabrında başa çatdırılmışdır. Üçmərtəbəli binada qəbul, inzibati, funksional diaqnostika, dializ, stasionar, əməliyyat, reanimasiya, kompyuter tomoqrafiya və rentgen şöbələri fəaliyyət göstərir. Birinci mərtəbədə 60, ikinci*

*mərtəbədə 51, üçüncü mərtəbədə 30 otaq yerləşir. Burada quraşdırılan avadanlıqlar xaricdən gətirilmişdir.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin səhiyyənin inkişafına diqqət və qayğısını əks etdirən fotoguşələr yaradılmışdır.*

## «Azərelektronika» məişət cihazları zavodu ilə tanışlıq

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxıda «Azərelektronika» məişət cihazları istehsalı zavodunun açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev düyməni basaraq müəssisəni işə saldı, istehsal prosesini izlədi.*

*Məlumat verildi ki, 13 hektar sahəni əhatə edən zavodun inşasına 2005-ci ildə başlanılmış, tikinti işləri 2008-ci ilin mayında başa çatdırılmışdır. İstehsal sahəsi 20 min kvadratmetr olan zavodda kondisioner sexi fəaliyyət göstərir. Burada ilkin mərhələdə 250 nəfər işlə təmin olunmuşdur. Zavodun istehsal gücü ildə 600 min kondisionerdir. Gələcəkdə müəssisədə soyuducu, tozsoran və digər məişət avadanlığı sexlərinin yaradılması nəzərdə tutulur. Həmin sahələr istifadəyə verildikdən sonra zavodda 1000 nəfər işlə təmin olunacaqdır. Burada Türkiyədən, Malayziyadan, İrandan gətirilən xammaldan, habelə yerli materiallardan istifadə olunacaqdır. Zavodda boya, polifon, plastik kütlə əridən sexlər, 250 tonluq 6 hidravlik pres də quraşdırılmışdır.*

*Prezident İlham Əliyev müəssisədə istehsal olunmuş məhsullara baxdı, zavodun inzibati binası ilə tanış oldu.*

## Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmirdən sonra açılışı mərasimi

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxıya səfəri çərçivəsində Seyid Əzim Şirvani adına Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur.*

*Əsası 1945-ci ildə qoyulmuş muzeyin yenidən qurulmasına 2008-ci ilin avqustunda başlanılmış və cari ilin sentyabrında başa çatdırılmışdır. İkimərtəbəli muzeyin ümumi sahəsi 1097 kvadratmetr, ekspozisiya zalının sahəsi isə 325 kvadratmetrdir. Burada yaradılmış 7 bölmədə Şamaxının qədim və müasir dövrlərinə aid 1061 eksponat nümayiş etdirilir. Tarix-Diyarşünaslıq Muzeyində 8392 əsas, 600 yardımçı eksponat vardır. Muzeydə XVIII əsrdə alman səyyahları tərəfindən çəkilən şəkillər əsasında hazırlanmış Şamaxı şəhərinin maketi, rayonun fauna və florasını əks etdirən təbiət guşəsi yaradılmışdır. Mədəniyyət ocağının həyatində Şamaxının tanınmış 12 şəxsiyyətinin büstü qoyulmuşdur.*

*Burada erməni vəhşilikləri barədə toplanan istintaq materiallarına xüsusi yer ayrılmışdır. Prezident İlham Əliyev ermənilərin törətdikləri qırğınları təsdiq edən materiallarla tanış oldu.*

## Yenidən qurulmuş şahmat məktəbi ilə tanışlıq

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxıdakı şahmat məktəbində olmuşdur.*

*Məktəbin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına məlumat verilmişdir ki, 1986-cı ildə tikilmiş məktəbdə ötən müddətdə təmir və bərpa işləri aparılmamışdı. Məktəbin yenidən qurulmasına Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə bu ilin mayında başlanılmışdır. Artıq əsaslı bərpa işləri başa çatdırılmışdır. İkimərtəbəli binanın ümumi sahəsi 2116 kvadratmetrdir. Burada 7 şahmat otağı, yarış zalı və digər yardımçı otaqlar vardır. Şahmat məktəbi yenidənqurmadan sonra müasir inventar və avadanlıqlarla, kompyuter dəstləri ilə təchiz olunmuşdur.*

*Dövlətimizin başçısı uşaqların məşq prosesini izlədi.*

**Ş a h m a t ç ı  u ş a q:** Hörmətli Prezident, gözəl Şamaxıya xoş gəlmisiniz! Bizim üçün gözəl şərait yaratdığınıza görə Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Çalışacağıq ki, Sizin etimadınızı doğruldaq. Bunu şahmatçı dostlarım adından əminliklə söyləyirəm.

**İ l h a m  Ə l i y e v:** Artıq 10 yaşında iki medalın vardır – biri gümüş, biri bürünc. 11 yaşında gərək birini də əlavə edəsən – qızıl.

Artıq ənənə bərpa olundu. Vaxtilə ulu öndər tərəfindən bütün rayonlarda şahmat məktəbləri tikildi. O, Azərbaycandan gedəndən sonra onların bəziləri bağlandı, bəziləri satıldı, özəlləşdirildi, dağıdıldı. İndi biz bunların hamısını bərpa edirik. Nəticəni də görürük, Azərbaycan şahmatçıları Avropada birinci oldu. Bu, tarixi qələbədir. Siz də gərək bu yolu gedəsiniz.

Avropa çempionu adını qazanan uşaqların çoxu müstəqillik dövründə anadan olub, böyüyüb. Bu onu göstərir ki, Azərbaycan belə gözəl övladlar yetişdirir. İntellektual potensial çox yüksək səviyyədədir. Əgər belə olmasaydı – ən gözəl şərait yaradılsa da – bu cür nəticə mümkün deyildir. Avropa qitəsində birinci olmaq zarafat deyil. İndi dünya şahmatı Avropada cəmləşib. Bütün komandaları geridə qoyduq və bu, artıq bir zirvədir. Müəllimlərin, məşqçilərin də burada böyük rolu vardır. Ona görə biz sizdən yaxşı nəticələr gözləyəcəyik.

**M ə ş q ç i:** Cənab Prezident, Siz Şamaxıya bayram ərəfəsində qədəm qoymusunuz. Bayramımızı birə-beş artırmısınız. Məktəbimizin kollektivi adından, bax, bu istedadlı şahmatçı gənclərimiz adından Sizin bayramınızı təbrik edirəm. Arzu edirik ki, Siz uzun illər Azərbaycanda bu xarüqələrin davam etdirilməsinə rəhbərlik edəsiniz. Xoş gəlmisiniz. Allah Sizə yar olsun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Sizi bir daha bayram münasibətilə təbrik edirəm.

## Yenidən qurulmuş mədəniyyət sarayı ilə tanışlıq

*Noyabrın 26-da prezident İlham Əliyev Şamaxı Mədəniyyət sarayında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Sarayın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin mədəniyyətimizin qorunması və inkişafı istiqamətində gördükləri işləri əks etdirən fotoguşə yaradılmışdır.*

*Məlumat verildi ki, 1974-cü ildə inşa edilmiş mədəniyyət sarayının əsaslı təmirinə 2007-ci ilin ikinci rübündə başlanılmışdır. Yüksək səviyyədə aparılmış təmir işləri 2008-ci ilin mayında başa çatdırılmışdır. Sarayda müasir işıqlandırma sistemi quraşdırılmış, 300 nəfərlik zal mebel və digər avadanlıqlarla təchiz olunmuşdur.*

*Prezident İlham Əliyev sarayda uşaqların ifasını dinlədi.*

**Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi**

*Noyabrın 26-da prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, binada Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin barelyefi qoyulmuşdur.*

*İkimərtəbəli binanın sahəsi 516 kvadratmetrdir. Bina lazımi avadanlıqla təchiz edilmişdir. Birinci mərtəbədə 7 iş otağı, ikinci mərtəbədə qəbul və təşkilat sədrinin iş otaqları, müşavirə zalı yerləşir. Burada partiya üzvlərinin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.*

* **

*Noyabrın 26-da Azərbaycan prezidenti İlham Əliyevin Şamaxı rayonuna səfəri başa çatmışdır.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**

## CƏNAB DMİTRİ MEDVEDEVƏ

Hörmətli Dmitri Anatolyeviç!

«Nevski ekspress» qatarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verirəm, yaralananların hamısının tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2009-cu il*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizdə baş vermiş güclü daşqın nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, Səudiyyə Ərəbistanının bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2009-cu il*

## AKADEMİK MİLLİ DRAM TEATRINDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*1 dekabr 2009-cu il*

*Dekabrın 1-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşlar.*

*Yenidənqurma işlərinin gedişi ilə maraqlanan prezident İlham Əliyev binanın fasadına baxdı.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev məlumat verdi ki, binanın fasadında yenidənqurma işlərinin böyük qismi görülmüşdür. Fasadla yanaşı, ətraf binalarda da yenidənqurma işləri aparılmışdır.*

*Dövlətimizin başçısının «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında» 2007-ci il 19 fevral tarixli Sərəncamına əsasən binada əsaslı yenidənqurma işlərinə keçən ilin noyabrında başlanılmışdır.*

*Prezident İlham Əliyev tamaşa salonunda aparılan yenidənqurma işləri ilə də maraqlandı.*

*Məlumat verildi ki, əvvəllər 590 nəfərlik tamaşa salonunda yerlərin sayı yenidənqurmadan sonra 650-yə çatdırılacaqdır. Hazırda səhnədə mexanikləşdirmə işləri gedir, burada ən müasir işıq və səs sistemləri quraşdırılır. Bu avadanlıqlar teatrın müasir standartlara uyğun kompyuterləşdirilməsi üçün nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı yenidənqurmadan sonra teatrın ən müasir standartlar səviyyəsində olmasının zəruriliyini bildirdi, müvafiq tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİ ÜÇÜN İNŞA EDİLƏN YENİ BİNADA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*1 dekabr 2009-cu il*

*Dekabrın 1-də prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün inşa edilən yeni binada tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Dənizkənarı Milli Parkın ərazisində inşa edilən yeni binanın təməli ötən ilin mayında qoyulmuşdur. Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və YUNESKO-nun birgə layihəsi əsasında inşa olunan muzey binası milli memarlıq ənənələrinə görə fərqlənəcəkdir.*

*Dövlətimizin başçısı burada «Venesiya şəhərciyi» adlanan ərazinin abadlaşdırılmasının vacibliyini bildirdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin maketi ilə tanış oldular, binanın layihəsinə baxdılar.*

*Birinci mərtəbədə qədim xalça və digər əşyaların yaşını müəyyən etmək üçün laboratoriya, xalçaların bərpası otaqları, ikinci mərtəbədə mərasimlər və audiovizual təqdimatlar salonu, xalça toxunan otaq, üçüncü mərtəbədə isə açıq və bağlı sərgi salonları olacaqdır. Eksponatların saxlanması üçün xüsusi yerlər, mərkəzi anbar da fəaliyyət göstərəcəkdir. Muzeydə 200 nəfər çalışacaqdır.*

*Prezident İlham Əliyevə və xanımına binanın fasadının qurulmasında istifadə olunacaq materiallar göstərildi.*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇUMMALİ SAYNASONA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Laos Xalq Demokratik Respublikasının elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Laos arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2009-cu il*

## BÖYÜK BRİTANİYANIN KEÇMİŞ BAŞ NAZİRİ TONİ BLEYR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 dekabr 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 1-də Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyri qəbul etmişdir.*

*Keçmiş Baş nazir Toni Bleyr Azərbaycan prezidenti İlham Əliyevin ölkəsinə səfərlərini xatırlatdı. Böyük Britaniyanın ölkəmizdə nüfuzlu şirkətlər vasitəsilə təmsil olunduğunu deyən qonaq Azərbaycan iqtisadiyyatının dünyada ən sürətli templərlə artdığı barədə məlumatlı olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini, energetika ilə başlanan əməkdaşlığımızın hazırda müxtəlif sahələri əhatə etdiyini bildirdi. Böyük Britaniyaya son səfərini xatırladan prezident İlham Əliyev səfərin məhsuldar olduğunu və yaxşı nəticələr verdiyini dedi. Ölkəmizdə Böyük Britaniyanın çoxlu sayda şirkətlərinin fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı bunların böyük sərmayədarlar olduqlarını qeyd etdi.*

## BÖYÜK BRİTANİYANIN YORQ HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 dekabr 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 1-də Böyük Britaniyanın Yorq Hersoqu şahzadə Endryunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdiyi vurğulandı, iqtisadi sahədə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Permdə yanğın nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2009-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA RƏSMİ SƏFƏRİ

*8 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Fransa Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Fransanın dövlət bayraqlarının dalğalandığı Parisin «Orli» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Fransanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidentinə raport verdi.*

*Dövlətimizin başçısı fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## GDF SUEZ ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ ƏMƏLİYYATÇI DİREKTORU JAN-FRANSUA SİRELLİ İLƏ GÖRÜŞ

*Paris*

*8 dekabr 2009-cu il*

*Fransada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Parisdə onun üçün ayrılmış iqamətgahda GDF Suez Şirkətinin vitse-prezidenti və Baş əməliyyatçı direktoru Jan-Fransua Sirelli ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə GDF Suez Şirkəti arasında əmək-daşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

*Qeyd edildi ki, bu şirkət artıq Azərbaycanda fəaliyyət göstərir, müəyyən layihələrdə digər şirkətlərlə birgə iştirak edir və yeni imkanlar da axtarır.*

*Görüşdə Nabukko layihəsi, təbii qaz sahəsində əməkdaşlıq ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ

*Paris*

*9 dekabr 2009-cu il*

*Dekabrın 9-da Parisdə Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin görüşü olmuşdur.*

*Sarayın qarşısında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fransa prezidenti Nikola Sarkozi Azərbaycan prezidenti İlham Əliyevi sarayın önündə qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin Fransa prezidenti Nikola Sarkozi ilə görüşü oldu. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Fransa prezidenti bildirdi ki, Azərbaycan yerləşdiyi regionda ən sabit, sürətlə inkişaf edən və gözəl perspektivləri olan ölkədir.*

*Dövlət başçıları iqtisadi sahədə, energetika və qeyri-neft sektorlarında əməkdaşlıq məsələlərini müzakirə etdilər. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı bu münaqişə ilə bağlı ölkəmizin mövqeyini diqqətə çatdırdı və münaqişənin həlli ilə əlaqədar aparılan danışıqlar prosesi haqqında məlumat verdi.*

## FRANSA SENATININ SƏDRİ JERAR LARŞE İLƏ GÖRÜŞ

*Paris*

*9 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşmüşdür.*

*Senatın binası qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Fransa Senatının sədri Jerar Larşe qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Fransa Senatının sədri Jerar Larşenin görüşü oldu.*

*Görüşdə parlamentlərarası əlaqələrin genişlənməsinin Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı. Azərbaycan prezidentinin Fransaya rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından böyük önəm daşıdığı bildirildi. Parlamentlərarası əlaqələrin möhkəmlənməsində dostluq qruplarının rolu qeyd edildi.*

*Ölkələrimizin qanunverici orqanlarının əməkdaşlığının əhəmiyyətindən danışılan görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonda dövlətimizin başçısı Senatın Xatirə kitabına ürək sözlərini yazdı.*

## MİLLİ ASSAMBLEYANIN SƏDRİ BERNAR AKOYER İLƏ GÖRÜŞ

*Paris*

*9 dekabr 2009-cu il*

*Dekabrın 9-da Azərbaycan prezidenti İlham Əliyev Fransa Milli Assambleyasına gəlmişdir.*

*Milli Assambleyanın binasının qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Fransa Milli Assambleyasının sədri Bernar Akoyer qarşıladı.*

*Prezident İlham Əliyev və Bernar Akoyer rəsmi foto çəkdirdilər.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Fransa Milli Assambleyasının sədri Bernar Akoyerin görüşü oldu.*

*Bernar Akoyer bildirdi ki, Fransa Azərbaycana və şəxsən Sizin fəaliyyətinizə maraq göstərir. Parlamentlərarası əlaqələrin uğurla tərəqqi etdiyini bildirən Bernar Akoyer parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi. Ölkələrimiz arasında dostluq əlaqələri mövcuddur. Bu Sizin Fransa prezidenti Nikola Sarkozi ilə şəxsi münasibətlərinizdə də özünü göstərir.*

*Bernar Akoyer daha sonra bildirmişdir ki, Azərbaycan ilə iqtisadi əlaqələrimiz durmadan inkişaf edir və bu əlaqələr Fransa üçün böyük önəm daşıyır. Bu sahədə maraqlarımız bir-birini tamamlayır. İqtisadi sahədə möhkəm olan əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirən Milli Assambleyanın sədri energetika sahəsində əlaqələri xüsusi qeyd edərək dedi ki, biz enerji təhlükəsizliyi məsələsinə böyük*

*əhəmiyyət veririk və Azərbaycana bu sahədə fəaliyyət göstərən çox mühüm ölkələrdən biri kimi baxırıq.*

*Azərbaycan prezidenti İlham Əliyev əmin olduğunu bildirdi ki, əlaqələrimiz gələcəkdə də möhkəmlənəcəkdir. İkitərəfli münasibətlərimiz qarşılıqlı maraqlar üzərində qurulmuşdur və böyük perspektivlərə malikdir.*

*Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev dedi ki, bu mənim Fransaya üçüncü səfərimdir. Nəzərə alsaq ki, 5 ildə bir dövlət və 2 rəsmi səfər həyata keçirilib, bu da əlaqələrimizin yaxşı göstəricisidir. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimiz güclənir. Parlamentlərarası əməkdaşlığa böyük əhəmiyyət veririk və bu səfər uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin perspektivlərini və həmin sahədə konkret addımları nəzərdən keçirmək üçün yaxşı imkan yaradır.*

*Prezident İlham Əliyev Fransa şirkətlərinin Azərbaycanda neft-qaz, energetika və digər sahələrdə fəallığını da diqqətə çatdırdı.*

*Fransa Milli Assambleyasının sədri Bernar Akoyer Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə maraqlandı.*

*Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların vəziyyəti və perspektivləri barədə söhbət açdı.*

## FRANSA XARİCİ İŞLƏR NAZİRİ BERNAR KUŞNER İLƏ GÖRÜŞ

*Paris*

*9 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Parisdə onun üçün ayrılmış iqamətgahda Fransa Xarici İşlər naziri Bernar Kuşner ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında müxtəlif sahələrdə, o cümlədən siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycan prezidentinin Fransaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığı qeyd olundu.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proseslərin hazırkı vəziyyətindən söhbət açılan görüşdə regional və bir sıra beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MEDEF-ə ÜZV OLAN İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*Paris*

*9 dekabr 2009-cu il*

*Fransada rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev dekabrın 9-da Parisdə Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan iş adamları ilə görüşmüşdür.*

*Görüşdə MEDEF-interneşnlın rəhbəri Jan Bürel dövlətimizin başçısını salamlamışdır.*

**J a n B ü r e l:** Hörmətli cənab Prezident!

Hörmətli səfirlər!

Xanımlar və cənablar, dostlar!

Sizi burada – Parisdə bir daha görməyimizə çox şadıq. 2 il əvvəl Siz prezident Jak Şirakla, bu dəfə isə prezident Sarkozi ilə görüşdünüz. Burada Siz MEDEF-ə üzv olan şirkətlərin nümayəndələri ilə görüşürsünüz. Bir azdan xanım Paskal Janin – Siz onu tanıyırsınız, bir neçə həftə öncə ölkənizə səfər etmişdi – Sizə suallarla müraciət edəcəkdir. Düşünürəm ki, söhbətimiz faydalı olacaqdır.

Burada iştirak edənlərin hamısının Azərbaycana marağı böyükdür. Sizi dinləməyə və Sizə suallar verməyə maraqlıyıq. Fürsətdən istifadə edərək, diqqətinizə bir daha çatdırım ki, MEDEF Fransanın 800 min şirkətinin birləşdiyi bir qurumdur. Bu quruma müxtəlif sahələrdə çalışan şirkətlər, o cümlədən bank sektoru, sığorta, ərzaq sahələri daxildir. Bəzi şirkətlər təyyarə, bəziləri isə avtomobil istehsalı ilə məşğuldur. Mühəndislik, kimya texnologiyaları sahələrində ixtisaslaşan şirkətlər də vardır. Bizim üçün vaxt ayırdığınıza görə bir daha

Sizə təşəkkürümü bildirmək istəyirəm. Sözü həmkarım xanım Paskal Janinə verirəm.

**P a s k a l J a n i n P e r e s** (*«Derişubörq» şirkətinin rəhbəri)*: Təşəkkür edirəm. Cənab Prezident!

Hörmətli səfirlər!

Xanımlar və cənablar!

Sizinlə Parisdə yenidən görüşməyimdən nə qədər məmnun olduğumu diqqətinizə çatdırmaq istəyirəm. Bir neçə həftə əvvəl bizi Bakıda qəbul etdiyiniz zaman göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Son illər ölkənizdə baş verən inkişaf və yeniliklər bizi çox valeh edib. Xüsusilə də qlobal iqtisadi böhran zamanı Azərbaycan öz mövqeyini qoruyub saxlaya bilmişdir.

Biz Bakıda olarkən ölkənizdə iqtisadiyyatınızı şaxələndirmək və müasirləşdirmək, karbohidrogen ehtiyatlarının ixracından asılılığını azaltmaq və qeyri-enerji sektoruna sərmayə yatırmaq istəyinizi tam anladıq. Fransanın işgüzar adamları Azərbaycandan bu ölkənin inkişafına daha çox cəlb olunmaq arzusu ilə ayrıldılar. Biz Sizin səylərinizi dəstəkləyirik. Fransa şirkətləri Azərbaycanın inkişafında bütün istiqamətlərdə iştirak etmək arzusundadır. 2010-cu ildə ekologiyaya daha çox əhəmiyyət vermək niyyətlərinizə heyran olduq. Fransanın bir neçə şirkəti bu sahədə dünyanın aparıcı şirkətləridir və ekoloji məsələlərin həllində sizlər üçün faydalı iş görə bilər.

Cənab Prezident, indi isə biz Sizin Azərbaycanın prioritetləri haqqında fikirlərinizi dinləməyə çox maraqlıyıq. Fransa şirkətlərinin layihələrinizin icrasına cəlb olunmaqla necə yardımçı ola biləcəyini bilmək istərdik. Bir daha Sizə təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, əziz dostlar. Bu görüşə görə minnətdarlığımı bildirirəm. Bu bizim ilk görüşümüz deyil. Mən 2004-cü ilin əvvəlində ilk dəfə Fransaya rəsmi səfərə gələndə biz görüşdük. Hesab edirəm ki, həmin görüş aramızdakı iqtisadi əməkdaşlığın inkişafı üçün

əhəmiyyətli rol oynadı. Çünki o zaman Azərbaycan beynəlxalq biznes dairələri üçün o qədər də tanınan ölkə deyildi. Mən hər dəfə Fransaya səfər edəndə görüşümüz olur. Bu ilk növbədə əlaqələrimizin və iqtisadi əməkdaşlığımızın qarşılıqlı əhəmiyyətini əks etdirir.

Son illər ölkələrimiz arasında iqtisadi əməkdaşlıq uğurla inkişaf edir. Fransanın bir çox şirkətləri Azərbaycanda fəaliyyətə başlayıb, ölkəmizə sərmayələr yatırıb. Bəzi şirkətlər ölkəmizdə müqavilə əsasında çalışıb və bu gün də çalışmaqda davam edir. İqtisadi əlaqələrimizin ümumi statistikasına nəzər salsaq, ölkələrimiz arasında qarşılıqlı iqtisadi dövriyyədə böyük artımın olduğunu görərik. Ötən il ticarət dövriyyəmiz 2,5 milyard dollara yaxın olub. Biz kiçik rəqəmlərlə başlamışdıq, hesab edirəm, indi bu, böyük rəqəmdir.

Ötən illərdən fərqli olaraq iqtisadi əməkdaşlığımızın inkişafı üçün indi bizim daha yaxşı imkanlarımız vardır. Çünki Azərbaycan son illər ərzində uğurla inkişaf edib. Biz əsas iqtisadi çətinlikləri dəf etməyə nail olmuşuq. İqtisadiyyatımız artıq keçid iqtisadiyyatı deyildir. Baxmayaraq ki, keçid dövrü çox vaxt apardı. Bu da təbiidir. Çünki bir sistemdən digərinə keçərkən, yəni planlaşdırılan iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid üçün çox vacib islahatlar aparılmalıdır. Artıq bütün zəruri islahatlar aparılıb. Hesab edirəm ki, növbəti illərdə Azərbaycan iqtisadiyyatının davamlı inkişafı qarşılıqlı iqtisadi əməkdaşlıq üçün daha yaxşı şərait yaradacaqdır.

Biz həm ikitərəfli, həm iqtisadi sahədə əlaqələrimizin səviyyəsindən çox razıyıq. Bu cür qarşılıqlı maraqla uğurla irəliləyə bilərik. 2004-cü ildəki görüşümüz iqtisadi əlaqələrimizin sürətlə inkişafı üçün əhəmiyyətli rol oynadı. Ümid edirəm ki, MEDEF-in bu yaxınlarda Bakı görüşündən sonra biz ölkəmizə gələcək sərmayə yatırımları ilə bağlı yeni prioritetləri, əməkdaşlığın yeni sahələrini Fransa sərmayədarlarının maraqları və Azərbaycan hökumətinin prioritetlərinə uyğun olaraq müəyyənləşdirəcəyik.

Böyük işlər görülüb, lakin görüləsi işlər hələ də çoxdur. Bizim konkret tədbirlər proqramımız vardır. Bu, ikinci proqramdır. İlk proqram 2004-cü ildə qəbul olunub və 2008-ci ilə qədərki dövrü əhatə edib. 2004–2008-ci illərdə, yəni son 5 il ərzində Azərbaycan iqtisadiyyatı dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olub. Ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı isə 2,5 dəfə artıb. Növbəti 5 il – 2009–2013-cü illər üçün bizim maliyyə və texniki imkanlarımıza və beynəlxalq biznes dairələri ilə mövcud olan təcrübəmizə əsaslanan dəqiq tədbirlər proqramımız vardır.

Bu proqram ölkəmizin daha mühüm iqtisadi, sosial və infrastruktur layihələrinin həyata keçirilməsinə kömək edəcəkdir. Ümid edirəm ki, növbəti illərdə də Fransa şirkətləri müxtəlif əhəmiyyətli layihələrin həyata keçirilməsində bizim tərəfdaşlarımız olacaqdır. İqtisadiyyatımız hətta 2009-cu ildə, qlobal maliyyə böhranı zamanı da sürətlə inkişaf edir. İlin on ayının göstəricilərinə əsasən, iqtisadi artım 8,4 faiz, sənaye istehsalı artımı isə 7,3 faiz olub. Nəzərə alsaq ki, enerji sektoru hələ də ölkə iqtisadiyyatının əsas sektoru sayılır və neftin qiyməti son bir il ərzində kəskin şəkildə aşağı düşüb, bu bizim ümumi iqtisadi inkişafımıza təsir göstərməyib. Bu da məhz iqtisadiyyatımızın şaxələndirilməsinin, qeyri-enerji sektoruna sərmayə qoyuluşu siyasətinin nəticəsidir.

Müxtəlif layihələrə gəldikdə isə onu deyə bilərəm ki, sizin nümayəndələriniz Bakıda olarkən bir sıra görüşlər keçiriblər. Onlarda artıq bizim nə edəcəyimiz barədə məlumatlar vardır. 2010-cu ildə bizim həm dövlət büdcəsindən, həm də Neft fondundan maliyyələşən dövlət investisiya proqramı 4,5–5 milyard dollara yaxın olacaqdır. Bu qədər vəsait iqtisadiyyatımızın müxtəlif sahələrinə yatırılacaqdır. Biz Fransa şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirik.

Bəzi şirkətlər artıq nəhəng və əhəmiyyətli infrastruktur və sənaye layihələrinin icrasına başlayıblar. Biz bu işlərin gedişindən məmnunuq. Əminəm ki, sizin gələn il və növbəti illər ərzində icra olunacaq konkret sahələr və layihələr haqqında

məlumatınız vardır. Hansı sahəyə daha çox diqqət yetirmək şirkətlərin öz işi olacaq. Bizim prioritetlər əsasən qeyri-neft sektorudur. Çünki biz neft və qaz sahəsində planlaşdırılan bütün işləri görməyə nail olmuşuq.

İnformasiya texnologiyaları, kənd təsərrüfatı, infrastruktur, təhsil, səhiyyə, ekologiya sahələri indi prioritetdir. Təsadüfi deyildir ki, 2010-cu il «Ekologiya ili» elan olunub. Biz bu sahəyə daha çox diqqət yetirməliyik. Çünki Azərbaycanda neft hasilatına başlanan ilk dövrlərdən ekoloji məsələlərə fikir verilməyib. İndi isə bu sahədə böyük işlərin görülməsinə ehtiyac vardır. Biz çirklənmiş əraziləri, torpağı, Xəzər dənizini təmizləməliyik və bu layihə üçün böyük vəsait ayrılacaqdır. Biz digər layihələri də dünyanın aparıcı şirkətləri ilə birgə həyata keçirməyi planlaşdırırıq. Bu təcrübə artıq vardır. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan hətta qeyri-mütəşəkkil, kasıb və iqtisadiyyatı tənəzzülə uğramış ölkə olarkən, biz böyük beynəlxalq şirkətləri ölkəmizə sərmayə qoymağa cəlb etməyə nail olduq. O sərmayələrin əksəriyyəti enerji sektoruna yatırılmışdı və bu, təbii bir hal idi. Bu il isə biz tərəfdaşlarımızı ölkəmizin həm enerji, həm də qeyri-enerji sektorlarına sərmayə yatırmağa dəvət edirik.

Etibarlılığı artırmaq üçün biz Dövlət İnvestisiya Şirkətini yaratdıq. Bu şirkət müxtəlif layihələrin icrasında artıq həm sərmayədar kimi çalışır və həm də çalışacaq ki, potensial investorlar üçün etimadı artırsın. Biz bu məsələni yaxınlarda Bakıda da müzakirə etdik. Fransa şirkətləri tərəfindən yatırılacaq sərmayələri alqışlayırıq. Fransa şirkətlərinin müqavilə əsasında və ya müxtəlif birgə müəssisələrin, qurumların üzvləri kimi fəaliyyətini müsbət qarşılayırıq. Biz uğurlu əməkdaşlığımızı davam etdiririk.

Bu gün bir daha sizinlə burada olmağımdan və bu vacib məsələləri sizinlə müzakirə etməkdən çox məmnunam. Ümid edirəm ki, bu görüşdən sonra biz görülən işlərin əyani nəticələrinin şahidi olacağıq. Çox sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı dünya iqtisadi böhranı fonunda Azərbaycanın inkişaf prosesləri, ölkəmizin iqtisadi prioritetləri, qeyri-neft sektoru, respublikamızda çalışan Fransa şirkətlərinin fəaliyyəti, enerji sahəsində görülən işlər, Azərbaycanın regionda hazırkı vəziyyəti və gələcək rolu, 2010-cu ildə «Ekologiya ili»ndə görüləcək işlər, nəqliyyat, aviasiya, səhiyyə və digər sahələrdə əməkdaşlıq mövzularında suallara ətraflı cavab verdi.*

*Prezident İlham Əliyev ölkəmizin gələcək planlarından, müstəqilliyin ilk illərində üzləşdiyimiz sınaqlardan, eləcə də Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsindən danışdı. Dövlətimizin başçısı qeyd etdi ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan davamlı inkişaf yoluna qədəm qoydu.*

## Səfər başa çatdı

*Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Fransanın dövlət bayraqlarının dalğalandığı Parisin «Orli» Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Fransanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün axşam prezident İlham Əliyev Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Qazaxıstan əlaqələri tarixən təşəkkül tapmış möhkəm dostluq ənənələrinə malikdir. Əminəm ki, qarşılıqlı anlaşma və etimada əsaslanan münasibətlərimizin hərtərəfli inkişafı, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə, Nursultan Abişeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qazaxıstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2009-cu il*

## YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Yaponiya münasibətlərinə böyük əhəmiyyət veririk. İkitərəfli əlaqələrimizin gündən-günə genişlənməsi, həyata keçirdiyimiz birgə iqtisadi layihələr münasibətlərimizin inkişaf dinamikasını müəyyən edən amillərdəndir. Əminəm ki, dost ölkələrimiz arasında əməkdaşlıq zəminində əldə etdiyimiz nailiyyətlər bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və səadət, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2009-cu il*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bəhreyn arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Bəhreyn xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2009-cu il*

## KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Kuba dövlətlərarası münasibətlərinin inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsi daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2009-cu il*

## SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Sudan arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Sudan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2009-cu il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün Qətər xalqına ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan–Qətər münasibətləri bu gün yüksələn xətt üzrə inkişaf etməkdədir. Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da birgə addımlar atacağıq.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qətər xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2009-cu il*

## BEYNƏLXALQ BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vunu qəbul etmişdir.*

*Çinq-Kuo Vu prezident İlham Əliyev ilə Pekin Olimpiya oyunlari zamanı görüşünü məmnunluqla xatırlatdı. O, gələn il gənclər arasında boks üzrə dünya çempionatının Bakıda keçirilməsi ilə bağlı Beynəlxalq Boks Assosiasiyasının İcraiyyə Komitəsinin yekdilliklə qərar qəbul etdiyini dedi və bu münasibətlə təbriklərini çatdırdı. Çinq-Kuo Vu ölkəmizdə bu idman növünün inkişafı ilə bağlı Azərbaycan Boks Federasiyasının böyük səylər göstərdiyini vurğuladı.*

*Dövlətimizin başçısı gənclər arasında boks üzrə dünya çempionatının Bakıda keçirilməsi ilə əlaqədar Beynəlxalq Boks Assosiasiyasının İcraiyyə Komitəsinin qərarını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev mötəbər idman yarışlarının Azərbaycanda keçirilməsinin beynəlxalq idman aləmində ölkəmizin nüfuzunun getdikcə daha da artması baxımından əhəmiyyətini vurğuladı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Bursa vilayətindəki şaxtada baş vermiş qəza nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2009-cu il*

## BAKININ AZADLIQ VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏKİ TUNELİN AÇILIŞI MƏRASİMİ

*11 dekabr 2009-cu il*

*Dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində Azadlıq və Ziya Bünyadov prospektlərinin kəsişməsində müxtəlif səviyyəli yol qovşağına daxil olan tunelin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısını inşaatçılar və nəqliyyat işçiləri hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, ölkədə aparılan geniş iqtisadi quruculuq tədbirləri sırasına nəqliyyat infrastrukturları da daxildir. Dövlətimizin başçısı tərəfindən imzalanmış sərəncamlara əsasən Bakı şəhərində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi layihəsi uğurla həyata keçirilir.*

*Bu gün istifadəyə verilən tunel isə Ziya Bünyadov və Azadlıq prospektlərinin kəsişməsində inşa edilən yol qovşağının ikinci mərhələsinə daxildir.*

*Dövlətimizin başçısı tuneldə inşaat işlərinin gedişini əks etdirən fotoşəkillərə baxdı, layihənin baş planı ilə tanış oldu. Bildirildi ki, nəqliyyatın hərəkətinin sıxlığı ilə seçilən bu ərazidə prezident İlham Əliyevin 2006-cı il 1 fevral tarixli Sərəncamına əsasən inşa olunan yol qovşağı tıxacların aradan qaldırılmasında mühüm rol oynayacaqdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, müxtəlif səviyyəli yol qovşağının birinci mərhələsi uzunluğu 300 metrə yaxın olan körpünün 2008-ci ilin sentyabrında istifadəyə verilməsi ilə başa çatmışdır. İkinci mərhələdə tikilmiş tunel isə ikimərtəbəlidir. Birinci mərtəbə dördzolaqlı ikitərəfli avtomobil*

*yolundan ibarətdir. İkinci mərtəbə isə müxtəlif məqsədlər üçün nəzərdə tutulubdur. Tunelin örtülü hissəsi 310 metr, giriş və çıxışları ilə birlikdə ümumi uzunluğu 616, eni isə 20 metrdir.*

*Qeyd olundu ki, inşaat işləri zamanı 130 min kubmetr torpaq, 32 min kubmetr beton işləri görülmüş, 4,2 min kvadratmetr üzlük piltə işlədilmişdir. Tikinti zamanı 3,2 min ton asfalt döşənmiş, 3,5 min kvadratmetr ərazi yaşıllaşdırılmış və abadlaşdırılmışdır. Yol qovşağında piyadalar üçün 5 keçid inşa olunmuşdur.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, görülmüş işlərlə tanış oldu.*

*Məlumat verildi ki, tunelin hündürlüyü 5,5 metrdir. Bu, ən iri ölçülü nəqliyyat vasitələrinin də buradan rahat keçməsinə imkan yaradır. Yol ötürücüsündə avtomat rejimdə işləyən müasir işıqlandırma, havalandırma, videomüşahidə sistemləri və yağış sularının kənara vurulması üçün nasos qurğusu quraşdırılmışdır.*

*Prezident İlham Əliyev ikinci mərtəbədə müxtəlif məqsədlər üçün nəzərdə tutulmuş 6 min kvadratmetrlik sahədə tikinti işlərinin gedişi ilə də tanış oldu. Məlumat verildi ki, buraya piyadalar üçün üç yeraltı, bir yerüstü keçid və qovşağın yan yolları daxildir. Yol qovşağının bu hissəsinin gələn ilin birinci yarısında istifadəyə verilməsi nəzərdə tutulur.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik edərək, tapşırıq və tövsiyələrini verdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİN VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2009-cu il*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından altı il keçir. Ulu öndərimizin vəfatından ötən illər ərzində görkəmli dövlət xadiminin məzarı xalqımızın müqəddəs ziyarətgahına çevrilmişdir. Demək olar ki, bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış Böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.*

*Qeyri-adi şəxsiyyət, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider Heydər Əliyev sağlığında canlı əfsanəyə çevrilmişdi. O, Böyük azərbaycanlı idi, azərbaycanlı olmağı ilə fəxr edirdi.*

*Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildən başlayaraq 30 ildən artıq bir dövrü əhatə edən Azərbaycanın ən yeni tarixi, ölkəmizin həyatının bütün sahələrində əldə edilmiş möhtəşəm nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. «Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi» kimi qiymətləndirilən bu dövrdə ulu öndərimiz tərəfindən görülən böyük işlərin, həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmış, ən başlıcası, siyasi və iqtisadi müstəqilliyə nail olmuşdur.*

*Bu gün Heydər Əliyev ideyalarına və xalqına sadiqliyini əməli işləri ilə tam sübuta yetirən və öz dövlətçilik fəaliyyətində hərtərəfli varisliyi təmin edən Azərbaycan prezidenti İlham Əliyev tərəfindən həmin ideyaların reallaşdırılması istiqamətində məqsədyönlü və yeni məzmunlu daxili və xarici siyasət həyata keçirilir. Prezident İlham Əliyevin 2003-cü ildən etibarən dövlətimizin başçısı kimi uğurlu fəaliyyəti bir daha sübut etmişdir ki, Heydər Əliyev ideyaları yaşayır və onların reallaşdırılması istiqamətində görülən işlər bu dahi şəxsiyyətin unudulmaz xatirəsinin əbədiləşdirilməsini və doğma Azərbaycanımızın hərtərəfli tərəqqisini təmin edir.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının altıncı ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allah-taaladan rəhmət diləyirdilər.*

*Dekabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdi.*

*Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin təmsilçiləri, ulu öndərin yaxınları da Fəxri xiyabana gəlmişdilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoydu.*

*Ulu öndərin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DORİS LOYTHARDA**

Hörmətli xanım Prezident!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsveçrə arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 dekabr 2009-cu il*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycanla Rumıniya arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf edir. Ölkələrimiz arasında əlaqələrin genişlənməsi regional əməkdaşlıq və təhlükəsizliyin təmin olunması işinə öz töhfəsini verir. Aramızda keçirilən səmərəli, məhsuldar görüşləri məmnunluqla xatırlayaraq ikitərəfli münasibətlərimizin möhkəmlənməsində yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətini və iki ölkənin dövlət başçıları arasında səmimi dostluq əlaqələrinin rolunu xüsusi olaraq qeyd etmək istərdim. Ölkənizə rəsmi səfərim zamanı imzalanmış «Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması razılaşması haqqında Birgə Bəyannamə» münasibətlərimizin dərin olduğunun yaxşı göstəricisidir.

Əminəm ki, Azərbaycan ilə Rumıniya arasındakı dövlətlərarası münasibətlərin inkişafı, dostluq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rumıniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 dekabr 2009-cu il*

## BUZOVNA QƏSƏBƏSİNDƏ YENİDƏN QURULAN CÜMƏ MƏSCİDİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*19 dekabr 2009-cu il*

*Dekabrın 19-da Bakının Buzovna qəsəbəsində Heydər Əliyev Fondunun «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində yenidən qurulan Cümə məscidi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Milli mənəvi dəyərlərin yüksək səviyyədə qorunduğu Azərbaycanda bu sahədə ardıcıl tədbirlərin görülməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Son illər Bakıda və regionlarda dini ziyarətgahların, ibadət yerlərinin tikintisi və mövcud olanların yenidən qurulması prosesi uğurla davam etdirilir. İslam aləminin müqəddəs ziyarətgahlarından olan Bibiheybət məscid-kompleksinin tikilərək dindarların istifadəsinə verilməsi, bununla yanaşı, Təzəpir məscid-kompleksində yenidənqurma işlərinin aparılması bu siyasətin məntiqi davamıdır.*

*Son illərdə Heydər Əliyev Fondu da milli mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulmuşdur. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Hazırda Şamaxıda Cümə məscidinin bərpası davam edir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində Heydər Əliyev Fondunun «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir.*

*İnşasına 1896-cı ildə başlanılmış Buzovna Cümə məscidinin tikintisi 1900-cü ildə yarımçıq qalmışdır. 1918-ci ildə tikinti işlərinə yenidən başlanılsa da, Azərbaycanda sovet hakimiyyətinin qurulması bu məscidin binasından başqa məqsədlər üçün istifadə olunması ilə nəticələnmişdir. Sovet dövründə məsciddən anbar və dükan kimi istifadə olunmuşdur. 2007-ci ildə Buzovna sakinlərinin Cümə məscidinin binasında bərpa işlərinin başa çatdırılması ilə bağlı Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya müraciəti tez bir zamanda öz həllini tapmışdır. Həmin ilin fevralında başlanan yenidənqurma işləri sona çatmışdır.*

*Bildirildi ki, sahəsi 500 kvadratmetr olan məsciddən əlavə, burada köməkçi və inzibati binalar, kişilər və qadınlar üçün dəstəmazxanalar, digər otaqlar tikilmişdir. Məscid bütövlükdə sal daşlardan inşa olunmuş, fasad ərəb əlifbası ilə yazılan daş kitabələrlə üzlənmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Cümə məscidində yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, burada qadınların və kişilərin ayrılıqda ibadət etmələri üçün hər cür şərait yaradılmışdır.*

*Bu, Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi ilk belə layihə deyildir. Fondun «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Heydər Əliyev Fondu Buzovnadakı Cümə məscidinin yenidən qurulmasını, Bakı şəhərində pravoslav kilsəsində əsaslı bərpa və yenidənqurma işlərini, katolik kilsəsində vitrajların və pannoların quraşdırılmasını başa çatdırmışdır. Hazırda yəhudi uşaqlar üçün təhsil mərkəzinin yaradılması ilə bağlı layihənin icrası davam edir.*

*Prezident İlham Əliyev Cümə məscidində yaradılan şəraitdən razı qaldığını bildirərək dedi ki, son zamanlar təmir olunan bütün məscidlər bu səviyyədədir, gözəl, təmiz, səliqəli və möhtəşəm memarlıq üslubundadır.*

*Bildirildi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev 1994-cü ildə Buzovna qəsəbəsindəki «Əli ayağı» ziyarətgahında olarkən Cümə məscidi ilə maraqlanmış, burada tikinti və yenidənqurma işlərinin aparılması ilə bağlı göstərişlərini vermişdi. Məscidin qapılarını yenidən dindarların üzünə açması ulu öndərin qurub-yaratmaq amalına Heydər Əliyev Fondunun töhfəsidir.*

*Məscidin axundu dövlətimizin başçısına təşəkkür etdi.*

**Məscidin axundu:** Bu gün biz çox sevinirik ki, ulu öndərin göstərişi məhz elə Sizin xeyir-duanız, böyüklüyünüzlə, Heydər Əliyev Fondunun təşəbbüsü, Mehriban xanımın dəstəyi ilə həyata keçir. Ona görə də icazə verin Sizə və çox hörmətli Mehriban xanıma «Qurani-Kərim»i hədiyyə edək. Mehriban xanım, Sizə Allahdan cansağlığı arzu edirik. 3 ildir ki, bu məsciddə təmir-bərpa işləri gedir. Bu ay Məhərrəm ayıdır, imam Hüseyn əleyhissəlamın şəhadət ayıdır. Belə bir gündə Sizin qonağımız olmanız bizim üçün çox sevindiricidir. Kərbəla şəhidlərinin xatirinə Allahdan arzu edirik ki, Qarabağ azad olunsun, Sizinlə Şuşa məscidində görüşək.

*Məscidin axundu «Qurani-Kərim»i dövlətimizin başçısına və xanımına təqdim etdi.*

*Prezident İlham Əliyev məscidlə tanışlıqdan sonra dindarlar və qəsəbə sakinləri ilə görüşüb söhbət etdi.*

**İlham Əliyev:** Salam-əleyküm. Sizi salamlayıram. Məscidin əsaslı təmirdən sonra fəaliyyətə başlaması münasibətilə sizi təbrik edirəm. Çox şadam ki, Heydər Əliyev Fondunun təşəbbüsü artıq reallaşıbdır. Bir neçə il bundan əvvəl Buzovna sakinləri Heydər Əliyev Fonduna müraciət etmişdilər ki, bu qədim məscid bərpa olunsun, amma əslində yenidən tikilsin. Çünki məscid kimi tikilməsi nəzərdə tutulmuş bu bina heç vaxt məscid kimi fəaliyyət göstərməmişdir.

Heydər Əliyev Fondu həmişə olduğu kimi, sakinlərin bütün müraciətlərinə müsbət baxmaqla qısa müddət ərzində gözəl əsər yaratdı. Bu, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən birinci layihə deyildir. Bundan əvvəl Binə qəsəbəsində qədim

məscid, Pirhəsən ziyarətgahı yenidən quruldu. Bu gün biz Buzovna qəsəbəsində gözəl məscidin açılışında bərabər iştirak edirik. Bu gözəl, xeyirxah işlər onu göstərir ki, Azərbaycanın həm dövləti, həm ictimai təşkilatları öz iradələrini bütün sahələrdə ortaya qoymaqla böyük nailiyyətlərə nail olurlar.

Azərbaycanda quruculuq, abadlıq işləri geniş vüsət alıb. Milli mənəvi dəyərlərimizin, tarixi, dini abidələrin qorunması, bərpası bizim üçün əsas məsələdir. Son illər Bakının və Azərbaycanın müxtəlif yerlərində tarixi, dini abidələrimiz bərpa olundu, yenidən quruldu və ən möhtəşəm vəziyyətə gətirildi. Təzəpir məscidi, Bibiheybət məscidi, indi Əjdərbəy məscidində təmir işləri gedir, sürətlənməlidir. Digər bölgələrdə, şəhər və rayonlarımızda da bu işlər gedir.

Çox şadam ki, ictimaiyyət də bunu alqışlayır, bu işlərdə fəal iştirak edir. Əgər Buzovna sakinlərinin müraciəti olmasaydı, yəqin ki, bu iş hələ qalacaqdı. Siz düzgün ünvana müraciət etdiniz və bu iş görüldü. Həm kəndə yaraşıq verir, həm də bacı-qardaşlarımız üçün ibadət yeridir. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

## RUSİYANIN «VESTİ» TELEKANALINA MÜSAHİBƏ

*21 dekabr 2009-cu il*

*Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın «Vesti» telekanalına müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, 2009-cu il başa çatmaq üzrədir. Bu il Azərbaycan üçün hansı əsas və mühüm hadisələrlə əlamətdar olmuşdur?**

**İ l h a m Ə l i y e v:** 2009-cu il adi il olmamışdır. Qlobal maliyyə böhranının nəticələrini bütün ölkələr bu və ya digər dərəcədə öz üzərlərində hiss etmişlər, təbii ki, Azərbaycan da. Biz bu mürəkkəb vəziyyətdən minimum itki ilə çıxmağa nail olmuşuq. Bütövlükdə iqtisadiyyat dinamik inkişaf etmişdir. 2009-cu ildə iqtisadi artım 9 faizdən çox olmuşdur. Zənnimcə, maliyyə böhranı şəraitində bu çox yaxşı göstəricidir. Sənaye istehsalı təqribən 9 faiz artmışdır. İnflyasiya 2 faizdən az olmuşdur. Əhalinin gəlirləri xeyli artmışdır. ilin əsas sosial-iqtisadi göstəriciləri sübut edir ki, Azərbaycan uğurlu inkişafını davam etdirmişdir.

Bu cür ciddi artım nümayiş etdirməyimiz birinci il deyildir. 2004–2008-ci illərdə iqtisadiyyatın həcmi bütövlükdə 2,6 dəfə artmışdır. Əsas infrastruktur layihələrini həyata keçirməyə nail olmuşuq. İqtisadiyyatımızın müəyyən dərəcədə enerji ehtiyatlarından asılı olmasına və bu il neftin qiymətinin xeyli aşağı düşməsinə baxmayaraq, biz bütün sosial proqramları həyata keçirmişik. Bu ili də yaxşı əhval-ruhiyyə ilə başa vururuq.

**S u a l: Onda bəs bu uğurların sirri nədədir? Neft həqiqətən ucuzlaşırdı.**

**İ l h a m  Ə l i y e v:** Uğurlarımızın sirri iqtisadiyyatımızı qısa müddətdə şaxələndirməyə və çox ciddi iqtisadi islahatlar aparmağa nail olmağımızdadır. Təsadüfi deyil ki, aparıcı beynəlxalq maliyyə təsisatları bu baxımdan uğurlarımızı qeyd edirlər. Beynəlxalq reytinq agentlikləri uğurlarımızı çox yüksək qiymətləndirirlər. 2008-ci ildə Dünya Bankı biznes fəaliyyəti proqramında dünyada birinci yeri Azərbaycana vermişdir. Bu onu göstərir ki, biz iqtisadiyyatımızı əhəmiyyətli dərəcədə liberallaşdırmağa, özəl sektor üçün yaxşı şərait yaratmağa nail olmuşuq.

Kənd təsərrüfatında böyük uğurlar qazanılmışdır. Rekord miqdarda kənd təsərrüfatı məhsulları yığılmışdır. Bizim ixracla əlaqədar problemlərimiz də yoxdur. Bütün istiqamətlər bizim üçün açıqdır.

**S u a l: Hazırda neft-qaz sahəsinin inkişafından əlavə, daha hansı sahələr Sizin üçün prioritet sayılır və Siz iqtisadiyyatın şaxələndirilməsi dedikdə, hansı sahələrin inkişafını nəzərdə tutursunuz?**

**İ l h a m  Ə l i y e v:** İlk növbədə təbii ehtiyatlarımıza, xammal ehtiyatlarına, eləcə də qonşu dövlətlərin bazarlarından istifadə imkanlarına əsaslanmışıq. Buna görə də kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bu il biz özümüzü, əslində, daxili istehsal hesabına əsas qida məhsulları ilə tam təmin edirik.

Digər mühüm sahə informasiya-kommunikasiya texnologiyalarıdır. Biz bu sahədə çox irəliləmişik və 2 ildən sonra ilk süni peykimizi buraxmağı planlaşdırırıq. Yəni kosmik sənaye yaradırıq və bu baxımdan da Azərbaycanın dünyada reytinqi durmadan artır.

İnfrastrukturla əlaqədar layihələr bizə çox güclü nəqliyyat bazası yaratmaq imkanı verir. Coğrafi mövqeyimiz çox əlverişlidir, lakin nəqliyyata sanballı investisiyalar qoyulmasa, bunun əhəmiyyəti azdır. Buna görə də magistral yolların çəkilişi, dəmir yollarının təmir edilməsi, Xəzər donanmasının bazasının möhkəmləndirilməsi, tanker donanmasının yaradılması, aviadaşımalar – bütün bunlar tranzit üçün gözəl

şərait yaratmışdır. Bu gün biz Asiyadan Avropa-ya və əks istiqamətdə daşınan böyük həcmdə yüklər üçün tranzit ölkəyə çevrilmişik. Bu da gələcəkdə iqtisadiyyatın daha çox şaxələndirilməsinə və daha çox qazanc əldə olun-masına kömək edəcəkdir.

**S u a l: Qeyd etmək lazımdır ki, bütün Xəzəryanı dövlətlər arasında ən güclü tanker donanması Azərbaycandadır.**

**İ l h a m Ə l i y e v:** Bəli, son bir neçə ildə hər birinin yükgötürmə qabiliyyəti 13 min ton olan 8 tanker almışıq. Bunlar Xəzərdə hərəkət edə biləcək ən böyük tankerlərdir. Bu da ölkələrimiz arasında əməkdaşlığın yaxşı cəhətlərindən biridir, çünki biz həmin tankerləri Rusiya müəssisələrindən alırıq. Hazırda malik olduğumuz tanker donanması Xəzərdə ən azı 20 milyon ton neft və neft məhsulları daşımağa imkan verir, bu isə yüklərin indiki həcmindən qat-qat artıqdır.

**S u a l: Perspektivdə bu donanma hətta boru kəməri sisteminin alternativi ola bilər?**

**İ l h a m Ə l i y e v:** Bu təbiidir, hərçənd biz öz boru kəmərlərimizin hamısını çəkmişik. Azərbaycanın yeni boru kəmərləri tikməsinə ehtiyac yoxdur, çünki neftin nəql edil-məsi üçün müxtəlif istiqamətlərdə üç boru kəməri vardır. Qazın nəql edilməsi bizi qonşu ölkələrlə birləşdirən dörd boru kəməri ilə həyata keçirilir. Buna görə də regionda boru kəmərləri siyasətinin gələcəyi, yəqin ki, buna daha çox ehti-yacı olan dövlətlər tərəfindən müəyyən ediləcəkdir. Biz öz enerji potensialımızı tamamilə reallaşdırmışıq və mövcud boru kəmərləri bizim üçün kifayətdir.

**S u a l: Belə çıxır ki, Siz gələcəkdə Nabukko kimi qlobal layihələri tranzit ölkə olaraq dəstəkləməklə kifayətlənməyi nəzərdə tutursunuz?**

**İ l h a m Ə l i y e v:** Zərurət yaranarsa.

**S u a l: Siz bu layihəni indi necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Demək çətindir, bəyanatlar çoxdur. Bu və digər layihələr ətrafında siyasi spekulyasiyalar hədsiz

dərəcədə çoxdur. Lakin fəaliyyət çox cüzidir. Təbii ki, biz təchizatın bundan sonra da şaxələndirilməsində maraqlıyıq. Çünki bu gün qaz ixracımız regionla məhdudlaşır. Lakin potensialın çox böyük olmasını – Azərbaycanda qaz ehtiyatlarının təsdiq edilmiş minimal həcmi 2 trilyon kubmetr, real ehtiyatlar isə təqribən 5 trilyon kubmetrdir – nəzərə alsaq, yeni satış bazarlarına çıxmaq imkanı hər bir ölkə üçün cəlbedici məqamdır.

**S u a l: Siz burada Rusiya ilə münasibətləri inkişaf etdirmək imkanlarını nədə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Energetika sahəsində münasibətlərimizin kifayət qədər böyük tarixi və yaxşı nəticələri vardır. Uzun illərdir ki, Bakı–Novorossiysk neft kəməri ilə nefti Rusiya ərazisindən keçməklə nəql edirik. Bu il daşımaların həcmi xeyli artmışdır. Elektroenergetika sahəsində fəal əməkdaşlıq edirik. İndi Azərbaycan Rusiyadan idxal etdiyi elektrik enerjisindən xeyli çox elektrik enerjisini bu ölkəyə ixrac edir. 2007-ci ilə qədər Rusiya qazının alıcısı idik. Çünki o vaxt bizim öz resurslarımız çatışmırdı. Gələn ilin əvvəlindən isə biz ixracatçıya çevriləcəyik.

Bizə qaz lazım olanda Rusiyadan alırdıq. Qaz ixrac etmək imkanımız yarandıqda isə, Rusiya tərəfi ixrac üçün daha çox qaz sərbəstləşdirmək məqsədi ilə özünün cənub regionlarını təmin etməkdən ötrü bizim qazdan istifadə etməyi üstün tutmuşdur. Bu olduqca qarşılıqlı faydalı layihə-dir və biz onu çox operativ surətdə həyata keçirdik. Gələn ilin əvvəlindən malgöndərmələr başlanacaqdır. Biz layihədə bəyan edilmiş həcmlərlə kifayətlənmək fikrində deyilik. Bu, birinci ildir və həm Rusiya tərəfi, həm də biz bu məsələdə bir-birimizə uyğunlaşmalıyıq. Bu səbəbdən layihədə sifariş edilmiş həcmlər o qədər də çox deyildir. Əgər qarşılıqlı razılaşma əldə edilsə, bizim real potensialımız əvvəl nəzərdə tutulan həcmi azı iki dəfə artırmağa imkan verəcəkdir. Əgər Rusiya tərəfi buna hazır olsa, biz həcmi artırmaq fikrindəyik. Yəqin ki, Rusiya tərəfi

üçün Azərbaycan qazın-dan istifadə etmək imkanı vacib olduğu kimi, bizim üçün də Rusiya bazarına çıxmaq vacibdir.

**S u a l: Neft emalının inkişaf etdirilməsi üçün hansı imkanlar vardır? Axı hasilat həm də xammal asılılığıdır...**

**İ l h a m Ə l i y e v:** Düzdür, bizim neft emalı zavodlarını tamamilə modernləşdirmək üçün, əlbəttə, işləmək lazımdır. Emal zavodlarımızın gücü kifayət qədərdir. Hazırda Azər-baycanda emal zavodlarının gücü təqribən 20 milyon ton təşkil edir. Amma biz 6 milyon tondan bir qədər çox neft emal edirik. Yəni biz nefti xam şəkildə nəql etməyi üstün tuturuq və bu il neft ixracının həcmi 40 milyon tondan çox olacaqdır. Gələn il isə yəqin ki, bu 50 milyon tona yaxınlaşacaqdır. Yəni, bu sahədə çətinliklərimiz azdır, çünki biz nefti müxtəlif istiqamətlərə 3 boru kəməri ilə nəql edirik.

**S u a l: 2010-cu ildən etibarən Rusiya, Qazaxıstan və Belarus arasında ticarətin xüsusi qaydalarına əsaslanan vahid gömrük ittifaqı fəaliyyətə başlayacaqdır. Azərbaycan postso-vet ölkələrinin inteqrasiyasının növbəti mərhələsi olacaq vahid iqtisadi məkanda bu cür layihədə iştirak etməkdə maraqlıdırmı?**

**İ l h a m Ə l i y e v:** Müxtəlif birliklərdə iştirak etmək məsələlərində biz həmişə məqsədəuyğunluq mövqeyindən çıxış edirik. Əlbəttə, indi üç ölkə arasında yaradılan ittifaqın təcrübəsi öyrənilməlidir. Bu günə qədər biz fövqəlmilli xarakter daşıyan orqanlarda iştirak etməmişik və iştirak etmək niyyətində deyilik. Hətta bizim MDB-də kifayət qədər səmərəli və fəal iştirakımız çərçivəsində də fövqəlmilli qurumlarda iştirak etmirik. Buna görə də həmin təcrübəni öyrənmək lazımdır və bundan sonra nəticə çıxarmaq olar.

Bizim ölkənin inkişafının bugünkü səviyyəsi ciddi bir-ləşmə proseslərinə qoşulmadan da uğurla inkişaf etməyimizə imkan verir.

**S u a l: Dağlıq Qarabağ münaqişəsi Azərbaycan üçün əvvəlki kimi ağrılı olan kəskin siyasi mövzudur. Xoşbəxtlikdən bu il fəal müzakirələrlə əlamətdar olmuşdur. Sizinlə Ermənistan prezidenti arasında bir neçə görüş**

**olmuşdur. Siz Ermənistanla mövqeləri yaxınlaşdıra bilmisinizmi?**

**İlham Əliyev:** Bəzi məsələlərdə mövqelər yaxınlaşır, digərlərində yox. Buna görə də mən bu ili münaqişənin tənzimlənməsi baxımından müsbət səciyyələndirərdim. Lakin daha müsbət ola bilərdi. 2008-ci ildə Ermənistan və Azərbaycan prezidentləri arasında danışıqlar aparılmış və münaqişənin tənzimlənməsi haqqında Birgə Bəyannamə Rusiya Federasiyası tərəfindən də imzalanmışdır. Həmin sənəddə dəqiq müəyyən edilmişdir ki, münaqişə beynəlxalq hüququn prinsipləri və normaları, beynəlxalq təşkilatların qərarları və qətnamələri əsasında tənzimlənməlidir. Bunlar hansı qərar və qətnamələrdir? Təbii ki, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsidir. Artıq 20 ilə yaxındır ki, bu qətnamələr yerinə yetirilmir. Yəni əsas məsələ budur – Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması, köçkünlərin və qaçqınların öz torpaqlarına qayıtması üçün imkan yaradılması. Təəssüf ki, 2009-cu ilə bəslənilən ümidlər bizim güman etdiyimiz dərəcədə doğrulmadı.

Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin bəyanatları əlamətdar hadisə idi. 1994-cü ildə atəşkəs haqqında saziş imzalanandan sonra bu, ilk birgə sənəd idi. 2009-cu ildə məsələni həll edəcəyimizə, heç olmasa, baza prinsiplərini razılaşdıracağımıza ümid var idi. Lakin bu ümidlər doğrulmadı. Özü də bizim günahımız üzündən yox. Buna görə də 2010-cu il üçün müəyyən nikbinlik vardır. Bu onunla bağlıdır ki, Qarabağ münaqişəsinin tənzimlənməsi mövzusu beyəlxalq gündəliyin əsas mövzularından birinə çevrilmişdir. Ola bilsin ki, əvvəllər bunu tam anlamayanların çoxuna aydın oldu ki, Ermənistan–Azərbaycan münaqişəsi tənimlənmədən digər regional problemlərin heç birini həll etmək mümkün olmayacaqdır. Bu, əsas səbəbdir. Bu səbəb aradan qaldırılmadan regionda əlverişli əməkdaşlıq şəraiti yaradılması, təhlükəsizlik tədbirlərinin

möhkəmləndirilməsi mümkün deyildir. Bu münaqişəni tənzimləmək üçün isə sadəcə olaraq, Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməli, işğalçı qüvvələrini Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilərdən çıxarmalıdır. Bundan sonra regionda sülh və əməkdaşlıq bərqərar ola bilər.

Ümidvarıq ki, 2010-cu ildə əsas mövqeləri razılaşdıra biləcəyik. Biz danışıqların permanent prosesə çevrilməsinin qəti əleyhinəyik. Danışıqlar 1992-ci ildən – ATƏT-in Minsk qrupu yaradılan vaxtdan aparılır. 1994-cü ildə atəşkəs haqqında saziş bağlanmışdır. 15 il keçib, irəliləyiş var, lakin nəticə yoxdur. Buna görə də biz bu münaqişənin, sözün tam mənasında, dondurulmuş prosesə çevrilməsinə yol verə bilmərik. Onilliklər boyu davam edən başqa münaqişələrin taleyi təkrarlanmamalıdır. Biz buna heç vaxt razı olmayacağıq. Əgər Ermənistan tərəfindən konstruktivizm və ən başlıcası, sağlam düşüncə nümayiş etdirilsə, gələn il biz irəliləyə bilərik.

**S u a l: Söhbətimizi dinc və nikbin bir mövzu ilə bitirməyi təklif edirəm. Bilirəm ki, güləşin bütün növləri, şahmat Azərbaycanda idmanın ən populyar növləridir. Rusiyada oldu-ğu kimi, Sizdə də futbolu sevirlər. Ölkədə sağlam həyat tərzi və idman fəal təbliğ edilir. Bunu demək kifayətdir ki, sizdə respublikanın 60 rayonuna artıq yeni tikilmiş 30 olimpiya mərkəzi düşür. Siz Vankuver Qış Olimpiadasına nə ilə ge-dəcəksiniz və idmanın təbliğini necə dəstəkləyirsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz qış oyunlarına gedirik, lakin bu daha çox «əsas məsələ – iştirak etməkdir» prinsipi üzrədir.

**S u a l: Bu il dağ xizək idmanı olmayacaqdır?**

**İ l h a m Ə l i y e v:** Elədir. Bu yaxınlarda biz Bakıdan 200 kilometr məsafədə iri beynəlxalq dağ xizək kurortunun tikintisinə başlamışıq. Şaquli kanat yollarının, mehman-xanaların tikintisi başlanmışdır. Bir ildən, il yarımdan sonra Azərbaycanda dağ xizək idmanı ilə məşğul olmaq və idmanın bu növünü inkişaf etdirmək mümkün olacaqdır. Lakin bizim

əsas ümidlərimiz yay oyunları ilə bağlıdır. Son Olimpiya oyunlarında biz yaxşı çıxış etdik, 7 medal qazandıq. 2009-cu ildə də bir neçə idmançımız dünya və Avropa çempionu olmuşdur. Bizim şahmatçılardan ibarət komandamız Avropa çempionatında birinci yeri tutmuşdur. Bu, ciddi nailiyyətdir, xüsusən ona görə ki, bizim şahmatçıların hamısı gənclərdir. Mən onlarla görüşəndə demişdim ki, siz hamınız müstəqillik şəraitində formalaşmısınız. Onların hərəsinin təxminən 20-22 yaşı vardır. Güləş üzrə dünya çempionatında komanda hesabında birinci yeri tutmuşuq.

İdman sağlam həyat tərzinin təbliği, insanın sağlam-lığının şərti kimi, Azərbaycanda bizim həyatımızın mühüm amilidir. Siz olimpiya komplekslərini qeyd etdiniz. Biz bu prosesə kifayət qədər çoxdan başlamışıq və bu gün həmin komplekslər regionlarda idmanın inkişafı üçün bazalara çevrilmişdir.

**S u a l: Cənab Prezident özü şəxsi nümunə göstərməklə Azərbaycan idmanını dəstəkləməyi planlaşdırmır ki?**

**İ l h a m Ə l i y e v:** Bacardığım qədər dəstəkləyirəm. Mən 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Öz münasibətimlə, eləcə də sağlam həyat tərzi nümayiş etdirməklə çalışıram...

**S u a l: Yəni prezidenti xizək sürəndə krossda görmək olar?**

**İ l h a m Ə l i y e v:** Prinsip etibarilə olar. Lakin mən bunu kameraların qarşısında etmirəm.

**J u r n a l i s t: Müsahibəyə görə Sizə təşəkkür edirəm. Azərbaycana və şəxsən Sizə uğurlar arzulayıram.**

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizin suallarınız mənə ölkəmiz haqqında, görülmüş işlərin əsas istiqamətləri haqqında, nə etməyi planlaşdırdığımız barədə danışmağa imkan verdi. Mən bu fürsətdən istifadə edərək, Rusiyanın bütün vətəndaşlarına yeni ildə sülh, firavanlıq və əmin-amanlıq arzulamaq istəyirəm. Əminəm ki, ölkələrimiz arasında münasibətlər 2010-cu ildə və sonrakı illərdə ölkələrimizin və xalqlarımızın rifahı naminə uğurla inkişaf edəcəkdir.

## HESABLAMA PALATASININ YENİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*21 dekabr 2009-cu il*

*Dekabrın 21-də Bakıda Azərbaycan Respublikası Hesablama Palatasının yeni inzibati binası istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir. Dövlətimizin başçısını Hesablama Palatasının işçiləri və inşaatçılar hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyevə məlumat verildi ki, layihəsi klassik üslubda hazırlanmış və inşa olunmuş bina beşmərtəbəlidir və bir il altı aya tikilmişdir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, bina ilə tanış oldu.*

*Hesablama Palatasının sədri Heydər Əsədov prezident İlham Əliyevə məlumat verdi ki, əvvəllər burada yerləşən ikimərtəbəli inzibati bina müxtəlif dövrlərdə ayrı-ayrı məqsədlər üçün istifadə olunmuşdur. Dövlətimizin başçısının göstərişinə əsasən Hesablama Palatası üçün inşa olunmuş yeni inzibati bina qurumun daha səmərəli fəaliyyətinə geniş imkanlar açacaqdır.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünə, ulu öndərin dövlətçiliyimizin inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərdən bəhs edən fotostendə baxdı.*

*Hesablama Palatasının binasında yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, burada əməkdaşların səmərəli fəaliyyəti üçün bütün zəruri tədbirlər görülmüşdür.*

*Dövlətimizin başçısı Hesablama Palatasının akt və kollegiya zalları ilə tanış oldu, ona təhsil və elm xərclərinə nəzarət sektorunun iş prinsipləri haqqında ətraflı məlumat verildi. Palatanın iş otaqlarına baxan prezident İlham Əliyevə bildirildi*

*ki, burada əməkdaşların müasir tələblər səviyyəsində çalışması üçün hər cür şərait yaradılmışdır.*

*Hesablama Palatasının üzvləri ilə görüşən dövlətimizin başçısı onları yeni binanın istifadəyə verilməsi münasibətilə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl binanın açılışı münasibətilə sizi təbrik edirəm. Hesablama Palatası çox vacib funksiyaları yerinə yetirir. Azərbaycan iqtisadiyyatının inkişafında sizin də vacib rolunuz vardır. Palatanın fəaliyyəti bizim üçün çox vacibdir.

Bu ərazi şəhərimizin mərkəzidir. Burada yerləşən bütün binalar gözəl olmalıdır. Yeni tikilən binalar da qədim üslubda tikilməlidir. Bir neçə variant var idi, yəqin ki, siz bilirsiniz. Amma bu varianta üstünlük verildi. Ona görə ki, bu, şəhərimizə yaraşıq verir, gözəllik verir. Düzdür, burada iş həcmi bir az böyük oldu, amma nəticə etibarilə şəhərimizə yeni gözəl bina bəxş edildi. Həm daxili tərtibatı çox keyfiyyətli, gözəldir, həm də xarici görünüşü. Burada işləmək üçün hər cür şərait vardır.

Sizi bir daha bu hadisə münasibətilə təbrik edir, işlərinizdə uğurlar arzulayıram.

## SUMQAYIT TEXNOPARKININ AÇILIŞI MƏRASİMİ

*22 dekabr 2009-cu il*

*Dekabrın 22-də Sumqayıt texnoparkının (STP) birinci mərhələsində inşa olunmuş obyektlərin açılışı mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Sumqayıt texnoparkının ərazisi 45 hektardır. Parkdakı zavod korpuslarının ərazisi isə 140 min kvadratmetrdir. Burada böyük həcmdə abadlıq və yaşıllaşdırma işləri görülmüşdür.*

*Postsovet məkanında bənzəri olmayan bu texnoparkın istismara verilməsi ölkəmizdə elektroenergetikanın inkişafına, onun mövcud potensialının daha da möhkəmləndirilməsinə, enerji müəssisələrinin yenidən qurulmasına və müasirləşdirilməsinə geniş imkanlar açacaqdır. Bu möhtəşəm iqtisadi kompleksin işə düşməsi ilə respublikamızın energetika qurğuları yerli texniki avadanlıq və məhsullarla təchiz olunacaqdır. Bölgələrdəki təbii ehtiyatlardan istifadə etməklə ucuz və keyfiyyətli məhsul istehsalı qaydaya salınacaqdır.*

*Prezident İlham Əliyev əvvəlcə «Azərenerji» ASC-nin «Sumqayıt-3» 110/35/6 kilovoltluq qapalı tipli yarımstansiyasının açılışında iştirak etdi.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, «Sumqayıt-3» qapalı tipli yarımstansiya Cənubi Qafqazda istifadəyə verilən ilk belə obyektdir. Yarımstansiya az yer tutduğundan şəhər tipli yarımstansiyaların tikintisində istifadə oluna bilər. Yarımstansiya yüksək səviy-yədə avtomatlaşdırılmışdır və daxili mikronəzarət sisteminə malikdir. Təmirə ehtiyacı olmayan bu qurğunun birbaşa mərkəzi dispetçer məntəqəsindən idarə edilməsi mümkündür.*

*Yarımstansiyanın gücü 200 meqavoltamperdir. Yarımstansiya respublika enerji sisteminə qoşulmuşdur və buradan Sumqayıtın əsas sənaye obyektlərinə enerji ötürüləcəkdir.*

*Dövlətimizin başçısı yarımstansiyanı işə saldı və sonra texnoparkdakı plastik borular zavodunda istehsal prosesi ilə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bu zavodda 800 millimetrə qədər diametrli plastik borular istehsal olunacaqdır. 16 atmosfer təzyiqə davam gətirəcək belə boruların MDB məkanında ilk dəfə istehsalına başlanılır və bunlardan kabellərin çəkilməsində, kiçik su elektrik stansiyalarının tikintisində, həmçinin qaz, su və kanalizasiya sistemlərinin quraşdırılmasında istifadə ediləcəkdir. Müəssisənin illik istehsal gücü 20 min tondur. Gələn il istehsal korpusunun 2 dəfə genişləndirilməsi, məhsulun çeşidinin də 2 dəfə artırılması nəzərdə tutulur.*

* * *

*Prezident İlham Əliyev sonra mis və alüminium elektrotexniki çubuqların istehsalı zavoduna gəldi. Zavodun sahəsi 3 min kvadratmetrdir. Burada ən müasir avadanlıqlar quraşdırılmışdır və sınaq-sazlama işləri başa çatdırılmışdır.*

*Müəssisənin illik istehsal gücü 30 min tondur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, hazır mis və alüminium külçələr istehsal prosesinə verilir və yüksək keyfiyyətli bu xammaldan ən müasir standartlara cavab verən mis və alüminium çubuqlar hazırlanır.*

* * *

*Prezident İlham Əliyev daha sonra 110 kilovolta qədər gərginlik kabelləri istehsal edəcək zavodda istehsal prosesini izlədi. Məlumat verildi ki, bu zavod MDB məkanında ən qabaqcıl texnologiyalara əsaslanan yeganə müəssisədir. Burada ən son elmi-texniki yeniliklərə uyğun avadanlıq quraşdırılmışdır.*

*Müəssisədə müxtəlif en kəsikli 1, 6, 10, 35 və 110 kilovolt gərginlik kabelləri, 800 kvadratmillimetr en kəsiyində alüminium və mis məftillər, dənizdə istifadəsi nəzərdə tutulan qurğuşun örtüklü nəzarət kabelləri istehsal ediləcəkdir. Bu zavodda ildə 30 min ton alüminium və bir o qədər mis kabel istehsalı mümkündür. Burada beynəlxalq bazara ixrac edilmək üçün məhsullar da hazırlanacaqdır. 132 və 154 kilovolt gərginliyə davamlı kabellərin ixracı ilə bağlı müəssisəyə xarici ölkələrdən sifarişlər daxil olmuşdur.*

* * *

*Sonra prezident İlham Əliyev 500 kilovolta qədər gərginlik kabelləri istehsal edəcək zavodun təməlinin qoyulmasında iştirak etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu zavodun MDB məkanında analoqu olmayacaqdır. Hazırda dünyada cəmi 7 belə müəssisə fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev zavodun təməlini qoydu.*

* * *

*Dövlətimizin başçısı energetiklər və inşaatçılarla görüşərək onları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gün çox gözəl bir gündür. Sumqayıt texnoparkında yeni zavodun təməl daşını qoyduq. Bu zavod nadir sənaye müəssisəsidir. Əminəm ki, tezliklə tikilib istifadəyə veriləcək və Azərbaycanda yeni, müasir istehsal sahəsi yaradılacaqdır.

Bu bizə imkan verəcək ki, Azərbaycan öz iqtisadi və sənaye potensialını daha böyük həcmdə realizə etsin.

Bu gün Sumqayıt texnoparkı ilə tanış olarkən bir daha gördüm ki, çox böyük potensialımız vardır. Qısa müddətdə yaradılan bu sənaye şəhərciyi Azərbaycanın artan iqtisadi qüdrətini, aparılan islahatların düzgün istiqamətdə olmasını göstərir. Bu texnopark dünyanın ən yüksək standartlarına cavab

verir. Burada istehsal olunan məhsullar Azərbaycanın tələbatını tam şəkildə ödəyəcək və ixrac üçün də çox keyfiyyətli məhsullar hazırlanaraq dünya bazarına çıxarıla-caqdır.

Azərbaycanda bu sahə uğurla inkişaf edir. Çox şadam ki, bu texnopark məhz Sumqayıt şəhərində yaradılıbdır. Çünki Sumqayıtın çox böyük və zəngin tarixi, gözəl ənənələri vardır. Sumqayıt vaxtilə sənaye şəhəri kimi yaradılmışdır və biz bu gün Sumqayıtı yeni, müasir sənaye mərkəzinə çeviririk. Burada yaradılan və yaradılacaq müəssisələr Azərbaycanın gələcəkdə də sənaye gücünü artıracaq və ölkəmizin hərtərəfli inkişafı üçün yaxşı imkanlar açacaqdır.

Gələcəkdə bu böyük sənaye şəhərciyində istehsal olunacaq məhsullar Azərbaycanın potensialını yüksək dərə-cədə artıracaq və qeyri-neft sektorunun inkişafı üçün çox gözəl örnək olacaqdır.

Mən bu gözəl hadisə münasibətilə, Sumqayıt texnopar-kında yaradılmış müəssisələrin yaradılması, davam etdiril-məsi, bu gün nəhəng zavodun təməl daşının qoyulması münasibətilə bir daha sizi təbrik edirəm. Sizi qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edirəm, uğurlar və cansağlığı arzulayıram.

## KEÇMİŞ «BİNƏ» TİCARƏT MƏRKƏZİNİN YERİNDƏ APARILAN YAŞILLAŞDIRMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*Suraxanı rayonu*

*24 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də paytaxtın Suraxanı rayonundakı keçmiş «Binə» ticarət mərkəzinin yerləşdiyi ərazidə aparılan yaşıllaşdırma işləri ilə tanış olmuşlar.*

*Azərbaycanı yaşıl diyara çevirmək, Bakı və Abşeronda, eləcə də respublikamızın bütün bölgələrində ekoloji tarazlığı bərpa etmək, xüsusilə neftlə çirklənmiş ərazilərdə ətraf mühitin təhlükəsizliyini təmin etmək, insanların təmiz suya və təmiz havaya olan ehtiyacını ödəmək baxımından dövlətimizin başçısının göstərişi ilə bir sıra ardıcıl tədbirlər həyata keçirilir. Təsadüfi deyildir ki, ətraf mühitin mühafizəsinə xüsusi önəm verən prezident İlham Əliyev 2010-cu ili ölkəmizdə «Ekologiya ili» elan etmişdir.*

*Dövlətimizin başçısı və xanımı yaşıllaşdırma işləri ilə yaxından tanış olmaq üçün əraziyə gəldilər.*

*Prezidentlə xanımına gül dəstəsi təqdim olundu.*

*Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına layihə əsasında görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 85 hektar ərazidə bütövlükdə 95 min müxtəlif növ ağac əkiləcəkdir. İndiyədək 22 mindən çox ağac əkil-mişdir. 35 hektar sahədə isə müasir suvarma sistemi quraşdırılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ərazinin yaşıllaşdırılması layihəsi ilə tanış olduqdan sonra ağac əkdilər.*

*Dövlətimizin başçısı işçiləri salamladı.*

**İ l h a m   Ə l i y e v:** Sizi xoş gördük. Bildiyiniz kimi, gələn il Azərbaycanda «Ekologiya ili» elan edilibdir. Bu onu göstərir ki, biz ekoloji məsələlərin həllinə çox böyük əhəmiyyət veririk. Uzun illər bundan sonra da Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində böyük işlər görüləcəkdir. Gələn il üçün konkret proqram hazırlanıb, maliyyə resursları təşkil edilib, bütün texniki məsələlər həll olunubdur. Biz bu məsələləri artıq kütləvi şəkildə icra etməyə başlamışıq. Çünki Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması üçün hələ çox böyük işlər görülməlidir. Həm neftlə çirklənmiş əraziləri təmizləmək, həm də insanları təmiz içməli su ilə təmin etmək lazımdır. Məişət tullantıları zavodunun tikintisi də bu istiqamətdə atılan mühüm addımdır.

Abşeronda ağac əkilməsi çox böyük əhəmiyyətə malik olan məsələdir. Əfsuslar olsun ki, uzun illər ərzində bu ərazidə ticarət obyektləri antisanitariya şəraitində fəaliyyət göstərib. Onlar buradan yığışdırıldı. İş adamları üçün şərait yaradıldı. İndi mədəni, sivil qaydada ticarətlə məşğuldurlar. Kömək də edildi, kreditlər də verildi, torpaq da ayrıldı və artıq yeni, müasir səviyyədə ticarət mərkəzləri yaradıldı. Bu ərazi isə tamamilə təmizləndi və ondan sonra mən qərar qəbul etdim ki, burada böyük ağac massivləri salınsın.

Abşeronda birinci mərhələdə 3 milyon ağac əkiləcəkdir. Ancaq bu, işin başlanğıcıdır. Gələcəkdə biz daha da böyük sayda ağac əkməliyik. Hər yerdə ağac əkilməlidir. Bu həm yaraşıq, həm gözəllik, həm sağlamlıqdır, həm də havanı təmizləyir. Gələcək nəsillər bundan faydalanacaqlar. Şəhərlərimiz abadlaşır, gözəlləşir, ekoloji vəziyyət yaxşılaşır. Mən şübhə etmirəm ki, yaxın zamanlarda görülən ekoloji tədbirlər nəticəsində Azərbaycanda, xüsusilə Bakıda və Bakının ətrafında ekoloji vəziyyət xeyli yaxşılaşacaqdır.

Bir neçə gündən sonra Bakıda böyük ekoloji layihə icra ediləcəkdir. O da Bakının kanalizasiya sisteminin tamamilə yenidən qurulmasını nəzərdə tutur. Hövsanda çox böyük aerasiya stansiyası tikilib, hazırdır. Məişət tullantıları zavo-

dunun tikintisi başlanıbdır. Balaxanı zibilxanasında yaranan tüstülər azalıbdır. Orada artıq işlər başlanıbdır. Zavod işə düşəndən sonra tamamilə o sahə ekoloji vəziyyətə mənfi təsir göstərməyəcəkdir. Ağacların əkilməsi, əhalinin təmiz içməli su ilə təmin edilməsi və bütün başqa ekoloji tədbirlər davam etdirilir.

200 ilə yaxındır ki, Abşeron yarımadasında neft hasil edilir. Deyə bilərəm ki, ekoloji tədbirlərə o qədər də böyük əhəmiyyət verilməyib. Çünki Sovet İttifaqı zamanında daha çox hasilata üstünlük verilib. İndi biz neftlə çirklənmiş bütün mədənləri təmizləməliyik. Artıq işlər başlanıb, Bibiheybətdə böyük işlər görülüb, buruqların ətrafında təmizlik işləri aparılır, parklar salınır. Hər tərəf meşəlik olmalıdır, parklar olmalıdır, gözəl təbiət olmalıdır.

Mən Ekologiya və Təbii Sərvətlər Nazirliyində çalışan bütün insanlara bu işlərdə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan vətəndaşları bu gözəl, nəcib işə qoşulacaqlar. Bu ağacəkmə kampaniyası əslində davamlı bir prosesə çevrilməlidir. Sağ olun.

## ABŞERON RAYON İCRA HAKİMİYYƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*Xırdalan*

*24 dekabr 2009-cu il*

*Dekabrın 24-də prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Xırdalan şəhərində Abşeron Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Son illərdə Abşeron rayonunda aparılan genişmiqyaslı quruculuq işləri bu ilin 9 ayında da davam etdirilib. Rayon icra hakimiyyəti üçün inşa olunan yeni inzibati bina da bu prosesin tərkib hissəsidir.*

*Böyük iqtisadi və sənaye potensialına malik olan Abşeron rayonunda son illərdə aparılan abadlıq işləri Xırdalan şəhəri də daxil olmaqla, qəsəbə və kəndlərin inkişafında mühüm rol oynayır. Prospekt və küçələr boyunca yerləşən binaların və parkların müasir, zövqoxşayan forma və üslubda bərpası, yenidən qurulması işi davam etdirilir.*

*Cari ilin «Ekologiya ili» elan edilməsi bu sahədə mühüm tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir. Yeni məktəb binaları inşa olunmuş, sahibkarlığın inkişafına xüsusi diqqət yetirilmişdir. Bu il rayonda 1000-ə yaxın yeni iş yeri açılmışdır. Dövlətimizin başçısının təşəbbüsü ilə ölkəmizin bütün bölgələrində həyata keçirilən quruculuq işləri Abşeronun da inkişafında mühüm nailiyyətlərlə müşahidə olunur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası isə bu prosesə əlavə impuls vermişdir.*

*Xırdalan şəhərində inşa olunmuş Abşeron Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışına gələn prezi-dent İlham Əliyevi və xanımı Mehriban Əliyevanı icra hakimiyyətinin əməkdaşları hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstələri təqdim olundu.*

*Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlətimizin başçısına məlumat verdi ki, dördmərtəbəli, xüsusi*

*memarlıq üslubunda inşa olunan yeni inzibati binada əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Yeni binada ulu öndərin büstü qoyulmuş, Heydər Əliyevin Abşeron rayonunun inkişafında göstərdiyi xidmətlərini əks etdirən fotostend yaradılmışdır.*

*Prezident İlham Əliyev icra hakimiyyətindəki iş otaqlarında yaradılan şəraitlə tanış oldu.*

*Bina ilə tanışlıqdan sonra dövlətimizin başçısı Abşeron Rayon İcra Hakimiyyətinin kollektivi ilə görüşdü, onları təbrik etdi, gələcək fəaliyyətlərində uğurlar arzuladı.*

## Xırdalanda İkinci dünya müharibəsi veteranları, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş yaşayış binasının açılışı mərasimi

*Dekabrın 24-də Xırdalan şəhərində İkinci dünya müharibəsi veteranları, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa olunmuş yaşayış binasının açılışı, həmçinin müharibə veteranlarına və əlillərinə minik avtomobillərinin verilməsi mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya gül dəstələri təqdim olundu.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov dövlətimizin başçısına məlumat verdi ki, 4 hektar ərazidə inşa olunan binada 81 mənzil vardır. Onlardan 72-si ikiotaqlı, 9-u üçotaqlıdır. Binada əlillərin hərəkəti və rahat yaşaması üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev İkinci dünya müharibəsi veteranlarına, Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə mənzillərin orderlərini təqdim etdi.*

*Dövlətimizin başçısı, həmçinin müharibə veteranlarına və əlillərinə minik avtomobillərinin açarlarını verdi.*

**R a y a  A l i ş a n o v a:** (*Şəhid anası*) Hörmətli cənab Prezident, Mehriban xanım. Çox sağ olun ki, dəyərli vaxtınızdan bizim üçün də ayırmısınız. Mən şəhid anasıyam, əmək veteranıyam. 1994-cü ildə oğlum Ağdərə bölgəsində şəhid olub. Bu gün ona sevinirəm ki, nəvələrimizin, balalarımızın gələcəyi xoşbəxtdir. Sizin – Ali Baş Komandanın rəhbərliyi altında biz evlərimizdə əsgərlər böyüdürük.

Siz bu gün ad gününüzdə gəlib bizə mənzillər verirsiniz. Allah Sizə cansağlığı versin. Siz ad gününüzdə gəlmisiniz. Mehriban xanım, Sizin buraya gəldiyinizə görə mən çox şadam. Biz Sizinlə fəxr edirik. Sizi qoşa qarıyasınız, qoşa yaşayasınız, balalarınızın xeyrini, bəhrəsini görəsiniz. Nəvələrinizin xeyrini görəsiniz.

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, əziz bacılar və qardaşlar. Mən sizin hamınızı ürəkdən salamlayıram və sizi bu gözəl evin istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl evdə rahat yaşayın, yaxşı yaşayın. Siz buna layiqsiniz.

Mən bu gün bu gözəl evin açılışında iştirak etməklə bir daha göstərmək istədim ki, sizin – Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin problemləri Azərbaycan dövləti üçün ən başlıca vəzifədir. Siz yaxşı, gözəl şəraitdə yaşamalısınız. Bunun üçün də Azərbaycan dövləti əlindən gələni edir.

Bu birinci ev deyil ki, mən açılışında iştirak edirəm. Bundan əvvəlki illərdə də açılışlar olub, bundan sonrakı illərdə də olacaqdır. Bunu ona görə edirik ki, sizin şəraitiniz yaxşılaşsın, məişət problemləriniz həll olunsun. Bu gün Azərbaycan dövlətinin imkanları da artıb, iqtisadi cəhətdən sürətlə inkişaf edirik, maliyyə imkanlarımız artıb. Bu imkanları ilk növbədə ehtiyac içində yaşayan, sağlamlığını, yaxınlarını, qohumlarını müharibədə itirən insanların şəraitinin yaxşılaşdırılmasına yönəltməliyik. Bu, Azərbaycan dövlətinin siyasətidir. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Bütün sosial məsələlər Azərbaycanda diqqət mərkəzindədir. Evlər bundan

sonra da tikiləcəkdir. Ancaq 2009-cu ildə Qarabağ müharibəsi əlillərinə, veteranlarına, şəhid ailələrinə 700-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Əminəm ki, bu gün növbədə dayanan və mənzil şəraitini yaxşılaşdırmağa layiq olan insanların problemləri tezliklə öz həllini tapacaqdır. Çünki bizim düşünülmüş siya-sətimiz, iqtisadi potensialımız, güclü sosial siyasətimiz vardır. Bizim bütün siyasətimizin başında Azərbaycan vətən-daşı dayanır. Elə etməliyik ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Öz sağlamlığını itirmiş insanlar və onların qohumları Azərbaycan dövləti tərəfindən maksimum dərəcədə təmin olunsunlar. Gələcək illər üçün böyük planlarımız vardır. Belə gözəl evlərin sayı daha da çox olacaqdır. Hələ ki, ehtiyac içində yaşayan bütün insanlar tezliklə belə gözəl şəraitlə təmin ediləcəklər.

Biz müharibədən və erməni işğalından əziyyət çəkmiş soydaşlarımızın problemlərini də həll edirik. Azərbaycanda artıq çadır şəhərciyi yoxdur, onların yerinə müasir, gözəl, rahat evlər, qəsəbələr salındı. On minlərlə soydaşlarımız – məcburi köçkünlər yeni evlərə, qəsəbələrə köçürülüblər. Həm Bakıda, həm ölkəmizin müxtəlif şəhər və rayonlarında bö-yük quruculuq işləri aparılır.

Azərbaycan sürətlə inkişaf edir. Hətta böhranlı 2009-cu ilə baxmayaraq, ölkəmiz inkişaf edibdir. Dünyada, demək olar ki, nadir ölkələrdənik ki, iqtisadi artım təmin edilib. 2009-cu ildə bizim bütün sosial proqramlarımız icra edilib, infrastruktur layihələrimiz həyata keçirilib. 2009-cu ildə dünyada yaşanan böhran bir çox ölkəyə mənfi təsir göstər-diyi bir vaxtda Azərbaycan iqtisadiyyatı artıb. Azərbaycan-da sosial problemlərin, proqramların həllində nə bir dənə yubanma, geriləmə, nə də həllini tapmayan məsələ olmadı. Bu onu göstərir ki, Azərbaycanın seçdiyi yol yeganə düzgün yoldur: siyasi sabitlik, iqtisadi inkişaf, sosial rifah, bütün infrastruktur layihələrinin icra edilməsi, ordu quruculuğu.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllinə çox çalışırıq. Biz çox istəyirik ki, məsələ tezliklə öz

həllini tapsın. Ancaq məsələ beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İşğal edilmiş bütün torpaqlardan erməni işğalçıları çıxarılmalıdır. Vətəndaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Məsələnin həlli üçün əsas prinsiplər bunlardır. Azərbaycan bu prinsipial mövqeyindən bir addım geri atmayacaqdır. Biz bütün imkanlarımızı səfərbər edib məsələnin tezliklə ədalətli, Azərbaycanın maraqlarına və beynəlxalq normalara uyğun şəkildə həllinə çalışacağıq.

Əfsuslar olsun ki, 2009-cu il də həlledici il olmadı. Halbuki 2009-cu ilə böyük ümidlər bəslənilirdi. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə biz bir nəticəyə gələ bilməmişik. Bu gün məsələ ilə məşğul olan bütün tərəflər problemin ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını dəstəkləyir. O cümlədən Ermənistan tərəfi də məcbur olub məsələnin ərazi bütövlüyü çərçivəsində həll olunmasını nəzərdə tutan siyasi sənədə qol çəkib.

Ancaq o da həqiqətdir ki, məsələni həll etmək üçün güclü dövlətimiz, güclü ordumuz olmalıdır. Azərbaycanda ordu quruculuğu da çox sürətlə gedir. Bu gün Azərbaycan Cənubi Qafqaz bölgəsində bütün parametrlər üzrə aparıcı ölkədir. Bunu beynəlxalq aləm də bilir. Dünyada iqtisadi tənəzzül yaşandığı bir vaxtda Azərbaycan iqtisadiyyatı inkişafdadır, infrastruktur layihələri, sosial məsələlərin həlli, şəhərlərimizin abadlaşması, ordu quruculuğu – Azərbaycan Ermənistanı bütün istiqamətlər üzrə bir neçə dəfə qabaqlayır. Ermənistan ilə Azərbaycan arasında həm iqtisadi, həm bütün başqa sahələrdə yaranmış məsafə, yəni uçurum daha da böyüyür. Bu gün iqtisadi və hərbi gücümüz bizə imkan verir ki, məsələni hərbi yolla həll edək. Ancaq biz istəyirik ki, müharibə olmasın, şəhidlər verilməsin. Məsələ dinc yolla, danışıqlar yolu ilə həll olunsun. Bununla bərabər, hər an Azərbaycan ordusu və Azərbaycan cəmiyyəti hazır olmalıdır ki, torpaqlarımızı işğalçılardan istənilən yolla azad edək.

Mən bir daha qeyd etmək istəyirəm ki, biz bu açılışı başqa gündə də edə bilərdik. Mən istədim ki, məhz bu gün sizinlə bərabər olum. Bir daha sizi alqışlayıram, salamlayıram. Sizi qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə ürəkdən təbrik edirəm və sizə cansağlığı arzulayıram.

## XALQ ARTİSTİ ƏMİNƏ XANIM DİLBAZİYƏ

Hörmətli Əminə xanım!

Sizi – Azərbaycan milli rəqs sənətinin böyük ustadını yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və uğurlar arzulayıram.

Siz xalqımızın qədim rəqs mədəniyyətinin inkişafı naminə istedad və bacarığınızı illər boyu fədakarcasına sərf etmiş sənətkarlardansınız. Klassik milli rəqslərimizi yeni ifa tərzi ilə zənginləşdirərək Siz əsl sənət inciləri yaratmısınız. Fəaliyyətiniz boyu Sizin repertuar hər zaman öz rəngarəngliyi ilə səciyyələnmişdir.

Tarixi kökləri qədimlərə bağlanan rəqslərimizin parlaq nümunələrinin yaşadılmasına layiqli töhfələr verməklə yanaşı, Siz dünya xalqları rəqslərinin mahir ifaçısı kimi də tamaşaçıların qəlbinə yol tapmısınız. Azərbaycan mədəniyyətinin xarici ölkələrdə tanınmasında və geniş şöhrət qazanmasında özünəməxsus yeriniz vardır.

Zəngin pedaqoji təcrübənizi ölkəmizdə milli xoreoqrafiyanın inkişafına yönəldərək, Siz xalq rəqslərinin sirlərinə bələd olan yeni ifaçılar nəslinin hazırlanması yolunda yorulmadan çalışmısınız. Adınız ölkəmizdə professional və özfəaliyyət rəqs ansamblların yaradılması ilə də sıx bağlıdır.

Yarım əsrdən bəri «Xalq artisti» fəxri adını ləyaqətlə daşıyaraq Siz gənclər üçün sənətə sadiqlik rəmzinə çevrilmisiniz. Uzunmüddətli fəaliyyətiniz dövründə layiq görüldüyünüz çoxsaylı təltiflər, həmçinin müstəqil Azərbaycan Respublikasının ali mükafatı – «İstiqlal» ordeni Sizin nadir sənətinizə və şəxsiyyətinizə dövlət tərəfindən verilmiş yüksək qiymətdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2009-cu il*

## GƏNCLƏR TƏŞKİLATLARI MİLLİ ŞURASININ XI QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Əziz gənclər!

Sizi – Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının XI qurultayının iştirakçılarını ürəkdən salamlayır, hər birinizə cansağlığı, səadət və ölkəmizin inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Dövlət müstəqilliyimizin bərpasından sonra ötən illər ərzində Azərbaycan gəncliyi ona göstərilən yüksək diqqət və qayğıya layiqincə cavab verərək ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilmişdir. İctimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində gənclərimizin əldə etdikləri müvəffəqiyyətlər hər bir vətəndaşımızın qəlbində qürur hissi oyadır. Bu yaxınlarda Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təsis olunmasını siz gənclərin azərbaycançılıq məfkurəsi işığında sıx birləşməyə doğru atdığınız mühüm addım kimi qiymətləndirirəm.

Qloballaşan dünyanın reallıqları və sürətli inteqrasiya prosesləri ən müasir texnologiyalardan istifadə vərdişlərinə yiyələnməklə yanaşı, milli mənəvi dəyərlərin müxtəlif təsirlərə məruz qalmaq təhlükəsindən qorunmasını son dərəcə zəruri edir, gənc nəslin Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə və adət-ənənələrinə ehtiram ruhunda yetişdirilməsi tələbini irəli sürür. Bugünkü gəncliyimizi yüksək mədəni-intellektual potensial, informasiya-kommunikasiya texnologiyalarından məharətlə istifadə bacarığı və xalqımızın zəngin mədəni irsinə dərin bağlılıq səciyyələndirməlidir.

İnnovasiyalara maraq göstərən və öz biliyi, savadı ilə Vətənimizin gələcək inkişafına töhfələr verməyə qadir olan geniş dünyagörüşlü, intellektli vətənpərvər gənc nəslin for-

malaşdırılması ali məqsədlərimizdəndir. Bu gün Azərbaycanın dinamik inkişaf edən ölkə kimi, biliklərə əsaslanan iqtisadiyyatın qurulması və informasiya cəmiyyətinin yaradılması istiqamətində qazandığı nailiyyətlər yetişməkdə olan nəslin qarşısında geniş perspektivlər açır və bizim gəncliyə bəslədiyimiz ümidləri xeyli artırır.

Respublika Gənclər Təşkilatları Milli Şurasının və onun ətrafında birləşən qüvvələrin dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər, apardığı əməli işlər təqdirəlayiqdir. Ölkəmizin hüdudlarından kənarda yaşayan və təhsil alan azərbaycanlı gənclərlə, həmçinin digər ölkələrin gəncləri ilə əməkdaşlıq əlaqələrinizin getdikcə daha intensiv şəkil alması və dərinləşməsi sevindirici haldır.

Ümidvaram ki, qurultay zamanı müzakirə ediləcək məsələlərlə bağlı qəbul edəcəyiniz qərarlar Gənclər Təşkilatları Milli Şurasının öz fəaliyyətini bundan sonra da dolğun və səmərəli qurması işində əhəmiyyətli rol oynayacaqdır.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2009-cu il*

## HÖVSAN AERASİYA STANSİYASININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2009-cu il*

*Dekabrın 25-də əsaslı şəkildə yenidən qurulmuş Hövsan aerasiya stansiyasının açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Baş nazirin müavini Abid Şərifov dövlətimizin başçısına məlumat verdi ki, Bakının çirkab sularının 60 faizi Hövsan aerasiya stansiyasında təmizlənərək dənizə axıdılır. Uzun illər istismarda olan avadanlığın köhnəlməsi və Xəzərin ekoloji təmizliyinə diqqətin artırılması stansiyanın yenidən qurulması zərurətini yaratmışdır. Dövlətimizin başçısının tapşırığına əsasən 2007-ci ilin sonlarından stansiyanın tamamilə yenidən qurulması prosesinə başlanılmışdır. Stansiyanın ərazisində yeni qurğular tikilmiş, avadanlıq tamamilə təzələnmişdir. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən yenidən qurulan bu stansiya nəhəng infrastruktur layihələrindən biridir.*

*Dövlətimizin başçısı stansiyanın idarəetmə mərkəzi ilə tanış oldu.*

*Prezident İlham Əliyev əvvəlcə Zığ nasos və Hövsan aerasiya stansiyalarındakı avadanlığın əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxdı, Abşeron yarımadasının kanalizasiya sistemi qurğularının yerləşməsi sxemi ilə tanış oldu.*

*«Azərsu» ASC-nin prezidenti Nizaməddin Rzayev dövlətimizin başçısına Hövsan aerasiya stansiyasının təmizləmə prosesinin texnoloji sxemi barədə məlumat verdi. Qeyd olundu ki, stansiya tam avtomatlaşdırılmışdır.*

*Prezident İlham Əliyevə stansiyada yeni tikilmiş və yenidən qurulmuş, həmçinin tikintisi nəzərdə tutulan təmizləyici qurğular və nasos stansiyaları barədə də məlumat verildi.*

*Dövlətimizin başçısı stansiyanın baş planı ilə tanış oldu. Bildirildi ki, stansiya mərkəzləşdirilmiş idarəetmə sistemi ilə işləyir və çirkab suyunun mexaniki, bioloji və kimyəvi zərərsizləşdirilməsi proseslərinə tam nəzarət olunur. Hər hansı bir nasazlıq monitorda dərhal qeydə alınır.*

*Prezident İlham Əliyevə Abşeron yarımadasındakı süni göllərin ekoloji durumunun yaxşılaşdırılması və çirkab sularının, həmçinin sahil boyu dənizə zərərli axıntıların qarşısının alınması və təmizlənməsi üçün lokal sutəmizləyici qurğuların tikilməsi, Bakı kəndlərinin kanalizasiya sisteminin yaradılması haqqında da ətraflı məlumat verildi.*

*Prezident İlham Əliyev idarəetmə mərkəzindən yeni stansiyanı işə saldı.*

*Sonra dövlətimizin başçısı stansiyada aparılmış yenidənqurma işləri ilə tanış oldu. Məlumat verildi ki, paxtaxtın kanalizasiya suları stansiyaya giriş kamerasından daxil olur, sonra barmaqlıqlar sexinə ötürülür.*

*Suyu irihəcmli yad cisimlərdən təmizləyən bu sex ən müasir texnologiya əsasında tamamilə təzələnmiş, köhnə avadanlıq yenisi ilə əvəz olunmuşdur. Sexi elektrik enerjisi ilə qidalandıran ayrıca məntəqə yaradılmışdır. Çirkab suları buradan qumdan təmizləmə sexinə ötürülür. Quraşdırılmış yeni texnologiya çirkab sularının ən xırda mikroorqanizmlərə qədər təmizlənməsinə imkan verir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, stansiyada suyun bioloji təmizlənməsini təmin etmək üçün hər birinin 36 min kubmetr tutumu olan iki çən quraşdırılmışdır. Sonrakı mərhələdə su dearatorlarda qazdan təmizlənir və təkrar dövretmə prosesi həyata keçirilir.*

*Prezident İlham Əliyev duruldducu hovuzlara da baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, suyun durulduculara ötürülməsi üçün xüsusi kanal çəkilmişdir. Durulducu*

*hovuzlarda lilin və suyun üzündəki maddələrin təmizlənməsi üçün xüsusi nasoslar quraşdırılmışdır. Stansiyaya lilqurutma sexi və kompressor binası da daxildir.*

*Stansiyanın ayrı-ayrı qurğuları ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurma işləri zamanı 2 saylı Zığ nasos stansiyasından Hövsan aerasiya stansiyasına uzunluğu 5 min metrdən çox olan şüşə lifli yüksək təzyiqli boru xətti çəkilmişdir.*

*Tikinti işləri ilə yanaşı, stansiyanın ərazisinin abadlaşdırılmasına da xüsusi diqqət yetirilmiş, geniş sahədə asfalt-beton işləri görülmüş, yeni yaşıllıq zolaqları salınmışdır. Stansiyanın işıqlandırma sistemi tamamilə yeniləşdirilmişdir. Əsaslı yenidənqurma işləri başa çatdıqdan sonra stansiyanın sutkalıq gücü 480 min kubmetrdən 640 min kubmetrə çatmışdır.*

*Hövsan aerasiya stansiyasının işçiləri və inşaatçılarla görüşən prezident İlham Əliyev kompleksdə aparılan yenidənqurma işlərindən razılığını bildirdi.*

**İlham Əliyev:** Çox yaxşı yaratmısınız. Gərək yaxşı da istismar edəsiniz ki, Bakı şəhərinin bütün ekoloji problemləri həllini tapsın. Dünən ağacəkmə prosesinə başladıq, bu gün Hövsan aerasiya stansiyasının işə salınma-sında iştirak edirik. Bütün bunlar onu göstərir ki, ekologiya məsələlərinə çox böyük diqqət yetirilir. Vaxtilə icrasına başlanılmış bu böyük layihə artıq başa çatdı. Beləliklə, Bakının bütün kanalizasiya məsələləri yaxın zamanlarda həll olunacaqdır. Çox işlər görülüb, hələ çox işlər də görülməlidir. Növbəti 2-3 ildə ətraf qəsəbələr daxil olmaqla, bütün şəhərin su-kanalizasiya məsələləri tamamilə həll olunacaqdır.

Təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İDMANÇILARA, MƏŞQÇİLƏRƏ VƏ İDMAN MÜTƏXƏSSİSLƏRİNƏ MÜKAFATLARI TƏQDİM ETMƏSİ MƏRASİMİ

*25 dekabr 2009-cu il*

*Dekabrın 25-də Milli Olimpiya Komitəsi (MOK) 2009-cu ilə yekun vurmuş, idmançılara, məşqçilərə və idman veteranlarına, mütəxəssislərinə mükafatlar təqdim edilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı əvvəlcə MOK-un inzibati binasının foyesində Azərbaycanın idman həyatına, idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları qələbələrə, ölkəmizdə idmana dövlət qayğısına həsr olunmuş sərgiyə baxdı.*

*Sonra mərasim keçirildi. MOK-un İcraiyyə Komitəsinin iclas salonuna toplaşanlar dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

2009-cu il başa çatır və biz ənənəvi olaraq ilin sonunda görüşürük. Bu görüşlərin çox böyük əhəmiyyəti vardır. Həm bir-birimizi görürük, həm də ilin yekunları haqqında danışırıq və hər il yeni idmançılarımızın yeni uğurlarını qeyd edirik.

2009-cu il Olimpiya oyunlarından keçən birinci ildir. Adətən, Olimpiya oyunlarından sonra idmançılarda müəyyən mənada arxayınçılıq meyilləri güclənir, istirahətə daha çox

üstünlük verilir. Bu da başa düşüləndir. 2009-cu ildə idmançılarımız çox gözəl nəticələr göstərmişlər. Bütün beynəlxalq yarışlarda 600-dən çox medal qazanılmışdır ki, onların təxminən yarısı qızıl medallardır. 4 idmançımız olimpiya idman növləri üzrə dünya çempionatlarında birinci yerləri tuta bilmişlər. Bu da çox böyük göstəricidir.

Bizim güləş komandamız dünya çempionatında, dünya miqyasında komanda hesabı ilə birinci olmuşdur. Bu da tarixi qələbədir və böyük nailiyyətdir. Nəzərə alsaq ki, dünyada güləş çox populyar idman növüdür və yarışlarda 100-dən artıq ölkəni təmsil edən idmançılar iştirak edirlər, bu həqiqətən də böyük və tarixi qələbədir. Gənc şahmatçılarımız Avropa çempionatında birinci yeri tuta bilmişlər. Bu, Azərbaycanın intellektual potensialını göstərir və o da çox əlamətdar haldır ki, şahmatçılarımızın hamısı gənclərdir. Onlar vətəndaş və idmançı kimi müstəqillik dövründə formalaşıblar. Digər idman növündə – avarçəkmədə də tarixi qələbələr qazanılmışdır. İlk dəfə Azərbaycanda avarçəkmə idman növü üzrə dünya çempionumuz vardır və bu idman növünün Azərbaycanda inkişafı üçün çox böyük işlər gö-rülür. Kür Beynəlxalq Olimpiya Bazası tikilməkdədir və yəqin ki, biz gələn il bu nəhəng obyektin açılışında iştirak edəcəyik. Bütün digər idman növlərində də uğurlarımız vardır. Əvvəllər uğurlarımız bir-iki idman növünü təmsil edən idmançılarla məhdudlaşırdı. Ancaq bu gün dünya və Avropa çempionatlarında bizim uğurlarımız o qədərdir ki, bütün idman növlərini sadalamaq üçün xeyli vaxt lazımdır.

Azərbaycan ictimaiyyəti, əlbəttə ki, bu uğurlardan xəbərdardır. Çünki idman Azərbaycanda ənənəvi olaraq diqqət mərkəzindədir. Bütün kütləvi informasiya vasitələri idman yarışlarını geniş işıqlandırır. Əminəm ki, gələcək illərdə idmana, idmançılara daim diqqət və qayğı göstəriləcəkdir. Bütün idman cəmiyyətləri, klublar, federasiyalar tərəfindən. Azərbaycan-da bütün idman qurumları öz fəaliyyətlərini əlaqəli şəkildə qurublar və hesab edirəm ki, uğurlarımızın əsas səbəbi

məhz ondadır. Çünki biz beynəlxalq aləmdə baş verən hadisələri izləyirik və bilirik ki, bir çox ölkələrdə olimpiya komitələri ilə nazirliklər, federasiyalar arasında ixtilaflar, ziddiyyətlər, qarşıdurmalar vardır. Azərbaycanda isə idmana cavabdehlik daşıyan bütün qurumlar – həm Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri vahid komanda şəklində fəaliyyət göstərirlər.

2009-cu il Azərbaycanın idman şöhrətinin ucaldılması işində çox mühüm il olmuşdur, gənclərimiz də bizi sevindirmişlər. Cüdoçularımızı xüsusi qeyd etmək istəyirəm. Onlar çox ağır psixoloji şəraitdə cüdo üzrə Avropa çempionatından Vətənə böyük qələbə ilə qayıtmışlar. Çünki bu yarış İrəvanda keçirilirdi. İdmançılarımızın çiyinlərinə böyük və məsuliyyətli yük düşmüşdü. Azərbaycan idmançıları ilk dəfə olaraq Ermənistanda yarışlarda iştirak edirdilər. Azərbaycan Avropa çempionatında 5 idmançı ilə iştirak edirdi və beşi də Vətənə medal gətirdi, beşi də Azərbaycanın Dövlət bayrağını İrəvanda ucaltdı. Bir dəfə Azərbaycanın Dövlət himni İrəvanda səsləndi. Bu, böyük qəhrəmanlıqdır, tarixi nailiyyətdir. Bu, Azərbaycan idmanının, Azərbaycan gəncliyinin, Azərbaycan dövlətinin zəfəri, təntənəsi idi.

Bu onu göstərir ki, Azərbaycanda idmanın inkişafı düşünülmüş şəkildə inkişaf etdirilir. Azərbaycanda çox güclü və peşəkar gənc nəsil yetişir. Gənclər arasında müxtəlif beynəlxalq yarışlarda idmançılarımız böyük qələbələr qaza-nırlar. Çünki Azərbaycanda idmanın inkişafı və təlim-məşq toplanışları, idmanın inkişafı ilə bağlı bütün məsələlər düzgün istiqamətdə inkişaf edir. Belə olmasaydı, gənclər arasında uğurlarımız o qədər böyük olmazdı.

Veteran idmançılara da çox böyük qayğı göstərilir. İd-mançı bilir ki, böyük nəticələr əldə etsə, gələcəkdə veteran kimi, dövlət tərəfindən qayğı və diqqətlə əhatə olunacaqdır. Çünki idmançıların idman həyatı o qədər də uzun deyildir. Onlar öz bacarıqlarını, imkanlarını Azərbaycanın idman şöhrətinin

qaldırılmasına yönəldirlər və idmandan gedəndən sonra biz də onlara daim qayğı göstərməliyik.

Mən bu gün qaliblərimizi qeyd etdim, gəncləri qeyd etdim, veteranları da qeyd etmək istəyirəm. Bu il bizim görkəmli idmançımız Namiq Abdullayevin idmanla vidalaş-ma ili olmuşdur. İdmançı kimi, onun Azərbaycanın idman şöhrətinə verdiyi töhfələr çox dəyərlidir.

Sidney Olimpiya oyunlarında Namiq və Zemfira Azərbaycana iki qızıl medal gətirmişdilər. O vaxt və hətta bu gün Olimpiya oyunlarında iki qızıl medal qazanmaq böyük qələbədir. Xüsusilə o illərdə ki, hələ Azərbaycanda idmanın əsaslı inkişafı ibtidai vəziyyətdə idi. O qələbələr Azərbaycanın idman imkanlarının genişlənməsinə çox böyük təsir göstərmişdir. O qələbədən sonra idman bölmələrinə uşaqların axını nə qədər gücləndi, idmana maraq nə qədər artdı. Azərbaycan idman qələbələri ilə öyünürdü. Ona görə, bu il həm qələbə qazanmış idmançıları, eyni zamanda, idmanla vidalaşan idmançıları da qeyd etməliyik. Çox şadam ki, Namiq öz fəaliyyətini Güləş Federasiyasında davam etdirir. Onun və digər veteran idmançıların təcrübəsi gənc nəslin yetişməsində çox önəmlidir.

Azərbaycanda idmanla məşğul olmaq üçün gözəl şəraitin yaradılması prosesi davam edir. Bu gün səhər mən Şağan qəsəbəsində yeni Olimpiya-İdman Kompleksinin açılışında iştirak edirdim. Bu, gözəl ənənədir, 20-dən çox, haradasa 30-a yaxın olimpiya kompleksi Azərbaycanda artıq fəaliyyət-dədir. Bu il 5 Olimpiya İdman Kompleksi istismara verildi. Gələn il də ən azı 5 olimpiya kompleksi istismara veriləcəkdir. Baxmayaraq ki, 2009-cu il bütün ölkələr üçün sınaq ili olmuşdur. Yəni, dünyanı bürümüş maliyyə böhranı Azərbaycandan da yan keçməmişdir. Ancaq Azərbaycanda bu vaxta qədər görülən işlər, aparılan islahatlar bizi, demək olar ki, böyük çətinliklərdən qorudu. Bizim düşünülmüş siyasətimiz və 2009-cu ildə atılan addımlar elə şərait yaratdı ki, əhalimizin tam əksəriyyəti böhranı hiss etmədi. Ancaq ölkəmizin maliyyə

imkanları məhdudlaşdı. Çünki iqtisadi problemlər, dünyada baş verən hadisələr Azərbaycana da təsir etdi. Buna baxmayaraq, Azərbaycanda bütün sosial infrastruktur layihələri uğurla icra edildi, ölkəmizdə 5 yeni Olimpiya İdman Kompleksi yaradıldı. Bu proseslər gələcək illərdə davam etdiriləcəkdir. Tikilməkdə olan komplekslərin bəzilərində tamamlama işləri aparılır. Bundan sonrakı illərdə biz maksimum dərəcədə çalışmalıyıq ki, Azərbaycanın hər bir rayonunda idmanla məşğul olmaq üçün yaxşı imkanlar, yaxşı şərait olsun. Biz bu işlərin nəticələrini görürük. Həm idmanın kütləviliyi artır, insanlar öz sağlamlıqlarını möhkəmləndirirlər, həm də bölgələrdə çoxlu istedadlı gənc idmanla məşğul olmaq imkanı əldə edir.

Bax, Azərbaycanın idman imkanları gələcəkdə də bu cür inkişaf edəcəkdir. Həm idmançıların uğurlu çıxışları, həm də ölkəmizdə keçirilən və gələcəkdə keçiriləcək beynəlxalq idman yarışları gözəl ənənəyə çevrilibdir. İdman infrastruk-turunun yaradılması, federasiyaların, bütün idman cəmiyyət-lərinin uğurlu fəaliyyəti, uşaqların, yeniyetmələrin idmana cəlb edilməsi prosesi nəinki idman üçün, ölkəmiz üçün lazımdır. Çünki insanlarımız sağlam olmalıdırlar. İnsanların sağlamlığı üçün müxtəlif tədbirlər görülür, bölgələrdə müalicə-diaqnostika mərkəzləri tikilir. Mən hər dəfə diaqnostika mərkəzlərinin açılışında o bölgələrdə yaşayan insanlara deyirəm ki, ildə bir dəfə müayinədən keçin. Bu gün Azərbaycanın bölgələrində quraşdırılan avadanlıqlar dünyanın ən qabaqcıl xəstəxanalarında quraşdırılan avadanlıqlardan fərqlənmir. Ona görə ki, insanlarımızın sağlamlığı üçün kompleks tədbirlər görülür. İdman da o tədbirlərin sırasında öz yerini tutur. Ekoloji tədbirlər də gücləndirilir. Gələn il Azərbaycanda «Ekologiya ili» elan edilib. Əminəm ki, gələn il ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində çox vacib işlər aparılacaqdır. Əlbəttə, təkcə gələn illə məhdudlaşmayacaq, ondan sonrakı illərdə də bu işlərə böyük əhəmiyyət verəcəyik.

İdman sağlamlıqdır, sağlam həyat tərzidir, ölkələrin şöhrətidir, ölkələrin ümumi inkişafının göstəricisidir. Bey-

nəlxalq idman yarışlarının nəticələrinə nəzər salsaq görərik ki, əksər hallarda inkişaf etmiş ölkələrin idmançıları uğurlar əldə edirlər. Azərbaycan da inkişaf etmiş ölkə olacaqdır. Bunun üçün bütün tədbirlər görülür. Azərbaycanda dövlət tərəfindən idmana göstərilən qayğı çox yüksək səviyyədədir. Bunu idmançılar da görürlər. Beynəlxalq idman qurumları da bunu bəyan edirlər və Azərbaycanın təcrübəsini bir çox hallarda nümunə kimi göstərirlər.

Bizim gözəl idmançılarımız, çox istedadlı gənclərimiz vardır. Biz gələcəyə nikbinliklə baxırıq. Azərbaycan gənclərinin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idmanın çox böyük və əvəzolunmaz rolu vardır.

Mən bu bayram ərəfəsində bir daha bütün idmançıları 2009-cu ildə qazanılmış qələbələr münasibətilə təbrik etmək istəyirəm. İdman mütəxəssislərini, məşqçiləri, bütün idman ictimaiyyətini həm əldə edilmiş uğurlarla, həm də qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. İdmançılara yeni ildə yeni uğurlar arzulamaq istəyirəm. Bütün idman ictimaiyyətini bir daha əmin etmək istəyirəm ki, mən bundan sonra da öz fəaliyyətimdə idmanla bağlı məsələlərə xüsusi diqqət göstərəcəyəm və Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün səylərimi davam etdirəcəyəm. Sağ olun.

## ŞAĞAN QƏSƏBƏSİNDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2009-cu il*

*Dekabrın 25-də Bakının Şağan qəsəbəsində Olimpiya İdman Kompleksinin açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, ölkəmizdə sayca 24-cü olan Olimpiya İdman Kompleksi ilə tanış oldu.*

*Gənclər və İdman naziri Azad Rəhimov məlumat verdi ki, kompleks «Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı»na əsasən inşa olunmuşdur.*

*Tikintisinə 2007-ci ilin noyabrında başlanılmış kompleksin ümumi sahəsi 3,25 hektardır. Əsas korpus ikimərtəbəlidir. Korpusun birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin respublikamızda bədən tərbiyəsinin və idmanın inkişafına göstərdikləri diqqət və qayğını, idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda uğurlarını əks etdirən fotostend quraşdırılmışdır. Burada universal idman, güləş və trenajor zalları, hakimlər otağı, soyunub-geyinmə və digər xidmət otaqları yerləşir.*

*Dövlətimizin başçısı kompleksin universal idman zalı ilə tanış oldu. İdmanın futbol, həndbol, voleybol, basketbol növləri ilə məşğul olmaq və yarışlar keçirmək üçün nəzərdə tutulan bu zaldakı tribunada 620 oturacaq quraşdırılmışdır.*

*İdmanın güləş, boks və digər döyüş növləri üçün nəzərdə tutulmuş zala baxan Azərbaycan prezidentinə məlumat verildi ki, burada 615 tamaşaçı yeri quraşdırılmışdır. Dövlətimizin başçısı trenajor zalına baş çəkdi. Buradakı avadanlıqlar müasirliyi ilə diqqəti cəlb edir. İndi ölkəmizdə ənənəvi olmayan idman növlərinin inkişafı da diqqət mərkəzindədir. Azərbaycanda bədən tərbiyəsi və idmanın hərtərəfli inkişafı üçün*

*2009–2020-ci illəri əhatə edən milli strategiya bu baxımdan geniş imkanlar açır.*

*Bildirildi ki, kompleksdəki zallarda həm mini futbol, basketbol, voleybol, həm də gimnastika, boks, güləş üzrə beynəlxalq səviyyəli yarışlar keçirmək mümkündür.*

*Binanın ikinci mərtəbəsində yeməkxana, konfrans zalı, həkim otağı və digər xidmət bölmələri fəaliyyət göstərir. Prezident İlham Əliyev yeməkxana ilə tanış oldu.*

*Sonra isə qapalı üzgüçülük hovuzunun yerləşdiyi korpusa gəldi. Burada uzunluğu 25, eni isə 12,5 metr olan hovuzun ətrafında 135 oturacaq quraşdırılmışdır. Korpusun inzibati hissəsi ikimərtəbəlidir. İkinci mərtəbədə məşqçi və şərhçi otaqları, şahmat otağı, həmçinin yarışları izləmək üçün lojalar vardır.*

*Dövlətimizin başçısı kompleksin ərazisində inşa olunmuş mehmanxana ilə tanış oldu. İkimərtəbəli mehmanxana 25 nəfər üçün nəzərdə tutulmuşdur. Burada 12 standart və bir lüks otaq vardır.*

*Açıq havadakı idman qurğuları ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada tennis kortları, mini futbol və voleybol meydançaları yaradılmışdır.*

*Prezident İlham Əliyev kompleksin ərazisində 1032 tamaşaçı yeri olan süni örtüklü stadiona da baxdı. Ən yüksək standartlara cavab verən stadionda idmançılar, məşqçilər və xidmət heyəti üçün hər cür şəraiti olan pavilyon vardır.*

*Şağan Olimpiya İdman Kompleksi üçün ayrıca qazanxana, transformator yarımstansiyası, üç su anbarı tikilmiş, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılmış, ağaclar və gül kolları əkilmişdir.*

*Dövlətimizin başçısı kompleksdə görülən işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## SƏMƏD VURĞUN VƏ «MUĞAM» BAĞLARINDA APARILMIŞ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*28 dekabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 28-də Bakıdakı Səməd Vurğun və «Muğam» bağlarında aparılmış əsaslı bərpa və yenidənqurma işləri ilə tanış olmuşlar.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə bu istirahət guşələrində aparılan yenidənqurma tədbirləri barədə ətraflı məlumat verdi.*

*Bildirildi ki, görkəmli şairin adını daşıyan bağ Azərbaycan prezidentinin Bakı şəhərində parkların və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı verdiyi tapşırıqlara əsasən abadlaşdırılmışdır. Burada əhalinin istirahəti üçün ən müasir şərait yaradılmışdır.*

*Qeyd olundu ki, Səməd Vurğun bağının ərazisi genişləndirilərək 26 min kvadratmetrə çatdırılmışdır. Bağın asfalt örtüyü sökülərək yerinə qranit və mərmər piltələr döşənmişdir. Səməd Vurğun bağında şairin möhtəşəm abidəsi də təmirdən sonra yeni görkəm almışdır.*

*Azərbaycan Prezidenti və xanımı bağın ərazisini gəzdilər, yaradılan şəraitlə yaxından tanış oldular.*

*İtaliyalı mütəxəssislər tərəfindən tikilmiş fəvvarə bağa xüsusi yaraşıq verir.*

*Yenidən qurulan hər iki bağdakı işıqlandırma sistemi italiyalı mütəxəssislər tərəfindən quraşdırılmışdır və Venesiya üslubundadır. Səməd Vurğun bağında nəfis yaşıllıq guşələri yaradılmış, 24 mindən çox dekorativ gül və bəzək kolları əkilmişdir. Burada milli və beynəlxalq təcrübə yüksək peşəkarlıqla uzlaşdırılmışdır. Bu istirahət guşələrində çox rahat və gözəl dizayna malik oturacaqlar quraşdırılmışdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, hər iki bağın ətrafında əsaslı abadlıq və yaşıllaşdırma tədbirləri görülmüşdür.*

*Sonra dövlətimizin başçısı və xanımı orijinal layihə əsasında yenidən qurulan «Muğam» bağı ilə tanış oldular. Qeyd edildi ki, gözəlliyi ilə ilk baxışdan diqqəti çəkən bu istirahət ocağının da ərazisi genişləndirilərək 21 min kvadratmetrə çatdırılmışdır. Bu bağda da asfalt örtüyü sökülərək yerinə qranit və mərmər piltələr döşənilmişdir. Burada köhnə tikililər söküldükdən sonra ərazi tamamilə yeni görkəm almışdır.*

*Bağda italiyalı mütəxəssislər tərəfindən gözoxşayan fəvvarə inşa olunmuşdur. Əsaslı yenidənqurmadan sonra həmin istirahət guşəsi də füsunkar görkəm almışdır.*

*Hər iki bağın yaxınlığındakı 28 May və Puşkin küçələrinə yeni asfalt örtüyü döşənmişdir.*

*Görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## RESPUBLİKA PERİNATAL MƏRKƏZİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*28 dekabr 2009-cu il*

*Dekabrın 28-də Bakıda Respublika Perinatal Mərkəzi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Əhalinin sağlamlığının etibarlı qorunması dövlətin qarşıya qoyduğu prioritet vəzifələrdən biridir. Son illərdə ölkədə səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət başçısının təşəbbüsü ilə bu sahədə həyata keçirilən layihələr insanların sağlamlığının qorunması işinə xidmət edir. Ölkəmizdə ana və uşaq sağlamlığının qorunması istiqamətində də mühüm işlər görülür, bu sahədə mühüm layihələr həyata keçirilir.*

*Prezident İlham Əliyevin tapşırığına əsasən qəbul olunmuş «Ana və uşaqların sağlamlığının qorunmasına dair tədbirlər Proqramı»na uyğun olaraq paytaxtda yaradılmış Respublika Perinatal Mərkəzi də bu baxımdan diqqət çəkir.*

*Ana və uşaqların sağlamlığının qorunması Heydər Əliyev Fondunun da fəaliyyətinin prioritet sahələrindən biridir. Fondun prezidenti Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən tədbirlər genofondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı surətdə həllinə yönəlmişdir. Respublika Perinatal Mərkəzi isə ana olmağa hazırlaşan qadınlara, o cümlədən dünyaya yenicə göz açan körpələrə yüksəkixtisaslı diaqnostik, konsultativ və müalicə yardımı*

*göstərən yeni tipli səhiyyə müəssisəsidir. Mərkəzin binası ən son tələblərə cavab verən tibb müəssisəsi kimi layihələşdirilərək yenidən qurulmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mərkəzlə tanış oldular.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, Mərkəz Dövlət Proqramında nəzərdə tutulan və yaxın vaxtda istifadəyə veriləcək daha 6 regional perinatal mərkəzə təşkilati-metodik rəhbərlik göstərməklə yanaşı, ana olmağa hazırlaşan qadınlara və körpələrə tibbi yardım göstərən müəssisələrin fəaliyyətini əlaqələndirəcəkdir. Eyni zamanda, bu Mərkəzdə yüksək risk qrupuna daxil olan hamilə qadınlara konsultativ-diaqnostik yardım göstəriləcəkdir. Tibb müəssisəsində biokimyəvi və genetik analizlər aparmaq üçün ən müasir şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı və xanımı cərrahiyyə və reanimasiya şöbələri ilə tanış oldular. Reanimasiya şöbəsindəki kardiomonitorların hamısı kompyuter mərkəzinə qoşulmuşdur. Mərkəzdə hər bir xəstənin məlumat bazası yerləşdiriləcəkdir.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılmış konfrans zallarına da baxdı.*

*Bildirildi ki, 120 çarpayılıq Respublika Perinatal Mərkəzində ən müasir tibbi avadanlıq və cihazlarla təchiz olunan hamiləliyin patologiyası, anesteziologiya və reanimasiya, yeni doğulmuşların intensiv terapiyası, konsultativ məsləhət və digər şöbələr vardır. Mərkəzdə çalışacaq həkim və orta tibb işçiləri müsabiqə yolu ilə seçilmişlər.*

*Beləliklə, bu tibb müəssisəsinin yaradılması ilə ana olmağa hazırlaşan qadınlara və körpələrə tibbi yardımın keyfiyyəti daha da yaxşılaşdırılacaq, ana və uşaq sağlamlığının qorunması işi yeni səviyyəyə qaldırılacaqdır.*

*Mərkəzin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı səhiyyə ocağının tibbi heyəti ilə görüşdü, onları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bir daha sizi ürəkdən təbrik edirəm. Burada ən gözəl şərait yaradılıb, bütün imkanlar vardır. Bu il Azərbaycanda «Uşaq ili» elan edilmişdir və il başa çatır. İl ərzində

müxtəlif tədbirlər keçirilib. Tədbirlərin içində Perinatal Mərkəzin açılışı xüsusi yer tutur. Uşaqların sağlam böyüməsi üçün ilk növbədə, uşaqlar doğulan zaman onlara yaxşı baxılmalıdır. Hər bir insanın həyatı doğum evindən başlayır.

Azərbaycanda uşaqlara diqqət, qayğı həmişə yüksək səviyyədə olub. Belə gözəl tibbi müəssisələrin yaradılması Azərbaycan dövlətinin bu sahəyə verdiyi əhəmiyyəti bariz şəkildə göstərir.

Ümumiyyətlə, ölkəmizdə 2009-cu ildə çoxsaylı tibb məntəqələri açılmışdır, tibb ocaqları, müalicə-diaqnostika mərkəzləri, Talassemiya Mərkəzi, uşaq xəstəxanaları istismara verilmişdir. Bakıda və bütün rayonlarımızda bu sahəyə çox böyük diqqət göstərilir. «Uşaq ili»nin sonunda yeni, müasir Perinatal Mərkəzin istifadəyə verilməsi rəmzi xarakter daşıyır.

Biz hamımız yaxşı xatırlayırıq ki, bu bina hansı vəziyyətdə idi. Çox bərbad vəziyyətdə idi, köhnəlmişdi. Xarici görünüşü də müasir Bakımızın simasına tamamilə zidd idi. Həm xarici görünüşü gözəlləşdi, həm də ən önəmlisi, burada yaradılan şərait, avadanlıq, gözəllik və böyük zövqlə yenidən qurulan bu bina əminəm ki, Azərbaycanın səhiyyə sisteminin gələcək inkişafı üçün öz vacib rolunu oynayacaqdır.

Bu Mərkəzdə çalışan bütün insanlara uğurlar diləyirəm, uşaqlara yaxşı baxın. Uşaqlar burada yaxşı, sağlam doğulsunlar, böyüsünlər və Azərbaycan dövlətinin gələcək inkişafında öz rollarını oynasınlar.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

## MYANMA İTTİFAQININ DÖVLƏT SÜLH VƏ İNKİŞAF ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ BAŞ GENERAL CƏNAB TAN ŞVEYƏ

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Myanma arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Myanma xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2009-cu il*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzinə çevrilmiş 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi gününü hər il bütün soydaşlarımız ən əziz bayramlarından biri kimi qeyd edirlər. 1991-ci ilin dekabrında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən təsis edilmiş və az sonra bütün ölkə miqyasında qəbul olunmuş bu bayram hər bir azərbaycanlıda öz ana Vətəninə məhəbbət, xalqına sədaqət, tarixi və mədəniyyətinə hörmət kimi nəcib hissləri gücləndirir, bizi birləşdirən mənəvi-əxlaqi dəyərlərin sonrakı nəsillərə ötürülməsinə xidmət edir.

Azərbaycan dövləti dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin möhkəmləndirilməsini, mütəşəkkil, çevik və təsirli qüvvəyə çevrilməsini vacib vəzifə olaraq diqqətdə saxlayır, bu mühüm prosesə hərtərəfli dəstək verir. Diaspor quruculuğu sahəsində aparılan işlər öz müsbət nəticələrini verməkdədir. Bu gün soydaşlarımız yaşadıqları dövlətlərin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına hərtərəfli inteqrasiya olunur, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə fəal yardım göstərirlər. Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasında, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğində, erməni millətçilərinin qərəzli ideoloji fəaliyyətinin qarşısının alınmasında diaspor təşkilatlarımızın rolu danılmazdır. Xaricdəki həmvətənlərimizin dost ölkələrin lobbi və diasporları ilə sıx əməkdaşlığının qurulmasına da ciddi önəm verir, bu sahədə irəli sürülən təşəbbüsləri, atılan addımları birmənalı şəkildə müdafiə edirik.

Müstəqil Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının doğma yurdu və etibarlı dayağıdır. Onu göz bəbəyi kimi qorumaq və gücləndirmək hər birimizin ümdə vəzifəsidir. Hazırda ölkəmiz öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Ötən illər ərzində həyata keçirilən islahatlar sabit və dayanıqlı hüquqi-siyasi sistemin, güclü iqtisadi potensialın yaranmasına gətirib çıxarmışdır. Bu il Azərbaycan

iqtisadiyyatı dövrün çətin sınağından uğurla çıxmışdır. İndi biz cəsarətlə bəyan edirik ki, ölkəmizdə sosialist iqtisadiyyatından bazar münasibətləri sisteminə keçid dövrü başa çatmışdır. Bunlar xalqımızın rifah halının yüksəldilməsinə, sosial tələbatlarının ödənilməsinə, elm və mədəniyyətimizin tərəqqisinə, vətəndaşlarımızın hüquq və azadlıqlarının davamlı təmin olunmasına münbit şərait yaradır.

Bu gün bizi narahat edən yeganə problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmaması, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmamasıdır. Düşünürəm ki, gənc respublikamızın inkişafı yolunda əsas maneə olan bu problemin tezliklə həlli Azərbaycan dövləti ilə yanaşı, bütün həmvətənlərimizin də qarşısında mühüm vəzifə kimi durur. Ürəyi Vətən sevgisi ilə döyünən dünya azərbaycanlıları bu istiqamətdə öz səylərini gücləndirməli, diaspor təşkilatlarımız dünyadakı proseslərin nəbzini tutaraq öz çevikliyini artırmalı, digər xalqların diaspor mərkəzləri ilə səmərəli əməkdaşlığın yeni formalarını tapmalı, ölkəmiz əleyhinə yönəlmiş təxribatlara qarşı operativ və adekvat addımlar atmalıdırlar.

Əziz soydaşlar!

Hörmətli həmvətənlər!

Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ərəfəsində sizi milli mənafelərimizin qorunması, müstəqil dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə sıx birləşərək daha səmərəli fəaliyyət göstərməyə dəvət edirəm.

Bu əziz bayram münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və bütün işlərinizdə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2009-cu il*

## DÖVLƏT NEFT FONDUNUN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*29 dekabr 2009-cu il*

*Azərbaycan Respublikası Dövlət Neft Fondunun 10 illik yubileyi günündə – dekabrın 29-da Bakıda fondun yeni inzibati binasının təməlqoyma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli Fərmanı ilə yaradılan Dövlət Neft Fondu 10 ildə Azərbaycan iqtisadiyyatının inkişafında, əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdə əhəmiyyətli rol oynamışdır.*

*10 il ərzində beynəlxalq səviyyədə tanınmış təşkilata çevrilmiş Dövlət Neft Fondunun yaradılması ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlu milli neft strategiyasının ayrılmaz hissəsidir. Dövlət Neft Fondu milli strategiyaya uyğun olaraq ölkənin karbohidrogen yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən gəlirlərin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin qabaqcıl sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi məqsədi ilə yaradılmışdır.*

*Mərasim iştirakçıları – Dövlət Neft Fondunun kollektivi və inşaatçılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı binanın layihəsi və maketi ilə tanış oldu.*

*Neft fondunun icraçı direktoru Şahmar Mövsümov Azərbaycan prezidenti İlham Əliyevə məlumat verdi ki, hündürlüyü 117 metr (mayak ilə birgə 140 metr), ümumi sahəsi 13 min kvadratmetr (yeraltı avtodayanacaq ilə birgə 27 min kvadratmetr) olacaq 23 mərtəbəli binada xidməti otaqlarla yanaşı, Heydər Əliyev Muzeyinin, 200 nəfərlik konfrans zalının, 150*

*avtomobil tutumu olan ikimərtəbəli avtodayanacağın tikilməsi nəzərdə tutulur. 7 liftin quraşdırılacağı binada səsdən müdafiəni və termal izoləni təmin edəcək ikifasadlı sistemdən istifadə olunacaqdır.*

*Layihədə yaşıllıqların salınması və alternativ enerjinin alınması üçün günəş batareyaları, günəş invertorları və s. texnologiyaların tətbiqi ilə «Yaşıl Bina» (Green Building) kateqoriyasının tələblərinə riayət edilməsi də nəzərdə tutulmuşdur. Bundan başqa, inteqrasiya olunmuş bina konsepsiyasına əsaslanan intellektual texnologiya infrastrukturun, bütün kommunikasiya və kommunal şəbəkələrin vahid mərkəz-dən idarə edilməsinin avtomatlaşdırılmasını təmin edəcəkdir. Layihə A-kateqoriyalı ofis binası standartlarına uyğun olaraq həyata keçiriləcəkdir. Bu kateqoriyaya daxil olan binalar yüksək keyfiyyəti, xarici və daxili dizaynı ilə diqqəti çəkir və beynəlxalq standartlara cavab verir.*

*Fransanın «İnter Art Etudes» şirkətinin hazırladığı layihənin idarə edilməsi üzrə məsləhətçi ABŞ-ın «AECOM» şirkəti seçilmişdir.*

*Dövlətimizin başçısı gilizi bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Sonra prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar! Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür. Bu gün Azərbaycan Dövlət Neft Fondunun yaranmasından 10 il keçir. Bu gözəl yubiley münasibətilə Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu doğrudan da böyük hadisə idi. 1999-cu ildə ulu öndər Heydər Əliyev tərəfindən qəbul edilmiş qərar çox uzaqgörən və müdrik qərar idi. Hamımız yaxşı xatırlayırıq ki, 1999-cu ildə Azərbaycanın neftdən əldə olunan gəlirləri bizim iqtisadi və sosial məsələlərin tam şəkildə həllinə hələ ki, kömək edə

bilmirdi. Çünki çox cüzi rəqəmlər idi. 1999-cu ildə bu qərarın qəbul edilməsi onu göstərirdi ki, Azərbaycan dövləti uzunmüddətli strategiyasını çox düzgün qurur, Azərbaycanın gələcək inkişafı, gələcək nəsillərin rahat, firavan yaşaması üçün bütün tədbirləri vaxtında görür.

On il ərzində Azərbaycan Dövlət Neft Fondu böyük və uğurlu yol keçmişdir. Mən yaxşı xatırlayıram ki, fondun yaranmasından əvvəl bir qrup məsul şəxs xarici ölkələrə ezam edilmiş, onlar dünyada fəaliyyət göstərən buna bənzər neft fondlarının işi ilə tanış olmuşlar. Biz çalışmışdıq və ona nail olmuşduq ki, ən gözəl, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edək, yaradılan fondun şəffaflığını təmin edək və onun idarə edilməsində ən qabaqcıl praktikadan istifadə edək. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, Azərbaycanın, Dövlət Neft Fondunun təcrübəsi dünya miqyasında öyrənilir və bu sahədə əldə edilmiş nailiyyətlər başqa ölkələr üçün örnək göstərilir.

On il ərzində Dövlət Neft Fondu çox böyük işlər görməklə, Azərbaycanın sosial və iqtisadi məsələlərinin həlli üçün öz rolunu oynamış, ilk növbədə şəffaflıq təmin edilmişdir. Azərbaycan hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur və indi bu proqramın yeganə tamhüquqlu üzvüdür. Bu bizə imkan verdi ki, Azərbaycanda bütün başqa sahələrdə şəffaflığın təmin edilməsi üçün əməli tədbirlər görülsün. Beynəlxalq maliyyə qurumları ilə münasibətlərimiz daha səmərəli şəkildə qurulmuşdur. Şəffaflığın təmin edilməsi, əldə olunan gəlirlərin düzgün istiqamətdə sərf edilməsi işində də çox mühüm rol oynamışdır.

Şəffaflığın təmin edilməsi bizə bu gün də lazımdır. Qeyd etdiyim kimi, Azərbaycanın təcrübəsi bu gün dünya miqyasında öyrənilir. Azərbaycan xalqı bilir: nə qədər vəsait daxil edilir, nə qədər xərclənir, hansı yollarla xərclənir və biz bu imkanlardan hansı istiqamətlərdə istifadə edirik. Bu gün Azərbaycan Dövlət Neft Fondu qeyd etdiyim kimi, öz təc-rübəsini həm bölgədə, həm də dünyada tətbiq edir. Əminəm ki, gələcək illərdə də liderlik mövqeyimizi saxlayacağıq.

On il ərzində idarəedilmə istiqamətində, əldə olunan gəlirlərin idarə edilməsi ilə əlaqədar böyük işlər görüldü və fondun vəsaiti ildən-ilə artdı. Baxmayaraq ki, 1999-cu ildə gəlirlər o qədər böyük rəqəmlərlə ölçülmürdü, bu gün Dövlət Neft Fondunun imkanları daha da genişdir. Bu gün 15 mil-yard dollar vəsait toplanıb və bu vəsaitdən düzgün istifadə edilir.

2009-cu ildə dünyanı bürümüş maliyyə böhranının istər-istəməz Azərbaycana da öz təsirini göstərməsinə baxma-yaraq, bizim ehtiyatlarımız azalmadı, əksinə, artdı. Bu gün, ümumiyyətlə, Azərbaycanın valyuta ehtiyatları 20 milyard dollardan çoxdur. Gələcək illərdə bu məbləğ daha da artacaqdır. Bu o deməkdir ki, fondun fəaliyyəti ölkəmiz üçün daha da önəmli olacaqdır.

Məbləğlər artdıqca, əlbəttə ki, məsuliyyət də artır. Ancaq bu gün fondun əməkdaşları öz işlərini düzgün quraraq, Azərbaycanın milli maraqlarını tam şəkildə təmin edirlər və ölkəmizin iqtisadi potensialının gücləndirilməsində öz fəaliy-yətləri ilə iştirak edirlər.

Bu illər ərzində Azərbaycan Dövlət Neft Fondunda yığılan vəsaitlər hesabına çoxlu məsələlər həll olundu. Hər il büdcəyə transfer edilir. Biz o vəsaitdən həm sosial məsələlərin həlli, həm də əsas infrastruktur layihələrinin həyata keçirilməsi üçün səmərəli şəkildə istifadə edirik. Onu da qeyd etmək istəyirəm ki, ulu öndər Heydər Əliyevin qərarı ilə fonddan ayrılan ilk vəsait Azərbaycanda ən ağır şəraitdə yaşayan soydaşlarımızın – qaçqın, köçkün bacı-qardaşlarımızın problemlərinin həllinə yönəldilmişdir. Məhz fondun vəsaiti hesabına bu gün biz qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması proqramını uğurla icra edirik. Bütün çadır şəhərciklərini ləğv etmişik və onların yerinə müasir binalar, qəsəbələr salmışıq. Yəni bu böyük sosial yükü fond öz üzərinə götürmüşdür.

Bununla bərabər, ölkəmiz üçün ən vacib olan infrastruktur layihələri də fondun xətti ilə həyata keçirilir – Oğuz–Qəbələ–Bakı su kəmərinin, Samur–Abşeron kanalının, Taxtakörpü su anbarının,

Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi, xaricdə gənclərimizin oxuması üçün ayrılan vəsait. Yəni fondun xətti ilə aparılan işlər Azərbaycan dövlətinin prioritetlərini ifadə edir. Həm sosial məsələlərin həlli, həm ölkəmiz üçün lazım olan bütün infrastruktur layihələrinin həlli və həm də gələcəyimizi təmin edən savada, biliyə qoyulan xərclər.

Mən əminəm ki, fondun fəaliyyəti bundan sonrakı illərdə uğurlu olacaqdır. Çünki onillik təcrübə bunu deməyə əsas verir. Bir daha demək istəyirəm ki, ən başlıca vəzifə icra edildi. Azərbaycanda böyük vəsaitin idarə edilməsində şəffaflıq təmin edildi. Digər tərəfdən, Azərbaycan xalqı bu işlərdə fəal iştirak edir və əldə edilən gəlirlərin xərclənməsində hər bir Azərbaycan vətəndaşı öz rolunu oynayır. Çünki biz fonddan ayrılan xərclərdən ancaq Azərbaycanın dövlət büdcəsi təsdiq ediləndən sonra istifadə edə bilərik. Parlamentin, xalqın, dövlətin iştirakı ilə. Bu onu göstərir ki, Azərbaycan Dövlət Neft Fondu ümummilli fonddur və Azərbaycanın bugünkü inkişafı və gələcək nəsillərin yaxşı yaşaması üçün bu fondun çox böyük əhəmiyyəti vardır.

Bu gün fondun yaranmasından 10 il keçir. Bu əlamətdar gündə fondun gələcək fəaliyyətini səmərəli təşkil etmək üçün yeni binanın təməl daşını qoyuruq. Əminəm ki, bu gözəl, müasir bina qısa müddət ərzində tikiləcək – həm şəhərimizə əlavə yaraşıq verəcək, həm də fondun işçiləri üçün Azərbaycan dövlətindən yaxşı bir hədiyyədir.

Mən bu gözəl yubiley münasibətilə bir daha Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Fondun əməkdaş-larına yeni uğurlar arzulayıram. Bütün Azərbaycan xalqına yeni ildə cansağlığı və firavanlıq arzulayıram. Sağ olun.

## METRONUN «28 MAY» STANSİYASININ İKİNCİ ÇIXIŞININ AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2009-cu il*

*Dekabrın 30-da Salatın Əsgərova küçəsi və Azadlıq prospektinin kəsişməsində Bakı Metropoliteninin «28 May» stansiyasının ikinci çıxışı istifadəyə verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən qırmızı lenti kəsdi.*

*Prezident İlham Əliyev Bakı metrosu xətlərinin perspektiv inkişaf sxemini və metropolitenin texnoloji korpusunu əks etdirən stendlərlə tanış oldu.*

*Bakı Metropoliteninin rəisi Tağı Əhmədov metronun «28 May» stansiyasının strukturu və görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, «28 May» stansiyasının ikinci çıxışı kompleksinə müasir memarlıq üslubunda inşa olunmuş vestibül, sərnişinləri buradan piyada tunelinə və əksinə daşıyan 3 eskalator, həmçinin yeraltı piyada keçidi daxildir. Tikinti işlərini «Azərmetrotuneltikinti» Açıq Səhmdar Cəmiyyəti həyata keçirmişdir.*

*Layihənin məqsədi «Xətai»–«Azadlıq prospekti» xəttini «İçərişəhər»–«Həzi Aslanov» xəttindən ayırmaqla hər iki marşrutun sərbəst istismarını təşkil etməkdir.*

*Qeyd olundu ki, bu vestibül Bakı Metropolitenində ən geniş və müasir avadanlıqla təchiz olunan ilk vestibüldür. Vestibülün girişində sərnişinlər üçün elektron məlumat bazası yerləşdirilmişdir. Burada sərnişinlər Azərbaycan, rus və ingilis dillərində stansiyaların hərəkət xətti barədə məlumat əldə edə bilərlər. Keçidin çıxışında Bakı Metropolitenində ilk dəfə olaraq sərnişinləri sayan və buradan girişin qarşısını alan xüsusi turniketlər quraşdırılmışdır. Vestibülün memarlıq tərtibatı «Bakıdövlətlayihə» İnstitutu tərəfindən hazırlanmışdır.*

*Prezident İlham Əliyev eskalatorla yeni keçidə endi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, keçid 40 metr dərinlikdə yerləşir, «28 May» stansiyasına qədər piyada*

*tunelinin ümumi uzunluğu isə 165 metrdir. Sərnişinlər tunel vasitəsilə «28 May» stansiyasından başqa, metronun «Cəfər Cabbarlı» stansiyasına da sərbəst gedə bilərlər. Burada istiqamətləndirici işarələr və stansiyanın yaxınlığında yerləşən mühüm inzibati bina və tikililərin adları göstərilmişdir. Piyada tunelində təhlükəsizlik kameraları da quraşdırılmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, hazırda metronun ikinci çıxışı olmayan digər stansiyalarda da bu istiqamətdə əsaslı işlər görülür. Artıq «Elmlər Akademiyası» stansiyasının ikinci çıxışının layihəsi hazırdır və tikintinin 2010-cu ildə başlanması nəzərdə tutulmuşdur. Dərində yerləşən «Xətai», «İçərişəhər», «Sahil» və «Nizami» stansiyalarının layihələndirilməsi də yaxın gələcəkdə həyata keçirilə-cəkdir.*

*Yeni keçidi gəzən dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Bakı Metropoliteninin «Azadlıq prospekti» stansiyasının açılışı mərasimi

*Dekabrın 30-da Bakının 8-ci mikrorayonu ərazisində Bakı Metropoliteninin yeni «Azadlıq prospekti» stansiyasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Baş nazirin müavini Abid Şərifov və Bakı Metropoliteninin rəisi Tağı Əhmədov dövlətimizin başçısına məlumat verdilər ki, son illərdə paytaxtın yol-nəqliyyat kompleksinin təkmilləş-dirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Bu baxım-dan Bakı Metropoliteni stansiyalarının şəbəkəsinin geniş-ləndirilməsi və mövcud stansiyaların yenidən qurulması mühüm əhəmiyyətə malikdir. Artıq istismara hazır olan «Azadlıq prospekti» stansiyası Azərbaycanın müstəqilliyi dövründə Bakı metrosunda istismara verilən ikinci stansiyadır. Hazırda 22 stansiya istismardadır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bu stansiyanı elektrik enerjisi ilə təmin etmək üçün yeni yarımstansiya inşa*

*edilmişdir. Bakıda nəqliyyatın hərəkətinin sıxlığının tənzimlənməsində yeni stansiya böyük rol oynayacaq, tıxac probleminin aradan qaldırılmasını və sərnişinlərin mənzil başına rahat gediş-gəlişini təmin edəcəkdir.*

*Qeyd olundu ki, «Azadlıq prospekti» stansiyası metropolitenin tikintisinin üçüncü növbəsinin şimal hissəsinə aid olan sayca ikinci stansiyadır. «Azadlıq prospekti» stansiyası 14 metr dərinlikdə yerləşir və ilk dəfə olaraq burada sütunsuz tağvari platforma yaradılmışdır. Bu stansiyanın memarları Elbəy Qasımzadə, Maqsud Məmmədov və Zaur Qurbanəli-yevdir. Stansiyanın ətrafında abadlıq və yaşıllaşdırma işləri görülmüş, böyük bir ərazidə park kompleksi salınmış, burada çoxlu dekorativ ağac və bəzək kolu əkilmiş, fəvvarələr quraşdırılmışdır.*

*Dövlətimizin başçısı «Azadlıq prospekti» stansiyası ilə tanış oldu.*

*Müasir üslubda inşa olunmuş stansiya estetik görünüşü ilə diqqəti cəlb edir. Stansiyadakı pannolarda respublikamızın nadir memarlıq abidələri əksini tapmışdır. Obyektdə müasirliyə və milli memarlıq ənənələrinə xüsusi diqqət yetirilmişdir.*

*Prezident İlham Əliyevə gediş kartlarının avtomatik yüklənməsi aparatları və vestibüllərdə ilk dəfə quraşdırılmış sensorlu interaktiv sorğu köşkləri barədə ətraflı məlumat verildi. Qeyd olundu ki, displeydə Azərbaycan, ingilis və rus dillərindən birini seçdikdən sonra sərnişin yola sərf edəcəyi vaxt, keçid stansiyası, gedəcəyi stansiyanın ətrafındakı obyektlər barədə ətraflı məlumat alacaqdır.*

*Dövlətimizin başçısına metropoliten xətlərinin mövcud sxemi, üçüncü növbənin şimal sahəsi və perspektiv inkişaf planları əsasında ətraflı məlumat verildi.*

*«Azərtunelmetrotikinti» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Şaiq Əfəndiyev rəhbərlik etdiyi qurumun bu yaxınlarda qeyd edilmiş yubileyi ilə əlaqədar dövlət mükafatlarına layiq görülmüş kollektivin üzvləri, inşaatçılar və metropolitenin əməkdaşları adından metropolitenin inkişafına*

*göstərdiyi hərtərəfli qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Bakı Metropoliteninin işçilərini və inşaatçıları təbrik etdi:*

**İ l h a m Ə l i y e v:** Sizi yeni «Azadlıq prospekti» stansiyasının açılışı münasibətilə təbrik edirəm. Bu, böyük, çox əlamətdar hadisədir. Artıq hər il Bakıda yeni metro stansiyası istifadəyə verilir. Keçən il «Nəsimi» stansiyasının açılışında iştirak etmişdik. Bu ilin sonunda, bayramlar ərəfəsində «Azadlıq prospekti» stansiyası istifadəyə verilir. Çox gözəl stansiyadır, insanlara rahatlıq verəcəkdir.

Beləliklə, Azərbaycan metro tikintisi proqramını uğurla icra edir. Proqram uzunmüddətlidir. Növbəti illərdə bir neçə istiqamətdə yeni stansiyaların tikintisi nəzərdə tutulur. Beləliklə, şəhərimizin bütün yerlərində rahat nəqliyyat vasi-təsi olan metro istismara veriləcəkdir.

Metro ən rahat, ən ucuz nəqliyyat vasitəsidir. Elə etməliyik ki, köhnə stansiyaları da bərpa etməklə, orada yenidənqurma işlərini sürətlə aparmaqla yeni stansiyaların tikintisinə nail olaq. Məqsəd də ondan ibarətdir ki, orta hesabla hər il yeni stansiya istismara verilsin. Yaxud da ki, 2 ildə 2 stansiya, 5 ildə 5 stansiya.

Amma bu temp saxlanılmalıdır. Bunun üçün bizdə güclü texniki potensial vardır. Çox sevindirici hal odur ki, biz bütün bu işləri öz gücümüzə edirik. Metrotikinti idarəsi bu işlərdə çox fəaldır. Metro tikintisi çox mürəkkəb bir prosesdir. Siz bunu hamıdan yaxşı bilirsiniz. Bu gün Azərbaycan o səviyyədədir ki, biz bunu öz gücümüzə edə bilirik. Texniki imkanlarımız, peşəkar şirkətlər, mühəndislər, memarlar var, maliyyə imkanlarımız da vardır. Gələn ilin investisiya proqramında metro tikintisinə mütləq çox böyük məbləğdə vəsait ayrılacaqdır və ondan sonrakı illərdə də. Çünki bu bizim üçün prioritet məsələdir.

Siyasi iradə, prezidentin dəstəyi vardır. Ən önəmlisi biz xalqın dəstəyi və iradəsi ilə bu işləri görürük. Bakı sakinləri üçün rahat nəqliyyat vasitəsinin genişləndirilməsi işində öz

əməyimizi qoyuruq. Bütövlükdə Bakının nəqliyyat sistemi yeniləşir, yeni, müasir avtobuslar alınır, intellektual idarəetmə sistemi yaradılır. O da dünyanın ən yüksək standartlarına cavab verəcəkdir. Gərək metro tikintisinə mütləq daha da böyük dəstək verək. Bu işlər daha da sürətlə, keyfiy-yətlə, böyük zövqlə aparılmalıdır. Stansiyalar memarlıq baxımından da çox gözəl olmalıdır.

Mənə verilən məlumata görə, «Azadlıq prospekti» stansiyası çox gözəl, zövqlə tikilib. İndi gedib baxacağam. Stansiyanın giriş hissəsi müasir və gözəldir. Biz köhnə, vaxtilə tikilmiş stansiyaların da memarlığına bir daha yenidən baxmalıyıq. Metro stansiyalarının giriş hissələri, eskalatorlar yenilənməlidir, yeni vaqonlar alınmalıdır. Azərbaycana – Bakıya ən qabaqcıl texnologiyaları, ən qabaqcıl məhsulları gətirək ki, həm rahat, həm də gözəl olsun.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Qarşıdan gələn bayramlar münasibətilə təbrik edirəm. Yeni ildə yeni uğurlar arzulayıram.

* * *

*Sonra dövlətimizin başçısı «Azadlıq prospekti» stansiyasının rəmzi açılışını bildirən qırmızı lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ilk dəfə bu stansiyada Almaniya istehsalı olan 3 eskalator quraşdırılmışdır. Stansiya kompleksinin ümumi uzunluğu 300 metrə yaxındır. «Azadlıq prospekti» stansiyasında məlumatların yerləşdirilməsi üçün mərkəzləşdirilmiş sistem quraşdırılmışdır. Metropolitenin şimal sahəsinin üçüncü növbəsinin elektrik təchizatı perspektivdə nəzərdə tutulan 40 cüt 5 vaqonlu qatarın hərəkətinin təmin edilməsinə hesablanmışdır. Əsas zalın ümumi həcminə uyğun olaraq burada irimiqyaslı ornament və dekorasiya elementləri tətbiq edilmişdir.*

*Stansiyada milli memarlıq elementlərindən məharətlə istifadə olunmuş, platformadakı oturacaqlar davamlı materiallardan hazırlanmışdır. Stansiyanın işıqlandırma, mühafizə və təhlükəsizlik sistemləri də yüksək standartlara cavab verir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, metropolitendə ilk dəfə bu stansiyanın rabitə sistemində yeniliklər tətbiq edilmişdir. Qovşaqsız rels dövrələri hesabına rabitə avadanlığının sayı xeyli azaldılmış, həcmcə kiçik ölçülü avadanlıqdan istifadə edilmişdir. Yeni qurğular nasazlıqları dərhal müəyyənləşdirməyə və aradan qaldırmağa imkan verir. Qatarların hərəkətinin təşkili və təhlükəsizliyini təmin edən avadanlıq da yeni texnologiyalara əsaslanır və mükəmməlliyi ilə seçilir.*

*Metronun «Azadlıq prospekti» stansiyasından Süleyman Sani Axundov küçəsinə və Azadlıq prospektinə 4 çıxış vardır. Bildirildi ki, 2002–2009-cu illərdə Bakı Metropoliteninə 151 yeni vaqon alınmışdır. Hazırda metronun daha üç stansiyasının inşası davam etdirilir. Metronun 20 illik inkişaf planına əsasən inşaat və yenidənqurma işləri növbəti illərdə də davam etdiriləcək, mövcud stansiyaların sayı 70-ə çatdırılacaqdır.*

*«Azadlıq prospekti» stansiyası ilə yaxından tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

* * *

*Dövlətimizin başçısı Binəqədi rayon ictimaiyyətinin nümayəndələri ilə də görüşüb söhbət etdi.*

*Binəqədi rayonu sakinləri prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.*

**Yaqut Sadiqova** *(müəllimə):* Xoş gəlmisiniz! Sizə öz dərin minnətdarlığımızı bildiririk. Sizin rəhbərliyinizlə Azərbaycanımız artıq inkişaf etmiş dövlətlərlə bir cərgədə addımlayır. Son illərdə Binəqədi rayonunda strateji əhəmiyyəti olan obyektlərin açılması, belə parkların salın-ması xalqımızın rifahına xidmət edir.

Cənab Prezident, Sizi ad gününüz, 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibə-tilə ürəkdən təbrik edirik. Azərbaycan böyük bir ailədir, başçısı Sizsiniz, qoy bu il Sizə uğurlar gətirsin. Tanrı Sizə yar olsun!

**İlham Əliyev:** Çox sağ olun. Mən də sizi qarşıdan gələn bayramlar münasibətilə təbrik etmək istəyirəm. Sizə

cansağlığı, yeni ildə uğurlar arzulayıram. Əminəm ki, yeni ildə də Azərbaycan sürətlə inkişaf edəcək, qarşıda duran bütün vəzifələr icra olunur. Bu gün də gözəl hadisədir, biz metronun yeni stansiyasının açılışında iştirak edirik. Bu, insanlara rahatlıq verəcək, həm də gözəllik nümunəsidir. Yeni tikilən stansiya ən gözəl zövqə uyğundur.

Azərbaycanın hər yerində belə quruculuq işləri aparılır. Yeni müəssisələr, xəstəxanalar, zavodlar, fabriklər, məktəblər, idman ocaqları istifadəyə verilir. Baxmayaraq ki, 2009-cu il dünya üçün çox ağır il olmuşdur, sınaq ili olmuşdur, Azərbaycan bütün sınaqlardan həmişə olduğu kimi, şərəflə çıxdı. 2009-cu ildə iqtisadiyyatımız artdı. Sosial məsələlər öz həllini tapdı. İl ərzində çoxsaylı sənaye obyektləri tikildi, yaxud da ki, onların təməli qoyuldu. Bu onu göstərir ki, ölkəmiz öz hesabına uğurla yaşaya bilər. Hətta dünya üçün ən ağır il olan 2009-cu ildə də biz uğurla inkişaf etdik, qarşıda duran bütün vəzifələri icra etdik. Güclü sosial siyasət apardıq.

Görürsünüz Bakı necə gözəl olub?! Yollar, körpülər, tunellər, metro stansiyaları, tarixi binaların bərpası. Biz bütün tarixi binaları bərpa edirik, əsl simalarını qaytarırıq. Bakı tarixi simasını saxlamalıdır. İçərişəhərdə təmir gedir, sonra bulvar, bütün tarixi binalar yeniləşir. İndi Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bu həqiqətdir.

Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşayır. Əsas vəzifə odur ki, Azərbaycan xalqı yaxşı yaşasın. Bütün yerlərdə, bütün bölgələrdə, ən ucqar kəndlərdə insanların yaxşı yaşaması üçün bütün şərait yaradılmalıdır.

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Yeni ildə sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

2009-cu il tarixdə qalır. 2009-cu il bütün ölkələr üçün sınaq ili olmuşdur. 2009-cu ildə dünyanı bürümüş maliyyə və iqtisadi

böhran, demək olar ki, bütün ölkələrə mənfi təsirini göstərmişdir. 2009-cu ildə ölkələr öz imkanları, təbii ehtiyatları, apardıqları islahatlar hesabına nəyə qadir olduqlarını nümayiş etdirmişlər.

Azərbaycan 2009-cu ildə bütün çətinliklərə baxmayaraq, uğurlu inkişafı davam etdirmişdir. 2009-cu ildə ölkəmizdə iqtisadi artım 9 faizdən çox olmuşdur. Bu, böhranlı ildə çox böyük göstəricidir. Bütün bölgədə yaşanan böhran hər bir ölkənin iqtisadi və siyasi potensialını ortaya qoydu. Böhran göstərdi ki, Azərbaycan öz hesabına yaşaya bilən və yaşayan ölkədir. Biz Azərbaycan xalqının iradəsinə arxalanırıq.

2009-cu ildə Azərbaycanda bütün istiqamətlərdə irəliləyiş, inkişaf müşahidə olundu. Sənaye istehsalı da təxminən 9 faiz artmışdır. Ölkəmizdə inflyasiya 2 faizdən aşağı səviyyədədir. Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumları Azərbaycanın iqtisadi və siyasi islahatların aparılması istiqa-mətində gördüyü işləri yüksək qiymətləndirir. 2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi qəbul etdi və bunu bəyan etdi. 2009-cu ildə Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə dünyada 51-ci yerə layiq gördü. Azərbaycan MDB məkanında bu parametrlər üzrə lider ölkədir.

2009-cu ildə bütün planlar, nəzərdə tutulmuş bütün tədbirlər icra edildi. Bölgələrdə canlanma vardır, abadlıq, quruculuq işləri aparılır. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair ikinci proqram icra olunur. Bu proqramın icrası nəticəsində 2013-cü ilə qədər ölkə qarşısın-da duran əsas iqtisadi və sosial məsələlər öz həllini tapma-lıdır.

Azərbaycanda böyük abadlıq-quruculuq işləri aparılır. Həm Bakıda salınan, həm də bizi qonşu ölkələrlə birləşdirən magistral yollar ən yüksək standartlara cavab verir. Elektrik stansiyalarının tikintisi uğurla davam edir. Bunu etməklə Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edib və biz gələcək illərdə diqqətimizi daha çox bərpa olunan enerji növlərinin yaradılmasına yönəldəcəyik. Azərbaycanda bütün

bölgələrin qazlaşdırılması prosesi davam etdirilir. Görülən təxirəsalınmaz tədbirlər nəticəsində yüz minlərlə vətəndaş içməli su ilə təmin edilibdir. Bu proses davam edir və nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi bizə imkan verəcək ki, Azərbaycan əhalisi içməli su ilə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə təmin edilsin.

Sirr deyil ki, iqtisadiyyatımızın müəyyən hissəsi neftdən əldə olunan gəlirlər hesabına formalaşır və 2009-cu ildə neftin qiyməti dünyada kəskin şəkildə aşağı düşmüşdür. Lakin 2008-ci ilin sonunda bu il üçün – 2009-cu il üçün dövlət büdcəsində nəzərdə tutulmuş bütün sosial proqramlar icra edildi.

Erməni işğalından əziyyət çəkən soydaşlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması və onların məşğulluğunun artırılması işində əməli addımlar atılmışdır. Yeni qəsəbələr salınır, gözəl evlər, hündürmərtəbəli binalar tikilir.

2009-cu ildə kənd təsərrüfatının inkişafı sahəsində böyük işlər görülüb, 3 milyon ton taxıl yığılıbdır. Bu, rekord göstəricidir. Azərbaycan tarixində bu günə qədər heç vaxt bu qədər taxıl istehsal olunmurdu. Başqa kənd təsərrüfatı məhsullarının istehsalı üçün də praktiki işlər görülür, subsidiyalar, kreditlər verilir, soyuducu anbarlar, taxıl anbarları tikilir, suvarma tədbirləri görülür. Kənd təsərrüfatını daha da inkişaf etdirmək üçün bizim düşünülmüş proqramımız vardır. Biz bu gün özümüzü, demək olar ki, əsas kənd təsərrüfatı məhsulları ilə təmin edirik. Gələcəkdə bu daha da böyük həcmlə təşkil ediləcəkdir. Həm öz daxili tələbatı-mızı ödəmək, həm də ixrac potensialımızı artırmaq üçün əlavə imkanlar yaradılacaqdır.

Azərbaycanda sahibkarlığın inkişafı üçün gözəl şərait vardır. Sahibkarlar dövlət tərəfindən hərtərəfli dəstək alırlar. Əgər kreditlər təşkil edilməsəydi, kənd təsərrüfatının inkişafı üzrə böyük problemlərimiz yaranardı. Amma kreditlərin verilməsi və sahibkarlığın inkişafı üçün görülən bütün tədbirlər sahibkarlara da çox gözəl şərait yaradır. Gələcəkdə Azərbaycanın iqtisadiyyatı daha çox sahibkarlığın fəaliyyətindən asılı olacaqdır.

Sahibkarlığın inkişafı bizim üçün prioritet məsələdir və bu istiqamətdə növbəti illərdə də lazımi tədbirlər görüləcəkdir.

Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla çıxarılır və ixrac coğrafiyası gələn ildən başlayaraq daha da genişlənəcəkdir.

2009-cu ildə Azərbaycanda 50 milyon ton neft, 25 milyard kubmetr qaz hasil edilibdir. Gələn il bu rəqəmlər daha da artacaq və beləliklə, ölkəmizə əlavə maliyyə resursları gələcək, ixrac imkanlarımız genişlənəcəkdir.

Xarici siyasətə gəldikdə, 2009-cu ildə Azərbaycan bu istiqamətdə çox vacib işlər görmüşdür. Mənim müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlar, keçirdiyim görüşlər Azərbaycanın dünyadakı mövqeyini daha da gücləndirmişdir. Azərbaycanla dost olmaq istəyən ölkələrin, strateji tərəfdaşlarımızın sayı artır. Sirr deyil ki, bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Bizim xarici siyasətimiz Azərbaycanın milli maraqlarının tam şəkildə müdafiə edilməsinə yönəldilibdir. Bütün qonşu ölkələrlə qarşılıqlı surətdə faydalı və qarşılıqlı hörmət əsasında qurulmuş dostluq və əməkdaşlıq münasibətləri mövcuddur.

Biz xarici siyasətimizin əsas problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzərində çox fəal işləyirik. 2009-cu ildə məsələnin həlli üçün çox vacib addımlar atılmışdır. Bütün dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər problemin hansı yollarla həll olunması haqqında öz iradələrini ortaya qoyurlar. Çox sevindiricidir ki, Azərbaycanın uzun illərdir müdafiə etdiyi mövqe üstünlük təşkil edir. Məsələ öz həllini beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bizim həmişə ortaya qoyduğumuz prinsiplər məhz bunlardır.

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu

mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları işə salaraq, bu məsələni tezliklə, ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər.

Bununla bərabər Azərbaycan öz hərbi potensialını da gücləndirir. Bu bizim suveren hüququmuzdur və biz bu hüquqdan istifadə edirik. Nəzərə alaq ki, Azərbaycan ordu quruculuğu prosesini daxili imkanları hesabına aparır. Azərbaycan Ordusu son illər ərzində böyük və uğurlu yol keçmişdir. Bu gün ordumuz qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir. Torpaqları işğaldan azad etmək üçün bütün imkanlarımız vardır. Həm döyüş qabiliyyəti, həm vətənpərvərlik ruhu, həm də silah-sursat baxımından imkanlarımız genişlənir. Azərbaycanda müdafiə sənayesi artıq 4 ildir ki, fəaliyyət göstərir və bu istiqamətdə böyük uğurlar əldə etmişik. 2010-cu ildə bu məqsədləri təmin etmək üçün əlavə böyük vəsait nəzərdə tutulur. Biz Dağlıq Qarabağ məsələsini, Ermənistan–Azərbaycan münaqişəsini həll etmək üçün bütün imkanlardan istifadə edə bilərik.

Əziz həmvətənlər, əziz dostlar!

Bu gün eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür. Bütün azərbaycanlılar bu günü qeyd edirlər. Mən dünyada yaşayan bütün azərbaycanlılara uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Onlar bilməlidirlər və bilirlər ki, arxalarında qüdrətli Azərbaycan dövləti dayanır. Onların yaşadıqları ölkələrdə səmərəli fəaliyyəti Vətənimizi – Azərbaycanı daha da gücləndirir. Mən çox şadam ki, bu gün müxtəlif ölkələrdə, dünyanın, demək olar ki, əksər bölgələrində güclü Azərbaycan təşkilatları formalaşıb, fəaliyyət göstərir.

Onlar bizneslə məşğul olurlar, müxtəlif vəzifələrdə, dövlət vəzifələrində çalışırlar, qanunvericilik orqanlarına seçilirlər. Bu da çox vacibdir.

Dünyada yaşayan azərbaycanlıların sayı çoxdur və bizim mütəşəkkil qaydada fəaliyyətimiz bizi gücləndirir. Son vaxtlar Azərbaycana qarşı ədalətsiz qərarlar çıxarılarkən Azərbaycanın diaspor nümayəndələri öz güclərini göstər-dilər, kütləvi aksiyalarda iştirak etdilər, müxtəlif etiraz aksiyalarına əl atdılar, mədəni, sivil qaydada öz etiraz səslərini ucaltdılar.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Əziz həmvətənlər!

Bir daha sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2009-cu il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Lakki Marvat şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbərindən olduqca sarsıldıq.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorun bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 yanvar 2010-cu il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzularımı yetirirəm.

Səmavi dinlər Azərbaycanda yüz illər boyu sülh və anlaşma şəraitində, dinc yanaşı fəaliyyət göstərərək cəmiyyətimizdə əmin-amanlığın, dostluq və qardaşlıq münasibətlərinin formalaşmasında misilsiz rol oynamışdır. Mütərəqqi tarixi-mədəni ənənələr üzərində bərqərar olan müasir Azərbaycan cəmiyyətində xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühiti, mövcud milli mənəvi həmrəylik haqlı olaraq ölkəmizi dünyada tolerantlıq örnəyi kimi tanıtmışdır.

Bu gün xristian inanclı vətəndaşlarımız, o cümlədən çoxsaylı pravoslav icması cəmiyyətimizin ayrılmaz hissəsidir və ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edir. Əmin olduğumu bildirirəm ki, Azərbaycanın tərəqqisi və daha da çiçəklənməsi naminə vətəndaşlıq borcunuzu bundan sonra da layiqincə yerinə yetirəcəksiniz.

Əziz həmvətənlər!

Yeniliyin, əmin-amanlığın, mərhəmət və şəfqət duyğularının rəmzi olan Milad bayramı hər il Azərbaycanda böyük təntənə ilə qeyd edilir. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

*Bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2010-cu il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM PRATİBHA PATİLƏ**

Hörmətli xanım Prezident!

Hindistanın milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Hindistan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim qarşılıqlı anlaşma, dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Hindistan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2010-cu il*

## ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2010-cu il*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM KVENTİN BRAYSA**

Hörmətli xanım General-Qubernator!

Milli bayramınız – Avstraliya günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Avstraliya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin genişlənməsi daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2010-cu il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Xorvatiya dövlətlərarası münasibətləri, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Xorvatiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 yanvar 2010-cu il*

## DÖVLƏT BAYRAĞI MEYDANINDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*13 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Dövlət Bayrağı Meydanına gələrək, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına meydanda görülən işlər barədə ətraflı məlumat verildi.*

*Xatırladaq ki, prezident İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanı yaradılması barədə sərəncam imzalamışdır. 2009-cu il noyabrın 17-də isə prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Bayrağı gününün təsis edilməsi barədə sərəncam imzalamışdır. Həmin sərəncama əsasən hər il noyabrın 9-u respublikamızda Dövlət Bayrağı günü kimi qeyd olunacaqdır.*

*2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində – Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Bayrağ meydanının təməli qoyulmuşdur. Tikinti işlərinin gedişi ilə müntəzəm maraqlanan dövlətimizin başçısı bir neçə dəfə tikilməkdə olan Bayraq meydanına gəlmiş, inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini vermişdir.*

*Prezident İlham Əliyevə inşaat işlərinin hazırkı vəziyyəti və burada görüləcək növbəti tədbirlər barədə geniş məlumat verildi. Qeyd olundu ki, 20 min kvadratmetr ərazisi olacaq meydanda bütün lazımi infrastrukturun yaradılması istiqamətində işlər davam etdirilir. Dayağının hündürlüyü 162 metr olan Dövlət bayrağının uzunluğu 70 metr, eni 35 metr, çəkisi 350 kiloqram olacaqdır.*

*Prezident İlham Əliyev inşaat işləri ilə bağlı növbəti dəfə tapşırıq və tövsiyələrini verdi.*

**HAİTİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RENE PREVALA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Haiti xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 yanvar 2010-cu il*

## BAKI BUXTASINDA TİKİLƏN QURU YÜK LİMAN MƏNTƏQƏSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*14 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Bakı buxtasında tikilən quru yük liman məntəqəsində inşaat işlərinin gedişi ilə tanış olmaq üçün buxtaya gəlmişdir.*

*Dövlətimizin başçısına quru yük liman məntəqəsində həyata keçirilən inşaat işləri barədə ətraflı məlumat verildi. Tikintiyə 2008-ci ilin may ayında başlanılmışdır. Layihəyə prezident İlham Əliyevin sərəncamlarına müvafiq olaraq dövlət büdcəsindən vəsait ayrılmışdır. Həmin məntəqədən yalnız quru yüklər daşınacaqdır. Bu obyektin tikintisində başlıca məqsəd ekologiyanı sağlamlaşdırmaqdan, sənaye müəssisələrini paytaxtın mərkəzindən kənara köçürməkdən və respublikamızdan yükdaşımalarının həcmini artırmaqdan ibarətdir.*

*Prezident İlham Əliyevə bildirildi ki, indiyə qədər liman məntəqəsində quru yüklərin boşaldılması üçün 6 körpünün inşası başa çatdırılmışdır. Təmirə dayanacaq gəmilərin yuyulub təmizlənməsi üçün 4 körpü artıq hazır vəziyyətdədir. Liman məntəqəsində yüklərin yığılması üçün çoxsaylı anbarların tikintisi yekunlaşdırılmışdır. Məntəqəyə çəkilən dəmir yolu da işlək vəziyyətdədir. «Paris Kommunası» adına gəmitəmiri zavodunun bir hissəsinin köçürülməsi üçün 4 gəminin yan ala biləcəyi 250 metr uzunluğunda körpünün tikintisi isə davam edir. Liman məntəqəsində inzibati binanın tikintisi başa çatmaq üzrədir, burada tamamlama işləri aparılır.*

*Liman məntəqəsində aparılan inşaat işlərinin gedişi ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

# DƏNİZKƏNARI MİLLİ PARKDAKI YAXT-KLUBDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*14 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Dənizkənarı Milli Parkdakı Yaxt-klubda aparılan yenidənqurma işləri ilə tanış olmaq üçün Yaxt-kluba gəlmişdir. Dövlətimizin başçısına burada aparılan yenidənqurma işləri haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Yaxt-klub Dənizkənarı Milli Parkın ümumi ansamblına uyğun tikilmiş yaraşıqlı binalardan biridir. Bu binanın layihəsi orijinallığı ilə seçilir.*

*Prezident İlham Əliyev binanın yenidən qurulması layihəsi ilə tanış oldu. Dövlətimizin başçısına təmir işlərinin gedişi və istifadə olunan tikinti materialları barədə məlumat verildi. Qeyd olundu ki, bu materiallar ən müasir standartlara cavab verir və binanın dizaynını daha da zənginləşdirəcəkdir.*

*Bu obyektdə aparılan əsaslı yenidənqurma işləri bütövlükdə ölkədə idmanın, o cümlədən yelkənli qayıq idmanının inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.*

*Dünyada 2009-cu ildən başlayaraq hökm sürən maliyyə böhranına baxmayaraq, Azərbaycanda sürətli iqtisadi inkişaf davam etmiş, bütün sosial və infrastruktur layihələri ardıcıl olaraq həyata keçirilmişdir. İşlərin gedişi göstərir ki, Yaxt-klubda 2009-cu ildə başlanmış əsaslı yenidənqurma işləri də uğurla başa çatacaqdır. Dövlətimizin başçısı yenidənqurma işləri ilə tanışlıqdan sonra tapşırıq və tövsiyələrini verdi.*

## GÖRKƏMLİ NEFTÇİ-ALİM XOŞBƏXT YUSİFZADƏNİN 80 İLLİK YUBİLEY MƏRASİMİ

*14 yanvar 2010-cu il*

*Yanvarın 14-də «Buta» sarayında görkəmli neftçi-alim, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidenti, geologiya-mineralogiya elmləri doktoru, akademik Xoşbəxt Yusifzadənin 80 illik yubileyi münasibətilə mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Saraya toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Dövlət başçısı mərasimdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz Xoşbəxt müəllim!

Bu gün sizin yubileyinizdir. Bu gözəl yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə möhkəm cansağlığı arzulayıram. Arzu edirəm ki, siz həmişə olduğu kimi cavan, gümrah nikbin olasınız və biz ölkəmizin gələcək inkişafı üçün birlikdə çox işlər görə bilək.

Siz böyük insansınız, böyük alimsiniz. Sizin yubileyiniz Azərbaycanda geniş qeyd olunur. Bilirsiniz ki, yubileyinizin ölkə miqyasında keçirilməsi üçün mən bir müddət əvvəl müvafiq sərəncam imzalamışam. Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Siz buna layiqsiniz. Siz uzun illər Azərbaycanın neft-qaz potensialının inkişafı üçün çalışırsınız, işləyirsiniz. Fəal işləyirsiniz və ən önəmlisi ondan

ibarətdir ki, bu fəaliyyətin ölkəmiz üçün çox gözəl və çox vacib nəticələri vardır.

Sizin bilavasitə rəhbərliyiniz və iştirakınız sayəsində Azərbaycanda 20 neft-qaz yatağı kəşf edilmişdir. Onların içində bu gün Azərbaycanın neft-qaz potensialını böyük dərəcədə müəyyən edən «Azəri», «Çıraq», «Günəşli», «Kəpəz», «Bahar» yataqları vardır. Bu yataqlar Azərbaycanı bu gün dünya neft aləmində təmsil edir.

Bu yataqların kəşfi və işlənilməsi, Azərbaycanın iqtisadi, siyasi imkanlarını xeyli genişləndiribdir. Bu gün Azərbaycanı «Azəri», «Çıraq», «Günəşli» yataqlarısız təsəvvür etmək mümkün deyildir. Əgər bu yataqlar sizin tərəfinizdən vaxtında kəşf edilməsəydi, bu gün bizim neft-qaz imkanlarımız çox məhdud olardı və bunun nəticəsində ölkəmiz müstəqillik dövründə böyük çətinliklərlə üzləşə bilərdi. Sizin tərəfinizdən və sizin rəhbərliyinizlə kəşf edilmiş yataqlarımız bundan sonra da Azərbaycanın gələcək inkişafını təmin edəcəkdir. Bu, imkan verəcək ki, biz bundan sonra da neft amilindən səmərəli şəkildə istifadə edərək ölkəmizi hərtərəfli inkişaf etdirək. Ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün daha da böyük işlər görək. Ölkəmizi daha da gözəlləşdirək, abadlaşdıraq.

Siz böyük alimsiniz, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüsünüz, çoxsaylı elmi əsərlərin müəllifisiniz. Əsərlərinizin praktiki nəticələrini biz görürük, Azərbaycan vətəndaşları görür. «Əsrin müqaviləsi»nin imzalanmasında sizin böyük rolunuz olmuşdur. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən Azərbaycanın neft strategiyasının icrasında həmişə fəal olmusunuz.

Bu siyasət bugünkü Azərbaycanın inkişafını təmin edir. 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalamaqla Azərbaycan özünü tanıtdı, ilk dəfə olaraq Xəzər dənizini xarici sərmayədarlar üçün açdı. Nəticədə bu gün bizim hasilat və ixrac imkanlarımız o səviyyədədir ki, o vaxtlar bu barədə heç təsəvvür etmək də mümkün deyildi. Bu gün Azərbaycan 50 milyon ton neft hasil edir, təxminən 25 milyard kubmetr qaz

hasil edir. Azərbaycanın tarixində öz imkanlarımızı, neft-qaz yataqlarımızı biz heç vaxt belə böyük həcmdə işlədə bilmirdik. Bu gün bu imkanlar vardır və bunun arxasında 1994-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanan neft strategiyası, onun məntiqi nəticəsi – «Əsrin müqaviləsi»nin imzalanması və ondan əvvəl sizin iştirakınızla bu yataqların kəşfi və hasilat üçün hazırlanması məsələləri dayanır.

«Əsrin müqaviləsi»ndən sonra «Şahdəniz» yatağı üzrə kontrakt imzalanmışdır. Bu kontrakt da böyük çətinliklərlə imzalanmışdır, biz bunu yaxşı xatırlayırıq. Azərbaycanın geniş ictimaiyyəti bəlkə də bundan xəbərsizdir, çox ciddi müqavimət göstərilirdi. Əfsuslar olsun ki, nəinki xaricdən, ölkə daxilindən o vaxt Azərbaycanın rəhbərliyində təmsil olunan bəzi insanlar «Şahdəniz» yatağının işlənilməsinə çox ciddi şəkildə əngəllər törətməyə çalışırdılar. Siz bir peşəkar neftçi, geoloq, alim, mütəxəssis kimi, öz sözünüzü qətiyyətlə dediniz. Mən bunu çox yaxşı xatırlayıram, ulu öndər Heydər Əliyevin yanında keçirilmiş iclasda Azərbaycan Dövlət Neft Şirkətinin bütün rəhbərləri öz sözünü demişdilər. Ancaq sizin sözünüz səslənən o başqa fikirlərdən bəlkə də daha vacib idi. Çünki siz dünya şöhrətli alimsiniz və ulu öndər Heydər Əliyev sizin sözünüzə çox inanırdı. Mən də sizin sözünüzə həmişə inanmışam və onu da xatırlayıram ki, bir müddət əvvəl bəzi xarici şirkətlərin təkliflərinə də siz öz iradlarınızı bildirmisiniz. Sübut etməyə çalışmısınız ki, qazılacaq quyular üçün onların seçdiyi yer məqbul deyildir. Əfsuslar olsun ki, həyat bunu göstərdi. Sizə qulaq asmadılar və qazdıqları quyular boşa çıxdı. Ancaq həmin yataqlar bu gün yenə xarici şirkətlər tərəfindən işlənilir, bir neçə ildən sonra da işlənəcəkdir. Bu yataqlara maraq vardır.

Sizin fəaliyyətiniz və Azərbaycana verdiyiniz töhfələr xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bu gün bizim neft-qaz imkanlarımız iqtisadi inkişafımız üçün başlıca şərtdir və bunun başında Azərbaycan neftçiləri durur. Azərbaycan neftçiləri öz əməyi hesabına Vətənə xidmət göstərirlər. Neftçilər

bütün zamanlarda Azərbaycanda böyük hörmətə malik olmuşlar, bu gün də bu davam edir.

Bu gün bir daha onu qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Bizi şəxsi münasibətlər də bağlayır. 15 ildən çoxdur bizim münasibətlərimiz davam edir. Təkcə ona görə yox ki, vaxtilə ikimizin bir qəbul otağımız var idi və tez-tez o otaqda görüşürdük. Həm də ona görə ki, mən Dövlət Neft Şirkətində işləməyə başlayanda sizinlə daim təmasda idim. Daim biz fikir mübadiləsi aparırdıq. Mənim üçün o sahə yeni idi. Sizdən çox şey öyrəndim və aramızda o vaxtdan yaranan bu səmimi münasibətlər bu gün də davam edir. Bu bizə də və əminəm ki, Azərbaycan dövlətinə də lazımdır.

Mən bu əziz gündə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Siz Azərbaycan dövlətinin ali mükafatları ilə təltif edilmisiniz. Ulu öndər Heydər Əliyev tərəfindən «İstiqlal» ordeni ilə təltif edilmisiniz. Beş il əvvəl siz «Şöhrət» ordeni və bu yaxınlarda «Şərəf» ordeni ilə təltif edilmisiniz. Mən istəyirəm bu yüksək mükafatı bu gün özüm sizə təqdim edim və sizə gələcək fəaliyyətinizdə yeni uğurlar və cansağlığı arzulayım.

* * *

*Prezident İlham Əliyev Azərbaycanda neft sənayesinin və elminin inkişafında böyük xidmətlərinə görə Xoşbəxt Yusifzadəyə «Şərəf» ordenini təqdim etdi.*

*Mərasim konsert proqramı ilə başa çatdı.*

## ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika və regional əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## SƏBAİL RAYONUNDA «DALĞA PLAZA» İŞ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*15 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonunda «Dalğa Plaza» İş Mərkəzinin açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Dalğa Plaza» İş Mərkəzinə gəldilər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə Mərkəzlə bağlı məlumat verildi. Bildirildi ki, Mərkəz 1300 kvadratmetr sahədə inşa olunmuşdur. Binanın ümumi sahəsi 11 min kvadratmetrdir. Kaskad tipli 12 mərtəbəli bina müasir memarlıq üslubunda inşa edilmişdir. Binanın üzlənməsində yüksək keyfiyyətli materiallardan istifadə olunmuşdur. Fasad ən müasir sistemlə işıqlandırılmışdır. Bina mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz edilmişdir. Mərkəzin birinci mərtəbəsinin döşəməsinə və divarlarına mərmər döşənmişdir. Tavan hissəsində asma alpolik materialdan istifadə olunmuş, binada sürətli liftlər quraşdırılmışdır.*

*Dövlətimizin başçısı və xanımı Mərkəzin 9-cu mərtəbəsində yerləşən böyük və kiçik konfrans zalları ilə tanış oldular. Binanın 7 mərtəbəsinin hər birində 12 otaq vardır. Otaqların hamısı ən müasir standartlar səviyyəsindədir. Binanın 11-ci mərtəbəsində 320 kvadratmetr sahəsi olan restoran yerləşir. Burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir.*

*Prezident İlham Əliyev Mərkəz ilə yaxından tanış oldu və görülən işlərdən razı qaldığını bildirdi.*

## RESPUBLİKA MEHMANXANASINDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Respublika mehmanxanasında həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Respublika mehmanxanasına gəldilər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurma işlərini yerli mütəxəssislərdən ibarət inşaat briqadası həyata keçirir. İnşaat işlərinə 140-a yaxın fəhlə və mütəxəssis cəlb olunub. Təmir və yenidənqurma işləri ən müasir standartlara uyğun şəkildə aparılır. Qeyd olundu ki, mehmanxanada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı da nəzərdə tutulub. Qonaqlara yüksək səviyyəli iaşə xidməti göstərmək üçün restoran və kafelər fəaliyyət göstərəcəkdir. Təmir və yenidənqurma işlərinin may ayında başa çatdırılması nəzərdə tutulur.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ***

*18 yanvar 2010-cu il*

Nazirlər Kabinetinin bugünkü iclası 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmişdir. 2009-cu il dünyada maliyyə böhranı ili kimi tarixdə qalacaq və demək olar ki, bütün ölkələr böhrandan bu və ya digər formada əziyyət çəkmişlər. Baxmayaraq ki, Azərbaycan dünya iqtisadiyyatına çox uğurla inteqrasiya edir və bütün beynəlxalq maliyyə qurumları Azərbaycanda iqtisadi inkişaf sahəsində görülən işləri yüksək qiymətləndirirlər. Azərbaycan dünya iqtisadiyyatının bir parçası kimi, bu böhranlı vəziyyətdən minimum itkilərlə çıxa bilmişdir.

Biz dünya iqtisadi proseslərinə daha sürətlə qoşuluruq. Aparılan ciddi sosial-iqtisadi islahatlar ölkəmizi hərtərəfli inkişaf etdirməyə imkan yaradır. Dünya iqtisadiyyatının tərkib hissəsi olan ölkəmizdə 2009-cu ildə çox düzgün və vaxtında atılmış addımlarla iqtisadi maraqlarımızı qoruya bildik, insanların rifah halının pisləşməsinə yol vermədik. Əksinə,

* Назирляр Кабинетинин 2009-ъу илин сосиал-игтисади инкишафынын йекунларына щяср олунмуш иъласында Малиййя назири Самир Шярифов, Мяркязи Банкын Идаря Щейятинин сядри Елман Рцстямов, Рабитя вя İнформасийа Технолоэийалары назири Яли Аббасов вя Дювлят Сосиал Мцдафия Фондунун сядри Сялим Мцслцмов чыхыш етдиляр.

2009-cu ildə Azərbaycan əhalisinin sosial vəziyyəti daha da yaxşılaşdı. Qarşıda duran bütün infrastruktur layihələri, sosial proqramlar icra edildi.

2009-cu ilin yekunlarına görə, Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Bunu əyani şəkildə göstərmək üçün iqtisadi və sosial göstəricilərimizə baxmaq kifayətdir. 2009-cu ildə Azərbaycanda ümumi daxili məhsul 9,3 faiz artmışdır. Çünki bütün uğurlarımızın təməlində düşünülmüş siyasət və düzgün atılmış addımlar dayanır.

Bizim bölgədə, postsovet məkanında və geniş mənada qitədə ölkələrin tam əksəriyyəti böyük çətinliklərlə üzləşmişlər. O ölkələrdə iqtisadi inkişaf xeyli dərəcədə aşağı düşmüşdür. Bizdə isə vəziyyət tam başqadır və 9,3 faiz artan iqtisadiyyatımız 2009-cu ildə və ondan əvvəlki illərdə görülən işlərin nəticəsidir.

Sənaye istehsalı 2009-cu ildə 8,6 faiz artmışdır. Son illər ərzində sürətlə aparılan sənayeləşmə siyasəti öz bəhrəsini verməkdədir. Kənd təsərrüfatı 3,5 faiz artmışdır. Bu da çox önəmli göstəricidir. Sənayenin inkişafında müəyyən dərəcədə neft amili də vardır. Kənd təsərrüfatının inkişafı onu göstərir ki, Azərbaycanın qeyri-neft sektoru, xüsusən aqrar sahənin sürətlə artması görülən işlərimizin uğurlu nəticəsidir.

2008-ci ildə bizi narahat edən əsas məsələ inflyasiyanın yüksək həddə çatması idi. Yaxşı xatırlayırıq ki, 2008-ci ildə inflyasiya təxminən 21 faiz təşkil etmişdi. Çünki 5 ildə sürətli artım istər-istəməz istehlak qiymətlərinin artmasına təsir etmiş, dünyada neftin qiyməti kəskin şəkildə artmış, bu da birbaşa inflyasiyanın artımına xidmət göstərmişdi.

Bu il isə inflyasiyanın səviyyəsi 1,5 faizdir. Yəni 2009-cu ildə biz makroiqtisadi sabitliyi saxlaya bildik. İnsanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün konkret addımlar atdıq. İstehlak qiymətlərinə nəzarət gücləndirilmişdir. Hər bir ölkənin iqtisadi və sosial inkişafını müəyyən edən göstəricilər bu gün Azərbaycanda çox yaxşıdır, ürəkaçandır.

2009-cu ildə Azərbaycana investisiya qoyuluşu davam etmişdir. İl ərzində 9,2 milyard dollar investisiya qoyulmuşdur

ki, bunların da 7,3 milyardı daxili sərmayələrdir. Bu da çox gözəl göstəricidir. Bilirik ki, dünyada həm banklarda yaranmış ciddi vəziyyət, həm də maliyyə resurslarının azaldılması istər-istəməz investisiya qoyuluşunun davamına müsbət təsir göstərə bilməzdi. Biz bütün imkanları səfərbər edib özəl sektorun xətti ilə xarici şirkətlərin marağını nəzərə alaraq, Azərbaycanda böyük həcmdə investisiya qoyuluşunu təşkil edə bildik.

Həm dövlət tərəfindən qoyulan əsaslı investisiyalar, həm də yerli şirkətlərin böyüməsi, onların imkanlarının artırılması, əlverişli şəraitin yaradılması, dövlət tərəfindən sahibkarlığın inkişafına ayrılan vəsait, kreditlər, subsidiyalar, başqa güzəştlər, ölkəmizdə güclü infrastruktur layihələrinin icrası, hər yerdə yollar, elektrik stansiyaları, sosial obyektlərin yaradılması, digər tərəfdən, xarici investorlar üçün də yaxşı şəraitin yaradılması amilləri bu vəziyyətə gətirib çıxarıbdır. Əminəm ki, Azərbaycan gələcək illərdə də həm daxili, həm xarici investorlar üçün cəlbedici ölkə kimi, öz marağını saxlayacaq və biz növbəti illərdə, keçən il – 2009-cu ildə başlanmış layihələrin və yeni layihələrin icrası nəticəsində daha da böyük dərəcədə investisiya qoyuluşunu görəcəyik.

2009-cu ildə Azərbaycanda bir neçə nəhəng layihənin təməli qoyuldu, yaxud da ki, o layihələrin müəyyən hissəsi icra edildi. Xarici investorlar tərəfindən maliyyələşdirilən yeni böyük sement zavodunun təməl daşı qoyuldu. Ora qoyulacaq investisiyaların məbləği təxminən 400 milyon dollar səviyyəsindədir. Azərbaycan dövləti tərəfindən ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük dərəcədə xidmət edəcək yeni məişət tullantıları emalı zavodunun təməli qoyuldu. Ora qoyulacaq investisiyalar da təxminən 400 milyon dollar səviyyəsindədir. «Sumqayıt texnoparkı»nın müəyyən hissəsi artıq istifadəyə verildi və orada nəhəng tikinti-quraşdırma işləri aparılır. Sumqayıtın müasir sənaye şəhərinə çevrilməsi üçün bu texnoparkın çox böyük əhəmiyyəti vardır. Oraya qoyulacaq investisiyaların həcmini indi hesablamaq çətindir. Orada ən azı 10 nəhəng zavod qurulacaq, yəqin investisiya-ların həcmi 100

milyon dollarla ölçüləcəkdir. Mən təkcə 3 layihəni qeyd etdim. Bu layihələrin hər biri ölkə üçün çox böyük əhəmiyyətə malikdir. Bu onu göstərir ki, həm dövlət, həm xarici, həm yerli sahibkarların xətti ilə Azərbaycana qoyulan sərmayələrin həcmi artır. Biz gələcəkdə də bu siyasəti davam etdirəcəyik. Əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün bunun çox böyük əhəmiyyətli nəticələri olacaqdır.

2009-cu ildə valyuta ehtiyatlarımız artdı. Ağır maliyyə böhranı ilində valyuta ehtiyatlarının artırılması hər bir yerdə müşahidə olunmur. İndi valyuta ehtiyatlarımız 20,4 milyard dollar təşkil edir. Bu böyük məbləğdir və bizə imkan verir ki, gələcəkdə də özümüzü çox rahat hiss edək. 2010-cu ildə daha da böyük işlər aparılacaq, valyuta ehtiyatlarımız daha da artacaqdır.

Bu bizə imkan verir ki, makroiqtisadi sabitliyi qoruyaq, ölkədə gedən bütün sosial proqramları, bütün infrastruktur layihələrini vaxtında icra edək. 2010-cu ildə həyata keçiriləcək investisiya layihələri ölkəmizin hərtərəfli inkişafına xidmət göstərməlidir. Biz tezliklə investisiya proqramını təsdiq etməliyik. Vaxt itirmədən maliyyə vəsaiti ayrılmalıdır ki, 2010-cu ildə də sürətli inkişafımızı davam etdirək.

Keçən il regionların sosial-iqtisadi inkişafı prosesi uğurla davam etmişdir, 74 min yeni iş yeri açılmış və bu proses davam edir. Bu gün xarici vətəndaşlar var ki, Azərbaycana işləməyə gəlmək üçün müraciət edirlər. Azərbaycana xaricdən gələn miqrantların sayı artır və bu məsələyə də biz ciddi nəzarət etməliyik. Elə etməliyik ki, xaricdən Azərbaycana işləməyə gələn vətəndaşlar qanunlarımıza hörmətlə yanaşsınlar. Əminəm ki, Azərbaycana xoş niyyətlə gələn insanların – turistlərin, işçi qüvvəsinin sayı artacaqdır. Çünki Azərbaycanda indi böyük tikinti-quraşdırma işləri nəzərdə tutulur.

Biz işsizliklə bundan sonra da mübarizə aparacağıq, amma bu böyük sosial bəlanın əsas hissəsi həll olundu. Bunu göstərən həm son 6 il ərzində yaradılmış 840 min iş yeri, həm də yoxsulluq şəraitində yaşayan insanların sayının azaldıl-masıdır.

6 il əvvəl Azərbaycan vətəndaşlarının təxminən 50 faizə yaxını yoxsulluq səviyyəsində yaşayırdı, bu gün bu göstərici 11 faizdir. Əgər 2008-ci ilin yekunları ilə müqayisə etsək görərik ki, keçən il yoxsulluq 13,2 faizdən 11 faizə düşmüşdür. Bu onu göstərir ki, hətta böhranlı ildə Azərbaycanda yoxsulluğa qarşı çox ciddi mübarizə aparılıb. Azərbaycan vətəndaşları gündən-günə daha da yaxşı yaşamağa başlayırlar.

Azərbaycanın iqtisadi göstəriciləri bundan ibarətdir. Sosial proqramların həlli böyük əhəmiyyət kəsb edir. Bütün sosial proqramlar vaxtında icra edildi, ünvanlı sosial yardım proqramı davam etdi. 2009-cu ildə Azərbaycanda 64 məktəb tikilmişdir. 59 səhiyyə müəssisəsi tikilmiş və təmir edilmişdir. 5 böyük olimpiya kompleksi istifadəyə verilmişdir. Bu onu göstərir ki, hətta maliyyə imkanlarımız bir az azalanda da biz sosial infrastrukturun inkişafı üçün lazımi tədbirləri görürük, maliyyə vəsaiti ayırırıq və beləliklə, Azərbaycanda bütün sosial məsələlər öz həllini tapır.

2009-cu ildə Azərbaycanda 840 meqavatlıq yeni enerji gücləri yaradılmışdır. «Sumqayıt», «Şahdağ» böyük elektrik stansiyaları tikilib istifadəyə verilmişdir. Əvvəlki illərdə tikilmiş stansiyalarda yenidənqurma işləri nəticəsində əlavə güclərin yaradılmasına nail ola bildik. Beləliklə, özümüzün enerji tələbatını tam şəkildə təmin edirik. Bu, artıq uzun müddətdir ki, belədir və ixrac üçün də gözəl imkanlar vardır. Biz bu imkanlardan istifadə edirik. Xarici ölkələrə Azərbaycanın elektrik enerjisinin ixracı artır. Gələcək illərdə görüləcək tədbirlər nəticəsində biz bu işləri daha da böyük həcmdə görəcəyik. 2010-cu ildə isə görülən işlər nəticəsində ən azı əlavə 400 meqavat elektrik enerjisinin istifadəyə verilməsini gözləyirik. Beləliklə, Azərbaycan nəinki neft-qaz ixracı ilə öz imkanlarını genişləndirəcək, eyni zamanda, elektrik enerjisini xaricə böyük həcmdə satmaqla məşğul olacaqdır. İndi bütün infrastruktur yaradılır.

Qazlaşdırma prosesi uğurla davam etdi. Biz bu sahədə daha da böyük işlər görə bilərik və görürük. Bilirsiniz ki, bu

yaxınlarda əhalinin qazdan istifadəyə görə yaranan bütün borcları silindi, bağışlandı. Çünki o borcların yığılması prosesi uzun illər davam edirdi. Bəzi hallarda bu, təbii narazılığa səbəb olurdu. Bəzi hallarda insanların maliyyə imkanları o borcu ödəməyə imkan vermirdi. Biz bütün bunları başa düşməliyik. Azərbaycan xalqı ildən-ilə yaxşı yaşayır. Ancaq hələ ki, çətin vəziyyətdə yaşayanlar da vardır, biz onlara daim qayğı göstərməliyik, problemlərini həll etməliyik. Bu məqsədlə ünvanlı sosial yardım proqramı icra edilir və digər başqa yardımlar edilir. Qazdan istifadəyə görə olan borclar silindi. Halbuki bu, Azərbaycan büdcəsi üçün o qədər də asan məsələ deyildi. Təxminən 400 milyon dollar həcmində – 330 milyon manat məbləğində vəsait silindi. Ümid edirəm ki, bundan sonra əhali qaz pulunu və bütün kommunal xərcləri vaxtında ödəyəcəkdir. Borclar yaranmamalıdır, çünki yığılan vəsait büdcənin təmininə yönəldilir. Nə qədər çox vəsait yığılsa, bizim imkanlarımız o qədər də çox artacaq, pensiyalar, maaşlar o qədər də çox artırılacaq və bütün başqa işlər də görüləcəkdir.

Demək istəyirəm ki, sosial məsələlərin həlli bizim üçün prioritet məsələdir. Baxmayaraq ki, böhranlı ildir, neftin qiyməti aşağı düşüb, yuxarı qalxıb. Bunlar, əlbəttə, Azərbaycanın iqtisadiyyatına təsirsiz ötüşmür, ancaq sosial məsələlər həmişə prioritet olaraq qalır və qalacaqdır. Gələcəkdə də bu sahədə yubanma, yaxud da geriləmə olmamalıdır və olmayacaqdır.

2009-cu ildə xarici siyasət sahəsində çox vacib addımlar atılmışdır. Azərbaycanın xarici əlaqələri daha da gücləndirilmişdir. Mənim çoxsaylı xarici səfərlərim, xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri Azərbaycanın dünya miqyasında tanınmasında və mövqeyimizin güclənməsində böyük rol oynamışdır. Dostlarımızın, strateji tərəfdaşlarımızın, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz də bundan çox məmnunuq və bütün ölkələrlə əlaqələrimizi qarşılıqlı hörmət, bir-birimizin işlərinə qarışmamaq, qarşılıqlı etimad və maraqlar əsasında qururuq.

Əminəm ki, gələcəkdə bu meyillər daha da gücləndiriləcək, xarici əlaqələrimiz daha da çoxşaxəli və möhkəm olacaqdır.

Xarici siyasətimizin əsas məsələsi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində 2009-cu ildə praktiki nəticələr əldə edilməsə də, hesab edirəm ki, müəyyən irəliləyiş olmuşdur. Keçən ilin sonunda Afinada ATƏT-in xarici işlər nazirlərinin səviyyəsində keçirilən iclasda məsələ ilə bağlı qəbul edilmiş sənəd münaqişənin hansı yollarla həll olunmasını açıq-aydın göstərir. Göstərilir ki, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. İlk dəfə olaraq Ermənistan bu sənədə qoşuldu, buna qol çəkdi və problemin ərazi bütövlüyü çərçivəsində həll olunmasını etiraf etdi. O ki qaldı xalqların öz müqəddəratını təyinetmə məsələlərinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Bütün beynəlxalq sənədlər məhz bu yanaşmanı müdafiə edir, o cümlədən 1975-ci ildə Helsinkidə qəbul edilmiş, bu gün üçün də əsas olan sənəd məsələnin məhz bu yolla həll olunmasını göstərir.

Xalqların öz müqəddəratını təyinetmə məsələləri ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və bu məsələ yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Bu düstur Dağlıq Qarabağ məsələsinin həlli üçün də həlledici ola bilər. Məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaqdır. Bütün işğal edilmiş torpaqlardan Ermənistanın işğalçı qüvvələri çıxarılmalıdır. Bizim soydaşlarımız – məcburi köçkünlər ora qayıtmalıdırlar. Təhlükəsizlik tədbirləri görül-məlidir. Gələcəkdə Dağlıq Qarabağın Azərbaycan və erməni icmaları yüksək muxtariyyət şəraitində, Azərbaycan dövlətinin tərkibində yaşamalıdırlar. Bizim mövqeyimiz bundan ibarətdir. Qeyd etdiyim kimi, Afinada ATƏT-in xarici işlər nazirlərinin səviyyəsində keçirilən görüşdə qəbul edilmiş sənəd məhz bu yanaşmanı təsdiq edir. Ondan əvvəl – 2008-ci ildə Moskvada Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin birgə imzaladıqları bəyanatda da məhz bu yanaşma göstərilir. Məsələ beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qətnamələr və

qərarlar əsasında həll olunmalıdır. Bu hansı qərarlar və qətnamələrdir – bunu siyasətdən bir az başı çıxan adam dərhal deyə bilər. İlk növbədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi – hansılar ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. ATƏT-in sənədləri, digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər ki, Azərbaycanın ərazi bütövlüyünü təsdiq edir.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən, həmçinin Minsk qrupunun bütün üzvləri tərəfindən tanınıb, bu barədə dəfələrlə bəyanatlar verilmişdir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim məsələ ilə bağlı prinsipial mövqeyimiz bundan ibarətdir. Çalışacağıq ki, bundan sonra da mövqeyimizi möhkəmləndirək. Siyasi və hüquqi cəhətdən bu məsələ açıq-aydındır, heç kimdə şübhə doğurmur. Biz öz mövqeyimizi həm iqtisadiyyatımızın, həm də ordu potensialımızın möhkəmlənməsi ilə daha da gücləndirməliyik.

Bu sahədə də çox vacib işlər görülüb. 2009-cu ildə Müdafiə Sənayesi Nazirliyinin xətti ilə çox böyük işlər görülübdür və biz özümüzü daha da böyük həcmdə hərbi texnika, silah-sursatla təmin edirik. Bununla bərabər, 2009-cu ildə xaricdən çoxsaylı hərbiyönümlü texnika, silah-sursat alınmışdır. Bizim ümumi hərbi xərclərimiz 2 milyard dollara bərabərdir. Biz bu məsələ ilə bağlı səylərimizi daha da gücləndirməliyik. Bu məsələlərlə gündəlik məşğul olmalıyıq. Hərbi və ordu potensialının gücləndirilməsi danışıqlar prosesində ən vacib rollardan birini oynayır. Son zamanlar danışıqlarda müsbətə doğru müşahidə olunan dinamika Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialının gücləndirilməsinin nəticəsidir.

Dediyim kimi, 2009-cu ildə biz qarşıya qoyduğumuz bütün məsələlərə nail olduq. İndi 2010-cu il başlayır. 2010-cu ili də uğurla başa vurmalıyıq. Bu il də çox önəmli il olacaqdır. Bütün proqramlar, layihələr, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmalıdır və əminəm ki, tapacaqdır. Beləliklə, ölkəmiz bundan sonra da uğurla inkişaf etməyə davam edəcəkdir.

# YEKUN NİTQİ

2009-cu ilin yekunları bir daha onu göstərir ki, Azərbaycan keçən il uğurla inkişaf etmişdir. Çünki biz öz resurslarımıza arxalanırıq və bütün işləri Azərbaycanın milli maraqlarının qorunması istiqamətində aparırıq. Ölkəni daha da gücləndirmək, müasirləşdirmək, ölkə qarşısında duran bütün problemləri həll etmək üçün bizim bütün imkanlarımız vardır. Bir daha demək istəyirəm ki, həm düşünülmüş siyasət, həm də möhkəm iradə vardır.

Əvvəllər uğurlarımıza paxıllıq edən, istər xaricdə, istər daxildə nailiyyətlərimizi qəbul etmək istəməyən dairələr uğurlarımızı daha çox neft amili ilə bağlayırdılar. Halbuki neft amili də Azərbaycan xalqının zəhməti və ulu öndər Heydər Əliyevin fədakarlığı hesabına mövcud olmuşdur. Neftin dərin laylarda olması neft strategiyasının icrası demək deyildir. Ən ağır, ən çətin illərdə xarici investorları cəlb etmək, böyük iradə, uzaqgörənlik, cəsarət göstərməklə Azərbaycana bu sərmayələri cəlb etmək, «Əsrin müqaviləsi»ni imzalamaq, onun icrasını təmin etmək sayəsində biz bu gün neft amilindən danışırıq. Yəni Azərbaycanın müasir və neft-qaz ixrac edən güclü ölkəyə çevrilməsi işində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Ona görə də hətta neft amili hesabına olsa da, bu bizim iqtidarımızın əməyidir, zəhmətidir və nailiyyətidir. Bizə irad tutmaq istəyənlər, yaxud da uğurlarımızı sadələşdirmək istəyən qüvvələr iqtisadi inkişafı neft amili ilə bağlayırdılar. Əlbəttə, qeyd etdiyim kimi, bu amilin də öz rolu vardır və bu, davam edəcəkdir. Çünki Azərbaycanda son illər ərzində həm neft, həm qaz hasilatı son dərəcə artmışdır.

Ancaq 2009-cu il bütün bəd niyyətlə ifadə edilən sözləri alt-üst etdi. Ölkəmiz, iqtisadiyyatımız böhranlı ildə də uğurla inkişaf etdi. İndi hər şey müqayisə ilə ölçülür. Başqa ölkələrlə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq statistika vardır, göstəricilər vardır. MDB məkanında ən sürətlə inkişaf edən ölkə

Azərbaycandır. Bütün bölgədə iqtisadi tənəzzül, sənaye istehsalının tənəzzülü hökm sürür, Azərbaycanda isə artım vardır. Dünya İqtisadi Forumu – dünyanın mötəbər beynəlxalq təşkilatı Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 51-ci yerə layiq gördü və bu, MDB məkanında birinci yerdir. İqtisadiyyatımız MDB məkanında ən rəqabət qabiliyyətlidir, ən çoxşaxəlidir, ən müasirdir, ən güclüdür.

2008-ci ildə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı və təqdim etdi. Bizim uğurlarımızın təməlində duran məsələ – güclü siyasət, siyasi iradə, siyasi və iqtisadi islahatlar, düşünülmüş strategiya və taktikadır. Bu yolda bizim işimizə qarışmaq, məsləhət, tövsiyə vermək, lap göstəriş vermək istəyən tərəflərin sayı az deyildi. Ancaq biz bildiyimizi etdik və öz iradəmizlə Azərbaycanı bu günə gətirib çıxardıq, xalqımızın maraqlarını təmin etdik, ölkəmizi gücləndirdik və bu gün bunun hesabına Azərbaycan ilə hesablaşırlar. Azərbaycanın maraqlarını heç kim inkar edə bilməz. Çünki Azərbaycanın maraqlarını təmin etmədən bölgədə nə iqtisadi, nə siyasi, nə də heç bir başqa layihə və təşəbbüs icra oluna bilməz. 2009-cu il bu baxımdan tarixdə sınaq ili kimi qalacaq və Azərbaycan bu sınaqdan şərəflə çıxdı. Bu gün burada səslənən bütün iqtisadi və sosial göstəricilər onu bir daha göstərir.

Azərbaycan iqtisadiyyatı artıq öz keçid dövrünü başa vurdu. Biz artıq keçid dövrünün iqtisadiyyatı deyilik. Bunu şərtləndirən müxtəlif amillər vardır və bu gün bu barədə burada danışıldı. Biz tam şəkildə bazar iqtisadiyyatına keçmişik. Azərbaycan iqtisadiyyatı liberal iqtisadiyyatdır, müstəqil, dayanıqlı, öz resurslarına güvənən, dünya birliyinə sürətlə inteqrasiya edən iqtisadiyyatdır. Beynəlxalq kredit agentliklərinin böhranlı ildə verdikləri açıqlamalar, verdikləri qiymətlər onu göstərir ki, kredit reytinqlərimiz də artır.

Biz neft-qaz, enerji sahəsində uğurlu investisiya siyasətimizi aparmaqla bütün başqa sahələrə də investisiyaların cəlb olunmasına nail olduq. Bu gün mən bu rəqəmləri səsləndirdim, keçən il 9 milyard dollardan çox investisiya qoyulmuşdur. Bu il,

hesab edirəm ki, investisiya qoyuluşu davam etdiriləcəkdir. Son zamanlar Azərbaycan ilə iş görmək, investisiya qoymaq, yaxud da ki, podratçı kimi işləmək istəyən şirkətlərin sayı artır. Bizim tərəfdaşlarımız dünyanın aparıcı şirkətləridir. Bu amillər ölkəmizin bundan sonra da uzunmüddətli dayanıqlı inkişafını təmin edəcək, bütün sahələrinin inkişafını təmin edəcək, enerji amilindən asılılığımızı azaldacaqdır. Artıq biz bunu görürük.

Biz 2010-cu ildə diqqətimizi daha çox makroiqtisadi sabitliyə yönəltməliyik. Bu sabitlik 2010-cu ildə qorunub saxlanılacaqdır. Çünki bu ilin göstəriciləri və bundan əvvəlki illərdə görülən tədbirlər bunu göstərir. Həm böyük valyuta ehtiyatlarımız, həm güclü bank sektorumuz və istehlak qiymətlərinə güclü nəzarət bütün bu amilləri təmin edəcəkdir.

Biz daxili bazarımızı daha da ciddi qorumalıyıq. Bunun müxtəlif yolları vardır. Ən əsası idxalı əvəzləyən məhsulların istehsalını artırmaqdır. Bu məqsədlə həm Dövlət İnvestisiya Şirkətinin, həm də Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ayrılan kredit məbləğləri öz rolunu oynayır. Keçən il sahibkarlığa güzəştli şərtlərlə 130 milyon manat vəsait verilmişdir. Dövlət İnvestisiya Şirkəti isə xarici şirkətlərlə bərabər, ölkəmiz üçün bir sıra önəmli layihənin icrasına başlamışdır. Bütün bu kredit resursları daxili bazarın qorunmasına, ilk növbədə, daxili istehsalı artırmağa, digər tərəfdən, Azərbaycanda istehsal olunan malların istehlakçılara məqbul qiymətlərlə çatdırılmasına da xidmət edir. Bizim mallarla rəqabət aparmaq gücündə olan xarici malların gətirilməsinə yenidən baxmalıyıq. 2009-cu ildə, demək olar ki, bütün ölkələr, hətta ən inkişaf etmiş ölkələr bu meyilləri büruzə vermişlər. Çünki hər bir ölkə çalışmalıdır ki, öz istehsalçılarını və istehlakçılarını müdafiə etsin ki, qiymətlər qalxmasın. Ona görə də daxili bazarın qorunması işində daha da ciddi addımlar atılmalıdır.

İnflyasiyaya nəzarət ediləcəkdir. Əminəm ki, inflyasiya birrəqəmli olacaq, insanların yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır.

2010-cu ildə bütün sosial proqramlar icra olunmalıdır, həm məktəb, xəstəxana, idman komplekslərinin, həm də mədəniyyət obyektlərinin tikintisi nəzərdə tutulmalıdır. Bunu etmək üçün tezliklə Dövlət İnvestisiya Proqramı qəbul edilməlidir. Biz burada yubanmaya yol verməməliyik ki, tezliklə maliyyə vəsaiti ayrılsın və biz vaxt itirməyək. Bütün digər sosial proqramlar – əhalini və aztəminatlı təbəqəni müdafiə etmək üçün proqramlar da icra olunmalıdır.

Azərbaycanda demoqrafik vəziyyət də çox yaxşıdır. Bu yaxınlarda ölkəmiz üçün çox vacib və tarixi hadisə baş vermişdir – doqquz milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu, böyük nailiyyətdir, böyük göstəricidir. Keçən il Azərbaycanda 152 min uşaq dünyaya gəlmişdir. Əvvəlki illərlə müqayisədə böyük artımdır. Biz dinamikadan görürük ki, ildən-ilə Azərbaycanda doğulan uşaqların sayı artır. Vəziyyət yaxşılaşır, insanlar daha da yaxşı yaşamağa başlayırlar, demoqrafik artım bunun bilavasitə göstəricisidir. Mən çox şadam ki, Azərbaycanda demoqrafiya məsələləri ilə bağlı heç bir problem yoxdur. Biz bilirik ki, bəzi ölkələrdə bu problemlər böyük dərəcədə ciddiləşir. Problemlər ciddiləşdikcə gələcəkdə çox böyük problemlərə gətirib çıxaracaqdır.

Ancaq Azərbaycanda bu problem yoxdur. Bizim əhali artır və yaxşı templərlə artır. Biz çalışırıq və çalışmalıyıq ki, bu artım davam etsin, sürətlənsin. Əminəm ki, gələcəkdə Azərbaycanda iqtisadi və sosial vəziyyət daha da yaxşılaşdıqca əhalinin sayı da sürətlə artacaqdır. Bu fürsətdən istifadə edib doqquz milyonuncu uşağın valideynlərinə təbriklərimi göndərirəm və Azərbaycan xalqını bu böyük hadisə münasibətilə təbrik edirəm. Allah eləsin ki, biz 10 milyonuncu vətəndaşın da dünyaya gəlməsini bərabər qeyd edək.

2010-cu ildə bütün infrastruktur layihələrinin icrası davam etməlidir. Əlbəttə ki, bu, investisiya proqramında öz əksini tapacaqdır. Həm bu ilə qədər görülən işlər davam etdirilməli, həm də yeni layihələr icra edilməlidir. Avtomobil yollarının tikintisi davam etməlidir. Bakı–Gürcüstan sərhədi İpək yolunun

tikintisi bu il başa çatmalıdır. Bizi İranla birləşdirən, İran sərhədinə gedən yolda işlər davam etməlidir, daha da sürətlə davam etməlidir. Bu yol da çox böyük əhəmiyyət daşıyır. Bakı–Rusiya sərhədi yolunun böyük hissəsi artıq istifadəyə verilib, çox keyfiyyətli beton örtüklü yoldur. Bu il yolun Rusiya sərhədinə qədər tikintisi də başa çatmalıdır. Beləliklə, biz bu il bu üç əsas magistralın böyük hissəsini tikib istifadəyə verəcəyik. Bütün başqa yollar – həm şəhərdaxili, həm də şəhərlərarası yollar, kənd yolları təmir və bərpa olunmalıdır. Yeni yollar salınmalıdır. Bu işlərə nail olmaq üçün investisiya proqramında kifayət qədər vəsait nəzərdə tutulmalıdır.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üçün çox gözəl imkanlar vardır. Bu sahə bizim üçün nisbətən yenidir. 5-6 il bundan əvvəl Azərbaycanda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdır. Biz qısa müddət ərzində bu sahədə böyük uğurlara nail olduq. Mən yenə də dünyanın aparıcı beynəlxalq qurumunun hesablamalarına istinad etmək istəyirəm. Dünya İqtisadi Forumu Azərbaycanı informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində çox yüksək qiymətləndirir və biz MDB məkanında ən qabaqcıl yerlərdəyik, bəlkə də birinciyik. Azərbaycanda kosmik sənayenin yaradılması son illər ərzində görülən əməli işlərin məntiqi nəticəsidir. Biz daim qabağa baxmalıyıq, irəliyə baxmalıyıq. Əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Bu gün əldə edilmiş nailiyyət sabah daha da böyük addımın atılması üçün əsas olmalıdır. Xüsusilə dünyada sürətlə inkişaf edən informasiya texnologiyaları sahəsində biz hər zaman bir addım öndə olmalıyıq, rəqibləri də, zamanı da qabaqlamalıyıq. Məhz bu yanaşma bizə imkan verdi ki, qısa müddətdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində inqilab yarada bildik. Bu sahə dünyada çox sürətlə inkişaf edir. Biz bütün aparıcı beynəlxalq şirkətlərlə bu sahədə səmərəli əməkdaşlıq edirik. Bu həm iqtisadi cəhətdən, həm bütün başqa cəhətlərdən çox vacib, önəmli sahədir.

Bu il biz yeni dəniz limanının təməl daşını qoymalıyıq. Artıq Bakıda yeni liman tikilir. Bu yaxınlarda mən o tikinti ilə tanış oldum. Hesab edirəm ki, bir neçə aydan sonra o limanı istifadəyə verəcəyik. Şəhərin mərkəzində yerləşən dəniz limanı oradan köçürüləcək və insanların istirahəti üçün yeni yerlər istifadəyə veriləcəkdir. Ələt limanı isə bu bölgədə ən böyük liman olmalıdır. Hesab edirəm ki, bu il tikintiyə başlamalıyıq.

Bu il yeni elektrik stansiyalarının tikintisinə də başlamalı və tikintinin davam etməsini təmin etməliyik. Mən giriş sözümdə bu barədə fikirlərimi söylədim. Füzulidə Su Elektrik Stansiyasının tikintisi sürətləndirilməlidir. «Taxtakörpü» Su Elektrik Stansiyasının tikintisi də sürətləndirilməlidir. Naxçıvanda Biləvçay üzərində su elektrik stansiyasının tikintisi yəqin ki, bu il başa çatacaqdır. «Cənub» Elektrik Stansiyasında tikinti davam edir və orada maliyyə mənbələri artıq müəyyən edilibdir. Bu ən böyük elektrik stansiyasının gücü, haradasa 800 meqavata yaxın olacaqdır. Əlbəttə ki, bu il bu stansiyanın istifadəyə verilməsi mümkün deyildir. Yəqin ki, 2011-ci ildə «Cənub» Elektrik Stansiyası da işə düşməlidir.

İlin əvvəlindən bərpa olunan enerji növlərini təmin edən stansiyalar da yaradılmalıdır. Su, günəş, külək. Bu məqsədlər üçün investisiya proqramında vəsait nəzərdə tutulmalıdır və yubanmadan biz bu məsələlərlə məşğul olmalıyıq. Bilirsiniz ki, bərpa olunan və alternativ enerji mənbələrinin yaradılması Azərbaycanda prioritet istiqamət kimi qiymətləndirilir. Biz əvvəlki illərdə öz enerji təhlükəsizliyimizi təmin etdik. Növbəti illərdə bərpa olunan enerji mənbələrini yaratmalıyıq – həm itkilər azalacaq, həm də ixrac potensialımız artacaq.

Ölkəmizdə qazlaşdırma prosesi daha da sürətlə və müasir standartlara əsasən getməlidir. Köhnə, sıradan çıxmış qaz xətlərini dəyişməliyik. Bu məsələni həll etmək üçün Dövlət Neft Şirkətinə müvafiq göstərişlər verilib, işlər gedir. Yeni kəndlər, qəsəbələr, əvvəllər qaz almayan qəsəbələr qazlaşdırılır. Bu proses davam etməlidir. Qazlaşdırma haradasa 85 faiz təşkil edir, unutmamalıyıq ki, bu rəqəmə biz böyük şəhərlər hesabına

çatmışıq. 85 faiz o demək deyil ki, hər bir rayonun 85 faizi qazlaşdırılıb. Bakının, böyük şəhərlərin, demək olar ki, bütün yerləri qazlaşdırılıb. Amma rayonlarda elə deyil, rayon mərkəzləri və rayon mərkəzlərinə yaxın kəndlər qazlaşdırılıb, qalan kəndlərdə qaz yoxdur. Qazlaşdırma ən azı 90 faiz təşkil etməlidir və ən önəmlisi itkilər kəskin şəkildə aşağı düşməlidir. Çünki bu itkilər bizə böyük problemlər yaradır. İtkilərin azaldılması üçün ciddi inzibati tədbirlər görülməlidir. Biz qaz təchizatı sahəsində ən müasir sistem yaratmalıyıq. Kommunal xərclərin uçotu, hesablanması və əhali tərəfindən ödənişin asanlaşdırılması məsələlərinə də ciddi baxmalıyıq və buraya yeni bir yanaşma yaradılmalıdır.

Bu il ölkəmiz üçün çox vacib olan layihə – Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi başa çatmalıdır. Artıq işlərin böyük hissəsi görülüb. Qalan hissənin görülməsi üçün Dövlət Neft Fondunda vəsait nəzərdə tutulub. Hesab edirəm ki, bu il bu xətt mütləq istifadəyə verilməlidir və Bakıya çox təmiz içməli suyun gətirilib çıxarılması prosesi başa çatacaqdır. Bu da hesab edirəm ki, Azərbaycanda son illər görülən işlərin içində ən vaciblərindən biridir. Bu, böyük infrastruktur layihəsidir. Biz su kəmərini öz gücümüzə, neftdən əldə edilən gəlirlər hesabına çəkdiririk. Bu, ölkəmizin inkişafını, prioritetlərini, sosial məsələlərin nə qədər vacib olduğunu göstərir. Baxmayaraq ki, bu kəmərin tikintisi həm texniki, həm də maliyyə cəhətdən çox mürəkkəb bir prosesdir. Bu tikintiyə böyük vəsait sərf olunub. Amma biz bunu etməliyik ki, vətəndaşlar təmiz içməli su ilə təmin olunsunlar.

Bu il biz Bakıda yeni, müasir gəmiqayırma zavodunun tikintisinə başlamalıyıq. Bu məsələ ilə bağlı artıq bir müddətdir ki, danışıqlar aparılır. Hələ 2-3 il bundan əvvəl mən göstəriş vermişdim ki, Bakıda mütləq müasir gəmiqayırma zavodu yaradılmalıdır, çünki bizim buna böyük ehtiyacımız vardır. Həm Dövlət Neft Şirkətinin, həm Xəzər Dəniz Gəmiçiliyinin donanmasını biz müasirləşdirməliyik. Eyni zamanda, Hərbi Dəniz Qüvvələrimizi, Sərhəd Qoşunlarının tələbatını

ödəməliyik. Yeni gəmiqayırma zavodu bütün növ gəmiləri tikməyə qadir olmalıdır. Son danışıqlar tamamlanıb, razılaşmalar əldə olunub, vəsait təşkil edilib. Biz yubanmadan bu il gəmiqayırma zavodunun təməl daşını qoymalıyıq. Hesab edirəm ki, bunu 2 ilə tikmək mümkün olacaqdır. Ondan sonra həm özümüzü təmin edəcəyik, həm də Xəzər hövzəsində nadir bir infrastruktur müəssisəsini yaradacağıq. Gələcəkdə Azərbaycana bunun həm iqtisadi, həm də siyasi mənfəəti çox böyük olacaqdır.

Bu il Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi davam edəcəkdir. Azərbaycan Dövlət Neft Fondunda bu məsələlərin həlli üçün vəsait nəzərdə tutulub. Hesab edirəm ki, kifayət qədər vəsait nəzərdə tutulub. Əgər görsək ki, əlavə vəsaitə ehtiyac var, o zaman biz operativ qaydada ayrılan məbləği artıra da bilərik. Elə etməliyik ki, həm bizim üçün, həm qonşularımız, həm də dünya üçün vacib olan bu layihə yubanmasın.

Düzdür, tikinti zamanı gözlənilmədən yeni məqamlar ortalığa çıxdı – texniki məsələlər, ondan sonra relyef məsələləri. Bərpası nəzərdə tutulan hissədə, demək olar ki, dəmir yolları qalmayıb ki, onlar bərpa olunsun. Biz əvvəllər hesab edirdik ki, bir hissəsi tikiləcək, bir hissəsi bərpa olunacaqdır. Amma orada, yerlərdə müşahidə aparılan zaman gördük ki, bərpa olunan yerlər, ümumiyyətlə, yoxdur, yataqlar da sürüşüb gedib. Ona görə faktiki olaraq bu yol yenidən çəkilir və bilirsiniz ki, bu xərclərin böyük hissəsini Azərbaycan öz üzərinə götürübdür. Bir halda ki, biz bu layihəni başlamışıq və böyük təntənə ilə başlamışıq, yubanmaya yol verməməliyik. Çalışmalıyıq ki, bu layihənin icrasını vaxtında təmin edək.

2009-cu ildə kənd təsərrüfatının inkişafında önəmli addımlar atılmışdır. 2010-cu ildə bütün müsbət meyillər davam etməlidir. Həm kreditlər, həm «Aqrolizinq»in xətti ilə alınan texnikalar, gübrələr. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə soyuducu anbarların, taxıl anbarlarının tikintisi Azərbaycanda çox geniş vüsət almışdır. Yəni, bu iki istiqamət 2009-cu ildə çox sürətlə inkişaf etdi. Bu il də bu, davam etməlidir. Bununla

bərabər, kənd təsərrüfatının inkişafını təmin edən başqa sahələrə də biz, əlbəttə ki, diqqətimizi əsirgəməməliyik. Bu həm iqtisadi, həm də sosial baxımdan çox vacib olan sahədir və emal müəssisələrinin yaradılmasına xidmət göstərəcəkdir. Azərbaycanda bir neçə yerdə müasir emal müəssisələri yaradılıbdır, bəziləri indi tikilir. Hesab edirəm ki, növbəti illərdə Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının böyük hissəsini özümüzdə emal edəcəyik və hazır məhsul kimi ixrac edəcəyik. Ənənəvi bazarlar vardır və biz o bazarlarda daha da geniş təmsil olunmalı və yeni bazarları da axtarmalıyıq. Amma heç axtarmağa da dəyməz, bu bazarlar bizim ətrafımızdadır. Düşünürəm ki, Azərbaycanın kənd təsərrüfatı məhsulları Avropa İttifaqı bazarlarına da rahatlıqla çıxmalıdır. Bunun üçün, əlbəttə ki, müəssisələr müəyyən standartlara uyğun olmalıdır. Azərbaycanda son illər ərzində yaradılan emal müəssisələri bu standartlara cavab verir.

Bu il məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün səylərimiz davam etməlidir. Yeni qəsəbələr salınmalıdır və yataqxanalarda yaşayan köçkünləri biz oradan köçürməliyik. Bakıda artıq belə təcrübə vardır. Keçən il bir neçə evin açılışını qeyd etdik. Bakıda soydaşlarımız üçün hündürmərtəbəli evlər tikilir və bu proses davam etməlidir. Yataqxanaların siyahısı çıxarılıbdır. Düzdür, orada məskunlaşan köçkünlərin sayı çoxdur. Bu çox böyük maliyyə vəsaiti tələb edəcəkdir, ancaq bunu etməliyik. Elə etməliyik ki, bu il yataqxanaların bir neçəsi köçürülsün. Həm Bakı Şəhər İcra Hakimiyyətinə, həm də Dövlət Əmlak Məsələləri Komitəsinə torpaq sahələrinin ayrılması üçün müvafiq göstəriş vermişəm. Qaçqınkomla bərabər bu işləri müzakirə edib, tezliklə o yerləri müəyyən etməlisiniz. O yerlər tikilmiş evlərin yanında olmalıdır ki, orada köçkünlər yığcam şəkildə yaşasınlar. Orada məktəblər və tibb məntəqələri də vardır. Həm Bakıda, həm də ki, rayonlarda, xüsusilə işğaldan azad edilmiş bölgələrdə – Ağdam, Füzuli rayonlarında, Yevlaxda və müxtəlif yerlərdə yeni qəsəbələrin salınması davam etməlidir.

Ordu quruculuğu sahəsində də işlər uğurla davam edir. 2010-cu ildə hesab edirəm ki, müdafiə sənayesinin xətti ilə yaradılan yeni zavodların açılışında iştirak etməliyik. Bu proses gedir və lazımi vəsait ayrılır. Müdafiə Sənayesi Nazirliyi qısa müddət ərzində Azərbaycanda yeni sənaye sahəsinin yaradılmasında çox mühüm rol oynamışdır. Həyat göstərir ki, o vaxt Azərbaycanda müdafiə sənayesi yaradılması barədə bizim tərəfimizdən qəbul edilmiş qərar çox düzgün qərar idi. Bəziləri buna şübhə ilə yanaşırdılar. Əslində böyük ölkələrdə güclü müdafiə sənayesi yaradılır. Biz böyük ölkə olmasaq da, müharibə şəraitində yaşayırıq. Belə olan halda biz hər yerdə olduğu kimi, bu sahədə də daxili resurslara istinad etməliyik. Necə ki, biz siyasətdə, diplomatiyada, iqtisadiyyatda daxili resurslar hesabına yaşayır və fəaliyyət göstəririk, daxili imkanlardan istifadə edib güclü müdafiə sənayesini də yaratmalıyıq. Artıq bunu yaratmışıq. Azərbaycan məhsulları müxtəlif beynəlxalq sərgilərdə nümayiş etdirilir. İxrac imkanlarımızı da genişləndiririk. Müdafiə sənayesini yaradanda ilk növbədə öz daxili tələbatımızın ödənilməsini nəzərdə tuturduq. Bu gün də bu prioritetdir, ordunun və bütün hərbi qüvvələrin ehtiyacları ilk növbədə ödənilməlidir. Əgər ixrac üçün əlavə imkanlar olarsa, bu ancaq alqışlanacaqdır. Bu həm iş yerləridir, həm yeni sənaye obyektləridir, həm də ki, əsas məsələmiz – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bizə çox lazım və vacib olan sahədir.

Azərbaycanın hərbi döyüş potensialı artır. Orduda və bütün hərbi qüvvələrdə gedən proseslər mövqeyimizi gücləndirir. Həm döyüş qabiliyyəti, həm də vətənpərvərlik ruhu yüksək səviyyədədir. Texnika, silah-sursat məsələləri 2010-cu ildə də yubanmadan həll olunmalıdır.

2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdir. Bu da təsadüfi deyildir. Bu, insanların sağlamlığına birbaşa təsir edən məsələlərdir. Azərbaycanda ekoloji vəziyyət çox yaxşıdır. Bizim təbii şəraitimiz, gözəl təbii imkanlarımız vardır. Təmiz hava, təmiz bulaq suları, təmiz çaylar. Lakin Abşeron

yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük ehtiyac vardır. Uzun illər, əsrlər ərzində neft-qaz sənayesinin inkişafı nəticəsində Abşeronun böyük əraziləri həm neftlə, həm də neft tullantıları ilə çirklənmişdir. Biz böyük təmizlik işləri aparmalıyıq. Bu, böyük vəsait tələb edir, ancaq biz bunu etməliyik.

Biz qısa müddətdə hər sahədə dönüş yarada bildik: həm dövlət siyasətində, həm ictimai fikirdə. Mən görürəm ki, təşəbbüslərimiz əhali tərəfindən necə də gözəl qarşılanır, insanlar bu təşəbbüslərə qoşulurlar, iməciliklər keçirilir, kütləvi qaydada ağaclar əkilir. Bir xalq hərəkatı formasını almışdır, belə də olmalıdır. Çünki bu, ümummilli işimizdir, onu lazımi səviyyədə görməliyik. Ekologiya məsələlərinin, ətraf mühitin təmizlənməsi məsələlərinin həlli nəinki bu il, bundan sonrakı illərdə də prioritet məsələ kimi qalacaqdır.

Məişət tullantıları zavodunun istifadəyə verilməsi nəticəsində xeyli irəliləyişə nail olacağıq. Artıq bu gün Balaxanı zibilxanasından o tüstülər gəlmir. Orada həm çeşidlənmə, həm də təmizlənmə işləri aparılıb. Necə deyərlər, bu xoşagəlməz vəziyyətin qarşısını qısa müddətdə çox böyük səmərə ilə aldıq.

Bakıda və Abşeron yarımadasında milyonlarla yeni ağac əkiləcəkdir. Mən çox şadam ki, bölgələr də bu təşəbbüsə qoşulublar. Baxmayaraq ki, bölgələrimizin böyük əksəriyyətində meşə təsərrüfatı, gözəl dağlar, meşələr vardır, orada da təşəbbüsə qoşulurlar.

Sutəmizləyici qurğuların quraşdırılması davam etməlidir. Kür–Araz çayları boyu və başqa çaylar üzərində bu proses dayanmamalıdır. Bunun üçün də lazımi vəsait ayrılacaqdır. Keçən ilin sonunda mən Hövsan aerasiya stansiyasının açılışında iştirak etdim. Bu da çox böyük və ölkəmiz üçün çox vacib olan layihədir. Artıq kanalizasiya sularının böyük hissəsi təmizlənmiş qaydada Xəzər dənizinə axıdılır. Həm dənizin ekologiyasını qoruyuruq, həm də Azərbaycanda çox vacib olan su-kanalizasiya problemlərinin həlli üçün bu işləri görürük.

Yəni 2010-cu ildə görüləcək işlər çoxdur və mən əgər hər bir məsələ haqqında danışsam bir neçə saat vaxt lazımdır. Mən bu gün sadəcə olaraq, əsas istiqamətləri qeyd etdim. Bütün nazirliklər, dövlət komitələri, dövlət şirkətləri öz vəzifələrini bilirlər. Artıq 2009-cu ilin yekunları və ondan əvvəlki illərdə görülən işlər onu göstərir ki, Azərbaycanda çox güclü iqtidar komandası formalaşıbdır. Hər bir məmur öz işini bilir, öz vəzifə borcunu icra etməyə çalışır. Əlbəttə, biz həmişə olduğu kimi, daha da tələbkar olmalıyıq ki, qəbul edilmiş qərarlar hər bir yerdə düzgün və vaxtında icra olunsun, qanun pozuntularına yol verilməsin. Ölkə qarşısında duran bütün vəzifələri həll etmək üçün Azərbaycanda hər şey vardır – siyasi iradə, düşünülmüş siyasət, səfərbərlik və xalqla iqtidar arasında birlik, təşəbbüslərimizin xalq tərəfindən dəstəklənməsi. Əgər bu olmasaydı, heç bir məsələni həll etmək mümkün olmazdı. 2010-cu ildə, bu gün də burada qeyd edildi, bu böhranlı meyillər hələ də davam edə bilər. Biz arxayınlaşmamalıyıq, işlərimizi çox ciddi qurmalıyıq. Əminəm ki, əgər biz 2009-cu ili bu gözəl nəticələrlə başa vurmuşuqsa, 2010-cu ildə də istədiyimizə nail olacağıq.

Bu işlərdə sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram. Sağ olun.

## «EURONEWS» TELEKANALINA MÜSAHİBƏ

*19 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da «Euronews» telekanalının müxbiri Laura Davideskuya müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, aparılan danışıqların gedişi və perspektivləri, regional və digər məsələlərlə bağlı suallara cavab vermişdir. Azərbaycanın dövlət başçısı sülh danışıqlarının iki mühüm şərtdən asılı olduğunu demişdir.*

**İ l h a m Ə l i y e v:** Birinci növbədə Ermənistanın beynəlxalq normaları əsas götürməsi, ikincisi isə qoşunlarını Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarmasıdır. Münaqişənin həlli ilə bağlı ümidlərimiz vardır. Çünki uzun illər davam edən proses münaqişənin sülh yolu ilə həllinə aparmalıdır. 20 ilə yaxındır ki, torpaqlarımız işğal altındadır. Ermənistan beynəlxalq hüququn təməl prinsiplərini pozmuşdur. Bildiyiniz kimi, BMT-nin Təhlükəsizlik Şurası erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilməyib. Hazırda danışıqlar yekun mərhələdədir. Danışıqlar dövründə müxtəlif variantların hamısı nəzərdən keçirilmiş və qəbul edilməmişdir. İndi isə nizamlanma üçün əsas ola biləcək Madrid prinsiplərini müzakirə edirik. Lakin bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistanın öz qoşunlarını çıxararaq, beynəlxalq hüquq normalarına riayət etmək istəyindən asılı olacaqdır. Yalnız bundan sonra sülh bərqərar ola bilər. Gec və ya tez bu münaqişə bitməlidir. Vətəndaşlarımız doğma

yurdlarına qayıtmalıdırlar. Biz buna daha tez nail olmaq istəyirik, çünki insanlarımız uzun illərdir ki, bunu gözləyir.

Mən 2010-cu ildə dünyanın aparıcı ölkələrinin təmsil olunduğu ATƏT-in Minsk qrupunun həmsədrlərinin münaqişəni həll etmək istiqamətində fəaliyyətlərinə nikbin baxıram. Qeyd etdiyim kimi, hazırda nəzərdən keçirdiyimiz təkliflər beynəlxalq hüququn təməl prinsiplərinə əsaslanır. Onlar ölkələrin ərazi bütövlüyü, güc tətbiq etməmək və xalqların özünüidarəetmə prinsiplərinə əsaslanır. Bu prinsiplər bir-biri ilə ziddiyyət təşkil etmir. Özünüidarəetmə prinsipi ölkənin ərazi bütövlüyü çərçivəsində təmin edilə bilər. Bu baxımdan biz nikbinik. Lakin bu nikbinliyi real nəticələrə çevirmək üçün Ermənistan tərəfi realizm və konstruktivlik nümayiş etdirməli, uzun illər Azərbaycan torpaqlarını qeyri-qanuni işğal etmiş qoşunlarını ərazilərimizdən çıxarmalıdır.

**S u a l: Bəzi məlumatlar var ki, Ermənistan işğal olunmuş torpaqları qaytarmağa hazırlaşır. Görünür Siz və prezident Sarkisyan ümumilikdə bu məsələdə razılığa gəlmisiniz. Siz bunu təsdiqləyə bilərsinizmi?**

**İ l h a m Ə l i y e v:** Danışıqlarımızın prinsiplərindən biri ondan ibarətdir ki, hər bir detal razılaşdırılmayana qədər, heç nə razılaşdırılmamış hesab olunacaqdır. Hesab edirəm ki, danışıqlar prosesi başa çatmamış, bəzi razılaşdırılmış hesab edilə bilən elementləri açıqlamaq tez olardı. Deyə bilərəm ki, vasitəçilərin verdiyi təkliflər Azərbaycanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda olan bütün işğal edilmiş torpaqlardan Ermənistan qoşunlarının çıxarılması, azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtması, bütün kommunikasiyaların açılması, Dağlıq Qarabağın hər iki icması – erməni və Azərbaycan icmaları üçün sülh zəmanəti prinsipinə əsaslanır.

Biz bütün kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təkcə Dağlıq Qarabağı Ermənistanla birləşdirən dəhlizin deyil, eləcə də Azərbaycanı ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirəcək dəhlizin də açılmasının tərəfdarıyıq.

Burada, həmçinin iki ölkə arasında olan sərhədlərin digər yerlərində də kommunikasiyaların açılması nəzərdə tutulur. Dağlıq Qarabağ ilə Ermənistan arasında dəhlizə gəldikdə, əgər siz xəritəyə nəzər yetirsəniz görərsiniz ki, Dağlıq Qarabağın Ermənistanla heç bir sərhədi və ya quru əlaqəsi yoxdur. Buna görə, sülh razılaşmasının bir hissəsi kimi, dinc şəraitdə dəhlizin təmin edilməsi Azərbaycanın getdiyi böyük güzəştlərdən biridir. Lakin biz hesab edirik ki, gələcəkdə bu dəhliz təkcə bu gün Dağlıq Qarabağda və ya Ermənistanda yaşayan insanlar tərəfindən deyil, eləcə də hamımız tərəfindən istifadə oluna bilər. Biz bu əlaqəni Ermənistan və Azərbaycanın müxtəlif bölgələri arasında birbaşa keçid kimi də istifadə edə bilərik. Əgər nə vaxtsa sülh razılaşmasına gəlsək, əminəm ki, biz tezliklə təmasları qura bilərik, bütün kommunikasiyaları açarıq və regionda sülh bərqərar oluna bilər. Lakin buna nail olmaq üçün əsas şərt Ermənistan qoşunlarının işğal olunmuş torpaqlarımızdan çıxmasıdır.

Erməni xalqının öz müqəddəratını təyinetmə məsələsinə gəldikdə, deyə bilərəm ki, ermənilər öz müqəddəratını artıq təyin ediblər. Onlar Ermənistan dövlətinə malikdirlər. Təxminən 200 il bundan əvvəl regionun müxtəlif yerlərindən ermənilərin Dağlıq Qarabağa köçürülməsi faktı o demək deyil ki, onlar Azərbaycanın tarixi ərazilərində ikinci erməni dövlətini yarada bilər. Əgər biz bu məntiqlə getsək, belə çıxır ki, dünyada 10 və ya ondan da artıq erməni dövləti yarana bilər. Çünki ermənilər dünyanın müxtəlif yerlərində yaşayırlar. Buna görə, ikinci erməni dövlətinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış tarixi ərazilərində yaradılmasından söhbət gedə bilməz. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə və ya onun Azərbaycanın tərkibindən çıxmasına apara biləcək hər hansı mexanizm və ya prosedurla heç vaxt razılaşmayacaqdır. Bu, müzakirə mövzusu deyildir.

Ümid edirəm ki, torpaqlarımızın azad edilməsindən sonra kommunikasiyaların açılması və təmasların qurulması ermənilər ilə azərbaycanlılar arasında daha çox anlaşmaya aparacaqdır.

Biz qonşuyuq. Barışıq baş verərsə, onda hər şey normallaşar. Avropada yaxşı muxtariyyət təcrübəsini görürük. Vahid dövlətlərin tərkibində muxtariyyət variantları vardır. Hesab edirəm ki, bir münasib həll yolu olmalıdır. Heç kəs bu regionda müharibə istəmir. Danışıqlar prosesində olmağımız və konstruktiv yanaşmamız, o cümlədən danışıqlar prosesinin yekun mərhələsində Minsk qrupu həmsədrlərinin apardığı fəaliyyətə dəstək verməyimiz faktı niyyətlərimizi nümayiş etdirir. Lakin Ermənistan ərazilərimizi güc yolu ilə işğal edib. Azərbaycanın isə dünyanın istənilən ölkəsi kimi, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, özünü müdafiə etmək üçün bütün vasitələrdən qanuni istifadə etmək hüququ vardır. Bu özünü müdafiə etmək, öz torpaqlarını işğaldan azad etmək hüququdur.

Biz ölkəmizi müasirləşdiririk. Söhbət təkcə hərbi xərclərdən getmir. Təhsil, səhiyyə, infrastruktur sahələrinə də xeyli vəsait ayırırıq. Son 5 ildə Azərbaycan öz dövlət xərclərini 12 dəfədən çox artırmışdır. Hərbi xərclər də digər sahələrdə olan xərclərə müvafiq olaraq artırılır. Əgər siz bizim ümumi daxili məhsulun artımına müvafiq hərbi xərclərin faiz nisbətinə baxsanız görərsiniz ki, onlar Ermənistanla müqayisədə daha azdır. Azərbaycanın guya silahlanma yarışına rəvac verməsi barədə səslənən ittihamlar həqiqətə uyğun deyildir. Bu gün iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından təxminən 10 dəfə böyükdür. İstədiyimiz qədər vəsait xərcləməyə imkanımız vardır. Ermənistanın isə digər ölkələrdən nə qədər yardım almaq imkanı varsa, bir o qədər vəsait xərcləmək imkanı vardır. Bu gün Ermənistan ilə Azərbaycan arasında güc tarazlığı artıq mövcud deyildir.

**S u a l: Hərbi nöqteyi-nəzərdənmi?**

**İ l h a m Ə l i y e v:** Bu, istənilən sahədə belədir. Əgər iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından təxminən 10 dəfə böyükdürsə və büdcə xərclərimiz təxminən 8 dəfə çoxdursa, təbii ki, ordumuz da güclüdür və hərbi məqsədlərimiz

və müdafiə infrastrukturu üçün çəkilən xərclərimizin həcmi də böyükdür.

Biz bütün region ölkələri arasında müsbət münasibətlərin olmasının tərəfdarıyıq, çünki bu, regionda daha yaxşı mühit və ab-hava yarada bilər. Lakin regionda ən böyük problem Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalıdır.

Bu proseslər paralel şəkildə həll olunmalı, bir-birini tamamlamalıdır. Yalnız bu halda regionda hərtərəfli sülh bərqərar ola bilər. Bu paralelliyə əməl olunmasa, gözlənilməz nəticələr verə bilər.

**S u a l: Lakin Sizin Xarici İşlər Nazirliyi bu yaxınlarda bildirmişdir ki, mən sitat gətirirəm: «Ermənistan ilə Türkiyə arasında sərhədlərin açılması regionda gərginliyə səbəb ola bilər və Azərbaycanın maraqlarına ziddir». Siz bu mövqedə durursunuzmu?**

**İ l h a m Ə l i y e v:** Bəli, əgər Dağlıq Qarabağ məsələsinin həllində hər hansı gözəçarpan, praktiki irəliləyişdən asılı olmayaraq, bu, baş verərsə, Dağlıq Qarabağla bağlı sülh prosesində durğunluğun yaranmasına gətirib çıxaracaqdır. Beynəlxalq hüquq normalarına riayət edərək, Ermənistanı öz qoşunlarını çıxarmağa vadar etməyin əsas yollarından biri onun təcrid edilməsidir. Ermənistanda böyük iqtisadi problemlər yaşanır. Ötən il onların iqtisadiyyatı təxminən 20 faiz azalmışdır. Sərhədlərin açılması bu ölkənin iqtisadiyyatına təkan verəcəkdir. Biz narahatıq ki, bu Dağlıq Qarabağ probleminin həllində hər hansı irəliləyişdən asılı olmayaraq baş verərsə, sülh perspektivləri çox zəif olacaqdır. Sonra nə olacaq? Əgər biz görsək ki, sülh perspektivləri tükənib, onda hansı variantlar qalacaq? Oturub növbəti on beş ili gözləməliyik və ya öz ərazi bütövlüyümüzü bərpa etmək üçün imkanlarımızdan istifadə etməliyik? Yaxşı olardı ki, bu hadisənin mümkün ola biləcək mənfi nəticələri qiymətləndirilsin. Bizim fikrimizcə bu, regionda əlavə çətinliklər yaradacaqdır. İndi bəlkə də nadir fürsət yaranıb: bir tərəfdən, Türkiyə–Ermənistan prosesi gedir, digər tərəfdən də Ermənistan

ilə Azərbaycan arasında danışıqların yekun mərhələsinə çatmışıq. Bu iki prosesin gücünü birləşdirmək lazımdır ki, regionun heç bir ölkəsi özünü təklənmiş və onun milli maraqlarına məhəl qoyulmadığını hiss etməsin.

Yekun mərhələ dedikdə mən vaxt çərçivəsini deyil, mahiyyəti nəzərdə tuturam, çünki bu illər ərzində bir çox variantlar müzakirə edilib. Bir çox variantlar isə irəli sürülüb və qəbul edilməyib. Bəzən Ermənistanda baş vermiş faciəli terror aktları bizi həll yolunu tapmaq imkanından məhrum edib. 1999-cu ildə Ermənistanın bəzi liderlərinə qarşı terror aktları törədildi və bu hadisə danışıqlar prosesinin dondurulmasına gətirib çıxardı.

Əgər sülh prosesinin indiki mərhələsi uğursuz olarsa, onda biz heç nə haqqında danışa bilməyəcəyik. Bu, müzakirə etdiyimiz məsələlər baxımından sonuncu şansdır. Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunan və tərəflərin hazırda müzakirə etdiyi həll variantı yeganə mümkün həll yoludur. Əgər bu bir nəticə verməsə, onda belə çıxır ki, danışıqlar uğursuzdur, nəticəsizdir. Yekun mərhələ dedikdə məhz bunlar nəzərdə tutulur. Hesab edirəm ki, 2010-cu il həlledici il ola bilər və Azərbaycan məsələni sülh yolu ilə həll etməkdə öz səylərini artırmağa hazırdır.

Bizim enerji strategiyamız kiminsə kənarda qoymaq prinsipinə əsaslanmır. Ölkəmizin açıq dənizlərə və dünyanın neft bazarlarına birbaşa çıxışı yoxdur. Bizə boru kəmərləri lazım idi. Boru kəmərlərinin çəkilməsi üçün tranzit ölkələrə ehtiyac duyurduq. Biz neft təchizatı yollarını şaxələndirmək istəyirdik. Bu işlərə neft hasilatı ilə başladıq və buna nail olduq. Hazırda neftimizi müxtəlif istiqamətdə nəql edən 3 boru kəmərimiz vardır. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Biz heç bir tranzit ölkədən asılı deyilik. Bu ən mühüm məsələdir. Tranzit ölkələrdən asılılıq heç də təchizatçı ölkələrdən asılılıqdan az əhəmiyyətli məsələ deyildir. Biz qaz yataqlarının işlənilməsi layihələrində də bunu tətbiq etdik. Hazırda fəaliyyət göstərən boru kəmərləri qazımızı 4 ölkəyə çatdırır. Biz qazı Türkiyə, Gürcüstan, Rusiya və İrana nəql edirik.

Beləliklə, neft və qaz təchizatı tam şəkildə şaxələndirilib. Biz yalnız bir marşrutdan asılı deyilik.

Hazırda hasilat və ixrac həcmi bizi qane edir. Əlbəttə ki, biz gələcəkdə hasilatın həcmini artırmağı planlaşdırırıq. Bilirik ki, Avropada alternativ qaz mənbələrinə artan tələbat vardır. Hazırda Avropada müzakirə olunan və Nabukko, TGI, TAP kimi bir neçə layihələri və digərlərini əhatə edən «Cənub dəhlizi» adlandırılan layihə burada son dövrdə əldə etdiyimiz nailiyyətlərə əsaslanır. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirməyə hazırıq.

Qazın təchizatı ilə bağlı uzunmüddətli sazişlərin bağlanması məqsədi ilə müxtəlif ölkələrlə danışıqlar aparırıq. Biz ədalətli qiymətdə, ədalətli tranzit haqlarında maraqlıyıq ki, təbii sərvətlərimizdən maksimum iqtisadi faydanı götürə bilək. Ehtiyatlara gəldikdə, Azərbaycanda təsdiq olunmuş təbii qaz ehtiyatlarının minimal həcmi 2 trilyon kubmetrdir. Amma hesablamalara görə bu rəqəm hətta 5 trilyon kubmetr ola bilər. Bu həcm əsas istehlakçıları ən azı 100 il qazla təchiz etmək üçün kifayətdir. Biz regionda daha çox əməkdaşlıq görmək istəyirik və ölkəmizin təbii ehtiyatlarımızdan faydalanmaq istəyənlər arasında rəqabət meydanına çevrilməsini istəmirik. Biz istəyirik ki, təbii ehtiyatlarımızdan ilk növbədə xalqımız bəhrələnsin. Enerji strategiyamızı elə qurmaq istəyirik ki, biz heç bir marşrutdan, heç bir qonşudan və heç bir istehlakçıdan asılı olmadan resurslarımızdan istifadə edərək, daha çox etimad və əməkdaşlıq yaradaq. Hesab edirəm ki, regionda marağı olan tərəflər arasında daha çox əməkdaşlıq olmalıdır. Azərbaycan əməli addımları ilə öz maraqlarını tam müdafiə etməyin, hətta bəzən başqalarının bunun əleyhinə olmasına baxmayaraq, boru kəmərlərini istədiyimiz istiqamətdə çəkməyin və bütün qonşularla və dostlarla yaxşı əlaqələr saxlamağın mümkün olduğunu sübut etmişdir.

Biz müstəqil siyasət həyata keçiririk. Azərbaycan xalqının istədiyini edirik. Biz başqa ölkələrin yox, öz ölkəmizin milli maraqlarını qoruyuruq. Buna görə də bəzən beynəlxalq

mətbuatda və bəzi dırnaqarası beynəlxalq insan hüquqları qruplarının hesabatlarında biz çox əsassız və qərəzli tənqidlərə məruz qalırıq. Həmin insan hüquqları qrupları öz hesabatlarında bizim qonşuluqda vətəndaş hüquqları və demokratiya ilə bağlı baş verən böyük pozuntuları görmürlər. Sanki heç nə baş vermir. Ancaq Azərbaycanda kiçik bir hadisə baş verən kimi, şişirdilir və dərhal biz tənqid olunuruq.

Biz bunu ölkəmizə təsir göstərmək siyasəti kimi qəbul edirik. Başa düşürük ki, Azərbaycanın əhəmiyyəti artdıqca dünyanın müxtəlif yerlərindən Azərbaycana təsiretmə cəhdləri də artır. Ancaq sizə deyə bilərəm ki, əgər biz müstəqil siyasətimizi müstəqilliyimizin ağır illərində qoruya bildiksə, bu gün istənilən tərəfin dırnaqarası demokratiya amilindən istifadə edərək, Azərbaycanın mövqeyini zəiflətmək və heç vaxt razı olmayacağımız məsələlərə bizi razı salmaq məqsədi daşıyan hər hansı cəhdlərinə müqavimət göstərmək bizim üçün daha asandır. Biz Azərbaycan xalqının iradəsinə əsaslanan demokratik, suveren, müstəqil dövlət qururuq və kimin nə deməsindən asılı olmayaraq bu siyasəti davam etdirəcəyik.

Son 5 il ərzində Azərbaycanın iqtisadiyyatı 2,6 dəfə artmışdır, işsizliyin böyük hissəsini aradan qaldırmışıq, 840 min yeni iş yeri yaratmışıq. Büdcə xərcləri 12 dəfə artmış, yoxsulluq səviyyəsi 49 faizdən 11 faizə düşmüşdür. Azərbaycan xalqı getdikcə daha yaxşı yaşayır. 2009-cu ildə – böhran ilində iqtisadiyyatımız 9,3 faiz, sənaye isə 8,6 faiz artmış, inflyasiya 1,5 faiz təşkil etmiş, xarici valyuta ehtiyatları 20,4 milyard dollar olmuşdur. Əgər siz mənə dünyada 2009-cu ildə bu nəticələri əldə etmiş hər hansı başqa bir ölkə göstərə bilsəniz, sizə minnətdar olaram.

20 il bundan əvvəl sovet ordusu vəhşilik göstərərək, şəhərimizi işğal etdi, yüzlərlə günahsız insanı qətlə yetirdi və yaraladı. Bundan bir gün sonra, həmin dövrdə fəal siyasətçi yox, təqaüdçü olan Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək, ictimaiyyət qarşısında açıq şəkildə kommunist-sovet rəhbərliyini bu vəhşi hərəkətlərinə

görə pislədi. Həmin dövrdə, Sovet İttifaqının süqutuna hələ 2 il qalırdı, bu çox cəsarətli bir addım idi. Bundan sonra o, açıq şəkildə Kommunist Partiyasının üzvlüyündən çıxmasını bəyan etdi və bu da asan bir addım deyildi. Bundan dərhal sonra sovet hökuməti ona qarşı hücumlara başladı, Moskvada həbs etmək istədi. O, buraya – Bakıya qayıtmalı oldu. Ancaq Azərbaycanın həmin dövrdəki kommunist rəhbərliyi də onu həbs etmək istəyirdi. O, doğma şəhəri Naxçıvana getdi. Bundan sonra heç kim ona toxuna bilmədi, çünki xalq onu dəstəkləyirdi və qoruyurdu.

Heydər Əliyev Bakıda vətəndaş müharibəsi başlayanda Azərbaycanın prezidenti seçilmişdir. Həmin dövrdəki prezident və bütün hökumət ölkədən qaçmışdı. Çünki hərbi birləşmələr hakimiyyəti ələ keçirmək üçün Bakıya gəlirdilər. O vaxtkı rəhbərlik dövlətçiliyi qorumağa kömək etmək üçün Heydər Əliyevdən Naxçıvandan Bakıya gəlməsini xahiş etdi. Bax, belə şəraitdə o, Bakıya gəldi.

Onun və ya mənim tərəfimdən atılmış heç bir addım heç vaxt kiminsə dəstəyini qazanmaq məqsədi daşımamışdır. Bizim etdiyimiz budur – xalqın iradəsinə əsaslanan suveren Azərbaycan dövlətini qurmaq.

## «20 YANVAR» DAİRƏSİNDƏ ŞƏHİDLƏRİN XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*20 yanvar 2010-cu il*

*Yanvarın 20-də prezident İlham Əliyev Bakının Yasamal rayonundakı «20 Yanvar» dairəsində, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində Qanlı Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış memorial abidə kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı abidənin üzərindən örtüyü götürdü.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Məlumat verildi ki, metronun «20 Yanvar» stansiyasının üzərindəki dairədə xatirə kompleksinin inşasına ötən ilin oktyabrında başlanılmışdır. Memorial kompleksin ümumi sahəsi 1500 kvadratmetrdir. Kompleksin divarı Afrika və Ukraynadan gətirilmiş qranit piltə ilə üzlənmişdir. Abidənin ətrafındakı meydana da qranit piltə döşənmişdir. Layihəyə əsasən, abidənin arxa hissəsindəki park abadlaşdırılmış, kompleksin qarşısında müasir işıqlandırma sistemi quraşdırılmışdır. Xatirə kompleksinin mərkəzində hündürlüyü postamentlə birlikdə 8 metr olan əzəmətli abidə ucaldılmışdır. Kompleksin memarı Ədalət Məmmədov, abidənin heykəltəraşları Cavanşir Dadaşov və Azad Əliyevdir.*

*Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı, habelə ümummilli lider Heydər Əliyevin Qanlı Yanvar hadisələri ilə bağlı dediyi* «1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur» *sözləri qızılı hərflərlə həkk olunmuşdur. Postamentin üzərində isə* «20 Yanvar şəhidlərinin əziz xatirəsinə» *sözləri yazılmışdır.*

*Dövlətimizin başçısı açılış mərasiminə toplaşmış Yasamal rayonu ictimaiyyətinin nümayəndələri və 20 Yanvar şəhidlərinin ailə üzvləri ilə görüşüb söhbət etdi.*

**İlham Əliyev:** O dəhşətli gündən 20 il keçir. 20 il ərzində şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır. Məhz hər il yanvarın 20-də Şəhidlər xiyabanına insan

axını bunu aydın göstərir. 20 il ərzində Azərbaycan xalqı əziz şəhidlərimizin ruhu qarşısında baş əyir.

Bu qanlı faciə Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi. O vaxtadək sovet ordusu tərəfindən dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıq, vəhşilik edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı. Bu cinayəti törədənlər Sovet İttifaqının o vaxtkı rəhbərliyi və Azərbaycanın o vaxtkı yerli rəhbərliyi idi. Dərd orasındadır ki, faciə günündən keçən 3-4 il ərzində Azərbaycanda heç kim, heç bir vəzifəli şəxs, heç bir dövlət qurumu bu faciəyə siyasi qiymət verməmişdi.

Lakin Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun təşəbbüsü ilə Milli Məclis siyasi qərar qəbul etdi, cinayətkarları öz adları ilə adlandırdı və ədaləti bərpa etdi.

Hamımız yaxşı xatırlayırıq ki, təqaüddə olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ 2 il qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi.

20 Yanvar günü bizim böyük faciəmizdir, eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir, çünki xalqımız öz iradəsini göstərdi. Keçən müddət ərzində Azərbaycan, demək olar ki, tamamilə yeni mərhələyə qədəm qoydu. Sovet İttifaqının dağılmasından sonra biz çox ağır və çətin vəziyyətdə idik. Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. Buna baxmayaraq, biz çətin sınaqlardan çıxa bildik. Bu gün ölkəmiz dünyada ən sürətlə inkişaf edən ölkədir. Azərbaycan sübut etdi ki, xalqının iradəsinə əsaslanaraq müstəqil, azad ölkə kimi, uğurla inkişaf edir.

20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Şəhidlərimizin əziz ruhu daim yaşayacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi

yaşayacaqdır. Mən o dəhşətli gündə yaxınlarını itirmiş bütün insanlara bir daha başsağlığı verirəm. Şəhidlərimizin ruhu əbədi yaşayacaq və yaşamalıdır.

**Y u s i f  B ü n y a d z a d ə:** (*şəhid atası*) Möhtərəm Prezident, mən şəhid ailələri adından Sizə çox dərin minnətdarlığımızı bildirirəm. Bu abidə faciənin 20 illiyi ərəfəsində şəhid ailələrinə ən yaxşı töhfədir. Bilirik ki, bu monumental əsərin ideyasını detallarına qədər Siz özünüz işləyib veribsiniz. Nə qədər ağır olsa da, bunun üçün qürur hissi keçiririk. Sizə bir daha təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Həyat göstərir ki, bu faciəni Azərbaycan xalqı unutmur. Baxmayaraq ki, üstündən 20 il vaxt keçib. Bu illər ərzində yeni nəsil yetişib, uşaqlar, yeniyetmələr, hansılar ki, o günləri görməyiblər, yəni o vaxt yaşamayıblar. Amma onlar da bu ağır günlərdə bizim kimi, sizin kimi, öz doğmalarını itirən adamlar kimi, eyni hissləri keçirirlər. Onlar da daim tariximizin bu faciəvi, qəhrəmanlıq səhifəsini qəlblərində yaşatmalıdırlar. Allah sizə cansağlığı, uzun ömür versin.

## RESPUBLİKA KLİNİK UROLOJİ XƏSTƏXANASININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*21 yanvar 2010-cu il*

*Yanvarın 21-də Bakıda Respublika klinik uroloji xəstə-xanasının əsaslı təmirdən sonra açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mehriban xanıma gül dəstəsi təqdim edildi.*

*1966-cı ildə akademik Mirməmməd Cavadzadənin rəhbərliyi ilə yaradılmış Respublika klinik uroloji xəstəxana keçmiş Sovet İttifaqında ilk ixtisaslaşmış uroloji klinikalardan biri idi. Xəstəxanada 1969-cu ildə hemodializ və süni böyrək laboratoriyası açılmış, 1971-ci ildə Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə uğurlu böyrəkköçürmə əməliyyatı aparılmışdır.*

*Praktik fəaliyyətlə yanaşı, xəstəxananın respublikada urologiya və nefrologiya elminin inkişafında da böyük rolu olmuşdur. Təsadüfi deyil ki, 1972-ci ildə uroloqların I Ümum-ittifaq Qurultayı məhz Bakıda, Respublika klinik uroloji xəstəxanasında keçirilmişdir. O zaman qurultay nümayəndələri ümummilli lider Heydər Əliyev tərəfindən yüksək səviyyədə qəbul edilmişdilər.*

*Klinikada 1983-cü ilədək 30 böyrəkköçürmə əməliyyatı aparılmışdır. Lakin maddi-texniki bazanın və donor orqan təchizatının zəifləməsi nəticəsində klinikanın böyrəkköçürmə sahəsində fəaliyyəti dayandırılmışdır.*

*Prezident İlham Əliyevin 2007-ci ilin sentyabrında klini-kanın əsaslı təmir və təchizatı, onun nəzdində böyrəkköçürmə mərkəzinin yaradılması haqqında imzaladığı sərəncama uyğun olaraq prezidentin ehtiyat fondundan, habelə dövlət əsaslı vəsait qoyuluşu xərclərindən ayrılmış vəsait hesabına xəstə-xanada yenidənqurma işləri aparılmış, klinika ən müasir standartlara cavab verən tibb ocağına çevrilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva xəstəxana ilə tanış oldular.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, xəstə-xananın hər üç korpusu əsaslı təmir olunmuşdur. Ümumi sahəsi 6,7 min kvadratmetr olan xəstəxanada 167 otaq, o cümlədən 47 palata, 7 otaqdan ibarət iki əməliyyat bloku, mətbəx və s. əsaslı*

*təmir edilmiş, yeni qazanxana tikilmiş, tibb ocağını fasiləsiz elektrik enerjisi ilə təmin edən generator, mərkəzləşdirilmiş havalandırma sistemi qurulmuşdur. 120 çarpayılıq klinikada uroloji və nefroloji xəstələrə yüksək səviyyədə tibbi yardım göstərmək imkanı olan qəbul, xroniki böyrək çatışmazlığı, uşaq uroloji, hemodializ, böyrəkköçürmə, reanimasiya və anesteziologiya, şüa diaqnostikası şöbələri, immunoloji laboratoriya vardır.*

* * *

*Xəstəxananın fəaliyyəti ilə tanış olan prezident İlham Əliyev səhiyyə ocağının tibb heyəti ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün uroloji xəstəxana əsaslı təmirdən sonra açılmışdır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Şadam ki, bütün təmir-quraşdırma işləri yüksək səviyyədə aparılmışdır.

2 il əvvəl görkəmli alim, akademik Mirməmməd Cavadzadə mənə bu xəstəxananın təmiri ilə bağlı müraciət etmişdi. Mirməmməd müəllim mən onu «İstiqlal» ordeni ilə təltif edərkən bu müraciəti etmişdir. Azərbaycanın dövlət büdcəsində bu məsələlər üçün vəsait nəzərdə tutulmamasına baxmayaraq, mən qərar qəbul etdim ki, prezidentin ehtiyat fondundan ilkin vəsait ayrılsın və biz təmir işlərini aparaq. Birinci fikir belə idi ki, ancaq bir mərtəbə təmir olunsun və burada müasir böyrəkköçürmə mərkəzi yaradılsın. Sonra qərara gəldik ki, bütün xəstəxana təmir edilsin, faktiki olaraq yenidən qurulsun. İndi bütün təmir işləri görülüb, həm də müasir avadanlıq quraşdırılıb. Yəni, bu gün bu xəstəxana ən yüksək standartlara cavab verir və burada ən gözəl, müasir avadanlıqlar quraşdırılıb.

Mən çox şadam ki, bu gün xəstəxananın yeni həyatını birlikdə qeyd edirik. Hesab edirəm ki, bu xəstəxanaya Mirməmməd Cavadzadənin adının verilməsi düzgün olardı. Çünki xəstəxananın yaradılmasının təşəbbüskarı məhz o olmuşdur və 40 ildən çox bu xəstəxanaya rəhbərlik etmişdir. Mirməmməd müəllimin adı əbədiləşdirilməlidir.

Son illər Azərbaycanda səhiyyə sahəsində çox uğurlu işlər görülür. Həm Bakıda, həm də bölgələrimizdə yeni xəstəxanaların açılışı geniş vüsət alıb. Bölgələrdə 10 müalicə-diaqnostika mərkəzi tikilib, 6-sı tikilməkdədir. Demək olar ki, bütün rayonlarda mərkəzi və uşaq xəstəxanaları təmir edilir, yeniləri tikilir. Bakıda çox böyük elmi-tədqiqat institutlarının əsaslı təmir işləri başa çatır və bəziləri – Oftalmologiya, Onkologiya, Talassemiya mərkəzləri artıq istismara verilibdir. Bu gün uroloji xəstəxananın açılışını qeyd edirik. Dövlət Tibb Universitetinin iki korpusu – terapevtik və cərrahiyyə korpuslarında da işlər gedir. Hərbi hospital, Daxili İşlər Nazirliyinin hospitalı, Gömrük Komitəsinin hospitalı – bütün bunlar Azərbaycanın səhiyyə sisteminin müasirləşməsinə xidmət edir.

Biz Azərbaycanda müasir səhiyyə sisteminin yaradılması işində növbəti vacib addımı atırıq. Gözəl şərait, ən müasir avadanlıqlar. Əsas odur ki, bu tibb müəssisələrində çalışan həkimlər insanlara, xəstələrə ən yüksək tibbi xidmət göstərsinlər. Əminəm ki, belə də olacaqdır. Təkcə keçən il Azərbaycanda 59 yeni səhiyyə müəssisəsi yaradılıb, yaxud da ki, əsaslı təmir edilibdir. Bu il də bu proses davam edəcəkdir. Elə etməliyik ki, həm Bakıda, həm bütün bölgələrdə hər bir vətəndaş yüksək tibbi xidmət almaq üçün imkanlara malik olsun.

Mən sizi bu gözəl xəstəxananın yenidən fəaliyyətə başlaması münasibətilə bir daha təbrik edirəm. Sizə işlərinizdə uğurlar arzulayıram.

## XALQ QƏHRƏMANI KOROĞLUYA UCALDILACAQ ABİDƏNİN HAZIRLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*21 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Nəsimi rayonunda Azadlıq və*

*Vaqif prospektlərinin kəsişdiyi ərazidə yerləşən parkda xalq qəhrəmanı Koroğluya ucaldılacaq abidənin hazırlıq işləri ilə tanış olmuşlar.*

*Xalqımızın milli mənəvi dəyərlərinin daşıyıcısına çevrilmiş böyük tarixi şəxsiyyətlərin və qəhrəmanların xatirələrinin əbədiləşdirilməsi gənc nəslin azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunması baxımından müstəsna önəm daşıyır. Bunun əhəmiyyətini nəzərə alaraq, Azərbaycan prezidenti İlham Əliyev 2009-cu il dekabrın 3-də Bakı şəhərində xalq qəhrəmanı Koroğluya abidə ucaldılması ilə bağlı sərəncam imzalamışdır. Bakı Şəhər İcra Hakimiyyəti paytaxtın Nəsimi rayonunda Azadlıq və Vaqif prospektlərinin kəsişdiyi ərazidə yerləşən parkda abidə üçün yer müəyyənləşdirmişdir.*

*Prezident İlham Əliyev və xanımı əvvəlcə abidənin hazırlanacağı emalatxanaya gedərək işlərin gedişi ilə maraqlandılar.*

*Abidənin müəllifi heykəltəraş Tokay Məmmədov dövlətimizin başçısına və xanımına iki variantda hazırlanmış abidənin maketi əsasında məlumat verdi.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin ucaldılacağı parka gəldilər. Burada həyata keçiriləcək işlər barədə də dövlətimizin başçısına və xanımına məumat verildi.*

*Ərazi ilə tanış olan prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

## TÜRKİYƏNİN TƏHSİL NAZİRİ XANIM NİMET ÇUBUKÇUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Türkiyənin Təhsil naziri xanım Nimet Çubukçunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Türkiyənin Təhsil naziri xanım Nimet Çubukçunun ölkəmizə bu səfərinin təhsil sahəsində əlaqələrimizin inkişaf etdirilməsi baxımından faydalı olacağına ümidvar olduğunu bildirdi.*

*Xanım Nimet Çubukçu Təhsil naziri kimi, ölkəmizə ilk səfərindən məmnunluğunu vurğuladı. Ölkəmizə hər səfəri zamanı Bakıda böyük inkişafın və dəyişikliklərin baş verdiyinin şahidi olduğunu deyən Türkiyənin Təhsil naziri bütün bunların prezident İlham Əliyevin rəhbərliyi sayəsində həyata keçirildiyini qeyd etdi. Xanım Nimet Çubukçu ölkələrimiz arasında təhsil sahəsində əlaqələri daha da genişləndirməyin zəruriliyini bildirdi və bunun üçün böyük potensialın olduğunu vurğuladı.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də bp şirkətinin icraçı vitse-prezidenti Endi İnqlisi qəbul etmişdir.*

*bp şirkətinin icraçı vitse-prezidenti Endi İnqlis ilk dəfə 15 il əvvəl Bakıya gəldiyini və ötən dövr ərzində çox böyük inkişafın şahidi olduğunu vurğuladı. «Əsrin müqaviləsi»nin imzalanmasından 15 il ötdüyünü bildirən qonaq bu müddətdə ölkəmizdə qarşıya qoyulan bütün məqsədlərə nail olunduğunu və böyük uğurlar qazanıldığını dedi. Endi İnqlis bp şirkətinin ölkəmizlə əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.*

*Ötən il «Əsrin müqaviləsi»nin 15 illiyi münasibətilə mərasimlər keçirildiyini qeyd edən dövlətimizin başçısı əldə olunan bütün bu nailiyyətlərin əsasında uğurlu enerji siyasətinin dayandığını dedi. Prezident İlham Əliyev bildirdi ki, əgər 15 il əvvəl başlanan enerji siyasəti həyata keçirilməsəydi, iqtisadiyyatımızın şaxələndirilməsi və sosial proqramların həyata keçirilməsi mümkün olmazdı. bp şirkəti ilə əməkdaşlığa toxunan dövlətimizin başçısı energetika sahəsində uğurlu əlaqələrimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

## HUMANİTAR ƏMƏKDAŞLIQ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN–RUSİYA FORUMUNUN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*22 yanvar 2010-cu il*

*Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunun iştirakçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar! Azərbaycanda sizi ürəkdən salamlamaq istəyirəm. Bu gün Humanitar Əməkdaşlıq üzrə Rusiya–Azərbaycan Forumu işə başlamışdır. Mən bu təşəbbüsü tamamilə dəstəkləyirəm. Eşitdiyimə görə, sizin proqramınızın birinci hissəsi çox uğurlu olmuşdur. Ümid edirəm ki, Azərbaycanda olduğunuz bütün günlər sizin üçün həm faydalı, həm də xoş və yaddaqalan olacaqdır.

Mən burada çoxdan münasibətim olan xeyli tanışlarımı, dostlarımı, nisbətən yaxın vaxtlarda tanış olduğum adamları

---

* Щуманитар Ямякдашлыг цзря Биринъи Азярбайъан–Русийа Форумунда Русийанын Мядяниййят назири Александр Авдейев, Русийа ррезидентинин бейнялхалг мядяни ямякдашлыг цзря хцсуси нцмайяндяси Михаил Швыдкой, Русийа Дювлят Думасынын бейнялхалг мясяляляр цзря комитяси сядринин биринъи мцавини Леонид Слутски, ССРИ Халг артисти Иосиф Коbзон, Русийа Щуманитар Университетинин ректору Йефим Пивовар вя Русийа Федерасийасы Федерасийа Шурасынын игтисади сийасят, сащибкарлыг вя мцлкиййят мясяляляри цзря комитяси сядринин мцавини Андрей Хазин чыхыш етдиляр.

gördüm. Bəzilərini isə bu gün ilk dəfədir ki, görürəm. Hesab edirəm ki, bu cür format – sizin nümayəndə heyətinin tərkibində həm köhnə tanışlarımızın, həm də Azərbaycanı yaxın vaxtlarda tanımağa başlamış insanların olması böyük əhəmiyyət kəsb edir. Çünki bu, ölkəmizin həyatı, burada mövcud olan problemlər və nailiyyətlərlə daha yaxşı tanış olmağa imkan verəcəkdir. Ölkələrimiz arasında münasibətlər çox dinamik və səmərəli inkişaf edir. Təbii ki, ölkələrimizin ictimaiyyətinin də – siz isə Rusiya cəmiyyətinin bütün sahələrini təmsil edirsiniz – Rusiya ilə Azərbaycan arasında cərəyan edən müsbət proseslərə fəal qoşulmasını istərdik.

Sizin nümayəndə heyətinin tərkibində icra və qanunverici hakimiyyətlərin nümayəndələri, mətbuatın və vətəndaş cəmiyyətinin nümayəndələri vardır. Güman edirəm ki, hamı üçün maraqlı olacaqdır.

Humanitar əməkdaşlıq sahəsində bizim fəal qarşılıqlı əlaqələrimiz vardır. Yəqin ki, bugünkü çıxışlarda, şəxsi söhbətlərdə və sabahkı proqramda bu istiqamətdə görülmüş işlərin hamısı ətraflı şərh olunacaqdır. Bunu bilmək və bu cür müsbət təcrübə bazasında əməkdaşlığı daha da inkişaf etdirmək lazımdır. Lakin mənim fikrimcə, ən əsası odur ki, bu forum ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına, çoxşaxəli münasibətlərin inkişafına güclü təkan verməlidir. Ona görə ki, əməkdaşlığın potensialı çox yüksəkdir, əldə edilmiş nəticələr bizi qane edir. Lakin heç şübhəsiz, əməkdaşlığı genişləndirməli olduğumuz sahələr də çoxdur – iqtisadi sahə, qarşılıqlı siyasi əlaqələr məsələsi, vətəndaş cəmiyyəti və mətbuat səviyyəsində, yəni ictimai fikri formalaşdıran və dövlətin siyasi xəttini müəyyən dərəcədə təyin edən strukturlar səviyyəsində əlaqələr bu qəbildəndir.

Ölkələrimiz arasında çox sıx münasibətlər vardır, biz qonşuyuq, dostuq. İqtisadi münasibətlərin statistikasına nəzər salsaq görərik ki, keçənilki böhran ili istisna olmaqla, həm əmtəə dövriyyəsinin həcminə, həm də onun keyfiyyətinə və strukturuna görə daim artım müşahidə olunmuşdur. Əvvəlki

illərdə müzakirə prosesində olan əsas məsələlər praktiki olaraq həll edilmişdir. Biz qarşılıqlı anlaşmanı genişləndiririk. Zənnimcə, humanitar sahədə qazandığımız nailiyyətlərlə tanış olmağa imkanınız olacaqdır. Biz MDB məkanında bütün humanitar proseslərdə də fəal iştirak edirik.

Bu il hamımız İkinci dünya müharibəsində qələbənin 65 illiyini qeyd edəcəyik. Bu faktın qiymətləndirilməsində Rusiya ilə Azərbaycan arasında tam qarşılıqlı anlaşma mövcuddur. Rusiyada olduğu kimi, biz də veteranlara böyük qayğı ilə yanaşırıq və hesab edirəm ki, İkinci dünya müharibəsinin tarixinin təftiş və təhrif edilməməsi üçün hamı səy göstərməlidir. Bugünkü nəslin bir qismi müharibənin bütün çətinliklərini öz üzərində hiss etmişdir, bir qismi bu barədə öz valideynlərinin söhbətlərinə əsasən məlumata malikdir. Lakin elə etmək lazımdır ki, 20 ildən və 50 ildən sonra bizim ortaq qəhrəmanlıq tariximizi təftiş etməyə hətta cüzi imkan olmasın.

Humanitar sahədə bizi birləşdirən istiqamətlər çoxdur. Əlbəttə ki, biz əlaqələrimizi bu müsbət təcrübə əsasında genişləndirməyə çalışmalıyıq. Hesab edirəm ki, ölkələrimiz arasında qarşılıqlı siyasi fəaliyyətin, iqtisadi kooperasiyanın və müxtəlif sahələrdə əməkdaşlığın səviyyəsi ictimai şüurda tam əks olunur. Əlbəttə, burada səmərəli iş üçün geniş məkan mövcuddur. Çünki düzgün nəticə çıxarmaq üçün vəziyyətə bələd olmaq lazımdır. Vəziyyətə bələd olmaq üçün insanlar ünsiyyət saxlamalı, bir-birinin yanına gedib-gəlmək və daim ünsiyyətdə olmalıdırlar. Yadımdadır, bir neçə il bundan əvvəl biz Azərbaycanda «Rusiya ili» və Rusiyada «Azərbaycan ili» keçirirdik. Bu tədbirlər çərçivəsində daim əlaqə saxlayırdıq, nümayəndə heyəti mübadiləsi aparırdıq və əlbəttə, bütün bunlar münasibətlərimizə çox böyük dinamizm gətirmişdir. Hesab edirəm ki, sizin nümayəndə heyəti və bu forumun keçirilməsi ölkələrimizin nümayəndələri arasında qarşılıqlı münasibətlərin daha da genişlənməsinə şərait yaradacaqdır.

Artıq qeyd etdiyim kimi, sizin nümayəndə heyətində Rusiya cəmiyyətinin bütün təbəqələri təmsil olunmuşdur. Bu insanlar həm sizin ölkənin inkişafını, həm də ictimai rəyi çox cəhətdən müəyyən

edir. Əlbəttə, buna görə də biz istərdik ki, siz Azərbaycanda olduğunuz günlərdə Azərbaycanla tanış olasınız, ölkəmizin inkişafını bir daha, bəziləriniz isə ilk dəfə görəsiniz. Ölkəmiz dinamik inkişaf edir. Son vaxtlar sosial-iqtisadi inkişafın bir sıra problemləri həll edilmişdir. Hətta böhran ilində də biz yaxşı artım sürəti nümayiş etdirmişik. Ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, hər bir vətəndaş üçün sərbəstlik mövcuddur. Azərbaycanın inkişafı haqqında bu gün yəqin ki, müxtəlif məlumatlar səslənmişdir. Lakin ən yaxşı göstərici, əlbəttə, sizin şəxsi təəssüratınız olacaqdır. Ümid edirəm ki, sizin təkcə iclaslarda iştirak etmək deyil, sadəcə, şəhərdə gəzmək, Azərbaycanın həyatı ilə tanış olmaq, ölkəmizin həyat tərzini hiss etmək üçün də imkanınız olacaqdır.

Bu cür nadir bir tədbirin keçirilməsi təşəbbüsünü irəli sürənlərin hamısına ürəkdən təşəkkür etmək istəyirəm. Çünki mən indiyə qədər istər formasına, istər tərkibinə, istərsə də proqramına və başlıcası, öz ruhuna görə buna oxşar bir tədbir xatırlamıram. Biz hamımız bu tədbiri dəstəkləyirik. İndiki halda bu təşəbbüs qrupuna Azərbaycanın böyük dostları, ölkəmizi sevən və qəlblərində Azərbaycana olan bu münasibətin onların dostluq etdiyi, sevdiyi, özlərinə həmməslək saydığı adamlara da sirayət etməsini istəyən insanlar daxildir. Buna görə də mən bütün təşəbbüsçülərə, təşkilatçılara və əlbəttə, qonaqlara təşəkkür etmək istəyirəm. Bilirəm ki, hamınızın işi çoxdur və yəqin ki, bir neçə günlüyə bu işlərdən uzaqlaşmaq heç də asan olmur. Vaxt tapıb ölkəmizə gəldiyinizə görə sizə təşəkkür etmək istəyirəm.

Mən öz şərhlərimi çox mühüm sözlərlə tamamlamaq istərdim. Sabah biz böyük dostumuz Mixail Solomonoviç Qusmanın yubileyini qeyd edəcəyik. Onun bütün həyatı Rusiya ilə Azərbaycan arasında münasibətlərin, dostlar arasında münasibətlərin, Vətəninə, yaxınlarına, dostlarına münasibətin parlaq nümunəsidir. Onu Moskva ilə Bakı arasında bölmək çox çətindir. Bu heç lazım da deyildir. O hətta fiziki mənada burada olmadığı vaxtda belə permanent şəkildə burada mövcuddur.

Mən sizin qarşınızda onu bu gözəl yubiley münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

*Dövlətimizin başçısı İTAR-TASS agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmanın ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə töhfələrini yüksək qiymətləndirərək ona cansağlığı, gələcək fəaliyyətində uğurlar və ən xoş arzularını dilədi.*

**İ l h a m  Ə l i y e v:** Mən xidmətlərinizi sizə «Dostluq» ordeni təqdim etməklə qeyd etmək istəyirəm. Siz bu ordenlə dövlətlərimiz arasında münasibətlərin inkişafına verdiyiniz böyük töhfəyə görə təltif olunursunuz. Bu, Azərbaycan dövlətinin sizə verdiyi ilk mükafat deyildir. 5 il əvvəl siz «Şöhrət» ordeni ilə təltif edilmişdiniz. «Dostluq» ordeni nisbətən təzədir. Bu orden rəsmi dövlət təltifi kimi, nisbətən yaxın vaxtlarda qəbul edilmişdir və bu ordenlə təltif olunan insanların sayı o qədər də çox deyildir.

*Prezident İlham Əliyev İTAR-TASS-ın Baş direktorunun birinci müavini Mixail Qusmana «Dostluq» ordeni təqdim etdi.*

*M.Qusman Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirdi.*

**M i x a i l  Q u s m a n:** Bu mənim üçün son dərəcə dəyərli və əzizdir. Bu mükafata görə çox təşəkkür edirəm. Hisslərim aşıbdaşır. Mübaliğəsiz deyirəm, iş elə gətirmişdir ki, ağlım kəsəndən mən bütün həyatım boyu qəlbimin səsi ilə, peşəmlə əlaqədar Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafına öz töhfəmi verməyə çalışıram. İnformasiya əməkdaşlığının inkişafında yəqin ki, mənim də kiçicik əməyim vardır. Lakin bir şeylə həqiqətən fəxr edə bilərəm ki, onlarca bakılı həmyerlim Moskvada özlərinə onlarca yeni dost tapmışdır. Onlarca Moskva ailəsində mənim bakılı dostlarımı, həmyerlilərimi əziz dost kimi qarşılayırlar. Əgər bir neçə yüz azərbaycanlı və rus ailəsinin yaxından dostlaşmasına kömək edə bilmişəmsə, hesab edirəm ki, mən bu ordenə layiqəm. Çox təşəkkür edirəm.

# RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə uğurla inkişaf etdiyi vurğulandı.*

*Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunun əhəmiyyətinin qeyd olunduğu görüşdə bu cür tədbirlərin Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın daha da dərinləşməsi işinə xidmət etdiyi bildirildi. Qeyd edildi ki, ölkələrimiz arasında humanitar sahədə əlaqələr möhkəm əsaslara söykənir və əlaqələrimiz beynəlxalq sahədə humanitar əməkdaşlıq üçün yaxşı nümunədir.*

*Azərbaycan prezidentinin Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunun iştirakçıları ilə səmərəli və məhsuldar görüşünün əhəmiyyəti vurğulandı. Görüşdə forumun növbəti ildən mütəmadi olaraq keçirilməsinin və formatının genişləndirilməsinin məqsədəuyğun olduğu bildirildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*25 yanvar 2010-cu il*

*Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*Soçi*

*25 yanvar 2010-cu il*

*Yanvarın 25-də Soçinin «Adler» Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun və Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyanın, ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkenin (ABŞ), Bernar Fasyenin (Fransa), Yuri Merzlyakovun (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşikin iştirak etdikləri görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Soçi*

*25 yanvar 2010-cu il*

*Yanvarın 25-də Soçidə işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev «Grand Polyana» mehmanxanasının «Qəbullar evi»nə gəlmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevi «Qəbullar evi»nin önündə Rusiya prezidenti Dmitri Medvedev qarşıladı.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü oldu.*

*Daha sonra görüş Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun və Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyanın iştirakı ilə davam etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olundu.*

## SOÇİDƏ DAĞ XİZƏKSÜRMƏ MƏRKƏZİNDƏ

*25 yanvar 2010-cu il*

*Yanvarın 25-də Azərbaycan prezidenti İlham Əliyevin, Rusiya prezidenti Dmitri Medvedevin və Ermənistan prezidenti Serj Sarkisyanın Soçidə keçirilmiş üçtərəfli görüşündən sonra dövlət başçıları dağ xizəksürmə mərkəzində olmuşlar.*

*Mərkəzə gələn sakinlər Azərbaycan prezidenti İlham Əliyevdən və Rusiya prezidenti Dmitri Medvedevdən birgə şəkil çəkdirməyi xahiş etmişlər. Prezidentlər İlham Əliyev və Dmitri Medvedev sakinlərlə şəkil çəkdirmişlər.*

*Sonra dövlət başçıları İlham Əliyev və Dmitri Medvedev mərkəzdə xizək sürmüşlər.*

### Səfər başa çatdı

*Yanvarın 25-də Azərbaycan prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MÖVLUD ÇAVUŞOĞLUNA**

Hörmətli cənab Prezident!

Avropa Şurası Parlament Assambleyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Avropa Şurası arasındakı münasibətlərə və sıx əməkdaşlığa böyük əhəmiyyət verir, ümumavropa proseslərində bu mötəbər təşkilatın daim artan rolunu yüksək qiymətləndirir, Avropa Şurasının bütün strukturları ilə əlaqələrimizi genişləndirməyə çalışırıq.

Əminəm ki, insan hüquqları və azadlıqlarının təmin edilməsi, demokratik dəyərlərin təntənəsi, regionumuzda sülhün və sabitliyin bərqərar olması naminə konstruktiv əməkdaşlığımızın səmərəsini daha da artırmaq yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar diləyir, ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 yanvar 2010-cu il*

**EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİRMA VOLDE-GİORGİSƏ**

Hörmətli cənab Prezident!

«Ethiopian Airlines» şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adanlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 yanvar 2010-cu il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİŞEL SÜLEYMANA**

Hörmətli cənab Prezident!

Beyrut şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması və çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Livan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 yanvar 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ

*27 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 27-də İsveçrəyə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.*

*Prezident İlham Əliyev Sürixdən Davos şəhərinə yola düşdü.*

## SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2010-cu il*

*Yanvarın 27-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Sloveniya Respublikasının Prezidenti Danilo Tyurkun görüşü olmuşdur.*

*Görüşdə əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.*

*Azərbaycana səfərinin təəssüratlarını məmnunluqla xatırladan Danilo Tyurk qeyd etdi ki, həmin səfər zamanı keçirilmiş səmərəli görüşlər müxtəlif sahələr üzrə əməkdaşlıq üçün yaxşı əsaslar yaratmışdır. Hazırda Sloveniya tərəfi həmin səfər zamanı əldə edilmiş razılaşmalar üzərində fəal işləyir. Sloveniya Azərbaycan ilə əlaqələrin daha geniş sahələri əhatə etməsində maraqlıdır.*

*Sloveniya prezidenti Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində vəziyyətlə maraqlandı.*

*Prezident İlham Əliyev əlaqələrimizin uğurla inkişaf etdiyini bildirdi.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinə toxundu.*

*Danilo Tyurk Azərbaycan prezidenti İlham Əliyevi Sloveniyaya səfərə dəvət etdi.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU TONİ HEYVORD İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2010-cu il*

*Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda bp şirkətinin Baş icraçı direktoru Toni Heyvord ilə görüşmüşdür.*

*Söhbət zamanı bp şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə davam etdirildiyi bildirildi, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Azərbaycan ilə bp arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## RWE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU YURGEN QROSMAN İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2010-cu il*

*Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda RWE şirkətinin Baş icraçı direktoru Yurgen Qrosman ilə görüşmüşdür.*

*Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə RWE şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyinin vurğulandığı görüşdə əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə əməkdaşlığın perspektivləri və Nabukko layihəsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Yurgen Qrosman Almaniya hökumətinin Nabukko layihəsinə dəstəyini vurğulayaraq, bu sahədə əməkdaşlığın uğurla həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## «CHEVRON» KORPORASİYASININ VİTSE-PREZİDENTİ CEY PRİOR İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2010-cu il*

*Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda «Chevron» korporasiyasının vitse-prezidenti Cey Prior ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə «Chevron» korporasiyası arasında ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğu bildirildi, enerji məsələləri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## «EDİSSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU UMBERTO KUADRİNO İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2010-cu il*

*Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda «Edisson» şirkətinin Baş icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında bütün sahələrdə, xüsusən də enerji sahəsində yaxşı əməkdaşlığın olduğu vurğulandı.*

*Umberto Kuadrino «Edisson» şirkətinin bu əməkdaşlıq çərçivəsində yeni bir layihənin – İtaliya hökumətinin də dəstəklədiyi Türkiyə–Yunanıstan–İtaliya qaz boru kəmərinin həyata keçirilməsində maraq göstərdiyini bildirdi və bunun üçün yaxşı perspektivlərin olduğunu dedi.*

*Azərbaycan tərəfinin həmin layihəni dəstəklədiyini qeyd edən prezident İlham Əliyev bildirdi ki, bu, enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi baxımından mühüm layihədir.*

## «BLOOMBERG» AGENTLİYİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Davos*

*27 yanvar 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda «Bloomberg» informasiya agentliyinə müsahibə vermişdir.*

**S u a l: Azərbaycan olduqca böyük neft hasilatçısıdır. Neftin qiyməti barədə nə düşünürsünüz?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, hazırda qiymət ədalətlidir. Bu qiymət hasilatçıların və istehlakçıların tələbatlarına cavab verir və şirkətlərə sərmayə qoymaq imkanı yaradır. Çünki hazırkı səviyyədən aşağı olan qiymət şirkətlərə yeni işlənmə, kəşfiyyat və hasilat işlərinə sərmayə yatırmaqda çətinlik yaradır.

**S u a l: Hazırda qiymətlər qalxmaqda davam edir, lap 100 dolları ötsün, məgər Siz bundan məmnun olmayacaqsınızmı?**

**İ l h a m Ə l i y e v:** Neftin qiymətinin kəskin şəkildə qalxması büdcəmizə əlavə vəsaitlər verdi. Lakin ölkəmizdə olduqca yüksək inflyasiya yaratdı və istehlak qiymətləri də qalxdı. Ölkənin tarazlı şəkildə inkişafını təmin etmək və əhalinin sosial vəziyyətini daha da möhkəmləndirmək məqsədi ilə əlavə imkanlar əldə etmək üçün hesab edirəm ki, qiymət təxminən 90 və ya 100 dollar səviyyəsində olmalıdır. 70 dollar da yaxşı qiymətdir.

**S u a l: Bilirik ki, təbii qaz Azərbaycanın gələcək inkişafı üçün çox önəmli amildir. «Qazprom» Azərbaycan qazını almaq təklifi ilə çıxış etmişdir. Onlar bu gün nə qədər həcmdə qazı almağı təklif ediblər və ölkəniz hazırda istismar olunan**

**boru kəmərləri şəbəkəsi ilə nə qədər qazı ixrac etmək imkanındadır?**

**İ l h a m Ə l i y e v:** Biz qazımızı müxtəlif istiqamətlərdə ixrac etməkdəyik. Bu bizim üçün çox vacibdir, qazın nəqli sahəsində maksimal şaxələndirməyə nail olmuşuq. Şaxələndirmə nəinki istehlakçılar, hasilatçılar üçün də çox vacibdir. Biz qazı qonşu ölkələrə ixrac edirik və hər hansı ölkə üçün yeni bazara çıxış, şübhəsiz ki, çox vacibdir. Bizim «Qazprom»la sazişdə ixracın yuxarı həddi nəzərdə tutulmayıb. Biz belə razılığa gəldik ki, hansı həcmdə qaz təklif etsək, «Qazprom» bir o qədər də alacaqdır.

**S u a l: Yəni istənilən qədər?**

**İ l h a m Ə l i y e v:** Bəli.

**S u a l: Ümumiyyətlə, sizdə olan mövcud boru kəmərləri şəbəkəsi ilə nə qədər qaz ixrac edə bilərsiniz? Yəni nə qədər qazınız olarsa, bir o qədər?**

**İ l h a m Ə l i y e v:** Bu məsələdə ən mühüm amil hasilatın həcmidir. Bu gün biz bu həcmi elə bir səviyyədə saxlayırıq ki, ixrac etmək imkanımız olsun. Əgər bizim yeni ixrac imkanlarımız və bazarlar olarsa, əlbəttə ki, hasilatın artırılmasına böyük sərmayələr qoyacağıq. Biz qazı satmaq imkanımız olmadan hasilatı artırmaq üçün 10 milyardlarla dollar sərmayə qoya bilmərik.

**S u a l: Rusiya da elə bunu edir. Rusiya tərəfi təklif edə biləcəyiniz qədər həcmi almağa hazır olduğunu bildirmişdir. Bu, əlavə sərmayələrin qoyulmasına imkan yaratmırmı, yəni sizin üçün bir növ «kart-blanş» deyilmi?**

**İ l h a m Ə l i y e v:** Bizim böyük ehtiyatlarımız vardır. Təbii qaz ehtiyatlarımızın təsdiqlənmiş həcmi 2 trilyon kubmetrdir. Bu həcm 5 trilyon kubmetr də ola bilər. Beləliklə, bizim özümüzü və eləcə də, dünyanın müxtəlif yerlərində tərəfdaşlarımızı ən azı 100 il qazla təchiz edə bilərik. Bununla bağlı bütün lazımi işlər görülməlidir. Bizim «Qazprom»la münasibətlərə gəldikdə, burada üstünlük ondan ibarətdir ki,

aramızda heç bir tranzit ölkə yoxdur. Biz sadəcə həmsərhədik, infrastrukturumuz da vardır.

**S u a l: Sizdən ən böyük qaz yatağı haqqında soruşmaq istərdim. Söhbət «Şahdəniz»dən gedir. Hazırda Azərbaycandan uzanan boru kəmərlərinin mövcud şəbəkəsi bu ən böyük qaz yatağının işlənilməsinin məhdudlaşdırılması və ya yubadılmasına səbəb ola bilərmi?**

**İ l h a m Ə l i y e v:** Bu gün buna səbəb kimi təkcə mövcud infrastrukturun nəqletmə qabiliyyəti deyil, tranzitlə və qazımızın qiyməti ilə bağlı məsələləri də göstərmək olar. «Şahdəniz» yatağı dünyada ən böyük yataqlardan biridir. Bu yataq 1,2 trilyon kubmetr qaz ehtiyatına malikdir. Biz infrastrukturu genişləndirə bilərik və bunun üçün ya yeni qaz boru kəmərinin çəkilməsini, ya da mövcud boru kəməri şəbəkəsini genişləndirməyi planlaşdırırıq. Bu gün mövcud boru kəmərləri şəbəkəsi məsələsi əsas maneə kimi qəbul edilmə-məlidir. Tranzit məsələsini həll etdikdən, ədalətli qiymətə nail olduqdan sonra Azərbaycan və onun tərəfdaşları olan xarici şirkətlər yeni infrastrukturun qurulması üçün milyardlarla dollar sərmayə qoyacaqlar.

**S u a l: Siz tranzit və qiymət məsələlərinə toxundunuz. Bu amilləri Nabukko layihəsi üzrə razılaşma üçün və ya bu layihənin real bir layihəyə çevrilməsi üçün zəruri şərtlər kimi göstərirsinizmi?**

**İ l h a m Ə l i y e v:** Nabukko layihəsi «Cənub dəhlizi»nin əsas elementlərindən biridir. Bu layihə qazımızı Qərb bazarlarına çıxarmaq imkanı verə bilər. Buraya Nabukko, TGİ (Türkiyə–Yunanıstan–İtaliya) və TAP (Transadriatik boru kəməri) layihələri daxildir.

**S u a l: Yəni, Gürcüstan və Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çıxış?**

**İ l h a m Ə l i y e v:** Bəli. Buna görə tranzit məsələləri həll olunmadan infrastrukturun genişləndirilməsi haqqında danışmaq tezdir.

**S u a l: Nabukko haqqında danışdıq. Siz bunu «Cənub dəhlizi» adlandırdınız, mahiyyətcə eynidir. «Cənub dəhlizi» Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. Sizin fikrinizcə, bu həqiqətən baş tutacaqmı? Bu haqda müəyyən müddətdə söhbətlər gedir.**

**İ l h a m Ə l i y e v:** Bunu demək çətindir. Çünki sizin də qeyd etdiyiniz kimi, bu haqda artıq uzun müddətdir ki, kifayət qədər söhbətlər gedir. Bu istiqamətdə bir sıra mühüm addımlar atılıb. Birincisi, 2009-cu ilin may ayında siyasi bəyannamə imzalanıb. Azərbaycan da bu siyasi bəyannaməyə qoşulmuşdur. Bundan əlavə, Nabukko üzvləri arasında bu layihənin hansı formada irəliyə aparılması ilə bağlı razılaşma əldə edilmişdir. Bu layihəni irəli aparmaq üçün bir sıra elementlər mövcud olmalıdır. Birincisi, bunu etmək üçün güclü siyasi iradə olmalıdır. İkincisi, maliyyə vəsaiti olmalıdır. Qeyd etdiyim kimi, tranzit məsələlərinin həll olunmaması ən əsas maneədir.

**S u a l: Siz qeyd etdiniz ki, əsas maneə qazın qiyməti və tranzit məsələsidir. Aydındır ki, Azərbaycan üçün tranzitlə əlaqədar ən böyük məsələ Türkiyə ilə bağlıdır. Türkiyəyə qazın satışı ilə bağlı razılaşma üzərində müəyyən müddətdir ki, iş gedir. Bu prosesi ləngidən nədir?**

**İ l h a m Ə l i y e v:** Biz qazı Türkiyəyə «Şahdəniz» yatağının birinci fazasından ixrac edirik. Bu baxımdan heç bir problemimiz yoxdur. Yeganə problem ondan ibarətdir ki, bu gün mövcud olan qiymət bazar qiymətinə uyğun deyildir və iqtisadi baxımdan bizim üçün sərfəli deyildir. Türkiyəli həmkarlarımız da qiymətin ədalətli olmadığını deyirlər. Beləliklə, qiymətlərə yenidən baxılmalıdır.

**S u a l: Siz, Azərbaycanın Prezidenti kimi, enerji müharibələri, alternativ enerji təchizatı marşrutları konsepsiyasından yaxşı xəbərdarsınız. Bununla bağlı Azərbaycanın siyasi mövqeyi necədir? Tutaq ki, Rusiya sizə deyir ki, bütün qazınızı verin, mən alıram. Bu, bizneslə bağlı məsələdir? Əgər onlar sizin bütün qazınızı alsalar,**

**onda sual yaranır – boru xətləri nəyə gərəkdir? Siz siyasi baxımdan Qərbi Avropa istehlakçısı üçün alternativ enerji təchizatı marşrutuna həqiqətən sadiqsinizmi, yoxsa bu, Azərbaycanın milli maraqlarına cavab vermir?**

**İ l h a m Ə l i y e v:** Bu, 100 faiz kommersiya xarakterli məsələdir. Əvvəlki təcrübəmizdən söyləyə bilərəm ki, biz neft marşrutlarımızı şaxələndirəndə də bu, kommersiya məsələsi idi. Bizə neftimizi Aralıq dənizinə çıxarmaq üçün əsas boru kəməri lazım idi. Bakı–Tbilisi–Ceyhan bu cür baş tutdu. İki digər boru kəmərimiz də vardır. Onlardan biri neftimizi Rusiyanın, digəri isə Gürcüstanın Qara dənizdəki sahillərinə çıxarır. Eyni vəziyyət qaz sahəsinə də aiddir. Bu, sırf kommersiya məsələsi olmalıdır. Nabukko layihəsinin problemlərindən biri ondan ibarətdir ki, məsələ həddindən artıq siyasiləşdirilir. Biz diqqətimizi kommersiya məsələlərinə cəmləşdirməliyik. Onlar cəlbedici, əsaslandırılmış və ədalətli olmalıdır. Hasilatçılar, istehlakçılar və tranzit ölkələr arasında maraqlar tarazlığı qorunmalıdır.

**S u a l: Hər halda, bu gün Azərbaycanın çalışdığı qiymət məsələsi ən mühüm məsələdir?**

**İ l h a m Ə l i y e v:** Bu, mühüm məsələlərdən biridir. Digər mühüm məsələ şaxələndirmədir. Biz yalnız bir marşrutdan asılılığa yol verə bilmərik.

**S u a l: Sonuncu sual. Ermənistan ilə Azərbaycan arasında nə vaxt sülh olacaq?**

**İ l h a m Ə l i y e v:** Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən çıxardığı andan etibarən sülh bərqərar oluna bilər.

## İSVEÇRƏ PREZİDENTİ DORİS LOYTHARD İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2010-cu il*

*Yanvarın 28-də Davosda Azərbaycan prezidenti İlham Əliyevin və İsveçrə prezidenti xanım Doris Loythardın görüşü olmuşdur.*

*Xanım Doris Loythard Azərbaycan prezidenti İlham Əliyevin İsveçrəyə rəsmi səfərini xatırlatdı və qeyd etdi ki, bu çox uğurlu bir səfər olmuşdur.*

*İsveçrə prezidenti ölkələrimiz arasında iqtisadi sahədə, eləcə də energetika sahəsində əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu bildirdi.*

*Prezident İlham Əliyev İsveçrə ilə əlaqələrimizin müxtəlif sahələrdə, həmçinin iqtisadi sahədə uğurla inkişaf etdiyini dedi.*

*Dövlətimizin başçısı İsveçrə şirkətlərinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayaraq gələcəkdə bu sahədə əlaqələrimizin daha da genişlənəcəyinə əminliyini bildirdi.*

*Görüşdə müxtəlif sahələrdə, o cümlədən iqtisadi, energetika sahələrində ikitərəfli əlaqələr, Nabukko layihəsi çərçivəsində əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «QLOBAL ENERJİ MƏNZƏRƏSİ» MÖVZUSUNDAKI İCLASDA İŞTİRAK

*Davos*

*28 yanvar 2010-cu il*

*Böyük əhəmiyyətə malik bu iclasda Azərbaycan prezidenti İlham Əliyev iştirak etmişdir.*

*Forumun əsas tədbirlərindən olan «Qlobal enerji mənzərəsi» mövzusunda iclası Kembric Enerji Tədqiqatları Assosiasiyasının sədri Daniel Yergin açaraq prezident İlham Əliyevə və digər qonaqlara minnətdarlıq etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etmiş, ölkəmizdə energetika sahəsində görülən işlərdən danışmışdır.*

*Dövlətimizin başçısı ölkəmizin qlobal enerji təhlükəsizliyində oynadığı roldan söhbət açaraq demişdir ki, Azərbaycan aparılmış düzgün siyasət nəticəsində və tərəfdaşların birgə səyi ilə beynəlxalq əhəmiyyətli layihələr həyata keçirmişdir. Hazırda Azərbaycanın enerji daşıyıcıları müxtəlif istiqamətlərə nəql olunur. Bunun üçün boru kəmərləri infrastrukturu yaradılmışdır.*

*Prezident İlham Əliyev Azərbaycanın dünya qaz bazarında rolunun artdığını vurğulayaraq demişdir ki, ölkəmizin ehtiyatları, təsdiq olunmuş qaz yataqları kifayət qədər çoxdur. Hazırda Azərbaycan qazı qonşu ölkələrə ixrac olunur. Halbuki bu ölkələrin bəzilərində Azərbaycandakından daha çox qaz hasil edilir. Biz qaz ixracını şaxələndirməyə davam edəcəyik.*

*Dövlətimizin iqtisadi inkişafı haqqında danışan prezident İlham Əliyev demişdir ki, son 6 ildə Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Həyata keçirilmiş islahatlar nəticəsində iqtisadiyyatın bazar prinsipləri əsasında*

*inkişafı təmin edilmişdir. Hazırda ölkənin ümumi daxili məhsulunda özəl sektorun payı 85 faiz təşkil edir. Böhrana baxmayaraq, 2009-cu ildə də Azərbaycan inkişafını davam etdirmişdir. Ötən il Azərbaycanda ümumi daxili məhsul 9,3 faiz, sənaye istehsalı isə 8,6 faiz artmışdır. Bundan başqa, Azərbaycanın milli valyutası dəyərdən düşməmişdir.*

*İclasda bp şirkətinin Baş icraçı direktoru Toni Heyvord, «Saudi Aramko» şirkətinin prezidenti Xalid əl-Falih, «Royal Dutch Shell» şirkətinin İdarə Heyətinin sədri Peter Vozer, «The Dow Chemical» şirkətinin İdarə Heyətinin sədri Endryu Liveris, «Total» şirkətinin direktorlar şurasının sədri Tyerri Desmartes mövzu ilə bağlı fikirlərini bildirmişlər.*

## LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2010-cu il*

*Yanvarın 28-də İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Respublikasının Prezidenti Valdis Zatlerslə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafı qeyd olundu.*

*Azərbaycana səfərinin çox uğurla keçdiyini qeyd edən prezident Valdis Zatlers dedi ki, Bakıda keçirilmiş görüşlər səmərəli nəticələr vermişdir. Latviya prezidenti ölkələrimizin iqtisadi sahədə əlaqələrinin genişlənməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Latviya prezidentinin Azərbaycana səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan və Latviya şirkətləri arasında əməkdaşlığın daha da genişlənməsini dəstəklədiyini bildirdi.*

*Görüşdə regional əməkdaşlıq, ikitərəfli münasibətlər, beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## POLŞA PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2010-cu il*

*Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Polşa Respublikasının Prezidenti Lex Kaçinski ilə görüşmüşdür.*

*Görüşdə bildirildi ki, Azərbaycan ilə Polşa arasında münasibətlər müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf edir.*

*Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunulan görüşdə bu səfərlərin və belə görüşlərin əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyətli olduğu vurğulandı.*

*Görüşdə ikitərəfli münasibətlər və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2010-cu il*

*Yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Böyük Britaniyanın York hersoqu şahzadə Endryu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu. Bu sahədə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

## İORDANİYA KRALI II ABDULLAH İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2010-cu il*

*Yanvarın 28-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya kralı II Abdullah ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İordaniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, yüksək səviyyəli səfərlərin əməkdaşlığın möhkəmlənməsində xüsusi rolu olduğu vurğulandı.*

*Bildirildi ki, Azərbaycan ilə İordaniya arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensial vardır. Əminlik ifadə olundu ki, bu əlaqələr gələcəkdə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.*

*Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN «QLOBAL ENERJİ MƏNZƏRƏSİ» MÖVZUSUNDAKI İCLASINDA İŞTİRAK

*28 yanvar 2010-cu il*

*Yanvarın 28-də İsveçrənin Davos şəhərində 40-cı Dünya İqtisadi Forumunun «Qlobal enerji mənzərəsi» mövzusunda iclası keçirilmişdir.*

*Böyük əhəmiyyətə malik iclasda Azərbaycan prezidenti İlham Əliyev iştirak etmişdir. Forumun əsas tədbirlərindən biri olan «Qlobal enerji mənzərəsi» mövzusunda iclası Kembric Enerji Tədqiqatları Assosiasiyasının sədri Daniel Yergin açaraq prezident İlham Əliyevə və digər qonaqlara minnətdarlıq etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etdi, ölkəmizdə energetika sahəsində görülən işlərdən və iqtisadi inkişaf proseslərindən danışdı.*

**A p a r ı c ı: İlk sualımı prezident Əliyevə ünvanlamaq istərdim. Qlobal enerji sistemini nəzərdən keçirdikdə enerji təhlükəsizliyi Azərbaycan üçün nə deməkdir?**

**İ l h a m Ə l i y e v**: Enerji təhlükəsizliyi baxımından bizim üçün ən əsas məsələ təchizat marşrutlarının şaxələndirilməsidir. Biz buna nail ola bilmişik. Bu gün bizim təbii ehtiyatlarımızı müxtəlif istiqamətlərə nəql edən şaxələndirilmiş boru kəmərləri sistemimiz vardır. Enerji sahəsində davamlı və uzunmüddətli əməkdaşlığın həyata keçirilməsi üçün istehsalçı, tranzit və istehlakçı ölkələr arasında maraqlar balansının olması da vacibdir. Əgər maraqlar balansı pozularsa, bu, müəyyən problemlər yarada bilər. Bizdən ötrü digər vacib məsələ isə təbii

ehtiyatlarımız, xüsusilə də qaz üçün ədalətli bazar qiyməti və müqavilələri imzalayan bütün tərəflərin tam sadiqliyidir. Hesab edirəm ki, enerji təhlükəsizliyi baxımından bu elementlər bütövlükdə istehlakçı və istehsalçılar üçün daha böyük etimad yarada bilər.

**A p a r ı c ı: Cənab Prezident, Azərbaycanın müstəqillik dövrünün ilk on ilində daha çox diqqət neft sahəsinə ayrılırdı. İndi isə diqqət təbii qaza artır. Növbəti 5–10 il ərzində qlobal qaz bazarında Azərbaycanın rolu nədən ibarət ola bilər və bu bazara çıxışı əngəlləyən hansı maneələr vardır?**

**İ l h a m Ə l i y e v**: Düşünürəm ki, qlobal qaz bazarında Azərbaycanın rolu mütləq artacaqdır. Çünki nəhəng qaz ehtiyatlarının aşkar olunması Azərbaycanın əsas qaz ixracatçılarından birinə çevrilməsinə imkan yaradacaqdır. Hesablamalara görə, Azərbaycanın təsdiq olunmuş minimal qaz ehtiyatları 2 trilyon kubmetrdən artıqdır. Bu bundan sonrakı on illər ərzində həm bizim, həm də ixracat həcmi üçün kifayətdir. Hazırda isə ən mühüm məsələ təbii qazımız üçün etibarlı və uzunmüddətli bazarın təmin edilməsidir.

Qeyd etdim ki, artıq şaxələndirilmiş qaz təchizatı sistemimiz vardır. Lakin həmin sistem yalnız bugünkü hasilat həcmini nəql edə bilər. Biz qaz hasılatını iki, üç dəfə, bəlkə də daha çox artırmağı planlaşdırırıq. Onun üçün bizim daha böyük həcmli boru kəmərləri infrastrukturumuz olmalıdır. Əlbəttə, böyük sərmayələri yeni işlənilmə və boru kəmərləri infrastrukturuna yatırmaq üçün biz bilməliyik ki, istehlakçılarımız kimlərdir. Həmin ölkələrdə bazarın tənzimlənməsi necə qurulub, bazarlar bizim üçün etibarlı və uzunmüddətlidirmi? Bütün bu məsələlər öz həllini tapandan sonra Azərbaycan neft sahəsində olduğu kimi, qaz potensialından da uğurla istifadə edəcəkdir.

**A p a r ı c ı: Yəqin ki, alıcılardan söhbət gedir?**

**İ l h a m Ə l i y e v**: Bəli, alıcılarımız vardır. Ətrafımızda da alıcılar vardır. Azərbaycan hazırda qonşu ölkələrə qaz ixrac edir. Baxmayaraq ki, bu ölkələrdən bəziləri bizdən daha çox qaz

hasil edir. Lakin məqsədimiz şaxələndirməni davam etdirmək, yeni bazarlar tapmaqdır, xüsusilə də Avropada. Biz bilirik ki, Avropadan olan alıcılar da şaxələndirmə, yeni qaz təchizatı mənbələri axtarışındadırlar. Hələlik isə Xəzər dənizinin qazı, xüsusilə də Azərbaycanın mavi yanacağı Avropa üçün yeganə qaz mənbəyi ola bilər.

**A p a r ı c ı: Cənab Prezident, biz böhranın şirkətlərə təsirindən danışdıq. Gəlirlərin artdığı və ya azaldığı bir dövrdə Siz ölkə prezidenti kimi, sabitliyi və inflyasiyanı necə qoruyub saxlaya bilirsiniz və çətinlikləri necə dəf edirsiniz?**

**İ l h a m Ə l i y e v:** Onu deyə bilərəm ki, son bir neçə il ərzində ölkəmizdə apardığımız islahatlar bizə dayanıqlı və şaxələndirilmiş iqtisadiyyat yaratmağa imkan verdi. 20 il bundan öncə Azərbaycan Sovet İttifaqının bir hissəsi idi. O zaman iqtisadiyyatımızın bazar iqtisadiyyatı seqmenti sıfıra bərabər idi. Bu gün ümumi daxili məhsulumuzun (ÜDM) 85 faizi özəl sektorun payına düşür. Biz neft və qazdan əldə etdiyimiz gəlirləri qeyri-enerji sektoruna, ilk növbədə isə sənaye istehsalına yönəltdik. Beləliklə, bu gün böhranla və neftin qiymətinin dəyişməsi ilə bağlı yaranan bütün çətinlikləri minimum itkilərlə dəf etməyə nail olmuşuq.

Mən 2009-cu ildə Azərbaycanda iqtisadi inkişafı aydın şəkildə əks etdirən bəzi rəqəmləri söyləyə bilərəm. ÜDM-in artımı 9,3 faiz, sənaye istehsalının artımı 8,6 faiz, inflyasiya dərəcəsi isə yalnız 1,5 faiz olmuşdur. 2009-cu ildə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, müstəqil neft fondumuz daha çox vəsait toplaya bilmişdir. Bu rəqəmlər aydın şəkildə göstərir ki, iqtisadiyyatımız hadisələrin gözlənilməz inkişafına tab gətirə bilir. Təbii ki, biz də iqtisadi böhrandan əziyyət çəkmişik. Lakin biz bütün ehtiyatlarımızı səfərbər etməyə nail olmuşuq.

Onu da deyə bilərəm ki, 2009-cu ilin ən mühüm element-lərindən biri də odur ki, regionumuzdakı digər ölkələrdən fərqli olaraq milli valyutamız dəyərini itirmədi, sabit qaldı. Bu isə insanların sosial müdafiəsi üçün böyük bir dəstək idi. Neftin

bugünkü qiymətləri isə şirkətlər, istehlakçılar və ölkələr üçün münasibdir. Bu cür qiymətlər bizə daha çox sərmayə yatırmağa, daha çox neft və qaz hasil etməyə imkan verir. Bu, istehlakçılar üçün də məqbuldur, artıq maraqlar balansı müşahidə olunmaqdadır.

Ümid edirəm ki, biz 2010-cu ildə nəzərdə tutduğumuz bütün əsas layihələri həyata keçirəcəyik. Qeyd etmək istəyirəm ki, 2009-cu ildə Azərbaycandakı sərmayələrin ümumi məbləği 10 milyard dollara yaxın olub. Bu, iqtisadiyyatımız üçün kifayət qədər böyük məbləğdir. Hesab edirəm ki, neftin tarazlaşdırılmış qiyməti bizə gələcəkdə inkişafı davam etdirməyə imkan verəcəkdir. Yeri gəlmişkən, son 6 il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olub. 6 il ərzində iqtisadiyyatımızın ümumi artımı 300 faiz təşkil edib. Beləliklə, indiyədək nail olduqlarımız, topladığımız vəsait və neft sahəsində əldə edilmiş gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi istiqamətində gördüyümüz işlər bizə uğurlu inkişafı davam etdirməyə imkan verəcəkdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ

*4 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının kansleri Angela Merkelin dəvəti ilə fevralın 4-də Almaniyaya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Almaniyanın dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin «Tegel» aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı İlham Əliyevi Almaniyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYA KANSLERİ ANGELA MERKELİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*Berlin*

*4 fevral 2010-cu il*

*Fevralın 4-də Berlində Almaniya Federativ Respublikası Kanslerinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniyanın kansleri xanım Angela Merkel birgə mətbuat konfransı keçirmişlər.*

*Prezident İlham Əliyev və kansler Angela Merkel mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Almaniya kansleri Angela Merkelin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Mən çox şadam ki, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyevi bu gün Berlində qarşılamaq imkanına malikəm.

Cənab Prezident, biz Sizinlə sonuncu dəfə təxminən 3 il əvvəl – 2007-ci ilin fevral ayında Berlində görüşmüşdük. Qeyd etmək istərdim ki, bizim iqtisadi münasibətlərimiz çox gözəl səviyyədədir. Əməkdaşlığımız sıxdır. Amma əməkdaşlığımızı genişləndirmək üçün potensialımız mövcuddur. Biz bundan istifadə etməliyik.

Elə sahələr vardır ki, biz Almaniya hökuməti olaraq Azərbaycan hökumətinə həmin sahələrdə öz dəstəyimizi göstərə bilərik. Biz Almaniya hökuməti olaraq sizə iqtisadiyyat, o cümlədən infrastruktur sahələrində əməkdaşlığımızı təklif

edirik. Biz Azərbaycan ilə iqtisadi sahədə əməkdaşlığa çox böyük maraq göstəririk.

Mənə belə gəlir ki, biz əməkdaşlığımızı «qələbə-qələbə» formulunda qura bilərik. Mən bunu deyəndə onu nəzərdə tuturam ki, hər iki tərəf bu əməkdaşlıqdan faydalana bilər. Biz Almaniya hökuməti olaraq texniki yeniliklərimizi təklif edirik və Azərbaycan neft-qaz ölkəsi kimi, bizim üçün çox vacib tərəfdaşlardan biridir. Neft-qaz sahəsindən danışanda, əlbəttə ki, Nabukko layihəsini qeyd etməmək mümkün deyildir. Biz bu gün görüşümüz çərçivəsində iqtisadi layihələr, həmçinin Nabukko layihəsi haqqında danışacağıq. Təkcə bu layihələr haqqında deyil, eyni zamanda, Azərbaycanın demokratik inkişafı, hüquqi dövlətçiliyi haqqında söhbət aparacağıq.

Cənab Prezident, Sizə bir daha ürəkdən «Xoş gəlmisiniz!» deyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, xanım Kansler!

İlk növbədə, məni Almaniyaya dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Siz qeyd etdiniz ki, 3 il əvvəl biz Sizinlə burada – Berlində görüşmüşdük. O görüşdən bu günə qədər Almaniya ilə Azərbaycan arasında mövcud olan münasibətlər çox sürətlə inkişaf etmişdir. Siyasi əlaqələr çox yüksək səviyyədədir. İqtisadi sahədə qarşılıqlı maraq böyüyür və bu gün 100-ə yaxın alman şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. Biz çox istəyirik ki, iqtisadi sahədə əməkdaşlıq daha da dərinləşsin. Bunu etmək üçün çox gözəl imkanlar vardır. Azərbaycan bu gün müasirləşmə dövrünü yaşayır. Əlbəttə, ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün bizə qabaqcıl texnologiya lazımdır. Onlar da Almaniyada vardır.

Azərbaycan isə öz növbəsində Avropanın enerji təhlükəsizliyi məsələlərinin uğurla həll edilməsi üçün töhfəsini verməyə hazırdır. Siz bu gün Nabukko layihəsi haqqında

fikirlərinizi söylədiniz. Biz bu layihəni dəstəkləyirik. Qeyd etmək istəyirəm ki, Nabukko layihəsinin müzakirəsi bu gün daha da intensiv xarakter daşıyır. Hesab edirəm ki, bu çox müsbət amildir. Azərbaycanda əvvəlki illərdə yaradılan nəqliyyat infrastrukturu, xüsusilə qaz kəmərləri, Nabukko və «Cənub dəhlizi»nin digər layihələrinin həyata keçirilməsi üçün gözəl zəmin yaradır.

Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının «Şərq tərəfdaşlığı» Proqramına qoşulub. Bu proqramın icrası nəticəsində ölkəmizdə siyasi, iqtisadi islahatlar, demokratikləşmə prosesləri daha da sürətlə gedəcəkdir.

Beləliklə, ikitərəfli münasibətlərin məzmunu çox dəyərlidir və gündəlik çox genişdir. Əminəm ki, bugünkü görüşdən sonra münasibətlərimiz daha da sürətlə inkişaf etməyə davam edəcəkdir.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MÜNHENƏ SƏFƏRİ

*4 fevral 2010-cu il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də 46-cı Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Berlindən Münhenə yola düşdü.*

*Azərbaycanın və Almaniyanın dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin «Tegel» aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı İlham Əliyevi Almaniyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

## ALMAN–AZƏRBAYCAN FORUMUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Münhen*

*5 fevral 2010-cu il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Münhendə Alman–Azərbaycan Forumunun üzvləri ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı istiqamətində forumun keçirdiyi tədbirlərin əhəmiyyəti vurğulandı.*

*Qeyd olundu ki, Alman–Azərbaycan Forumu ölkələrimiz arasında müxtəlif sahələrə dair yeni layihələr həyata keçirmək niyyətindədir və Azərbaycan prezidentinin bu məsələ ilə bağlı fikirləri böyük maraq doğurur.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞÜ

*Münhen*

*5 fevral 2010-cu il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Münhendə Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional və digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STEYNBERQ İLƏ GÖRÜŞ

*Münhen*

*5 fevral 2010-cu il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Münhendə ABŞ Dövlət katibinin birinci müavini Ceyms Steynberq ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, ikitərəfli münasibətlər və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ «TƏBİİ SƏRVƏTLƏRİN TƏHLÜKƏSİZLİYİ VƏ DƏYİŞƏN QLOBAL GÜC» MÖVZUSUNDAKI MÜZAKİRƏLƏRDƏ İŞTİRAK

*Münhen*

*5 fevral 2010-cu il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev fevralın 5-də Münhen Təhlükəsizlik Konfransının «Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc» mövzusunda müzakirələrində iştirak etmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbirin iştirakçıları arasında olmuşdur.*

*Münhen Təhlükəsizlik Konfransı son onilliklər ərzində dünyanın ən əsas təhlükəsizlik siyasəti tədbirinə çevrilmişdir. Hər il dünyanın aparıcı siyasi xadimlərinin iştirak etdiyi bu konfransda intensiv olaraq indiki və gələcək təhlükəsizlik problemləri müzakirə olunur.*

*«Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc» mövzusunda müzakirələri açan moderator Freydrix Merz Azərbaycan prezidenti İlham Əliyevə və digər qonaqlara minnətdarlıq bildirdi.*

*Prezident İlham Əliyev konfransda çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Mən əvvəlcə konfrans təşkilatçılarına dəvətə görə minnətdarlığımı bildirmək istəyirəm. Burada olmaq və bugünkü tədbirdə iştirak etmək böyük şərəfdir.

Hazırda qlobal təhlükəsizlikdə enerji təhlükəsizliyi məsələlərinin əhəmiyyəti daha da artır. Tarixən neft hasil edən ölkə kimi, Azərbaycan regionumuzda enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır.

Azərbaycan dünyada ilk dəfə neft hasil etmiş məkandır. Biz neft hasilatı sahəsində zəngin tarixə malikik. Uzun illər və onilliklər ərzində Azərbaycan neftindən dünya tələbatlarını təmin etməkdə istifadə olunmuşdur.

Lakin keçən əsrin 90-cı illərinin əvvəllərində ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra neft ehtiyatlarımızın əksər hissəsi tükənmişdi. Bizə çirklənmiş ərazilər miras qalmışdı. Neft hasilatının sürətlə azalması ölkə üçün bir çox problemlər yaratdı. Biz neft işinin yeni inkişaf mərhələsini yaratmalı idik. Lakin bunu necə etməli idik? Sovet İttifaqı dağıldıqda yenicə yaranmış bütün ölkələr bir çox iqtisadi və siyasi problemlərdən əziyyət çəkdilər. Qürurumuzu bərpa etmək üçün bizim yeganə yolumuz beynəlxalq neft şirkətlərinin Xəzərin Azərbaycan sektoruna dəvət edilməsindən ibarət idi. Beynəlxalq neft şirkətləri ilə əməkdaşlığımız bu cür başladı.

1994-cü ildə dünyada ən böyük yataqlardan biri – «Azəri», «Çıraq» yatağı kəşfiyyat işləri üçün hazır idi. Elə həmin ildə «Əsrin müqaviləsi» imzalandı və Azərbaycana, neft və qaz ehtiyatlarımıza bir çox milyardlıq sərmayələr üçün qapını açdı.

Həmin vaxtdan etibarən, biz uğurlu enerji strategiyamızı davam etdirməyə müvəffəq olduq. Hökumət ilə sərmayədarlarımız arasında çox yaxşı və dost münasibətləri qurduq. Münbit sərmayə mühitini yaratdıq və neft irsimizi bərpa etməyə nail olduq.

Bu gün ölkə əsas enerji mənbələri ilə tam şəkildə təmin olunub. Neft hasilatımızın həcmi bir neçə dəfə artıb. Hasilata və infrastruktura qoyduğumuz sərmayələr bizə enerji təchizatı mənbələrini şaxələndirmək imkanını yaratdı.

Biz Azərbaycan neftini Qara və Aralıq dənizlərinə nəql edən 3 boru kəməri çəkdik. Ümid edirik ki, hasilatın bugünkü həcmi gələcək onilliklər ərzində də davam edəcəkdir. Bu bizə xeyli maliyyə vəsaitlərini toplamağa və neftdən əldə edilən gəlirləri iqtisadiyyatımızın qeyri-neft sektoruna – təhsil, sosial və səhiyyə sektorlarına, eləcə də infrastruktura yönəltmək imkanını yaratdı. Məhz buna görə, iqtisadi böhran və neft qiymətlərinin kəskin azalması ilə səciyyələnən 2009-cu ildə də Azərbaycan iqtisadiyyatı uğurlu inkişafını davam etdirdi və həmin ildə iqtisadiyyatımız 9 faizdən çox artmışdır.

Şaxələndirmə bizim üçün prioritetlərdən biri idi. Yalnız bir təchizat marşrutundan asılı ola bilməzdik. Hazırda 3 neft təchizatı marşrutuna malikik və bu, regionda tamamilə yeni vəziyyət yaratdı. Dünyada ilk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıq elan edildi, Xəzərdə hasil edilən neft boru kəmərləri ilə beynəlxalq bazarlara çıxarılmağa başlandı. Bu gün həmin boru kəmərləri Xəzərin şərq sahillərində yerləşən digər təchizatçılar tərəfindən də istifadə edilir.

Beləliklə, ölkəmizdə görülən işlər tamamilə yeni vəziyyət yaratmışdır. Bu gün biz təbii qazın nəqli üçün «Cənub dəhlizi», Nabukko və digər layihələr haqqında danışırıq. Lakin aydındır ki, son illər ərzində Azərbaycanda qurulmuş infrastruktur olmadan bütün bu müzakirələr əsassız olardı.

Biz qapıları açdıq və çox münbit sərmayə mühiti yaratdıq. Hazırda sərmayədarlar ilə hökumət arasında çox böyük etimad olan bir vəziyyətdəyik. Qeyd etmək istədiyim digər mühüm elementlərdən biri isə ondan ibarətdir ki, bütün neft müqavilələri ölkəmizdə parlament tərəfindən ratifikasiya olunur və qanuna çevrilir ki, heç kəs heç bir sözü dəyişə bilməsin. Bu, sərmayədarlar arasında əlavə etimad yaradır. Onlar tamamilə əmindirlər ki, hökumət hətta şərtləri yenidən razılaşdırmaq və güclü mövqeyindən irəli gələrək, əlavə üstünlükləri əldə etmək istəsə belə, bunu etmək hüququna malik deyildir.

Enerji şaxələndirilməsi sahəsində görülən işlər bu gün sonrakı inkişaf üçün yaxşı imkanlar yaradır. 2007-ci ildən əvvəl

Azərbaycan təbii qaz idxal edirdi. Lakin bizim işlənilməsinə başladığımız böyük qaz yataqlarımız vardır. Azərbaycan bu gün nəinki öz daxili tələbatını təmin edir, eyni zamanda, qazı müxtəlif istiqamətlərdə ixrac edir. Ölkəmizdə qaz hasilatının həcmi artır. Ümid edirik ki, bu il qaz hasilatının həcmi 30 milyard kubmetrə yaxın olacaqdır. Bu o deməkdir ki, bizdə ixrac üçün böyük həcmdə təbii qazımız olacaqdır. Bilirik ki, Avropanın bizim təbii qaza ehtiyacı vardır. Avropa tərəfdaşlarımızla enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi məsələləri üzərində çalışırıq.

Hasilatın artırılması üçün gələcəkdə istifadə oluna biləcək dəhliz yaratmışıq. Hesablamalara görə, Azərbaycanda minimal qaz ehtiyatları 2 trilyon kubmetrdir. Lakin bu, 5 trilyon kubmetr də təşkil edə bilər. Bu nəinki bizim və regional istehlakçılar üçün, o cümlədən Avropa istehlakçıları üçün ən azı 100 ilə kifayətdir. Biz bu məsələlər üzərində işləyirik və Azərbaycan hər zaman konstruktiv olub.

Bu gün biz təchizat marşrutlarımızı tam şaxələndirmişik. Bizim istənilən istiqamətə gedən üç neft və dörd qaz boru kəmərlərimiz vardır. Hər bir istiqamətə gedən boru kəməri genişləndirilə bilər. Biz istehlakçılar, tranzit ölkələr və hasilatçılar arasında sazişlərə aid zəruri məsələlərin həllini və 20 milyard kubmetr qazı hasil etmək məqsədi ilə 20 milyard dollarlıq sərmayənin yeni mərhələsinin başlanmasını gözləyirik.

Hesab edirəm ki, daxil olmağa çalışdığımız yeni mərhələyə nail olmaq üçün biz bir sıra mühüm məsələləri həll etməliyik.

Birincisi, hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqlar tarazlığı olmalıdır. Əgər tarazlıq təmin olunmasa, bu layihələri irəliyə aparmaq çətin olacaqdır.

İkinci mühüm məsələ böyük maliyyə paketinin olmasıdır. Hər hansı əlavə boru kəməri layihəsi üçün çox böyük sərmayələr qoyulmalıdır. Azərbaycan öz tərəfdaşları, xarici neft şirkətləri ilə milyardlarla dolları təbii qazımızın hasilatına yatırmağa hazırdır. Lakin onu Avropa bazarlarına çıxarmaq üçün boru kəməri infrastrukturuna böyük sərmayələr

qoyulmalıdır. Biz texniki yardımı təmin edə bilərik. Təcrübəmizdən, texniki təcrübəmizdən və tranzit ölkələrlə tranzit sazişlərin razılaşdırılması təcrübəmizdən istifadə oluna bilər. Eyni zamanda, ehtiyatlarımız üçün ədalətli bazar qiyməti olmalıdır.

Bugünkü vəziyyət bizi qane edir. Çünki hazırda ölkəmizin bütün əsas maliyyə problemlərinin həllinə nail olmuşuq. Enerji təchizatı sahəsində tam şaxələndirməyə malikik. Biz iqtisadiyyatı şaxələndirə bildik. Qeyd etdiyim kimi, 2009-cu ildə iqtisadi artım 9 faizdən çox olmuşdur. Sənaye artımı 8,6 faiz, inflyasiya dərəcəsi isə 1,5 faiz olmuşdur.

Azərbaycan iqtisadi və siyasi islahatları davam etdirir. Dünya Bankı 2008-ci ildə Azərbaycanı dünyada birinci islahatçı ölkə elan etmişdir. Liberal iqtisadiyyat, bazar iqtisadiyyatı və siyasi islahatlar birlikdə ölkəmizdə çox yaxşı mühit yaratmışdır. Biz xeyli maliyyə vəsaitlərini toplaya bildik. 2009-cu ildə neftin qiymətlərinin aşağı düşməsinə baxmayaraq, maliyyə vəsaitlərimiz artmışdır. Bu gün onların həcmi 20 milyard dollardan artıqdır. Bu, doqquz milyon əhalisi olan ölkə üçün kifayətdir. Gələn onilliklər ərzində neft hasilatı göstəricisinin gündə ən azı 1 milyon barrel səviyyəsində olacağını nəzərə alsaq, bu o deməkdir ki, gələcəkdə bizim hər hansı maliyyə yardımına ehtiyacımız olmayacaqdır.

Nəzərdə tutduğumuz bütün layihələrin həyata keçirilməsi üçün qarşılaşdığımız həlli vacib olan əsas problemlərdən biri, əlbəttə ki, regionda sülhün bərqərar olmasıdır. Uzun illər ərzində Azərbaycan əraziləri Ermənistanın işğalı altında qalır. Bu işğal, demək olar ki, 20 ildir davam edir. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyon azərbaycanlı hələ də qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Biz Ermənistan–Azərbaycan münaqişəsinin həll yolunu mümkün qədər tez tapmaq və Azərbaycanın bütün dünya, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan ərazi bütövlüyünün bərpasını istəyirik. Beynəlxalq təşkilatların bütün qərarlarında Azərbaycanın ərazi bütövlüyünə tam dəstək verilir.

Bu məsələ regional sabitliyə və inkişafa böyük təhlükə yaradır. Əlbəttə ki, o, tammiqyaslı regional əməkdaşlığa maneədir və bütün planlarımıza xələl gətirə bilər. Biz tərəfdaşlarımızla apardığımız əməkdaşlığa tam sadiqik. Biz bütün enerji layihələrinə kommersiya nöqteyi-nəzərindən yanaşırıq. Bu layihələrdə mühüm kommersiya elementi olmalıdır.

Enerji təhlükəsizliyinə dünyada, xüsusən də bu konfransda yetirilən diqqət məsələlərin nə dərəcədə vacib olduğunu göstərir. Güclü siyasi iradə ilə və regional problemləri tam şəkildə anlayaraq yanaşmaq lazımdır. Çünki bizim regionda – Qafqazda və Xəzər regionunda siyasi inkişaf və iqtisadi əməkdaşlıq məsələləri bir-biri ilə sıx bağlıdır.

* * *

*Sonra dövlətimizin başçısı iştirakçıların suallarına cavab verdi.*

**S u a l**: **Xəzər regionunun inkişafında və onun dünyaya açılmasında Azərbaycanın rolunu etiraf edirəm. Mən Sizin iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı söylədiyiniz sözləri yüksək qiymətləndirirəm. Sualım onunla bağlıdır ki, Azərbaycan daxildə enerji təhlükəsizliyinin şaxələndirilməsi üçün hansı işləri görür? Sizin çox zəngin neft və qaz ehtiyatlarınız vardır. Azərbaycan külək enerjisi, bərpa olunan enerji mənbələri, hətta nüvə enerjisi sahəsində nə edir?**

**İ l h a m  Ə l i y e v**: Əvvəlcə qeyd etdiyim kimi, enerji strategiyamız nisbətən yaxınlarda başladı, çünki müstəqillik baxımından gənc ölkəyik. Bizim üçün ən prioritet enerji təhlükəsizliyimizin təmin edilməsidir. Birincisi, biz neft hasilatını artırmalı, sonra isə xaricdən idxal edilən qazdan asılılığı azaltmalı idik.

Buna nail olundu. Bundan dərhal sonra bu gün biz özümüzü tam təmin etdiyimiz, neft və qazımızın müxtəlif istiqamətlərdə ixracına başladığımız bir vaxtda yeni prioritetimiz bərpa olunan enerji mənbələridir. Əfsuslar olsun ki, biz su ehtiyatlarına görə

zəngin deyilik. Lakin bununla belə, biz Azərbaycanda su elektrik enerjisinin inkişafı üzrə böyük plan tərtib etdik. Biz ucuz başa gələn enerjini əldə etmək məqsədi ilə hər çayda kiçik elektrik stansiyası tikməyi planlaşdırırıq. Bu yaxınlarda Bərpa Olunan Enerji üzrə Dövlət Agentliyi yaradılmışdır və əsas prioritet günəş və külək enerjisi olacaqdır. Bizdə günəşli və küləkli günlər çoxdur və bu cür iqlim üstünlüklərindən niyə də istifadə etməyək. Bəzən külək çox darıxdırıcıdır, lakin fikrimcə, bu baxımdan biz üstünlük qazanmışıq. Biz enerji balansımızda bərpa olunan enerji mənbələrindən ibarət böyük seqment yaratmaq məqsədi ilə dövlət və özəl sektor tərəfindən böyük sərmayələr qoymağı planlaşdırırıq. Bu bizə neft və qazımıza gələcək nəsillər və ixrac üçün qənaət etməyə, neftdən əldə etdiyimiz vəsaitləri bərpa olunan mənbələrə yönəltməyə imkan yaradacaqdır. Hesab edirəm ki, planlarımızın həyata keçirilməsinə nail olacağıq.

**S u a l: Cənab Prezident, Siz Nabukkonun çəkilməsini yubadan bəzi məsələləri Davosda qeyd etdiniz. Nabukko Sizin üçün hələ də prioritetdirmi?**

**İ l h a m  Ə l i y e v**: Bir qədər əvvəl qeyd etdiyim kimi, biz böyük qaz ehtiyatları aşkar etmişik və artıq mükəmməl nəqletmə infrastrukturu yaratmışıq. Hazırda qazı 4 ölkəyə nəql edirik: Türkiyə, Gürcüstan, İran və Rusiya. Həmin istiqamətlərdən hər birində nəqli artırma imkanlarımız və lazım gələrsə maliyyə ehtiyatlarımız vardır. Hazırda biz daxildə istifadə edəcəyimiz və sata biləcəyimiz qədər qaz hasil edirik.

Şaxələndirmə bizim üçün çox vacibdir. Buna görə də, gündəliyimizin birinci mərhələsində biz təchizatın tam şaxələndirilməsinə nail olmuşuq. Biz hasilatı 40 milyard kubmetr və ya ondan da yüksək səviyyəyə qaldırmaq məqsədi ilə qaz yataqlarımıza 20 milyard dollara yaxın böyük sərmayələrin qoyulması ərəfəsindəyik. Amma buna nail olmaq üçün bizə qazımızı qəbul edəcək və ədalətli satılacaq bazarlar lazımdır. Biz əmin olmalıyıq ki, bu əməkdaşlıq uzunmüddətli olacaqdır. Çünki qaz biznesi neft biznesindən fərqlənir.

Sərmayə qoymazdan əvvəl siz istehlakçılarınızın kim olduğunu, tranzit haqlarını, qazınıza qoyulan qiyməti, bazarın sizin üçün etibarlı olub-olmamasını və boru kəmərinin digər hissəsində olan tərəfdaşlarınızın nə dərəcədə ciddi və sadiq olduğunu öncədən bilməlisiniz. Bu məsələlər həll olunmadan daha çox qaz hasil etmək üçün böyük maliyyə sərmayələri paketini hazırlamaq bizim üçün çətin olardı.

Siz mənim Davosda Nabukko layihəsi ilə bağlı suala verdiyim şərhlərə istinad etdiniz. Biz «Cənub dəhlizi»nin bir hissəsi olan bu və digər layihələri qəti şəkildə dəstəkləyirik. Ötən ilin mayında Azərbaycan Nabukkonu dəstəkləyən siyasi bəyannaməyə qoşuldu. Biz bu variantı ciddi şəkildə nəzərdən keçirməyə hazırıq.

Lakin bunu etmək üçün biz bütün səyləri gücləndirməliyik. Biz nə vaxt maliyyə vəsaitlərinin ayrılacağını, kimin maliyyələşdirəcəyini, bu layihənin həyata keçirilməsinə aid cədvəli və kəmərin digər hissəsində olan tərəfdaşlarımızın bu layihədə nə dərəcədə ciddi olduğunu bilməliyik. Hamımız bilirik ki, hazırda tikilən və ya nəzərdən keçirilən bir çox layihələr vardır. Onlar aşağıdakı kimidir: «Mavi axın», «Cənub axını», «Şimal axını» və Nabukko. Nabukko layihəsində iştirak edən ölkələr həm də «Cənub axını» və «Şimal axını» layihələrində də iştirak edirlər. Buna görə, həm hasilatçı və həm də sərmayələrin əsas ağırlığını öz üzərinə götürəcək bir ölkə kimi, bizim üçün Nabukko cədvəlini, boru kəmərinə nə vaxt sərmayələrin qoyulacağını, vəsaitin haradan gələcəyini bilmək çox vacibdir. Bu məsələlər həll olunan kimi, biz sərmayə qoymağa çox şad olarıq. Çünki bizim yataqlarımız mövcuddur və onlar bizim üçün 100 il və ondan artıq müddətə də kifayətdir. Biz qazımızı ehtiyac duyulan bazarlara çıxarmalıyıq.

**S u a l: Cənab Prezident, Azərbaycanın etibarlı qaz və neft təchizatçısı kimi qalmasını istəyiriksə, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasının zəruriliyini bizə bir daha haqlı olaraq xatırlatdınız. Dağlıq Qarabağ məsələsinin birdəfəlik həlli üçün Sizin strategiyanızı bilmək istərdim.**

**Daha dəqiq bilmək istərdim, Türkiyə–Ermənistan yaxınlaşması bu strategiyaya hansı şəkildə uyğun gəlir? Ermənistan bu məsələdə irəliləyişə nail olarsa və sərhədin hər iki tərəfində qarşılıqlı ticarət və mümkün iqtisadi tərəqqi məqsədi ilə sərhədlər açılarsa, bu, faydalı olardımı? Bu Sizin Dağlıq Qarabağ strategiyanızın bir hissəsi ola bilərmi? Sizin fikrinizcə, bu, faydalı ola bilərmi?**

**İ l h a m Ə l i y e v**: 20 ildir Azərbaycan torpaqları işğal altındadır. Azərbaycana qarşı həyata keçirilən təcavüz və etnik təmizləmə siyasəti humanitar faciə ilə nəticələndi. Ölkəmizdə bir milyon insan qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Nəinki Dağlıq Qarabağ, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərinin ətrafında yerləşən 7 rayon da işğal altındadır. Bütün infrastruktur dağıdılıb, insanlar qovulub, hər bir şey yerlə yeksan olunub. Bu işğal təxminən 20 ildir ki, davam edir. Dünyada ən yüksək beynəlxalq qurum – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası işğalçı erməni qüvvələrinin Azərbaycanın zəbt edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməni qəbul edib. Lakin onlar yerinə yetirilməyib. ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarları Azərbaycanın ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir.

Münaqişə ölkələrin ərazi bütövlüyü və xalqların özünüidarəetmə prinsipləri əsasında həll olunmalıdır. Bu prinsiplər bir-biri ilə ziddiyyət təşkil etmir. Xalqların özünüidarəetmə prinsipi ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həyata keçirilə bilər. Biz dünyada, xüsusən də Avropada mövcud olan muxtariyyatların yaxşı nümunələrini bilirik. Biz bu münaqişəni mümkün qədər tez həll etmək istəyirik. Çünki bizim xalq bu münaqişədən əziyyət çəkir və torpaqlarımız işğal altında qalmaqda davam edir. Azərbaycan danışıqlar prosesinin sürətləndirilməsinə qəti şəkildə sadiqdir. Ümid edirik ki, erməni tərəfi də məsələnin tezliklə həlli üçün öz səylərini göstərəcəkdir. Biz bu münaqişənin dondurulmuş vəziyyətdə

qalmasına, həll prosesinin yubadılmasına və yaxud sonu olmayan danışıqlarda iştirakımıza imkan verə bilmərik. Bu gün müzakirə etdiyimiz məsələlər qərar və həll üçün ciddi əsas ola bilər. Hesab edirəm ki, biz məsələnin qeyd etdiyim prinsiplər əsasında həllini mümkün qədər tez tapmalıyıq.

Biz iki suveren ölkə arasındakı münasibətlərə heç vaxt müdaxilə etmirik və etməyi də planlaşdırmırıq. Türkiyə və Ermənistan iki suveren ölkədir və iki ölkə arasındakı münasibətlər yalnız onlar tərəfindən nəzərdən keçirilməlidir. Gəlin Ermənistan ilə Türkiyəyə öz aralarında razılaşmaq imkanı verək və bu prosesə müdaxilə etməyək. Bu bizim mövqeyimizdir.

Aydındır ki, Ermənistan–Azərbaycan münaqişəsi həll edilmədən regionda tammiqyaslı regional əməkdaşlığa nail oluna bilməz. Çünki bu, regionda əsas problemdir və regional sabitliyə əsas təhlükədir. Ermənistan ilə Türkiyə arasında sərhədin bağlandığı 1993-cü ilə qayıtsaq görərik ki, sərhəd Azərbaycan rayonlarından birinin, yəni Kəlbəcərin işğalı səbəbindən bağlanmışdır. Türk dostlarımız həmin addımı bu səbəbdən atmışdılar və bu addımın səbəbi hələ aradan qaldırılmayıb. Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən Kəlbəcər və Azərbaycanın digər 6 rayonu hələ də işğal altındadır.

Biz türk dostlarımızın beynəlxalq və regional əməkdaşlığın qurulmasında göstərdiyi səylərinə tam etimad göstəririk. Əgər Türkiyə–Ermənistan yaxınlaşması və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli kimi iki proses paralel şəkildə bir paket kimi həll olunarsa, biz regionda tezliklə sülhə nail ola bilərik.

* * *

*Müzakirələrdə Almaniyanın RWE şirkətinin Baş icraçı direktoru Yurgen Qrosman, Fransanın AREVA şirkətinin Baş icraçı direktoru xanım Ann Laverjon, ABŞ Dövlət katibinin birinci müavini Ceyms Steynberq, Rusiya Dövlət Duması*

*sədrinin müavini Valeri Yazev mövzu ilə bağlı fikirlərini bildirdilər.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MUTTƏKİ İLƏ GÖRÜŞ

*Münhen*

*6 fevral 2010-cu il*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Münhendə İran İslam Respublikasının Xarici İşlər naziri Mənuçehr Muttəki ilə görüşmüşdür.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional və digər məsələlər müzakirə edildi.*

### Səfər başa çatdı

*Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri başa çatmışdır.*

*Münhen Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Almaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtmışdır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – İslam inqilabı günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə İran arasındakı münasibətlər dərin tarixi köklərə əsaslanan dostluq və mehriban qonşuluq ənənələrinə malikdir. Əminəm ki, belə möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı üçün birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2010-cu il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KAROLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Yunanıstan dövlətlərarası münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin genişləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və layihələr çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yunanıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2010-cu il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Litva dövlətinin bərpası günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Litva münasibətləri son illərdə dinamik inkişaf yolu keçərək istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar və layihələr çərçivəsində səmərəli əməkdaşlığımız üçün möhkəm zəmin yaratmışdır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası münasibətlərimizin, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə birgə işimizin dərinləşdirilməsi istiqamətində bundan sonra da səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2010-cu il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BORİS TADİÇƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Dövlətçilik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Serbiya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Serbiya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2010-cu il*

# XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOVA «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*8 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Xalq artisti Əlibaba Məmmədova milli muğam sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə və anadan olmasının 80 illiyi münasibətilə təltif olunduğu «İstiqlal» ordenini təqdim etmişdir.*

*Dövlət başçısı muğam ustadını təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, Sizə cansağlığı, uzun ömür arzulayıram.

Siz uzun illərdir ki, öz sənətinizlə Azərbaycanın milli musiqisini təbliğ edirsiniz, ifaçılıq ustalığınızla Azərbaycan xalqını sevindirirsiniz. Azərbaycanın sərvəti olan muğam sənətini uzun illər ərzində qoruyursunuz, inkişaf etdirirsiniz, gənc nəsli bu gözəl sənətə cəlb edirsiniz. Bu işlər Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan dövləti sizin fəaliyyətinizi müxtəlif dövrlərdə yüksək qiymətləndiribdir. Mən də yubileyiniz münasibətilə Sizi Azərbaycan dövlətinin yüksək mükafatı olan «İstiqlal» ordeni ilə təltif etmişəm. İstəyirəm ki, bu gün özüm bu ordeni sizə təqdim edim.

* * *

*Prezident İlham Əliyev «İstiqlal» ordenini Əlibaba Məmmədova təqdim etdi.*

*Xalq artisti dövlətimizin başçısına təşəkkür etdi.*

**Ə l i b a b a M ə m m ə d o v:** Əziz və çox hörmətli cənab Prezidentimiz! Sizə səmimi-qəlbdən öz təşəkkürümü bildirirəm ki, məni dövlətimizin ən yüksək mükafatı olan «İstiqlal» ordeni

ilə mükafatlandırmısınız. Bu təkcə mənə yox, milli sərvətimiz olan muğamlarımıza hörmətdir. Bu bizim muğam ifaçılarımıza, xalqımıza böyük hörmətdir. Buna görə çox sağ olun.

Üç gündür ki, telefonlara cavab verməkdən yorulmuşam, hətta başqa ölkələrdən – Almaniyadan, İrandan, bölgələrimizdən zəng vurub məni təbrik edirlər. Deyirlər ki, sağ olsun cənab Prezidentimiz, Allah ona uzun ömür, cansağlığı versin. Bu, böyük mükafatdır, bilirsiniz. Qaldı ki, mənə, «Sağ olun» deməkdən başqa söz tapa bilmirəm. Bu, xalqımıza hörmətdir. Çox böyük işdir ki, bu yaşımda, bu yubileyimdə məni sevindirdiniz. Allah-taala Sizi xalqımızın üstündən əskik etməsin. Allah-taala Sizi xalqımız üçün qorusun, bizim üçün qorusun. Çox sağ olun.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun, Əlibaba müəllim. Bir daha Sizi təbrik edirəm. Doğrudan da muğam sənəti Azərbaycan xalqının qəlbində yaşayır. Mən çox sevinirəm ki, gənc nəsil bu gözəl sənətə qoşulub. Muğam müsabiqələrinin keçirilməsi bunun gözəl göstəricisidir. Muğam müsabiqələri Azərbaycan həyatının ayrılmaz hissəsinə çevrilibdir. Bütün insanlar bu müsabiqələri gözləyir və buna çox gözəl münasibət bəsləyirlər. Sizin kimi görkəmli ifaçılar, muğam sənətinin ustadları gənc nəslin bu gözəl sənətə cəlb edilməsində mühüm rol oynayırlar. Azərbaycan xalqı, Azərbaycan mədəniyyəti yaşadıqca, bu sənət də yaşayacaqdır.

Mən bütün işlərinizi çox yüksək qiymətləndirərək Sizə uzun ömür, cansağlığı arzulayıram. Arzu edirəm ki, uzun illər bundan sonra tamaşaçılarınızı sevindirəsiniz və Azərbaycanın milli musiqisinin həm Azərbaycanda, həm dünyada təbliğ edilməsində səylərinizi göstərəsiniz.

## BRUNEY DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

Əlahəzrət!

Bruney Darüssalamın milli bayramı – Milli gün münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Bruney Darüssalam arasındakı münasibətlərin inkişafı bundan sonra da xalqlarımız arasındakı dostluq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bruney Darüssalamın dost xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 fevral 2010-cu il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Estoniya münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin və dostluq əlaqələrimizin möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 fevral 2010-cu il*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Milli gün münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan–Küveyt dövlətlərarası münasibətlərinin möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 fevral 2010-cu il*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qambiya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qambiya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 fevral 2010-cu il*

## AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andres Herkeli və Debona Qrexi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*11 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də qədim Gəncə şəhərinə səfərə gəlmişdir.*

*Azərbaycanda aparılan geniş abadlıq-quruculuq işləri çərçivəsində Gəncə şəhərində də kompleks tədbirlər görülür. Ölkəmizin böyük sənaye və iqtisadi mərkəzlərindən olan Gəncədə son illərdə aparılan quruculuq işləri bu bölgənin həyatına inkişaf, tərəqqi və müasirlik gətirmişdir. Bunun nəticəsidir ki, 2009-cu ildə Gəncədə ümumi daxili məhsul istehsalı 245 milyon manata yaxın olmuşdur. Şəhərdə 1970-i daimi olmaqla 2230 yeni iş yeri açılmışdır. Son 6 ildə 17470 iş yeri açılmışdır. 2009-cu ildə şəhər polis idarəsi üçün yeni inzibati bina, daxili qoşunların zabitləri üçün 5 mərtəbəli yaşayış binası istifadəyə verilmiş, şəkər və tikinti materialları istehsalı sahəsi, taxta emalı müəssisəsi yaradılmışdır. Dahi Nizami Gəncəvinin şəhərin mərkəzində ucaldılan abidəsinin ətrafı müasir və milli memarlıq üslubunda yenidən qurulmuşdur. Şəhərdə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmış, 100 mindən çox ağac əkilmişdir. 2000 ildən çox yaşı olan qədim Gəncə aparılan kompleks tədbirlər hesabına indi qədimliklə müasirliyin qovuşduğu bir məkana çevrilmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə şəhərin mərkəzindəki Heydər Əliyev meydanına gəldi, ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

## «Ramada Plaza» mehmanxanasının açılışı mərasimi

*Prezident İlham Əliyev fevralın 11-də Gəncədə «Ramada Plaza» mehmanxanasının açılışında iştirak etmişdir.*

*Gəncə şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstəsi və mehmanxananın rəmzi açarını təqdim etdilər.*

*Prezident İlham Əliyev mehmanxanada yaradılmış şəraitlə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son illər istifadəyə verilən müasir mehmanxana kompleksləri böyük əhəmiyyət kəsb edir. Bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də ölkəyə gələn turistlərin sayının artmasına zəmin yaradır. Gəncədə inşa edilən «Ramada Plaza» mehmanxanası da bu qəbildən olan mühüm layihələrdəndir. Mehmanxananın qədim İpək yolunun əsas hissələrindən olan Bakı–Tbilisi şosesinin üstündə yerləşməsi onun əhəmiyyətini daha da artırır. Mehmanxana kompleksi həm də şəhərin ümumi ansamblına əlavə gözəllik verir.*

*Təməli 2005-ci ilin mayında qoyulmuş beşulduzlu mehmanxanada qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Bildirildi ki, ən müasir standartlara uyğun olan mehmanxanada 100 nəfərlik fitnes klub, masaj otaqları, türk hamamı, sauna, üzgüçülük hovuzu, tennis, bilyard otaqları, futbol meydançası vardır.*

*Dövlətimizin başçısı milli mətbəximizin ləziz yeməklərinin təklif olunduğu 60 nəfərlik «Çinar» restoranına baxdı. Bundan başqa, mehmanxanada 200 nəfərlik «Xəmsə» restoranı, «Vitamin» bar da fəaliyyət göstərir. Burada dünyada qəbul*

*edilən ən son standart sayılan «Opera otel» işlətmələri proqramı vardır.*

*Prezident İlham Əliyev müasir akustika sistemi ilə təchiz edilmiş konfrans zallarını gəzdi. Bildirildi ki, 220 nəfərlik «Kəpəz» konfrans zalında müasir informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən geniş istifadə olunmuşdur.*

*Dövlətimizin başçısı kompleksdə yaradılan iki prezident nömrəsindəki şəraitlə də tanış oldu. «Nizami» və «Cavadxan» adlandırılan nömrələrdə kabinet, üç yataq otağı vardır. Mehmanxananın 12-ci mərtəbəsində bar yerləşir, 11-ci mərtəbədə isə prezident nömrələri üçün ayrıca yemək otağı fəaliyyət göstərəcəkdir. Kompleksdə lüks, yarımlüks və standart olmaqla 181 nömrə vardır. Fərdi havalandırma sistemi ilə təchiz edilmiş otaqlarda peyk antenləri avadanlığı, internet xidməti və telefonlar quraşdırılmışdır. Mehmanxanada eyni vaxtda 280–320 nəfər qala bilər. Burada, həmçinin əlil qonaqların istirahəti üçün xüsusi otaqlar ayrılmışdır. VİP nömrələrə xidmət edən ayrıca restoran da vardır.*

*Azərbaycan prezidenti mehmanxana kompleksində görülən işləri yüksək qiymətləndirdi.*

# GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Gəncədə «Ramada Plaza» mehmanxanasının açılışından sonra şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Sizi bu gözəl, yeni mehmanxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Gəncədə beşulduzlu müasir mehmanxananın yaradılmasına böyük ehtiyac var idi. Mən xatırlayıram, keçən dəfə Gəncədə olanda gəlib burada tikinti ilə tanış oldum. Mənə söz verdilər ki, tikinti qısa müddət ərzində başa çatacaqdır.

Bu gün sizinlə bərabər bu gözəl mehmanxananın açılışında iştirak edirik. Həqiqətən də çox gözəl, müasir xidmət ocağıdır. Deyə bilərəm ki, dünyanın ən inkişaf etmiş ölkələrində mövcud olan mehmanxanalardan geri qalmır. Bütün şərait var, çox gözəl zövqlə tikilib. Dincəlmək üçün də hər bir imkan vardır. Nəzərə alsaq ki, Gəncə sürətlə inkişaf edir, şəhərə gələnlərin sayı artır, belə mehmanxananın tikilməsi çox mühüm hadisədir. Həm şəhərə yaraşıq, gözəllik verir, həm də yüksək xidmət mərkəzinə çevriləcəkdir. Bu gün Azərbaycanın müxtəlif yerlərində yeni mehmanxanalar tikilir, təbii ki, ilk növbədə Bakıda. Bu proses bölgələrdə də sürətlə getməlidir.

Gəncədə inkişaf sürətlə gedir. Həm xidmət sahəsində, həm sənaye potensialının inkişafında praktiki işlər sürətlə və keyfiyyətlə aparılır, şəhər gözəlləşir, abadlaşır. Əminəm ki, 2010-cu ildə qarşıda duran bütün vəzifələr icra olunacaq və Gəncənin sürətli inkişafı gələcəkdə də təmin ediləcəkdir. Şəhərin sənaye potensialının inkişafına böyük diqqət göstəririk

və göstərəcəyik, burada böyük sənaye müəssisələri, ilk növbədə alüminium zavodu, ondan sonra böyük metallurgiya kompleksi yaradılmalıdır. Bir müddət əvvəl bu iki böyük sənaye müəssisəsinin təməl daşı qoyulmuşdur. Ancaq müəyyən maliyyə çətinliklərinə görə tikinti bir az yubanmışdır. Hesab edirəm ki, 2010-cu ildə işlər daha sürətlə getməlidir.

Bu il Bakı–Gəncə magistral avtomobil yolu istifadəyə veriləcəkdir. Bu da çox böyük bir hadisədir. Gəncədə belə gözəl, müasir mehmanxanaların tikilməsi onu göstərir ki, investorlar da şəhərin gələcəyinə inamla yanaşırlar. Belə olmasaydı, investorlar heç vaxt böyük vəsait qoymazdılar. Dünya üçün çətin olan 2009-cu ildə də Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Dünya miqyasında iqtisadi inkişaf templərinə görə Azərbaycan birinci yerdədir. Bu ilin birinci ayının yekunlarına görə də Azərbaycan iqtisadiyyatı 9 faizdən çox artıbdır. Bu onu göstərir ki, uğurlarımız əsaslıdır.

Biz özümüzü düşünülmüş siyasətlə, iqtisadi islahatlarla qoruya bildik. Ölkəmizin hərtərəfli inkişafının nəticəsində bu gün Azərbaycan iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Regionların inkişafı davam edir. Mən sabah bölgələrdə olacağam. Yeni müəssisələrin istifadəyə verilməsi ilə bağlı tədbirlər keçiriləcəkdir. İstərdim ki, bütün Azərbaycan vətəndaşlarına 2010-cu ildə yeni uğurlar arzulayım.

Bu gün mənim Gəncəyə səfərim nəzərdə tutulmurdu. Ancaq mənə məlumat verildi ki, mehmanxana hazırdır. Xahiş olunur ki, mən mehmanxananın açılışında iştirak edim. Ona görə mən sizin yanınıza gəldim, bu mehmanxananın açılışında sizinlə bərabər iştirak edirəm. Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

*Gəncə ictimaiyyəti adından çıxış edən Telman Məlikov dövlətimizin başçısına təşəkkür etdi.*

**T e l m a n  M ə l i k o v:** Möhtərəm cənab Prezident, biz gəncəlilər Sizi ürəkdən salamlayırıq. Sizə böyük hörmət və ehtiramımızı bildiririk. Siz şəhərimizə – qədim Nizami yurduna xoş gəlmisiniz! Bu Sizin son 6 ildə Gəncə şəhərinə 10-cu

səfərinizdir. Hər dəfə şəhərə gəlişiniz gəncəlilər üçün bir bayramdır. Ulu öndər Heydər Əliyev də Gəncəni və gəncəliləri çox sevərdi.

Bu gün açılışına toplaşdığımız müasir, gözəl mehmanxana şəhərimizin yeni səviyyəyə daxil olmasından xəbər verir. Biz gəncəlilər bunlara görə Sizə hədsiz minnətdarıq. Biz ziyalılar Sizinlə fəxr edirik. Bir daha Nizami yurduna xoş gəlmisiniz!

**İ l h a m  Ə l i y e v**: Sağ olun. Mən Gəncənin gələcək inkişafı ilə bağlı bu yaxınlarda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına göstərişlər verdim. Gəncənin inkişafı üçün əlavə vəsaitin ayrılması nəzərdə tutulur ki, şəhər daha da gözəlləşsin, öz tarixi simasını saxlamaqla müasirləşsin və şəhərdə yaşamaq, istirahət etmək üçün bütün şərait daha da yaxşı olsun. Bu məqsədlə əlavə tədbirlər planı hazırlanır və yəqin ki, yaxın zamanlarda bütün gəncəlilər bunu görəcəklər.

Bu gözəl mehmanxananın açılışı rəmzi xarakter daşıyır və onu göstərir ki, nəinki Bakıda, başqa şəhərlərimizdə də beşulduzlu, dünya səviyyəli mehmanxanalar tikilir.

## UKRAYNA REGİONLAR PARTİYASININ LİDERİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

Hörmətli Viktor Fyodoroviç!

Ukrayna Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Ukrayna tarixən sıx dostluq, qarşılıqlı dəstək və etimad telləri ilə bağlıdır. Əminəm ki, bu xeyirxah ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz, strateji tərəfdaşlığımız, çoxşaxəli və konstruktiv əməkdaşlığımız xalqlarımızın mənafeyi, regionda sülh və sabitlik naminə bundan sonra da dinamik inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Viktor Fyodoroviç, Sizə möhkəm cansağlığı, səadət və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAŞ RAYONUNA SƏFƏRİ

*12 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Ağdaş rayonuna gəlmişdir.*

*Ölkəmizin ümumi inkişaf dinamikasına uyğun olaraq son illər Ağdaş rayonunun sosial-iqtisadi həyatında da mühüm dəyişikliklər baş verir. Rayonda 2009-cu ildə ümumi məhsul istehsalı əvvəlki ilə nisbətən 1,6 dəfə, sənaye məhsulunun həcmi 4 dəfə artmışdır. Əsas kapitala yönəldilən investisiyaların və tikinti işlərinin həcmi 2,6 dəfə çoxalmışdır. Ötən il Ucar–Yevlax yolunun rayon ərazisindən keçən hissəsinin yenidən qurulması yekunlaşmış, prezident İlham Əliyevin tapşırığına əsasən inşa edilən Olimpiya İdman Kompleksinin tikintisi başa çatmışdır. Ötən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağdaşda Habil Əliyev adına musiqi məktəbi istifadəyə verilmiş, şəhərin su-kanalizasiya sisteminin yenidən qurulması layihəsinin birinci mərhələsi başa çatmış, mərkəzi avtomat telefon stansiyasının (ATS-in) elektron ATS-lə (EATS) əvəz edilməsində son tamamlanma işləri görülmüşdür.*

*2003–2009-cu illərdə rayonda 4500-ü daimi olmaqla 12 mindən çox yeni iş yeri açılmışdır.*

*Dövlətimizin başçısı əvvəlcə Ağdaş şəhərinin mərkəzindəki Heydər Əliyev adına istirahət parkında ulu öndərin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

## Habil Əliyev adına Ağdaş Şəhər Musiqi Məktəbi ilə tanışlıq

*Fevralın 12-də Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Habil Əliyev adına Ağdaş Şəhər Musiqi Məktəbində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Tikintisinə 2008-ci ilin martında başlanılmış 540 şagird yeri olan musiqi məktəbinin binası ötən ilin iyununda istifadəyə verilmişdir. Ağdaş şəhərinin mərkəzində yerləşən məktəbdə 36 sinif otağı, 200 yerlik konsert zalı və muzey vardır.*

*Məktəbin birinci mərtəbəsində Xalq artisti, kamança ustadı Habil Əliyevə həsr olunmuş muzey yaradılmışdır.*

*Xalq artisti Habil Əliyev dövlətimizin başçısını məktəbdə salamladı.*

**H a b i l Ə l i y e v:** Möhtərəm cənab Prezident! Sizi burada görməyimə çox şadam! Uşaqlara deyirəm ki, mənim oxuduğum məktəb iki köhnə uçuq evdən ibarət idi. Dərs dediyim kənddə isə bayırda qarın-yağışın altında dayanırdıq, soyuqdan əlim də dəftər-qələm tutmurdu. Ancaq bu məktəbi görəndən sonra yenidən şagird olmaq, oxumaq istəyirəm.

**İ l h a m Ə l i y e v**: Bu məktəb doğrudan da çox gözəldir, həm xarici görünüşü, həm də daxili. Eşitdiyimə görə daxili çox gözəl tərtib olunub. Bu məktəb sizin adınızı daşıyır. Siz buna layiqsiniz və mən çox şadam ki, Ağdaşda belə gözəl məktəb tikilib. Mənə deyirlər ki, burada musiqi məktəbinin böyük ənənələri vardır. Məktəb hələ keçən əsrin 30-cu illərində qurulmuşdur. Amma bu məktəbin bu gün, yeni dövrdə, müasir səviyyədə yaradılması böyük hadisədir.

**H a b i l Ə l i y e v**: Allah Sizi qorusun! Hamısı Sizin verdiyiniz böyük qiymətdir. Bu məktəbdən heç yerdə yoxdur. Nə lazımdırsa Siz hamısını etmisiniz. Biz də gərək Sizin etimadınızı doğruldaq.

**İ l h a m Ə l i y e v**: Biz gərək öz milli musiqimizi təbliğ edək, həm dünyada, həm Azərbaycanda. Xüsusilə uşaqlar, gənc

nəsil bu işlərə qoşulmalıdır. Əlbəttə ki, ölkəmizin inkişafı üçün sənaye potensialı, iqtisadi inkişaf və başqa məsələlər çox vacibdir. Amma mədəniyyət sahəsində görülən işlər xalqımızı yaşadacaqdır. Biz 20 ilə yaxındır ki, müstəqil ölkəyik. Əgər öz musiqimizi, ədəbiyyatımızı, dilimizi saxlamasaydıq müstəqil ölkə kimi necə yaşaya bilərdik? Azərbaycan bunun hesabına müstəqil ölkə kimi yaşayır. Biz mütləq öz milli musiqimizi, ədəbiyyatımızı, mədəniyyətimizi qorumalıyıq. Ağdaşda nəinki bu gözəl məktəb tikilib, başqa tədbirlər də, başqa gözəl işlər də görülür. Bu gün iştirak edəcəyim mərasimdə yeni, böyük xəstəxananın təməl daşı qoyulacaqdır. Bu da bizim xalqımızın sağlamlığının təminatıdır. Ən gözəl, ən müasir avadanlıq, gözəl xəstəxana – bütün şərait olacaqdır. Bundan başqa, Asiya İnkişaf Bankı ilə bərabər, Ağdaşın su-kanalizasiya problemləri həll olunmağa başlayıbdır. Bu da böyük layihədir. Böyük vəsait tələb edən layihədir. O da sudur, yəni insanların sağlamlığıdır. Demək olar ki, bütün bölgələrdə belə işlər gedir və ölkəmiz ona görə dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir.

* * *

*Prezident İlham Əliyev məktəbdəki Habil Əliyev Muzeyinə baxdı. Burada görkəmli sənətkarın büstü qoyulmuşdur. Muzeyin ən qiymətli eksponatları arasında Habil Əliyevin vaxtilə ulu öndər Heydər Əliyevlə, prezident İlham Əliyevlə, həmçinin Heydər Əliyev Fondunun kamança ustadına və bütövlükdə musiqi mədəniyyətimizə göstərdiyi qayğını əks etdirən şəkillər vardır. Burada fondun muzeyə bağışladığı hədiyyələr, rəmzi kamança maketi, disklər, Habil Əliyev haqqında kitab, «Muğam ensiklopediyası», «Ustad xanəndələr», «Qarabağ xanəndələri», «Muğam dəstgahları» və «Gənc xanəndələr» albomları vardır. Muzeydə, həmçinin Xalq artistinin çoxsaylı təltifləri və digər maraqlı eksponatlar da saxlanılır.*

*Prezident İlham Əliyev məktəbdə təlim prosesi ilə tanış oldu, konsert salonunda məktəbin ansamblının ifasında dahi Üzeyir Hacıbəylinin «Koroğlu» operasından bir parçanı dinlədi.*

## Yeni su xəttinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 12-də Ağdaş şəhərində yeni su xəttinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Ağdaş şəhərinin su təchizatı probleminin həlli məsələsi Asiya İnkişaf Bankının «Azərbaycan Respublikasında kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi»nə daxil edilmişdir.*

*Prezident İlham Əliyev Ağdaş şəhərində suqəbuledici qurğular kompleksi, suyığıcı və təzyiqli su xətləri, şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əks etdirən stendlərlə tanış oldu.*

*«Azərsu» ASC-nin prezidenti Nizaməddin Rzayev məlumat verdi ki, Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırma işləri aparılmışdır. Qəbul edilmiş texniki-iqtisadi əsaslandırmaya əsasən Qolqəti kəndinin ərazisində 5 artezian quyusu qazılaraq, içməli su burada inşa ediləcək anbarlara vurulacaqdır. Anbarlarda xlorlanmış suyu nasos stansiyası iki xətlə şəhərə nəql edəcəkdir. Layihəyə əsasən şəhərin su və kanalizasiya sistemləri yenidən qurulacaqdır. Qaradağlı kəndi ərazisində çirkab sularını təmizləyən qurğu inşa ediləcəkdir. Texniki-iqtisadi əsaslandırmaya görə bu iş üçün xərclərin 75 faizini Asiya İnkişaf Bankı, qalan 25 faizini isə Azərbaycan hökuməti kredit şəklində ödəyəcəkdir. Əhalini yüksək keyfiyyətli içməli su ilə təmin edəcək layihənin 24 ay ərzində reallaşdırılması nəzərdə tutulur.*

*Layihənin birinci mərhələsinin başa çatdırılması nəticəsində 35 min adam içməli su ilə təmin ediləcəkdir.*

*Prezident İlham Əliyev yeni su xəttinin açılışını bildirən düyməni basdı.*

*Akademik Bəkir Nəbiyev diqqət və qayğıya görə ağdaşlıların minnətdarlığını dövlətimizin başçısına çatdırdı.*

**B ə k i r  N ə b i y e v:** Möhtərəm cənab Prezident, Siz bu gün Ağdaşın tarixində ən əlamətdar bir hadisəyə başlanğıc verdiniz. Bizim Ağdaşın girəcəyi Qəbələdən gələndə Türyançayın ağzındakı Dəhnə kəndindən başlayır. «Dəhnə» qədim Azərbaycan dilində subölünən yer deməkdir. Ağdaşa gələn su elə oradan da bölünür.

Rəmzi olaraq üstünə barmağınızı qoyduğunuz bu düymənin vasitəsilə Ağdaş elə bil ki, yenidən canlandı. Bu münasibətlə köhnə bir ağdaşlı kimi, mən Sizə öz minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, Bəkir müəllim. Mən bütün ağdaşlıları təbrik edirəm. Bu gün Ağdaşın həyatında tarixi hadisə baş verir. Yeni su mənbələrinin müəyyən edilməsi və şəhərə çəkilməsi istiqamətində uğurlu işlər görülür. Su həyatdır. Susuz nə insan yaşaya bilər, nə də müəssisə çalışar. Bu məqsədlə ölkə üzrə böyük işlər görülür və müxtəlif layihələr icra olunur. Kür–Araz çayları boyunca yaşayan insanların su ilə təmin edilməsi istiqamətində ayrıca layihələr icra edilir. Orada təmizləyici qurğular tikilir ki, çay suları təmizlənsin və insanlara keyfiyyətli su verilsin. Artıq haradasa 200 mindən çox vətəndaş bu layihənin həyata keçirilməsi nəticəsində təmiz su ilə təmin edilib. Layihə tam başa çatandan sonra bu vaxta qədər çay sularından istifadə edən 800 minə qədər insan təmiz suya malik olacaqlar.

Bu layihələr kimi, artezian quyularının qazılması və yeni müasir sistemin quraşdırılması su və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədini daşıyır. Birinci mərhələ bu gün reallaşıb, ikinci mərhələnin icrası nəticəsində kanalizasiya sistemi də yenidən qurulacaq və beləliklə, Ağdaşın su, kanalizasiya problemləri birdəfəlik həll olunacaqdır. Təmiz ekoloji normalara tam riayət olunacaq və insanlar bundan faydalanacaqlar.

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 12-də Ağdaş Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir. Ağdaş rayon ictimaiyyətinin nümayəndələri və idmançılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və kompleks ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizdə sayca 25-ci olan Ağdaş Olimpiya İdman Kompleksinin inşasına 2006-cı ildə başlanılmışdır.Ümumi ərazisi 5,5 hektar olan Olimpiya İdman Kompleksi əsas bina, üzgüçülük hovuzu, mini futbol stadionu, voleybol və basketbol meydançaları, tennis kortu, hər biri 8 nəfərlik 3 kottecdən və digər yardımçı binalardan ibarətdir. Örtülü idman meydançası olan əsas bina iki-mərtəbəlidir. Binanın daxilindəki 1020 tamaşaçı yeri olan idman meydançasının sahəsi 2484 kvadratmetrdir. Bu meydançada voleybol, basketbol, həndbol, güləş, boks yarışları keçiriləcəkdir. Binanın daxilində 4 məşq, bilyard, stolüstü tennis zalları, soyunub-geyinmə, hakim otaqları, bufet, duş və sair xidmət obyektləri vardır.*

*Prezident İlham Əliyev idmançıların çıxışlarını izlədi və kompleksin ərazisini gəzdi.*

## AĞDAŞ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 fevral 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev Olimpiya İdman Kompleksinin açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Mən Ağdaşda gözəl, yeni, müasir Olimpiya İdman Kompleksinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, cavanlar, gənclər, idmançılar bu gözəl şəraitdən səmərəli istifadə etsinlər və Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırsınlar.

Düzdür, vaxt bir az çox çəkdi, çünki burada texniki məsələlər bir qədər çətin idi. Ona görə də xüsusi tədbirlər görüldü. Xüsusi texniki məsələlər öz həllini tapmalı idi. Mən xatırlayıram, 5 il əvvəl Ağdaşda olarkən mənə müraciət edildi ki, Ağdaşda yeni olimpiya kompleksinin tikintisinə böyük ehtiyac vardır. Ağdaş Azərbaycanın idman şöhrətinin ucaldılması üçün gözəl idmançılar yetişdirir. Xüsusilə Xəzər İsayev kimi dünya çempionu. Bu gün o, Milli Olimpiya Komitəsinin vitse-prezidenti kimi, çox gözəl işlər görür. O vaxt qərara gəldik ki, mütləq Ağdaşda belə gözəl olimpiya mərkəzi yaradılsın, təkcə idmançılar üçün deyil, rayon sakinləri üçün də yararlı olsun. Bu gün gözəl Mərkəzin açılışında biz yenidən görüşürük. Mən bu hadisə münasibətilə sizi təbrik edirəm.

Azərbaycanda idman sahəsində görülən işlər yüksək səviyyədədir. Azərbaycan idman ölkəsi kimi, öz adını idman tarixinə yazıb. Həm beynəlxalq yarışlarda, Olimpiya oyunlarında, həm də dünya çempionatlarında. İdmanın kütləviliyini təmin etmək üçün mütləq belə gözəl imkanlar yaradılmalıdır. Bu gün Azərbaycanın müxtəlif bölgələrində idmanla məşğul

olmaq üçün yaxşı şərait vardır. İdman sağlamlıq, sağlam həyat tərzi deməkdir. İdman gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox mühüm vasitədir, mühüm amildir. Ağdaşda bir müddət əvvəl istifadəyə verilmiş musiqi məktəbinin fəaliyyəti ilə də bu gün tanış oldum. Orada gənclərimiz, uşaqlarımız milli ruhda tərbiyə olunacaqlar, milli musiqi mədəniyyətimizi dərindən öyrənəcəklər, ölməz musiqi əsərlərimizi yaşadacaqlar. Ağdaşın su təchizatını təmin etmək üçün birinci mərhələnin açılışını qeyd etdik. Ağdaşa artıq təmiz içməli suyun verilməsi təşkil ediləcəkdir. İkinci mərhələnin başa çatması nəticəsində su-kanalizasiya sistemi tamamilə yenidən qurulacaqdır. Bu da hər bir insan üçün çox vacib məsələdir. Bu gün Ağdaşda tikiləcək yeni müasir, böyük xəstəxananın təməl daşı qoyulacaqdır. Bu da rayonun tələbatını təmin etmək üçün çox vacib məsələdir. Yeni yarımstansiya istifadəyə veriləcəkdir.

Növbəti illərdə bizim gələcək planlarımız da icra olunacaqdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı 2004–2008-ci illərdə tam başa çatıb. Biz yeni proqramın icrası üzərində işləyirik. Regionların gələcək inkişafının təminatı – həm maliyyə, həm texniki təminatı tam təşkil edilibdir. İnfrastruktur layihələri, sosial obyektlər, məktəblər, xəstəxanalar. Hər bir bölgə üçün xüsusi, konkret plan vardır və biz bu plan əsasında irəliyə gedirik.

Son illər ərzində Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkə olubdur. Baxmayaraq ki, 2009-cu il dünyada böhran ili olmuşdur və bu bizə də təsir etmişdir. Amma yenə də Azərbaycan iqtisadi inkişafına görə dünya miqyasında birinci ölkə olubdur. Bunun səbəbi bizim apardığımız islahatlar, düşünülmüş siyasət, vaxtında atılmış addımlar və ölkəmizin hərtərəfli inkişafıdır. Əgər biz ancaq iqtisadiyyatımızın bir sektoruna üstünlük verib başqa sahələri kənarda qoysaydıq, bu gün inkişafdan söhbət gedə bilməzdi. Mənə bu yaxınlarda verilən məlumata görə, hətta 2010-cu ildə də Azərbaycan iqtisadiyyatı ən sürətli templərlə artır və bu da bizi, əlbəttə ki, sevindirir. Biz bu inkişafı statistik göstəricilərdə, gündəlik həyatda görürük.

Görülən işlər bunun bariz nümunəsidir. Mən çox şadam ki, Ağdaşda işlər yaxşı gedir, gözəl obyektlər istifadəyə verilir. Əminəm ki, növbəti illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsinin icrası nəticəsində sosial-iqtisadi məsələlər öz həllini tapacaqdır. Bu proqramın 2013-cü ildə başa çatması nəzərdə tutulur.

Biz sizinlə bundan sonra da görüşəcəyik. Ağdaşda gözəl açılışlar hələ çox olacaqdır. Mən sizi bu sevindirici hadisələr münasibətilə bir daha təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

*Ağdaş ictimaiyyəti adından çıxış edən Şəhla Hacıbalayeva ölkənin bütün regionlarına olduğu kimi, bu rayona da göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür etdi.*

**Şəhla Hacıbalayeva:** Ağdaşa xoş gəlmisiniz, möhtərəm cənab Prezident! Bu gün təntənəli açılışına yığışdığımız möhtəşəm Olimpiya İdman Kompleksi sizin ağdaşlılara bəxş etdiyiniz növbəti hədiyyədir. Bu idman kompleksində uşaqlarımızın daha sağlam böyüməsi üçün mühüm işlər görüləcəkdir. Sağlam insanlar yetişməlidir, xəstəxanalar tikilir. Gələcəyimiz üçün savadlı balalarımız böyüməlidir, yeni-yeni məktəblər öz qapılarını övladlarımızın üzünə açır. İnsanlarımızın normal yaşamaları üçün hər bir şərait yaradılmalıdır, içməli su xətləri çəkilir, yollar salınır, qaz, enerji – insanların gündəlik tələbatı üçün lazım olan hər bir şərait yaradılır. Bütün bunlara görə Sizə ürəkdən təşəkkür edirik.

Möhtərəm cənab Prezident, bu gün Sizinlə çiyin-çiyinə fəaliyyət göstərən Mehriban xanımın adı bir şəfqət, bir xeyirxahlıq rəmzi kimi səslənir. Onun təşəbbüsü ilə tikilən məktəb binalarında oxuyan övladlarımızın təhsilində və gələcək uğurlarında Mehriban xanımın öz rolu, öz dəst-xətti vardır. Möhtərəm cənab Prezident, fəaliyyət göstərdiyim texniki-təbiət-humanitar təmayüllü gimnaziyanın həyata ikinci dəfə vəsiqə alması da məhz Mehriban xanımın adı ilə bağlıdır. Onun təşəbbüsü ilə təmir edilmiş və internat şagirdlərinin ixtiyarına verilmiş bu məktəb indi regionda analoqu olmayan gimnaziyaya çevrilmişdir.

Möhtərəm cənab Prezident, Sizə, Mehriban xanıma, ailənizin bütün üzvlərinə Allahdan möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, səadət, işlərinizdə isə uğurlar, uğurlar yenə də uğurlar arzu edirəm. Tanrı Sizi qorusun!

## Mərkəzi Rayon Xəstəxanasının yeni binasının təməlqoyma mərasimi

*Prezident İlham Əliyev fevralın 12-də Ağdaşda Mərkəzi Rayon Xəstəxanasının yeni binasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, ölkəmizin səhiyyə sektorunda aparılan islahatlar çərçivəsində inşa olunacaq 100 çarpayılıq yeni mərkəzi rayon xəstəxanası üçün Ağdaş şəhərinin girişində 5,3 hektar torpaq sahəsi ayrılmışdır. Tikintinin ümumi sahəsi 22 min 500 kvadratmetrdir. Xəstəxana kompleksi 6 korpusdan ibarət olacaqdır. 2 ilə istifadəyə verilməsi nəzərdə tutulan binanın ətrafında abadlıq işləri aparılacaq və yaşıllıq zolaqları salınacaqdır. Layihədə ayrıca nasosxana, qazanxana, generator, transformator, mühafizə üçün binalar və su anbarının tikilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev gilizi özülə buraxdı, beton qarışığı tökdü.*

*Dövlətimizin başçısının adından xəstəxanaya 2 təcili tibbi yardım maşını hədiyyə edildi.*

## Regional elektrik yarımstansiyasının təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 12-də Ağdaşda regional elektrik yarımstansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Mərasim iştirakçıları və inşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə Mingəçevir–Abşeron enerji təminatının yenidən qurulması layihəsi çərçivəsində Ağdaş rayonunun Kükəl kəndi ərazisində 220/110 kv-luq 2x125 MVA gücündə regional elektrik yarımstansiyasının tikintisi nəzərdə tutulmuşdur. Yarımstansiyanın tikintisi üçün 15 hektar torpaq sahəsi ayrılmışdır. Tikinti-quraşdırma işlərinin 15 ay ərzində başa çatması nəzərdə tutulmuşdur. Layihə çərçivəsində 125 MVA-lıq iki transformator yarımstansiyası qurulacaq, Mingəçevir–Abşeron xətti üzrə 251 kilometr uzunluğunda elektrik xətti dəyişdiriləcəkdir.*

*Tikinti işlərinə yanvarın əvvəlində başlanılmışdır. Ərazi abadlaşdırılmış, ətrafı hasarlanmış, 3 minə yaxın ağac əkilmiş, işıqlandırma xətti çəkilmiş, obyektə gedən yola asfalt döşənmişdir.*

*Prezident İlham Əliyev gilizi özülə buraxdı və beton qarışığının tökülməsi üçün düyməni basdı, inşaatçılara uğurlar arzuladı.*

*Bununla da dövlətimizin başçısının Ağdaş rayonuna səfəri başa çatdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÖYÇAY RAYONUNA SƏFƏRİ

*12 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Ağdaşdan Göyçay rayonuna gəlmişdir.*

*Son illər respublikamızda aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində Göyçay rayonunun da siması tamamilə dəyişmişdir. Respublikamızın inkişafında mühüm rol oynayan Göyçay rayonu Azərbaycanın sosial-iqtisadi tərəqqisinə layiqli töhfələr verir. Təsadüfi deyildir ki, 2009-cu ildə burada 138,7 milyon manatlıq ümumi məhsul istehsal edilmişdir. Bu, əvvəlki illə müqayisədə 11,8 faiz çoxdur. Ötən il rayonda mövcud olan güclü sənaye potensialından daha səmərəli istifadə edilmiş, əhalinin güzəranı yaxşılaşdırılmışdır. Son 5 ildə Göyçayda 6 745 yeni iş yeri açılmışdır.*

*Rayonda aparılan genişmiqyaslı yenidənqurma və abadlıq işlərində Heydər Əliyev Fondu yaxından iştirak edir.*

*Cari ildə «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda Göyçay rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin icrası davam etdiriləcəkdir. «Ekologiya ili» çərçivəsində hər yerdə yaşıllaşdırma kampaniyası həyata keçirilir. Göyçayda cari ildə 50 min ağacın əkilməsi nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Göyçay şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Fevralın 12-də prezident İlham Əliyev Göyçay şəhərində Heydər Əliyev Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin yerləşdiyi əraziyə baxdı. Burada yaşıllıqlar salınmış, dekorativ kollar və ağaclar əkilmiş, fəvvarələr quraşdırılmışdır. Heydər Əliyev Mərkəzinin qarşısında uzunluğu 40 metr, hündürlüyü 6 metr olan şəlalə-fəvvarə kompleksi yaradılmışdır. Belə bir kompleks respublikamızda hələlik yeganədir. Şəlalənin divarlarında yandırılmış keramik üzlükdə boya ilə dövlət atributları, rayonun müxtəlif mənzərələri, artıq ənənəyə çevrilmiş Nar bayramının təsvirləri və Göyçayda son 5 ildə inşa olunan tikililərin şəkilləri əks olunmuşdur. Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, Mərkəzlə tanış oldu.*

*Məlumat verildi ki, klassik memarlıq üslubunda tikilən və ümumi sahəsi şəlalə kompleksi ilə birlikdə 1,5 hektar olan Heydər Əliyev Mərkəzinin inşasına 2009-cu ildə başlanılmışdır. Birinci mərtəbədə ümummilli liderin həyat və fəaliyyətini, ulu öndərin 1978-ci ildə Göyçaya səfəri zamanı rayon ictimaiyyəti ilə keçirdiyi görüşləri əks etdirən fotoguşə yaradılmışdır. Burada quraşdırılmış monitorlar vasitəsilə ümummilli liderin siyasi fəaliyyətindən bəhs edən videogörüntülər nümayiş olunur. Mərkəzdə xalqımızın xilaskar oğlunun dünyanın bir sıra ölkələrində ucaldılan abidələrini əks etdirən fotoguşə də yaradılmışdır. Burada 3 virtual sinif, 24 nəfərlik konfrans zalı, kompyuterlərlə təchiz olunan xarici dil dərnəyi, elektron idarəetmə mərkəzi və ən müasir xidməti otaqlar fəaliyyət göstərir.*

*Binanın ikinci mərtəbəsində şagirdlərin Azərbaycanın ədəbiyyatını və zəngin tarixini dərindən mənimsəmələrinə kömək məqsədi ilə xüsusi dərnəklər təşkil edilmişdir. Burada elektron idarəetmə otağı, kitabxana, multimedia otağı, elektron kitabxana vardır. Mərkəzdə rəsm və şahmat dərnəkləri də fəaliyyət göstərəcəkdir. 310 yerlik böyük iclas zalı respublika və*

*rayon əhəmiyyətli mötəbər tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuşdur. Zalda quraşdırılmış ən müasir avadanlıqlar vasitəsilə sinxron tərcümə və izahlı beynəlxalq konfransların keçirilməsi mümkündür.*

*Prezident İlham Əliyev Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı, görülmüş işləri yüksək qiymətləndirdi. Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinə toplaşmış rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m Ə l i y e v:** Əziz göyçaylılar, bu gözəl Mərkəzin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Heydər Əliyev Mərkəzinin binası çox möhtəşəm memarlıq abidəsidir. Göyçaya əlavə yaraşıq verən gözəl, yeni bir memarlıq nümunəsidir. Həm xarici görünüşü gözəldir, həm də daxili tərtibatı yüksək səviyyədədir. Bu binada həm rəsmi tədbirlər keçirmək, həm də müxtəlif sahələr üzrə dərnəklər təşkil etmək mümkün olacaqdır. Mən istəyirəm ki, bu Mərkəzin fəaliyyəti uğurlu olsun və Göyçay ictimaiyyəti bu gözəl imkanlardan səmərəli şəkildə istifadə etsin.

Mərkəzin bir hissəsi ulu öndərin həyat və fəaliyyətinə həsr edilibdir. Sərgilənən şəkillər, eksponatlar, demək olar ki, müasir Azərbaycanın tarixini əks etdirir. Bugünkü Azərbaycanın uğurlu inkişafının təməli məhz keçən əsrin 70-ci illərinin əvvəllərində qoyulubdur. O vaxta qədər Azərbaycan Sovet İttifaqı tərkibində ən geridə qalmış respublika idi. Azərbaycanı tanımırdılar, ölkənin sənaye potensialı yox idi. Respublikanın perspektivləri də o qədər aydın deyildi. 70-ci illərdən başlayaraq Heydər Əliyevin zəhməti hesabına Azərbaycan dirçəldi, inkişaf etdi. 13-14 il ərzində Azərbaycan o vaxt Sovet İttifaqının tərkibində ən inkişaf etmiş respublikaya çevrildi. O vaxt cəmi iki respublika özünü təmin edə bilirdi. Onlardan biri də Azərbaycan idi. Yəni ulu öndərin bütün dövrlərdəki fəaliyyəti xalqa xidmət etməkdən ibarət olmuşdur.

Əfsuslar olsun ki, xalqımız üçün ən çətin anlarda, Sovet İttifaqının dağılması ərəfəsində ölkəyə rəhbərlik etmiş insanlar öz vəzifə borclarını lazımi səviyyədə yerinə yetirə bilməmişlər.

Azərbaycan çox ağır vəziyyətlə üzləşmişdi. Bütün iqtisadiyyat dağılmışdı, sənaye potensialı məhv edilmişdi, ölkədə hərc-mərclik, xaos, anarxiya, vətəndaş müharibəsi... Yenə də Azərbaycan xalqı öz rəhbərinə üz tutdu, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycan bütün çətin sınaqlardan uğurla çıxa bilmişdir. Həm vətəndaş müharibəsi dayandı, həm iqtisadi tənəzzülün qarşısı alındı, həm də inkişaf yoluna qədəm qoyduq. 10 il ərzində, demək olar ki, ölkəmiz öz siyasi və iqtisadi potensialının gücləndirilməsi nəticəsində dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkəyə çevrildi.

2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti davam etdirilir. Bu bizim uğurlarımızın əsas şərtidir, əsas amilidir. Son 6 ildə Azərbaycan böyük və uğurlu yol keçmişdir. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkədir, öz problemlərini özü həll etməyə qadir olan ölkədir. Biz heç bir xarici yardıma möhtac deyilik.

Bu gün nəinki MDB məkanında, hətta Avropada elə ölkələr var ki, dərin böhran içindədirlər. Bu böhran hamımız üçün bir sınaq olmuşdur. Azərbaycan öz hesabına, öz xalqının zəhməti ilə, aparılan düşünülmüş siyasətlə, islahatlarla bu sınaqdan şərəflə çıxdı. 2009-cu il gözəl bir göstərici ili olmuşdur –kim nəyə qadirdir, kim öz hesabına yaşaya bilər, kim uğurla inkişaf edə bilər, kim ancaq xaricdən gələn yardımlar hesabına öz imkanlarını təmin edə bilər. Biz o nadir ölkələrdənik ki, öz hesabımıza yaşayırıq və yaxşı da yaşayırıq.

2009-cu ildə nəzərdə tutulmuş bütün layihələr icra edildi – həm sosial, həm iqtisadi, həm sənaye layihələri. Məktəblər, xəstəxanalar tikildi, yollar çəkildi, elektrik stansiyaları istifadəyə verildi. 2009-cu ildə Azərbaycan vətəndaşları, demək olar ki, bu böhranın acı nəticələrini görmədilər. Əminəm ki, heç vaxt görməyəcəklər. Ölkəmiz üçün ağır illər arxada qaldı. 2009-cu ildə dünya miqyasında ən sürətlə inkişaf edən ölkə Azərbaycan olmuşdur. Bunu biz nə enerji resurslarının, nə də xarici yardımların hesabına etməmişik. Biz başqa imkanlarımızı

da səfərbər etdik, bütün resursları cəmləşdirə bildik. Nəticədə aparılan islahatlar öz bəhrəsini verdi, regionların inkişafı davam etdi.

2010-cu ilin birinci ayının yekunları da çox ümidvericidir. Yenə də Azərbaycan dünya miqyasında birinci sıradadır. İqtisadiyyatımız bu ilin birinci ayında 9 faizdən çox artıbdır. Bu iqtisadi rəqəmlər bizi çox sevindirir. Bu hər bir ölkənin inkişafını təmin edən və göstərən vacib rəqəmlərdir. Yoxsulluğun azaldılması sahəsində böyük yol keçmişik. Artıq Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı, haradasa 11 faizdir. Bu, dünyanın inkişaf etmiş ölkələri üçün də məqbul rəqəmdir. Biz çalışmalıyıq ki, yoxsulluğu maksimum dərəcədə aşağı salaq, işsizliyi aradan qaldıraq, bütün vətəndaşlar işlə təmin olunsunlar. Hər bir insanın normal yaşaması üçün şərait yaradılmalıdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsi uğurla icra edilir. Əminəm ki, biz 2013-cü ilə qədər bu proqramın uğurlu icrasına nail olacağıq.

Bütün bölgələrdə abadlıq, quruculuq işləri aparılır, gözəl binalar tikilir. Biz Azərbaycanın son illərdəki uğurlarını Göyçay rayonunun timsalında da bariz şəkildə görə bilərik. Göyçayın iqtisadi potensialı 2003–2008-ci illərdə 3 dəfədən çox artıbdır. Bu gün biz Göyçayda yeni olimpiya kompleksinin açılışını qeyd edəcəyik. Ondan əlavə, rayonun su təchizatını təmin etmək üçün artıq konkret tədbirlər görülübdür və görüləcəkdir. Göyçayı təmiz içməli su ilə təmin etmək məqsədilə kanalizasiya sisteminin yaradılması üçün bütün tədbirlər görülür. Göyçayda bu gün kiçik su elektrik stansiyasının təməl daşı qoyulacaqdır. Bu da ölkəmiz üçün çox vacib sahədir. Çünki bərpa olunan enerji növlərinin Azərbaycanda genişləndirilməsi artıq prioritet məsələ kimi Prezident tərəfindən qoyulub və mən çox istəyirəm ki, ən yaxın vaxtda mümkün olan yerlərdə, çaylarda kiçik su elektrik stansiyaları qurulsun. Biz həm yeni enerji mənbələrini işə salacağıq, həm də böyük iqtisadi qənaət əldə edəcəyik.

Göyçay rayonunun çox böyük potensialı vardır. Kənd təsərrüfatının, digər sahələrin, emal sahələrinin inkişafı üçün

lazımi tədbirlər görülür. Əminəm ki, Göyçayın uğurlu inkişafı növbəti illərdə davam edəcəkdir. Bu işlərdə sizə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, rayonda bütün işlər yüksək səviyyədə aparılsın. Bir daha bu gözəl, möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışı münasibətilə sizi təbrik edirəm.

* * *

*Rayon ictimaiyyətinin nümayəndələri adından çıxış edən Aqil Məmmədov Göyçayda aparılan yenidənqurma və abadlıq işlərinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

**A q i l  M ə m m ə d o v:** Cənab Prezident! Göyçaya xoş gəlmisiniz! Biz bu gün Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin xatirəsinə göyçaylıların dərin məhəbbətlə, hörmətlə ucaltdıqları möhtəşəm Mərkəzin açılışında iştirak edirik. Siz Heydər Əliyev ideyalarını inkişaf etdirən, davam etdirən, ölkəmizi iqtisadi qüdrətə çatdıran bir insansınız. Sizin bu gün sevincimizə şərik olmağınız bizi sevindirir, daha da ruhlandırır. Minnətdarıq ki, Siz bu gün bizimləsiniz. Bütün göyçaylılar bundan qürur hissi duyur.

Hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əliyev özünün müdrik siyasəti, qətiyyəti sayəsində Azərbaycanın bugünkü inkişafının təməl daşını, bünövrəsini qoyub. Azərbaycanın bugünkü rifahının əsası məhz ulu öndərimiz tərəfindən qoyulmuşdur. Siz isə onu inkişaf etdirirsiniz, daha yüksəklərə qaldırırsınız. Sizə ürəkdən minnətdarıq.

Bu mötəbər Mərkəzin açılışında biz Azərbaycan mədəniyyətinin, elminin, təhsilinin inkişafında misilsiz xidmətləri olan Heydər Əliyev Fondunun, fondun prezidenti, millət vəkili, möhtərəm Mehriban xanımın yorulmaz əməyini xüsusi qeyd edirik. Biz xahiş edirik, göyçaylılar adından bizim hörmət və ehtiramımızı Mehriban xanıma çatdırasınız.

Hörmətli cənab Prezident, bu gün Sizin fəaliyyətiniz, ölkəmizdə gedən bütün quruculuq işləri bizdə ümid yaradır ki, Azərbaycan öz inkişaf templərinə görə hələ uzun illər dünyanın ən qabaqcıl ölkələri sırasında olacaqdır. Sizin adınıza Göyçayda çox abidələr ucaltmaq olar, amma onun ən möhtəşəmini,

hörmətli Prezident, Siz artıq bu gün göyçaylıların qəlbində ucaltmısınız. Sizə minnətdarıq.

## Su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanışlıq

*Prezident İlham Əliyev fevralın 12-də Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısını inşaatçılar hərarətlə qarşıladılar.*

*Bildirildi ki, Göyçay şəhərinin su təchizatı probleminin həlli Asiya İnkişaf Bankının «Azərbaycan Respublikasında kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi»nə daxil edilmişdir. Layihənin həyata keçirilməsi nəticəsində şəhər əhalisi keyfiyyətli içməli su ilə təmin ediləcək, bütün ərazi kanalizasiya şəbəkəsi ilə əhatə olunacaqdır.*

*Prezident İlham Əliyev Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinə, həmçinin su təchizatı sisteminin mənbəyinə və baş sxeminə baxdı.*

*«Azərsu» ASC-nin prezidenti Nizaməddin Rzayev dövlətimizin başçısına məlumat verdi ki, Potu kəndinin ərazisində 7 artezian quyusu qazılacaqdır. Çıxarılan içməli su bu ərazidə inşa edilən anbarlara yığılaraq, nasos stansiyasından şəhər ərazisindən keçən iki xətlə yüksəkliklərdə tikilən və hər birinin 2 min ton tutumu olan anbarlara vurulacaqdır. Sonra içməli su xlorlanaraq, öz axarı ilə şəhərin bütün ərazisinə paylanacaqdır.*

*Prezident İlham Əliyev artezian quyularından çıxarılaraq şəhərin şimal hissəsindəki yüksəkliklərdə yerləşən anbara vurulacaq içməli su kəmərini işə saldı.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Prezident İlham Əliyev fevralın 12-də Göyçay Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Azərbaycanda idman hərəkatının geniş vüsət aldığı bir vaxtda bölgələrdə olimpiya idman komplekslərinin inşası xüsusi əhəmiyyət daşıyır. Son illər Göyçayda da inşa olunan infrastruktur obyektləri sırasında Olimpiya İdman Kompleksi vardır. Burada müxtəlif idman növləri ilə məşğul olmaq üçün hər cür şərait yaradılmışdır. Kompleksdə ən yüksək səviyyəli yarışlar keçirmək mümkündür. Burada stolüstü tennis və bilyard zalları, habelə konfrans zalı yerləşir. Üzgüçülük hovuzunun inzibati binası da müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25, eni isə 15 metrdir. Burada sauna və digər yardımçı otaqlar da vardır. İkinci mərtəbədə isə istirahət otağı, hakim və məşqçi otaqları yaradılmışdır.*

*Göyçaylı idmançılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Dövlət başçısı rəmzi açılışı bildirən lenti kəsdi və idmançıları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Göyçayda Olimpiya İdman Kompleksinin açılışı münasibətilə sizi təbrik edirəm. Kompleksdə idmançılar üçün yaxşı şərait yaratmışıq. Gərək idmançılar da öz güclərini göstərsinlər. Belə gözəl şəraitdə gərək gözəl nəticələr olsun.

*Prezident İlham Əliyev müasir avadanlıqla təchiz edilmiş trenajor zallarında, 635 tamaşaçı yeri olan böyük zalda yaradılmış şəraitlə tanış oldu və idmançıların nümunəvi çıxışlarına baxdı.*

*Dövlətimizin başçısı daha sonra kompleksin ərazisi ilə tanış oldu. Ətrafda geniş abadlıq və yaşıllaşdırma işləri görülmüşdür.*

*Azərbaycan prezidenti kompleksdə görülən işləri yüksək qiymətləndirdi.*

## «Göyçay-1» Su Elektrik Stansiyasının təməlqoyma mərasimi

*Prezident İlham Əliyev fevralın 12-də «Göyçay-1» Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Son illər ölkəmizin enerjiyə olan tələbatının tam şəkildə ödənilməsi istiqamətində atılan mühüm addımlardan biri də bölgələrdə, rayon və kəndlərdə yeni elektrik stansiyalarının tikilməsidir. Bu baxımdan rayon və kəndlərdə inşa olunan kiçik su elektrik stansiyaları mühüm əhəmiyyət kəsb edir. Bu stansiyalardan biri də Göyçay rayonunun Bığır kəndinin ərazisindən keçən Yuxarı Şirvan kanalı üzərində tikiləcək müasir tipli su elektrik stansiyasıdır.*

*Prezident İlham Əliyev Bığır kəndindəki «Göyçay-1» Su Elektrik Stansiyasının tikiləcəyi əraziyə gəldi.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, inşa olunacaq «Göyçay-1» Su Elektrik Stansiyasının ərazisi 4 hektardır. Üç meqavat/amper gücündə olacaq stansiyada birmərtəbəli inzibati bina və üç turbindən ibarət maşın zalı inşa ediləcəkdir. Hər turbinin gücü 1 MVA yaxın olacaqdır.*

*Dövlətimizin başçısı stansiyanın prinsipial sxeminə və yaxın gələcəkdə tikilməsi planlaşdırılan kiçik su elektrik stansiyalarının yerləşmə xəritəsinə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ümumilikdə ölkə ərazisində 7 zona üzrə 235 kiçik su elektrik stansiyasının inşası nəzərdə tutulmuşdur. Bu da ölkədə elektrik enerjisi ilə bağlı vəziyyətin daha da yaxşılaşdırılmasına imkan verəcəkdir.*

*Prezident İlham Əliyev gilizi özülə buraxdı, beton qarışığını tökdü.*

* * *

*Bununla da prezident İlham Əliyevin Ağdaş və Göyçay rayonlarına səfəri başa çatdı.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ KANAT SAUDABAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Qazaxıstanın Dövlət katibi–Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Kanat Saudabayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısının Qazaxıstanın Dövlət katibi–Xarici İşlər naziri Kanat Saudabayev ilə görüşü oldu. Qazaxıstanın ATƏT-ə sədrliyini əlamətdar hadisə kimi dəyərləndirən prezident İlham Əliyev bu münasibətlə təbriklərini çatdırdı. Dövlətimizin başçısı Qazaxıstanın ATƏT-ə sədrlik edəcəyi 2010-cu ildə müsbət istiqamətdə ciddi dəyişikliklər olacağına əminliyini bildirdi.*

*Kanat Saudabayev Qazaxıstanın ATƏT-ə sədr seçilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Bakıda keçirdiyi görüşlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Sonra görüş geniş tərkibdə davam etdirildi.*

*ATƏT-ə rəhbərliyin mühüm missiya olduğunu vurğulayan prezident İlham Əliyev Qazaxıstanın sədrliyi dövründə ATƏT-in Avropada təhlükəsizliyin möhkəmlənməsi işində əsaslı və müsbət irəliləyişlərə nail olunacağına əminliyini bildirdi. Dövlətimizin başçısı Qazaxıstanın ATƏT-ə sədrlik edən ölkə kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işində fəal surətdə iştirak edəcəyinə inandığını bildirərək, 2010-cu ildə münaqişənin həll olunması*

*işində ciddi irəliləyişlərə nail olunacağına ümid bəslədiyini dedi. Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişənin həlli və Qafqazda sülhün bərqərar olunması üçün möhkəm siyasi iradənin göstərilməsi və mühüm qərarların qəbul edilməsi vacibdir. Dövlətimizin başçısı ATƏT-in fəaliyyətdə olan sədrinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.*

*Kanat Saudabayev Qazaxıstanın ATƏT-ə sədrliyi dövründə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prioritet məsələlərdən biri olacağını dedi. O, ölkəsinin sədrliyi dövründə bu mürəkkəb problemin həlli ilə bağlı münaqişənin nizamlanmasında iştirak edən bütün tərəflərin proseslərdə səylərinin sürətləndirilməsi işinə təkan vermək niyyətində olduqlarını bildirdi.*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Brüssel şəhəri yaxınlığında baş vermiş ağır dəmiryol qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Belçika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 fevral 2010-cu il*

## DƏNİZKƏNARI MİLLİ PARKDA İNŞA EDİLƏN BAKI BİZNES MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*17 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Dənizkənarı Milli Parkda inşa edilən Bakı Biznes Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev inşaat işlərinin gedişi ilə tanış olmaq üçün obyektə gəldi. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi ki, ümumi sahəsi 4664 kvadratmetr olan üçmərtəbəli binanın 2025 kvadratmetrlik birinci mərtəbəsində sərgi salonu yerləşəcəkdir. Həmçinin iştirakçıların sayı 300 nəfərədək olan müxtəlif tədbirlər, konfranslar təşkil ediləcəkdir.*

*Prezidentə məlumat verildi ki, sahəsi 1721 kvadratmetr olan binanın ikinci mərtəbəsində isə 12 və 50 nəfərlik 3 görüş və konfrans zalları yerləşəcək, 250 yerlik restoran fəaliyyət göstərəcəkdir. Müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılacaqdır. Sahəsi 918 kvadratmetr olan üçüncü mərtəbədə 8 ofis və görüş otaqları vardır.*

*Bakı Biznes Mərkəzi ən müasir tələblərə cavab verən havalandırma sistemi və yanğınsöndürmə avadanlığı ilə təchiz olunmuşdur. Mərkəzin ərazisində Dənizkənarı Milli Parka xüsusi yaraşıq verən fəvvarə də quraşdırılmışdır.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı tikintinin yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

# POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ ALEKSANDR ŞÇIQLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 fevral 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbəri Aleksandr Şçıqlonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Aleksandr Şçıqlo Polşa prezidenti Lex Kaçinskinin salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Görüşdə Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbərinin ölkəmizə səfərinin Azərbaycan ilə Polşa arasında uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi ilə bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığı vurğulandı, dövlət başçılarının qarşılıqlı səfərlərinin və həmçinin ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin regional əməkdaşlıq baxımından önəmi qeyd edildi.*

*Dövlətimizin başçısı Polşa prezidenti Lex Kaçinskinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Polşa dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN EKOLOJİ PROBLEMLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQİ *

*18 fevral 2010-cu il*

Bu il Azərbaycanda «Ekologiya ili» elan edilib. Biz bütün il ərzində və ondan sonrakı illərdə ekoloji məsələlərin həllinə böyük diqqət göstərməliyik. Uzun illərdir ki, Azərbaycanda bu istiqamətdə işlər görülür. Bir müddət əvvəl çoxşaxəli geniş ekoloji proqram qəbul edilmişdir. Proqramda həllini gözləyən vacib məsələlər öz əksini tapıb, konkret icra mexanizmləri də müəyyən edilibdir. Maliyyə resursları haqqında orada kifayət qədər istiqamətlər vardır. Bir sözlə, ekoloji vəziyyətin sağlamlaşdırılması istiqamətində daha da ciddi addımlar atmalıyıq.

Azərbaycan iqtisadiyyatı son illər dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Bunu iqtisadi göstəricilər də əyani şəkildə sübut edir. İqtisadiyyatımız 6 ildə təxminən 3 dəfə artıbdır. Bu, dünyada analoqu olmayan inkişafdır. Hətta bütün dünya üçün ağır olan 2009-cu ildə bizim iqtisadiyyatımız 9,3 faiz artıb. Ümumi daxili məhsulun artması onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlıdır, çoxşaxəlidir və uğurludur.

Bu işlərin təməlində apardığımız islahatlar, ölkəmizin hərtərəfli inkişafı, regionların sosial-iqtisadi inkişafının icrası

---

*Еколожи проблемляря щяср олунмуш мцшавирядя Еколоэийа вя Тябии Сярвятляр назири Щцсейнгулу Баьыров, Бакы Şящяр Иъра Щакимиййятинин башчысы Щаъыбала Абуталыбов вя АРДНШ-ин президенти Рювняг Абдуллайев чыхыш етдиляр.

ilə bağlı görülən tədbirlər, regional proqramın birinci mərhələsinin uğurla başa çatdırılması və Azərbaycanda gözəl investisiya iqliminin yaradılması dayanır. Bu gün Azərbaycanda investisiyalar həm xaricdən daxil edilir, həm də daxili investisiyalar xarici investisiyaları üstələyir. Bu onu göstərir ki, Azərbaycan dövləti və Azərbaycan şirkətləri öz ölkəsinə böyük sərmayə qoyulması istiqamətində önəmli addımlar atırlar.

2009-cu ildə həm beynəlxalq maliyyə qurumları, həm kommersiya bankları, yəni dünyada fəaliyyət göstərən kommersiya bankları müəyyən dərəcədə maliyyə sıxıntıları içində idilər. Buna baxmayaraq, Azərbaycana ayrılan kreditlər, onların məbləği artır. Xarici şirkətlər hətta 2009-cu ildə Azərbaycan iqtisadiyyatına böyük sərmayənin qoyulması istiqamətində vacib addımlar atmışlar. 2009-cu ildə ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün çox vacib sənaye obyektlərinin açılışında iştirak etmişik, çox vacib müəssisələrin təməl daşı qoyulmuşdur.

Görülən işlər konseptual xarakter daşıyır. Olduqca çoxşaxəli proqram üzərində işləyirik. Proqramın əsas vəzifəsi Azərbaycan iqtisadiyyatını gücləndirmək, şaxələndirmək, problemləri həll etmək, insanların sosial problemlərinin həlli üçün vacib addımlar atmaq və ölkəmizin iqtisadi müstəqilliyini gücləndirməkdir. Azərbaycanda sahibkarlığın inkişafı üçün çox gözəl şəraitin yaradılması, əlbəttə, həmişə olduğu kimi, prioritet məsələlərdən biridir.

Son illərdə ölkə qarşısında duran əsas vəzifələr diqqət mərkəzindədir. Çalışırıq ki, ölkəmiz uğurla inkişaf etsin. Energetika sektorunda böyük sərmayələr qoyulubdur. Neft-qaz istehsalı bir neçə dəfə artıbdır, eyni zamanda, Azərbaycan öz ixrac imkanlarını xeyli dərəcədə genişləndirə bilibdir. Bizim neft-qaz sahəsindəki uğurlar bütün dünya tərəfindən tanınır. Azərbaycan özünü etibarlı tərəfdaş kimi, artıq dünyada təsdiq edibdir. Bu gün çoxşaxəli ixrac marşrutlarımız imkan verir ki, təkcə bir marşrutdan asılı olmayaq. Beləliklə, həm iqtisadi, həm siyasi imkanlarımız daha da genişlənir.

Elektrik enerjisinin istehsalı üçün əlavə güclərin yaradılması istiqamətində də çox vacib, konkret addımlar atılmışdır. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi işində də vacib addımlar atılmış, böyük investisiyalar qoyulmuşdur. Bu gün biz özümüzü əsas ərzaq məhsulları ilə, demək olar ki, təmin edirik. Çalışmalıyıq ki, yerli istehsalı daha da artıraq və kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı bütün məsələləri həll edək, yeni bazarlar əldə edək. Beləliklə, kənd təsərrüfatının inkişafını da gələcəkdə təmin etmək üçün lazımi tədbirlər görüləcəkdir.

Gələcək illərdə, xüsusilə regionların və ümumiyyətlə, ölkəmizin sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsinin uğurla başa çatdırılması üçün 2013-cü ilə qədər bütün əsas məsələlər öz həllini tapmalıdır.

Ekologiya məsələlərinə gəldikdə, sirr deyil ki, əsrlər boyu regionumuzda bu məsələlərə ciddi diqqət verilmirdi. Ekoloji tarazlığın bərpa edilməsi, ekoloji tədbirlərin görülməsi, ətraf mühitin qorunması sanki beşinci, onuncu dərəcəli məsələ kimi gündəlikdə dayanırdı. Hətta ekologiya sözü, əvvəlki illərdə o qədər də çox işlədilmirdi. Abşeron yarımadasının torpaqlarının müəyyən hissəsi çirklənibdir. Neft tullantıları ilə çirklənmiş gölməçələr bu gün də bizi narahat edir. Məişət tullantılarının utilizasiyası məsələləri ilə, demək olar ki, ciddi məşğul olmamışıq. Azərbaycanda içməli su problemi bütün dövrlərdə ən ciddi, ən böyük problemlərdən biri idi. Bu gün də bu problem, deyə bilərəm ki, həllini gözləyən əsas problemlərdən biridir. Bütövlükdə ekologiya məsələlərinə bir az ögey münasibət bəslənilirdi. Sovet İttifaqı zamanında daha çox planın icrası məsələləri nəzərdə tutulurdu. Ekoloji tədbirlər ya yarımçıq görülürdü, ya görülmürdü.

Sovet İttifaqına xas olan ümumi meyillərə baxmayaraq, Azərbaycanda ekoloji məsələlərin həlli işinə keçən əsrin 70–80-ci illərində böyük diqqət göstərilirdi. Bu gün Bakının ətrafında gördüyümüz ağaclar, meşəliklər, yaşıllıq zolaqları ulu

öndər Heydər Əliyevin təşəbbüsü, onun şəxsi iştirakı ilə salınmışdır. O illərdə Bakının kanalizasiya probleminin həlli istiqamətində vacib addımlar atılmışdır.

Bu gün ekoloji məsələlərin həlli vacib məsələlərdən biridir. Ona görə yox ki, dünyada bu məsələlərə böyük diqqət göstərilir. Ona görə ki, bu gün Azərbaycan qarşısında həllini gözləyən əsas məsələlərdən biri ekoloji vəziyyətin yaxşılaşdırılmasıdır. Bu istiqamətdə vacib addımlar atılıb, konkret proqram qəbul edilibdir. Bu gün  hesab edirəm ki, biz əlavə tədbirlər haqqında danışmalıyıq. 2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdir. Cəmiyyətimizdə bu təşəbbüs müsbət qarşılanır və görülən tədbirlər əhali tərəfindən, ictimaiyyət tərəfindən dəstəklənir, ağacəkmə kampaniyası və digər vacib məsələlər xalqın iştirakı ilə həyata keçirilir.

Ekologiya tədbirlərinin görülməsi ancaq 2010-cu illə məhdudlaşmamalıdır. Biz bundan sonrakı illərdə bu məsələlərə ciddi diqqət göstərməliyik. Həllini gözləyən əsas məsələlər aydındır. Bu gün biz bu barədə danışacağıq. Ətraf mühitin qorunması, əhalinin içməli su ilə təmin edilməsi – bu istiqamətdə də kompleks tədbirlər görülür. Hansısa bir istiqamətdən söhbət getmir. Burada həm də Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi nəzərdə tutulur. Ümid edirəm ki, bu il bu su kəməri – Bakıya hava-su kimi lazım olan bu kəmər, istifadəyə veriləcək və beləliklə, Bakı əhalisi təmiz içməli su ilə təmin ediləcəkdir. Samur–Abşeron kanalının tikintisi – bu da çox böyük vəsait tələb edən layihədir – uğurla davam edir. Artıq 122 kənddə kiçik təmizləyici modul qurğular quraşdırılıbdır və 220 mindən çox vətəndaş – əvvəllər çay sularından, bulanıq sulardan istifadə edən vətəndaşlar – bu gün təmiz içməli su ilə təmin edilir. Hazırda 60-dan yuxarı kənddə işlər gedir və hesab edirəm ki, bu il, ümumiyyətlə, bu proqram çərçivəsində 350 mindən çox vətəndaş təmiz içməli su ilə təmin ediləcəkdir. Bu proqram bundan sonrakı illərdə də davam etdirilməlidir.

İçməli su ilə bərabər, biz həm də Bakının və ölkəmizin bütün şəhər və rayonlarının kanalizasiya məsələlərini həll etməliyik. Keçən ilin sonunda biz Bakıda Hövsan aerasiya stansiyasının açılışında iştirak etmişdik. Bu çox vacib layihədir. Bu, demək olar ki, Bakının kanalizasiya problemlərinin böyük hissəsini həll edir. Ancaq tam həll etmir. Əlavə tədbirlər planı vardır. Biz bu il və gələn illərdə bu məsələlərə böyük diqqət göstərməliyik ki, Bakının bütün kanalizasiya sistemi yeniləşsin, müasirləşsin, ən yüksək standartlara cavab versin.

Bu gün Azərbaycanda yaşıllaşdırma istiqamətində vacib addımlar atılır, ağacəkmə kampaniyası uğurla davam edir. Qarşıya vəzifə qoyulmuşdu ki, qısa müddət ərzində Bakıda və Abşeron yarımadasında ən azı 3 milyon ağac əkilsin, bütün suvarma işləri təmin edilsin və bu istiqamətdə vacib addımlar atılır. Biz artıq nəticələri görürük. Bakının müxtəlif yerlərində bu çox gözəl mənzərə göz qabağındadır. Əvvəlki illərdə antisanitariya mənbəyi olan aeroport yarmarkası köçürüldü və o boşalan ərazidə böyük meşə zolaqları yaradılır.

Havanın çirklənməsi məsələlərinə böyük diqqət göstərilməlidir. Göstəriş vermişəm ki, biz Azərbaycanda bu istiqamətdə bütün məsələləri Avropa standartlarına uyğunlaşdırmalıyıq. Aldığım məlumata görə, havanın çirklənməsinin 70 faizi avtonəqliyyatın payına düşür. Hesab edirəm ki, nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində biz bu sahədə də Avropa standartlarına çatacağıq. Əlbəttə ki, bu, asan proses deyildir. Çox böyük tədbirlərin görülməsi nəzərdə tutulur. Ancaq biz bunu etməliyik.

Bir sözlə, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox işlər görülməlidir. Konkret fəaliyyət proqramı tərtib edilibdir. Bu gün biz bir daha bütün bu məsələləri təhlil edib, əlavə tədbirlərin görülməsi haqqında qərarlar verəcəyik ki, 2010-cu ildə və ondan sonrakı illərdə bu istiqamətdə ən ciddi addımlar atılsın.

Hava, su, ətraf mühit – bunlar insanın sağlamlığına ən böyük təsir edən amillərdir. Bu istiqamətdə görülmüş işlər sayəsində

xalqımız daha da yaxşı yaşayacaq, sağlam olacaq və Azərbaycan hərtərəfli inkişafını bundan sonra daha da uğurla irəliyə aparacaqdır.

## YEKUN NİTQİ

Mən hesab edirəm ki, müşavirədə iştirak edən bütün vəzifəli şəxslər öz sahələrində ekoloji tədbirlərin gücləndirilməsi işində praktiki addımlar atacaqlar. Bu gün məruzə edilən məsələlər öz həllini gözləyir. Biz diqqətimizi daha da çox həllini gözləyən işlərə yönəltməliyik. Konkret addımların atılması nəticəsində, əminəm ki, burada səslənən və səslənməyən digər vacib məsələlər öz həllini tapacaqdır.

Ekoloji tarazlığın bərpası və bütün istiqamətlərdə vacib addımların atılması nəzərdə tutulur. Onların bəziləri artıq öz həllini tapıb və biz gələcəkdə bu istiqamətlər üzrə daha da böyük işlər görəcəyik. Konkret icra mexanizmləri vardır və biz onları daha da dəqiqləşdirməliyik.

Ağacların əkilməsi və yaşıllıqların yaradılması istiqamətində əlavə tədbirlər görüləcəkdir. 2010-cu ildə həm büdcə vəsaitindən, həm də digər mənbələrdən istifadə edilməlidir. Mən giriş sözümdə qeyd etdim ki, ictimaiyyət geniş mənada bu işlərə çox fəal qoşulmuşdur. Qarşıda qoyulan vəzifə – Bakıda və Abşeronda 3 milyon ağacın əkilməsi proqramı əminəm ki, tezliklə öz həllini tapacaqdır.

Kanalizasiya sularından təkrar istifadə layihəsi işlənilməlidir. Yaxın Şərq ölkələrində və digər ölkələrdə bu təcrübə vardır. Bütün imkanlardan daha səmərəli şəkildə istifadə etməliyik. Damcılı suvarma sisteminə keçməliyik. Çünki iş ağacların əkilməsi ilə bitmir. Əsas məsələ ağaclara qulluq etmək, onları vaxtlı-vaxtında suvarmaq və xidmət göstərməkdir. Mən istəmirəm ki, iş yalnız ağacların əkilməsi ilə məhdudlaşsın. Bir halda ki, bu ağaclar əkilir, ağaclara qulluq edilməlidir və bütün lazımi tədbirlər görülməlidir.

Əhalini içməli su ilə təmin etmək üçün, qeyd olunduğu kimi, kompleks tədbirlər görülür. Oğuz–Qəbələ–Bakı su kəmərinin

tikintisi daha da sürətlə getməlidir. Qeyd etdiyim kimi, bu il kəmər istifadəyə verilməlidir. Modul təmizləyici qurğular nəinki Kür–Araz boyu yerləşən kəndlərdə, digər çaylar üzərində yerləşən kəndlərdə də quraşdırılmalıdır. Bu proses gedir və biz modul qurğuların quraşdırılması ilə böyük sosial məsələnin həllini təşkil edəcəyik. Burada da əsas məsələ ondan ibarətdir ki, bu qurğular istifadəyə veriləndən sonra onlara xidmət göstərilsin. Bu iş hazırda bələdiyyələrə həvalə edilibdir. Mən bütün bələdiyyələrdən tələb edirəm ki, bu işlərə ciddi yanaşsınlar, bu qurğular diqqətsiz qalmasın və onların istismarında bütün lazımi tədbirlər görülsün. Əgər bu qurğulara lazımi xidmət göstərilməsə, onda bir müddətdən sonra onlar sıradan çıxacaqdır.

Kanalizasiya sisteminin yeniləşməsi və yaradılması istiqamətində vacib addımlar atılır. Hövsan aerasiya stansiyası istismara verilmişdir. Bakının kanalizasiya sistemi tam şəkildə yenidən qurulmalıdır. Bu işlər digər şəhər və rayonlarımızda da getməlidir. Azərbaycan bu istiqamətdə beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq edir və biz artıq ilkin layihələrin icrasını da görürük. Bu yaxınlarda Göyçay və Ağdaş rayonlarında olarkən, orada həm içməli suyun verilməsini qeyd etdik, həm də rayonların, rayon mərkəzlərinin içməli su və kanalizasiya sistemi ilə tam şəkildə təmin edilməsi haqqında mənə təqdimat göstərilmişdir. Çalışmalıyıq ki, bu məsələlər tezliklə öz həllini tapsın. Bu gün qeyd etdiyim kimi, əsas ciddi problemimiz içməli su və kanalizasiya problemidir. Əvvəlki illərdə elektrik enerjisi və qazla təminat ən ciddi problemlər sayılırdı. Bu istiqamətdə çox vacib addımlar atılıb. Demək olar ki, problemlərin əsas hissəsi öz həllini tapıb. Bu gün içməli su, kanalizasiya problemləri öz həllini gözləyən problemlərdən biridir.

Kanalizasiya sisteminin quraşdırılması Xəzər dənizinin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına xidmət göstərəcəkdir. Bu istiqamətdə vacib addımlar atılıb. 2 ildir ki, çimərliklərimiz vətəndaşlar üçün açıqdır. Əvvəlki illərdə Səhiyyə Nazirliyi hər

il bahar-yay mövsümlərində açıqlamalar verirdi ki, o çimərlikdən istifadə edilməməlidir, bu çimərlikdə ekoloji vəziyyət bərbaddır. Bakının, demək olar ki, bütün çimərliklərindən insanlarımız istifadə edə bilmirdilər, yaxud da ki, istifadə edirdilər, ancaq bunun ciddi mənfi nəticələri ola bilərdi. Son 2 ildə, demək olar ki, şəhərimizin əsas çimərliklərində ekoloji vəziyyət yaxşıdır, suyun tərkibi təmizdir. Bu proses davam etdirilməlidir.

Bakı buxtasının təmizlənməsi bizim ümumi işimizdir. Bakı buxtası Bakının gözəlliyidir, Bakının tarixidir. Biz bu gözəl sərvəti qorumalıyıq. Əfsuslar olsun ki, hazırda Bakı buxtasında suyun təmizliyi bizi heç cür qane edə bilməz. Ciddi tədbirlərin görülməsi üçün mənim tərəfimdən müvafiq göstərişlər verilmişdir. Ümid edirəm ki, yaxın zamanlarda kompleks tədbirlərin görülməsi nəticəsində Bakı buxtasında suyun təmizliyi lazımi səviyyədə olacaqdır. Bu, asan məsələ deyildir. Onilliklər, əsrlər boyu Bakı buxtası çirkləndirilibdir. Nəinki kanalizasiya axınları Bakı buxtasının ekoloji vəziyyətini ağırlaşdırırdı, neft-qaz əməliyyatları nəticəsində Bakı buxtası neft tullantıları ilə böyük dərəcədə çirklənmişdir.

Ancaq lazımi tədbirlər görülərsə, biz bu məsələnin həllinə də nail ola biləcəyik. Hesab edirəm ki, vacib olan məsələlərdən biri Azərbaycanda heç vaxt sınaqdan keçməmişdir. Ancaq biz nə vaxtsa buna başlamalıyıq və Xəzər suyunun şirinləşdirilməsi, bu sudan suvarma üçün və gələcəkdə içməli su kimi istifadə edilməsi üçün lazımi tədbirlər görülməlidir. Hesab edirəm ki, 2010-cu ildə pilot layihəsi icra edilməlidir. Bu təcrübə başqa ölkələrdə vardır. Yaxın Şərq ölkələrində bu təcrübədən geniş şəkildə istifadə edilir. Biz bu gözəl təcrübəni tətbiq etməliyik. Bizim böyük su mənbəyimiz vardır. Sirr deyil ki, bizi qidalandıran çayların böyük əksəriyyəti ölkəmizdən kənarda formalaşır və biz ekoloji təhlükəsizliyin, su təhlükəsizliyinin təmin edilməsi üçün, əlbəttə ki, Xəzər dənizinin suyundan dediyim məqsədlər üçün də istifadə etməliyik. Əminəm ki, pilot layihəsi uğurlu olacaqdır. Burada heç bir yenilik yoxdur,

müxtəlif ölkələrdə bu təcrübədən istifadə edilir. Düzdür, bahalı bir layihədir. Ancaq insanların sağlamlığı, ekoloji və su təhlükəsizliyinin təmin edilməsi üçün maliyyə problemlərinə baxmamalıyıq, bunu təmin etməliyik. 2010-cu ildə ilkin layihəni görməliyik.

Meşələrin qorunması məsələləri çox böyük əhəmiyyət daşıyır. Bu gün bu barədə deyilmədi, bu məsələyə də çox ciddi diqqət göstərilməlidir. Meşələri qıranlar cəzalandırılmalıdırlar, onlara qarşı ciddi tədbirlər görülməlidir. Azərbaycanda qazlaşdırılma prosesi daha da sürətlə getməlidir. Bu gün Azərbaycanda qazlaşdırılma, demək olar ki, 85 faizdir. Ancaq bu 85 faiz o demək deyil ki, hər bir yaşayış məntəqəsində əhalinin 85 faizi qazla təmin edilir. Bu 85 faizin böyük əksəriyyəti Bakı, Sumqayıt və böyük şəhərlər hesabına formalaşır. Biz elə etməliyik ki, bütün rayonlarda qazın verilməsi təmin edilsin, rayon mərkəzlərinə yaxın olan kəndlərə də qaz xətləri çəkilməlidir. Çalışmalıyıq ki, Azərbaycanda qazlaşdırılmanı ən azı 90 faizə çatdıraq. Beləliklə, biz meşələrin qırılmasına da sədd qoymuş olarıq.

Bakıda məişət tullantıları zavodunun tikintisi başlanılmışdır. Bu, böyük maliyyə vəsaiti tələb edən layihədir. Ancaq Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün əvəzolunmaz rol oynayacaq layihədir. Balaxanı poliqonunda işlər gedir, «Təmiz şəhər» qurumu yaradılmışdır. Növbəti illərdə Balaxanı məişət tullantıları zavodunun istismara verilməsi nəticəsində Bakının havası xeyli təmizlənəcəkdir. Biz artıq bunu görürük, əvvəlki illərdə olduğu kimi, o yerdən tüstü də gəlmir, orada çeşidlənmə aparılır və lazımi tədbirlər görülür ki, biz bu məsələni birdəfəlik həll edək. Paralel olaraq başqa şəhərlərdə də məişət tullantılarının utilizasiyası məsələləri ilə ciddi məşğul olmalıyıq.

Neftlə çirklənmiş ərazilərdə təmizlənmə işləri geniş xarakter daşımalıdır. Bibiheybət buxtasının təmizlənməsi birinci mərhələ idi. Çünki ən acınacaqlı vəziyyət məhz orada idi, şəhərin mərkəzidir, şəhərə girişdir. Bu gün göstərilən fotoşəkillər onu

göstərir ki, hər şeyi etmək mümkündür. Bibiheybət buxtasında neftlə çirklənmiş ərazilərdə görülən işlər başqa sahələrdə də tətbiq edilməlidir. Beləliklə, biz Abşeron yarımadasını neftlə çirklənmiş yerlərdən, gölməçələrdən təmizləyəcəyik.

Torpaqların və göllərin bərpası məsələləri də öz həllini tapmalıdır. Abşeronda, Bakı ətrafında mövcud olan bəzi göllər qurudulmalıdır. Bəzi göllər abadlaşdırılmalıdır, onların suyu təmizlənməlidir və biz insanların istirahəti üçün bu gölləri yaxşı vəziyyətə gətirməliyik. Böyükşor gölü, Zığ gölü, Bülbülə, Hacıhəsən, Qırmızı göl, Masazır, Mirzələvi, Çuxurdərə, Zabrat, Qala, Puta, Daşgil gölləri abadlaşdırılmalıdır. Bu göllərin abadlaşdırılması üçün konkret təkliflər vardır. İndi biz gərək maliyyə mənbələri müəyyən edək ki, bu işləri aparaq. Bu gün Bakının ətrafında çox bərbad mənzərə yaradan, müxtəlif məişət tullantıları, neft tullantıları ilə, digər zəhərli maddələrlə çirklənmiş bu gölləri təmizləyəcəyik.

Atmosfer havasının mühafizəsi üçün ciddi tədbirlər görülür. Verilən məlumata görə, 2000–2008-ci illər ərzində avtomaşınların sayı 423 mindən 823 minə qədər artmışdır. Bu da havanın çirklənməsi üçün əsas amillərdən biridir. Biz avrostandartlara keçməliyik. Bu ildən bu istiqamətdə göstəriş verilib. Biz «Avro-2» və ondan sonra «Avro-3», «Avro-4», «Avro-5» səviyyəsinə çatmalıyıq.

Bərpa olunan enerji növlərinin yaradılması işində ciddi addımlar atılır və bu istiqamətdə artıq ilkin layihələr müzakirə olunur. Azərbaycanda su, günəş, külək enerji növlərinin yaradılması işləri aparılmalıdır, müxtəlif xəritələr var, bütün su mənbələrimiz artıq bəllidir. Bu yaxınlarda Göyçayda kiçik su elektrik stansiyasının təməl daşı qoyulmuşdur və bu proses uğurla davam etdiriləcəkdir. Azərbaycanda ekoloji cəhətdən təmiz enerji növlərinin yaradılmasına nail olacağıq. Son illər Azərbaycanda enerji istehsalı sahəsində aparılan islahatlar nəticəsində mazutdan istifadə etmirik, mazut yandırmırıq. Bütün elektrik stansiyalarımız qazla işləyir və bu həm iqtisadi səmərəliliyi artırır, həm də ekoloji vəziyyəti yaxşılaşdırır.

Çalışmalıyıq ki, bərpa olunan enerji növlərindən istifadə edərək, həm ucuz enerji əldə edək, həm də ekologiyamızı daha da yaxşı qoruyaq.

Əlavə tədbirlərin görülməsi üçün konkret təkliflər vardır. Bu təkliflər bir daha təhlil edilməlidir. Bütün aidiyyəti qurumlar, nazirliklər, dövlət qurumları bir daha bu məsələləri təhlil etməlidir və əlavə tədbirlərin görülməsi üçün konkret plan hazırlanmalıdır, onun maliyyə mənbələri müəyyən edilməlidir. 2010-cu ilin dövlət büdcəsində bu məqsədləri təmin etmək üçün maliyyə resursları vardır. Əgər onlar kifayət etməsə, biz baxmalıyıq, hansı mənbələrdən bu məqsədlər üçün maliyyə dəstəyini artıraq. Texniki imkanlar kifayət qədər vardır. Son illər böyük sayda müxtəlif texnikalar alınmışdır. Əgər əlavə texnikaların alınması üçün ehtiyac olarsa, biz bunu da həll etməliyik. Hər bir layihə üzrə konkret müddət və icra mexanizmləri nəzərdə tutulmalıdır. Bütün proqramlarımız konkret xarakter daşıyır, icra olunur. Bu vaxta qədər bütün istiqamətlərdə işlər konkret proqramlar əsasında görülmüşdür. Bizim siyasətimiz şüar naminə aparılmır, konkret məsələni aşkar edirik, təhlil edirik və həlli üçün konkret addımlar atırıq. Şübhə etmirəm ki, görülən və görüləcək tədbirlər nəticəsində Bakı və Abşeron yarımadasında və ölkəmizin digər yerlərində ekoloji vəziyyət xeyli yaxşılaşdırılacaq. Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar.

Mən artıq bu gün burada səslənən fikirlər və məruzələr əsasında konkret təkliflər gözləyirəm ki, biz onları tezliklə reallaşdıraq. Beləliklə, 2010-cu il Azərbaycan tarixində nəinki «Ekologiya ili» kimi qalacaq, o həm də Azərbaycan tarixinə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dönüş ili kimi yazılacaqdır. Sağ olun.

## QEYDLƏR

**1. Avropa İttifaqı** (Aİ) – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. –
5,256.

**2. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmağa, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-in əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 5.

**3. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 9,10,13,15–20,270.

**4. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 10,102,103, 85,199,269.

**5. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 10,24, 88,103,200,202,204,215,225.

**6. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 10,11,12, 17,19,20,24,67,68,70,88,95,101,102,103,115,16,17,118,141, 158,159,184,185,199,200,201,203,215,225,232,259,260,269, 270,271,272,312,313.

**7. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 10,184,185,196,215,270, 312–313.

**8. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,5 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 10,11,21, 53,85,203,204,205,216,240,259,267,270.

**9. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas

etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 11,12,19,20.

**10. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 11,12.

**11. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 11.

**12. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 15.

**13. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildən erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 15.

**14. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 16,142–46,193,194.

**15. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respubli-

kasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi

vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya

inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 16,33,34,35,36,37–39,46–47,89–90,105,145,172,173,174,186,207,209,211,284,289,302,307,308.

**16. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 18.

**17. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 18.

**18. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan

Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşdur. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin ermənilər İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 18.

**19. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b- l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 23–24,234,253–272.

**20. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 23,24,31,41,77,90,224, 227,231,272.

**21. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci

katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 23,24,31,41,77,90,224,227,231,272.

**22. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 23,24,31,41,77,134,224,227, 231,272.

**23. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 24,226.

**24. Robert Bradtke (d.1949)** – ABŞ diplomatı. 2009-cu ildə ATƏT-in Minsk qrupunun həmsədri olmuşdur. – 24,88, 215, 225.

**25. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon

km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 24,30,88,143,175,215,225,260.

**26. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 24,65–77,88,143,215,225.

**27. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 24,88,215,225.

**28. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,1 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 24,29,31–41,58,64,88,97–104,143,205,208–222,223,224–227.

**29. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 25,26.

**30. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 25.

**31. Rumıniya,** Rumıniya Respublikası – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 27,92.

**32. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. – 27,92.

**33. Tailand,** Tailand Krallığı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 28.

**34. Bhumibol Adulyadej** (1927–2016) – 1950-2016-cı illərdə (faktiki 1946-cı ildən) Tailandin Kralı olmuşdur.. – 28.

**35. Sergey Narışkin** (d.1954) – Rusiyanın dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011-ci ildən 2016-cı ilə qədər Rusiya Federasiyası Dövlət Dumasının sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. – 29,223.

**36. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir.– 53,205,267,272,273.

**37. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 31–40,57,64,226,227.

**38. Ulyanovsk vilayəti** – Rusiyanın Qərbi Avropa hissəsində, Volqa çayının sahilində inzibati ərazi vahidi. Sahəsi 37,3 min km$^2$, əhalisi 1,253 min nəfərdir. – 37.

**39. Nəriman Nərimanov,** N ə r i m a n N ə c ə f o ğ l u (1870–1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda sovet hakimiyyətinin qələbəsi ərəfəsində N.Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçilir. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin I Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 39–40.

**40. «AQO» –** seçki monitorinq qrupu. Qrupa cəmi 13 dövlət daxildir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 2001-ci ildə yaradılan «AQO» qrupunun vəzifəsi Cənubi Qafqaz ölkələrinin AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət etməkdir. – 42.

**41. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə

Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 42,269.

**42. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 43,246,316.

**43. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 44–45.

**44. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı** (BYİB) – dövlətlərarası maliyyə kredit təşkilatı. 1944-cü ildə yaradılmışdır. Mənzil-qərargahı Vaşinqtondadır. BYİB bir neçə ixtisaslaşmış institutu özündə birləşdirən Dünya Bankı qrupunda baş qurumdur. Üzvlərinin sayı 186-dır. Ölkənin BYİB, üzvlüyünün şərti onun BVF-yə daxil olmasıdır. Səhm kapitalının həcminə görə BYİB dünyanın ən böyük bankıdır.

BYİB-ın əsas vəzifəsi konkret obyektlərin, bütünlükdə iqtisadi inkişafın kreditləşdirilməsidir. O, inkişaf etməkdə olan ölkələrin inkişafı layihələrinin ən böyük kreditorlarından biridir. – 47.

**45. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min km$^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər.

Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 47,207.

**46. Şamaxı Astrofizika Rəsədxanası,** Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası – Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun «Astrofizika» sektoru bazasında 1960-cı ildə yaradılmışdır. Şamaxı Astrofizika Rəsədxanası dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Bu rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə müəyyən üstünlüklərə malikdir. Burada aydın gecələrin sayı 190–200-ə çatır. – 48–49.

**47. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 49,172.

**48. Nəsirəddin Tusi,** Məhəmməd ibn Həsən (1201–1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 49.

**49. Yusif Məmmədəliyev,** Y u s i f H e y d ə r o ğ l u (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsində aviasiyanın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 49.

**50. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 49,50,93,94,95,136,291.

**51. Zivər bəy Əhmədbəyov,** Z i v ə r b ə y G ə r a y b ə y o ğ l u (1873–1925) –Azərbaycan memarı. Zivərbəy ali təhsil almış ilk azərbaycanlı memardır. 1918–22-ci illərdə Bakının Baş memarı olmuşdur. Göyçayda məscid (1906), Şamaxıda «İmam məscidi» (1909), BakıdaTəzəpir məscidi, Göy məscid (1912–13), Bakı və Şamaxıda bir sıra yaşayış evlərinin layihələrini vermişdir. Zivər bəy Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirmişdir. – 50.

**52. Ploşko İosif** (1867–1931) – memar. Milliyyətcə polyakdır. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının layihəsini vermişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911–12) və Venesiya qotikası üslubunda inşa edilən «İsmailiyyə» (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası, 1908–13) binasıdır. – 50.

**53. Seyid Əzim Şirvani** (1835–1888) – Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsrin 1-ci yarısında ədəbi məktəb yaradan S.Ə.Şirvani lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şeirlərində – qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə–məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şeirlərində «xalqın qanını şişəyə tutan» çar məmurlarını ifşa etmişdir. – 54.

**54. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 56.

**55. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistan-nı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 58.

**56. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 58.

**57. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanır. Bu teatr 1880–90-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və H.B.Zərdabinin teatr truppaları əsasında yaradılmışdır.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başladı. – 59.

**58. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-

ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 59,60,93,94,95,112,114,115,116,126,136,137,171, 176,177,208, 211,214,299.

**59. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi,** (Lətif Kərimov adına) – Azərbaycanın xalça və xalq

tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, sonsuz çeşidləri qorunub saxlanılır. Bu gün muzeyin 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 60.

**60. Laos,** L a o s X a l q D e m o k r a t i k R e s p u b-l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir. Paytaxt Vyentyan şəhəridir. – 61.

**61. Çummali (Tyummali) Saynason** (d.1936) – general-leytenant. 2006–2016-cı illərdə Laos Xalq Demokratik Respublikasının Prezidenti olmuşdur. – 61.

**62. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i-m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 62,63,247.

**63. Toni Bleyr,** E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 62.

**64. Endryu,** Y o r k   h e r s o q u , ş a h z a d ə (d.1960) – Britaniya şahzadəsi, kontr-admiral.Britaniya kraliçası II Elizabetin ikinci oğlu. – 63,248.

**65. GDF Suez** – Fransada ən böyük enerji və qaz şirkəti 2008-ci ildə Gaz de France və Suez şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır və əsasən Fransa hökumətinə (35,7% səhmlərinə) məxsusdur. Şirkət elektrik enerjisinin ötürülməsi, neftin çıxarılması , təbii qazın nəqli ilə alternativ enerji mənbələrinin fəaliyyətini həyata keçirir. Hal-hazırda şirkət Endie SA adlanır. – 66.

**66. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 67,72.

**67. Fransa Senatı** – Fransanın qanunverici hakimiyyət orqanı. – 68.

**68. Jerar Larşe** (d.1949) – fransız siyasətçisi, Konservatorlar partiyası, «Xalq hərəkatı İttifaqı»nın üzvü, 2008–2011-ci illərdə və 2014-cü ildən Fransa Senatının sədridir. – 68.

**69. Bernar Kuşner** (d.1939) – fransız həkimi, diplomat. 2007–2010-cu illərdə Fransanın Xarici İşlər naziri olmuşdur. «Sərhədsiz həkimlər» təşkilatının əsasını qoyanlardan biri. – 71.

**70. Qazaxıstan,** Q a z a x ı s t a n   R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 17,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 78,101,312–313.

**71. Nursultan Nazarbayev,** N u r s u l t a n   A b i ş  o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə

Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildən eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. – 78.

**72. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 79.

**73. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 79.

**74. Bəhreyn,** B ə h r e y n d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 765 km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridır. – 80.

**75. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 80.

**76. Kuba,** K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının sədridir. Paytaxtı Havana şəhəridir. – 81.

**77. Raul Kastro Rus** (d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008-ci ildən Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının sədri və Kuba Silahlı Qüvvələrinin Baş Komandanıdır. – 81.

**78. Sudan,** S u d a n  R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 40,2 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartum şəhəridir. – 82.

**79. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudanın hərbi və dövlət xadimi, 1993-cü ildən Sudan Respublikasının Prezidentidir. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 82.

**80. Qətər,** Q ə t ə r  d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmir, paytaxtı Doha şəhəridir. – 83.

**81. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri olmuşdur. O, 1997-ci ildə regionda ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. – 83.

**82. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 85.

**83. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənil-

məsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 90.

**84.** Əziz **Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 90.

**85. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 90.

**86. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. – 90.

**87. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,9 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 91,231–252.

**88. Doris Loythard** (d.1963) – İsveçrə siyasətçisi. 2010-cu və 2017-ci illərdə İsveçrənin prezidenti seçilmişdir. – 91,242.

**89. Buzovna** – Abşeron yarımadasında kənd (1937-ci ildən qəsəbə). Buzovna qədim yaşayış məntəqələrindəndir. Buzovna qəsəbəsinin yaxınlığında e.ə. III minilliyə aid Qədim Buzovna yaşayış yeri, cənub-şərqində isə Tunc və Dəmir dövrlərinə (e.ə.II–I minilliklər) aid yaşayış yeri aşkar edilmişdir. Buzovnada orta əsr abidəsi – türbə (1562–63), Nəsrani məscidi (XVII əsr), Aşağı məscid (XVIII əsr) və iki hamam (XIX əsr) indi də qalmaqdadır. Buzovnada yaşı bilinməyən «Əli ayağı» ziyarətgahı, islamaqədərki dövrdə mövcud olmuş Alban kilsəsi yerləşir. Əhalisi 30 min nəfərdir. (2013). – 93–96.

**90. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə

kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 98,187.

**91. Heydər Əsədov,** H e y d ə r  X a n ı ş  o ğ l u (d.1959) – 2007–2013-cü illərdə Azərbaycan Respublikası Hesablama Palatasının sədri, 2013-cü ildən isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 105.

**92. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 101,108,109,187,191,305.

**93. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u  S e y i d  o ğ l u (d.1955) – iqtisadçı. 2000–2001-ci illərdə Azərbaycan Res-

publikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 111.

**94. Əminə Dilbazi,** Ə m i n ə P a ş a q ı z ı (1919–2010) – rəqqasə, baletmeyster və pedaqoq. Azərbaycanın Xalq artisti. 19355ci ildən rəqqasəlik fəaliyyətinə başlamışdır. 1939-cu ildən isə həm də müxtəlif rəqs qruplarının rəhbəri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 120.

**95. Namiq Abdullayev,** N a m i q Y a d u l l a o ğ l u (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 129.

**96. Zemfira Meftahəddinova,** Z e m f i r a Ə l i q ı z ı (d.1963) – stend atıcısı. 1986–88, 1990, 1993,1997-ci illərdə Avropa çempionu, 1995-ci ildə dünya çempionu, 2000-ci ildə Sidney Olimpiya oyunlarının çempionu, Qahirədə XXI əsrin ilk dünya çempionatında birinci yeri tutmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 129.

**97. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 132.

**98. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 137,212,300.

**99. Myanma,** Myanma İttifaqı Respublikası – Cənub-Şərqi Asiyada, Hindçin yarımadasının şimal-qərb hissəsində zəif inkişaf etmiş ölkə. 1989-cu ilə qədər Birma adlanırdı. Sahəsi 678,5 km$^2$, əhalisi 55 milyon nəfərdir. Paytaxtı Neypyido şəhəridir. İnzibati ərazisi 7 milli və 7 administrativ vilayətə bölünür. – 139.

**100. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 161.

**101. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 161.

**102. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst bayram mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 162.

**103. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 300 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 163.

**104. Pratibha Patil** (d.1934) – hind hüquqşünası, siyasətçi. 2007–2012-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 163.

**105. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 65,6

min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Şri-Cayavardenepura-Kotte, faktiki isə Kolombo şəhəridir. – 164.

**106. Mahinda Racapaksa** (d.1945) – 2005–2015-ci illərdə Şri-Lanka Respublikasının Prezidenti, 2004–2005-ci illərdə Şri-Lankanın Baş naziri olmuşdur. Milli Alyansa daxil olan Şri-Lanka Azadlıq Partiyasının liderlərindən biridir. – 164.

**107. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 24 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 165.

**108. Kventin Brays** (d.1942) – Avstraliya hüquqşünası. 2008–2014-cü illərdə Avstraliyanın general-qubernatoru olmuşdur. – 165.

**109. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 166.

**110. İvo Yosipoviç** (d.1957) – Xorvatiyanın siyasi xadimi, kompozitor, pedaqoq. 2010–2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 166.

**111. Haiti,** H a i t i R e s p u b l i k a s ı – Vest-Hinddə dövlət. Haiti adalarının qərb hissəsində və onun yaxınlığındakı adalarda yerləşir. Sahəsi 27,8 min km$^2$, əhalisi 10 milyon

nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Port-o-Prens şəhəridir. – 168.

**112. Rene Praval** (d.1943) – 2006–2011-ci illərdə Haiti Respublikasının Prezidenti olmuşdur. – 168.

**113. Bakı buxtası,** B a k ı k ö r f ə z i – Xəzər dənizinin qərb sahilində, Abşeron yarımadasının cənubundadır. Şərqdə Sultanburnu, cənubda Şıx burnu, cənub-şərqdə Qumr, Daş Zirə, Böyük Zirə adaları ilə əhatə olunmuşdur. Sahəsi 50 $km^2$, sahil xəttinin uzunluğu 20 km.-dir. Şimal və şimal-qərb küləklərindən qorunduğuna görə gəmilərin daldalanması üçün əlverişlidir. – 169.

**114. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. –171–174.

**115. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 172,186,217.

**116. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 173,174,192,234,235.

**117. Riçard Morninqstar** (d.1945) – ABŞ Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi (2009–2012), ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur (2012–2014). – 175.

**118. Dünya İqtisadi forumu,** Davos İqtisadi forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 187,191,231–252.

**119. «Euronews» –** dünyada baş verən hadisələri 24 saat operativ surətdə işıqlandıran Avropa informasiya telekanalı. «Euronews»un kabel, peyk və efir yayımları Avropa, Afrika, Asiya, Avstraliya, Şimali və Cənubi Amerikada, həmçinin Yaxın Şərqdə – 150-dən çox ölkədə yayımlanır.

Kanal Yayım Birliyinin təşəbbüsü ilə Fransada yaradılmışdır. «Euronews» 14 dildə yayımlanır. Mənzil-qərargahı Lion (Fransa) şəhərindədir. – 199–207.

**120**. **«Cənub dəhlizi»** – Azərbaycada hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 205.

**121. TAP** – Transadriatik qaz kəməri. – 205.

**122. TGİ** – Türkiyə–Yunanıstan – İtaliya qaz kəməri. – 205.

**123. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və

vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 208–210.

**124. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişlər. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 208–210.

**125. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 208,290.

**126. Mirməmməd Cavadzadə,** M i r m ə m m ə d C a v a d o ğ l u (1927–2008) – cərrah-uroloq, tibb elmləri doktoru, professor, SSRİ TA-nın müxbir üzvü, AMEA-nın akademiki. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı. Cavadzadə böyrək polikistozunun orijinal əməliyyat üsulunu təklif etmiş, böyrək və sidik axarında daş olması hallarında az travma ilə cərrahi əməliyyat aparmışdır. Azərbaycan Ali Sovetinin (9–11-ci çağırış) deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 211,212,213.

**127. Tokay Məmmədov,** T o k a y H ə b i b o ğ l u (d.1927) – Azərbaycan heykəltəraşı. Azərbaycanın Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, professor. Azərbaycan Rəssamlar

İttifaqının İdarə Heyətinin sədri (1970–72) olmuşdur. Heykəltəraşlığın müxtəlif janrlarında – monumental abidə, portret, büst, qorelyef və s. əsərlər yaradır. Monumental heykəltəraşlıq T.Məmmədovun yaradıcılığında mühüm yer tutur. – 214.

**128. Endi İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru, kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 217.

**129. İTAR-TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. 2014-cü ildən «TASS» Rüsiya İnformasiya Agentliyi adlanır. – 222.

**130. Qusman Mixail** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 222.

**131. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 226.

**132. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 228.

**133. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014–2015 və 2015-ci ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 228.

**134. Efiopiya,** E f i o p i y a  F e d e r a t i v  D e m o k r a -t i k  R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 1,104 min km2, əhalisi 90 milyon nəfərdir. Dövlət başçısı prezident,

qanunverici orqanı parlamentdir. Paytaxtı Addis-Ababa şəhəridir. – 229.

**135. Livan,** L i v a n R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Beyrut şəhəridir. – 230.

**136. Mişel Süleyman** (d.1948) – Livan siyasətçisi və hərbçi. 2008–2014-cü illərdə Livan Respublikasının Prezidenti olmuşdur. – 230.

**137. Sloveniya,** S l o v e n i y a R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyana şəhəridir. – 232.

**138. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniya Respublikasının Prezidenti olmuşdur. – 232.

**139. Toni Heyvord** (d.1957) – britaniyalı iş adamı. 1982-ci ildən *bp* şirkətində müxtəlif vəzifələrdə çalışmışdır. 2007–2010-cu illərdə *bp*-nin icraçı direktoru olmuşdur. – 233,244.

**140. «Bloomberq» kampaniyası** (*agentliyi*) – əsası 1981-ci ildə Maykl Blumberq tərəfindən qoyulmuşdur. Özəl kampaniyadır. Blumberq ikinci aparıcı kompaniyadır ki, bazarının peşəkar iştirakçılarını pulla təchiz edir. Bloomberq terminalına – Bloomberq agentlərinin və başqa kütləvi informasiya vasitələrinin xəbərləri ilə bütün dünya birja və birjadan kənar bazarlarına hazırkı və keçmiş qiymətlər ilə girmək olar. 1988-ci ildə Bloomberqin 5000 terminalı fəaliyyət göstərirdi. Mənzil-qərargahı Nyu-York şəhərindədir. – 237–241.

**141. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyəti. Mənzil-qərargahı Moskvadadır. – 237,238.

**142. Bakı–Tbilisi–Ceyhan** –1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 241.

**143. «Total»** – məşhur fransız neft şirkəti. 1924-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 244.

**144. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 245.

**145. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Peşəsi həkim travmatoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 245.

**146. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 246,316.

**147. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l -l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət

başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 248.

**148. II Abdullah,** A b d u l l a h  b i n  H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 248.

**149. Berlin** – Almaniyanın paytaxtı. Sahəsi 890 km$^2$-ə qədər, əhalisi 3,5 milyon nəfərdir. 1990-cı ildən müstəqil inzibati ərazidir. Almaniyanın ən böyük sənaye, mədəni və elmi mərkəzidir. 1945-ci ildə faşist Almaniyasının məğlubiyyətindən sonra Berlin SSRİ, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən zonalara bölündü. 1948-ci ildə Qərb dövlətləri Berlin parlamentində seçkilər keçirdilər. Şərqi Berlin isə ADR-in paytaxtı elan edildi. 1961-ci ildə Şərqi Berlindən Qərbi Berlinə əhali axınının qarşısını almaq üçün Berlin divarı tikildi. 1990-cı ildə Berlin divarı söküldü, AFR ilə ADR birləşdi və Berlin birləşmiş Almaniyanın paytaxtı elan edildi. – 253–256.

**150. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian - Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal kansleridir. – 254–256.

**151. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 259.

**152. Mənuçehr Muttəki** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. –272.

**153. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 273.

**154. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı

prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 274.

**155. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstan Respublikasının Prezidenti olmuşdur. – 274.

**156. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 275.

**157. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 275.

**158. Serbiya,** S e r b i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 276.

**159. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 276.

**160. Əlibaba Məmmədov,** Ə l i b a b a  B a l a ə h m ə d  o ğ l u (d.1929) – Azərbaycan xanəndəsi, bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti. Əlibaba Məmmədov «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 277–278.

**161. Bruney,** B r u n e y  D ə r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 425 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 279.

**162. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 279.

**163. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallin şəhəridir. – 280.

**164**. **Toomas Hendrik İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞPA-nın sabiq üzvü. 2006–2016-cı illərdə Estoniya Respublikasının Prezidenti olmuşdur. – 280.

**165. Küveyt,** K ü v e y t d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 281.

**166. Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 281.

**167. Qambiya,** Q a m b i y a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Banjuldur. – 282.

**168. Yəhya Cammeh** (d.1965) – Qambiya siyasi və dövlət xadimi. 1994-cü ildən 20 yanvar 2017-ci ilə qədər Qambiya Respublikasının Prezidenti olmuşdur. – 282.

**169. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən

humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi ideyaları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində insanın mənəvi azadlığı tərənnüm olunur. – 289.

**170. Habil Əliyev,** H a b i l M u s t a f a o ğ l u (1927–2015) – məşhur kamança ifaçısı, Azərbaycanın Xalq artisti. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 291,292–293.

**171. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-dən çox ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 293,294,308.

**172. Bəkir Nəbiyev,** B ə k i r Ə h m ə d o ğ l u (1930–2012) – filoloq. Filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. Dövlət mükafatı laureatı və Əməkdar elm xadimi, Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 295.

**173. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 314.

**174. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 314.

## Şəxsi adlar göstəricisi


**II Abdullah** – 248
**Abdullayev Namiq** – 129
**Abulyadej Bhumibol** – 28
**Abutalıbov Hacıbala** – 23,24,31,41,77,134,224,227,231,272
**Akihito** – 79
**Akoyer Bernar** – 69–70
**Al Səud Abdullah** – 58
**II Albert** – 314
**Alişanova Raya** – 116
**Bağırov Hüseynqulu** – 111
**Bayramov Natiq** – 9
**Besesku Trayan** – 27,92
**Bleyr Toni** – 62
**Bolkiah Həssənal** – 279
**Bays Kventin** – 165
**Bin Rəşid Məhəmməd** – 26
**Bradtke Robert** – 24,88,215,225
**Bünyadzadə Yusif** – 210
**Cammeh Yəhya** – 282
**Cavad xan** – 93
**Cavadzadə Mirməmməd** – 216,212,213
**Comərd Qəssab** – 93
**Çavuşoğlu Mövlud** – 228
**Çinq-Kuo Vu** – 84
**Çubukçu Nimet** – 216
**Dadaşov Cavanşir** – 208
**Davudoğlu Əhməd** – 259

**Desmartes Tyerri** – 244
**Endryu** (*York Hersoqu*) – 63
**Əfəndiyev Şaiq** – 150
**Əhmədbəyov Zivər bəy** – 50
**Əhmədinejad Mahmud** – 273
**Əhmədov Tağı** – 147,148
**Əl-Bəşir Ömər** – 82
**Əl-Falih Xalid** – 244
**Əl-Xəlifə Həməd** – 80
**Əl-Nəhəyyan Xəlifə bin Zaid** – 25
**Əl-Tani Həməd** – 83
**Ələkbərov Füzuli** – 115
**Əliyev Azad** – 208
**Əliyev Əziz** – 90
**Əliyev Habil** – 291,292–293
**Əliyev Heydər** – 16,33,34,35,36,37–39,46–47,89–90,105,145,172,173,174,186,207,209,21,284,289,302,307,308
**Əliyev Tamerlan** – 90
**Əliyev Həsən** – 49
**Əliyeva Mehriban** – 59,60,93,94,95,112,114,115,116,126,136,137,171,176,177,208, 211,214,299
**Əliyeva Zərifə xanım** – 90
**Əminə Dilbazi** – 120
**Əs-Sabah Cabir** – 281
**Əsədov Heydər** – 105
**Əsədov Oqtay** – 90
**Fasye Bernar** – 24,88,215,225
**Fərəcov Zakir** – 115

**Gəncəvi Nizami** – 289
**Gul Abdullah** – 85
**Hacıbəyli Üzeyir** – 294
**Herkel Andres** – 283
**Heyvord Toni** – 233,244
**İlves Toomas** – 280
**İnqlis Endi** – 217
**Kaçinski Lex** – 246,316
**Kastro Raul** – 81
**Kasprşik Anji** – 24,88,215
**Klix Boddan** – 43
**Koroğlu** – 214
**Kuşner Bernar** – 71
**Qasımzadə Elbəy** – 148
**Qrex Debona** – 283
**Qribauskayte Dalya** – 275
**Qrosman Yurgen** – 234,271
**Qurbanəliyev Zaur** – 149
**Qusman Mixail** – 222
**Larşe Jerar** – 68
**Lavrov Sergey** – 226
**Laverjon Ann** – 271
**Liveris Endryu** – 244
**Loythard Doris** – 91,242
**Medvedev Dmitri** – 31–40,57,64,226,227
**Meftahəddinova Zemfira** – 129
**Mehdiyev Ramiz** – 23,24,31,41,77,90,224,227, 231,272
**Merkel Angela** – 254–256
**Merzlyakov Yuri** – 24,88,215,225
**Merz Freydrix** – 261

**Məlikov Telman** – 288
**Məmmədəliyev Yusif** – 49
**Məmmədov Adil** – 307–308
**Məmmədov Ədalət** – 208
**Məmmədov Əlibaba** – 277–278
**Məmmədov Maqsud** – 149
**Məmmədov Tokay** – 214
**Məmmədov Ziya** – 47,86
**Məmmədyarov Elmar** – 24,226
**Morninqstar Riçard** – 175
**Morozov Sergey** – 38
**Mövsümov Şahmar** – 142
**Nalbandyan Edvard** – 225,226
**Muttəki Mənuçehr** – 272
**Narişkin Sergey** – 29,223
**Nazarbayev Nursultan** – 78
**Nəbiyev Bəkir** – 295
**Nərimanov Nəriman** – 39–40
**Papulyas Karolos** – 274
**Patil Pratibha** – 163
**Peres Paskal** – 73
**Pirverdiyev Etibar** – 107,301,310
**Ploşko İosif** – 50
**Preval Rene** – 168
**Prior Cey** – 235
**Racapaksa Mahinda** – 164
**Rasizadə Artur** – 23,24,31,41,77,90,224,227, 231,272
**Rəhimov Azad** – 130
**Rzayev Nizaməddin** – 123,308

**Sadıqova Yaqut** – 153
**Sarkisyan Serj** – 24,225,226
**Sarkozi Nikola** – 67,72
**Saudabayev Kanat** – 312–313
**Saynason Çummali** – 61
**Sirelli Jan-Fransua** – 66
**Steynberq Ceyms** – 260,271
**Stoyan Stelian** – 42
**Süleyman Mişel** – 230
**Şçıqlo Aleksandr** – 316
**Şərifov Abid** – 123,148,212
**Şirəliyev Oqtay** – 137,212,300
**Şirak Jak** – 72
**Şirvani Seyid Əzim** – 54
**Tadiç Boris** – 276
**Tusi Nəsirəddin** – 49
**Tyurk Danilo** – 232
**Vallender Selest** – 30
**Vergin Daniel** – 243,249
**Yanukoviç Viktor** – 290
**Yazev Valeri** – 271
**Yosipoviç İvo** – 166
**Yozer Peter** – 244
**Yusifzadə Xoşbəxt** – 171–174
**Zatlers Valdis** – 245
**Zərdabi Arif** – 161

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*yarımada*) – 112,113,124,196,197,322, 326,327
**Afina** – 184,185
**Afrika** – 208
**Ağdam** – 15
**Ağdaş** – 291–301,323
**Almaniya** – 23–24,234,253–272
**Amerika Birləşmiş Ştatları** – 24,30,88,143,175,215,260
**Aralıq dənizi** – 204
**Asiya** – 99
**Avrasiya** – 175
**Avropa** – 34,35,42,99,202,251,256, 264,265,305
**Avstraliya** – 165
**Bakı** – 5,25,26,27,28,45,57,58,64, 78,79,80,81,82,84,85,86, 91, 92,103,113,120,121,125,139, 141,142,161,162,163,164,165, 166,191,192,207,214,228,229, 230,273,274,275,279,280,281, 282,290,312,314,322,323,324, 326,327
**Bakı buxtası** – 169
**Balaxanı** – 113
**Bayıl** – 167

**Belçika** – 314
**Berlin** – 253–256
**Beyrut** – 230
**Bəhreyn** – 80
**Binə** – 111
**Birləşmiş Ərəb** Əmirlikləri – 25,26
**Böyülşor** (*göl)* – 326
**Böyük Britaniya** – 62,63,247
**Bruney** – 279
**Bursa** – 85
**Buzovna** – 93–96
**Bülbülə gölü** – 326
**Cənubi Qafqaz** – 49,211
**Çuxurdərə gölü** – 326
**Dağlıq Qarabağ** – 10,102,103, 185,199,269
**Daşgil gölü** – 326
**Davos** – 231–252
**Efiopiya** – 229
**Estoniya** – 280
**Fransa** – 24,65–77,88,143,215,225
**Füzuli** – 15
**Gəncə** – 7,93,284–289
**Goranboy** – 6–22
**Göyçay** – 302–311,326
**Gürcüstan** – 205,240,241,267
**Hacıhəsən gölü** – 326
**Haiti** – 168
**Helsinki** – 184
**Hindistan** – 163
**Hövsan** – 113,123–125,323
**Xankəndi** – 11,12

**Xəzər dənizi** – 99,172,251,262,263,266,323
**Xırdalan** – 114–119
**Xorvatiya** – 166
**İordaniya** – 248
**İran** – 53,205,257,272,273
**İrəvan** – 18
**İsveçrə** – 91,231–252
**İtaliya** – 236
**Kəlbəcər** – 9,10,13,15–20,270
**Kuba** – 81
**Küveyt** – 281
**Qala gölü** – 326
**Qambiya** – 282
**Qara dəniz** – 204,241
**Qazaxıstan** – 78,101,312–313
**Qərbi Avropa** – 241
**Qətər** – 83
**Qırmızı göl** – 326
**Laçın** – 11
**Laos** – 61
**Latviya** – 245
**Litva** – 275
**Livan** – 230
**Malayziya** – 53
**Masazır gölü** – 326
**Mirzələvi gölü** – 326
**Moskva** – 32,36,47,185,208,222
**Münhen** – 23–24,257–272
**Myanma** – 139
**Naxçıvan** – 47,207
**Pakistan** – 161

**Paris** – 65–77
**Polşa** – 43,246,316
**Rumıniya** – 27,92
**Rusiya** – 24,29,31–41,58,64,88,97–104,143,205,218–222,223,224–227, 238,267
**Serbiya** – 276
**Səudiyyə Ərəbistanı** – 58
**Sibir** – 34,35
**Sloveniya** – 232
**Soçi** – 224–227
**Sudan** – 82
**Sumqayıt** – 107–110
**Şağan** – 132– 133
**Şamaxı** – 46–56,93
**Şri-Lanka** – 164
**Şuşa** – 11,12,19,20
**Tailand** – 28
**Türkiyə** – 10,11,21,85,203,204,205,216,240, 259,267,270
**Ural** – 34,35
**Uzaq Şərq** – 34
**Ukrayna** – 208,290
**Ulyanovsk** – 31–41
**Vankuver** – 103
**Veyisli** – 9
**Volqa çayı** – 34,40
**Yaxın Şərq** – 211
**Yaponiya** – 79
**Yunanıstan** – 274
**Zabrat gölü** – 326

**Zəngəzur** – 18
**Zıg gölü** – 326

## MÜNDƏRİCAT

AVROPA İTTİFAQININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB HERMAN VAN ROMPEYƏ

*20 noyabr 2009-cu il ............................................................................5*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
GORANBOY RAYONUNA SƏFƏRİ

*20 noyabr 2009-cu il ............................................................................6*

PREZİDENT İLHAM ƏLİYEVİN KƏLBƏCƏR
İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜ

*20 noyabr 2009-cu il ..........................................................................15*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ

*21 noyabr 2009-cu il ..........................................................................23*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ
ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN
GÖRÜŞÜ

*22 noyabr 2009-cu il ..........................................................................24*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ
ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-
NƏHƏYYANA

*23 noyabr 2009-cu il* ..........................................................................*25*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-
PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİDƏ

*23 noyabr 2009-cu il* ..........................................................................*26*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*23 noyabr 2009-cu il* ..........................................................................*27*

TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL
ADULYADEJƏ

*23 noyabr 2009-cu il* ..........................................................................*28*

RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ
RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*23 noyabr 2009-cu il* ..........................................................................*29*

ABŞ MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ
AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM
SELEST VALLANDERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 noyabr 2009-cu il* ..........................................................................*30*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA
İŞGÜZAR SƏFƏRİ

*24 noyabr 2009-cu il* ..........................................................................*31*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

*24 noyabr 2009-cu il* ..........................................................................*32*

VOLQA ÇAYI ÜZƏRİNDƏ YENİ KÖRPÜ-KEÇİDİN
TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*24 noyabr 2009-cu il* ...........................................................................*34*
ULYANOVSKDA ÜMUMMİLLİ LİDER HEYDƏR
ƏLİYEV MEYDANININ AÇILIŞI MƏRASİMİ

*24 noyabr 2009-cu il* ...........................................................................*37*

«AQO» MONİTORİNQ QRUPUNUN SƏDRİ,
RUMINİYANIN AVROPA ŞURASI YANINDA DAİMİ
NÜMAYƏNDƏSİ STELİAN STOYANIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 noyabr 2009-cu il* ...........................................................................*42*

POLŞANIN MİLLİ MÜDAFİƏ NAZİRİ BOQDAN KLİXİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 noyabr 2009-cu il* ...........................................................................*43*

AZƏRBAYCAN XALQINA TƏBRİK

*25 noyabr 2009-cu il* ...........................................................................*44*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
ŞAMAXI RAYONUNA SƏFƏRİ

*26 noyabr 2009-cu il* ...........................................................................*46*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*28 noyabr 2009-cu il* ...........................................................................*57*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ
ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH
BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*28 noyabr 2009-cu il* ...........................................................................*58*

AKADEMİK MİLLİ DRAM TEATRINDA APARILAN
ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ
TANIŞLIQ

*1 dekabr 2009-cu il*............................................................................*59*
AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİ ÜÇÜN İNŞA EDİLƏN YENİ BİNADA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*1 dekabr 2009-cu il*............................................................................*60*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇUMMALİ SAYNASONA

*1 dekabr 2009-cu il*............................................................................*61*

BÖYÜK BRİTANİYANIN KEÇMİŞ BAŞ NAZİRİ TONİ BLEYR İLƏ GÖRÜŞ

*1 dekabr 2009-cu il*............................................................................*62*

BÖYÜK BRİTANİYANIN YORQ HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*1 dekabr 2009-cu il*............................................................................*63*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*5 dekabr 2009-cu il*............................................................................*64*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA RƏSMİ SƏFƏRİ

*8 dekabr 2009-cu il*............................................................................*65*

GDF SUEZ ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ ƏMƏLİYYATÇI DİREKTORU JAN-FRANSUA SİRELLİ İLƏ GÖRÜŞ

*8 dekabr 2009-cu il*............................................................................*66*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ

*9 dekabr 2009-cu il*............................................................................*67*

FRANSA SENATININ SƏDRİ JERAR LARŞE
İLƏ GÖRÜŞ

*9 dekabr 2009-cu il*........................................................................................*68*

MİLLİ ASSAMBLEYANIN SƏDRİ BERNAR AKOYER
İLƏ GÖRÜŞ

*9 dekabr 2009-cu il*........................................................................................*69*

FRANSA XARİCİ İŞLƏR NAZİRİ BERNAR KUŞNER İLƏ
GÖRÜŞ

*9 dekabr 2009-cu il*........................................................................................*71*

MEDEF-ə ÜZV OLAN İŞ ADAMLARI İLƏ
GÖRÜŞ

*9 dekabr 2009-cu il*........................................................................................*72*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*10 dekabr 2009-cu il*......................................................................................*78*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*10 dekabr 2009-cu il*......................................................................................*79*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN
İSA ƏL-XƏLİFƏYƏ

*10 dekabr 2009-cu il*......................................................................................*80*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ
NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB
RAUL KASTRO RUSA

*10 dekabr 2009-cu il*......................................................................................*81*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

*10 dekabr 2009-cu il*............................................................................*82*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*10 dekabr 2009-cu il*............................................................................*83*

BEYNƏLXALQ BOKS ASSOSİASİYASININ PREZİDENTİ ÇİNQ-KUO VU İLƏ GÖRÜŞ

*10 dekabr 2009-cu il*............................................................................*84*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*11 dekabr 2009-cu il*............................................................................*85*

BAKININ AZADLIQ VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏKİ TUNELİN AÇILIŞI MƏRASİMİ

*11 dekabr 2009-cu il*............................................................................*86*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİN VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*11 dekabr 2009-cu il*............................................................................*88*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2009-cu il*............................................................................*89*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM DORİS LOYTHARDA

*15 dekabr 2009-cu il*............................................................................*91*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*15 dekabr 2009-cu il..........................................................................92*

BUZOVNA QƏSƏBƏSİNDƏ YENİDƏN QURULAN CÜMƏ MƏSCİDİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*19 dekabr 2009-cu il..........................................................................93*

RUSİYANIN «VESTİ» TELEKANALINA MÜSAHİBƏ

*21 dekabr 2009-cu il..........................................................................97*

HESABLAMA PALATASININ YENİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*21 dekabr 2009-cu il........................................................................105*

SUMQAYIT TEXNOPARKININ AÇILIŞI MƏRASİMİ

*22 dekabr 2009-cu il........................................................................107*

KEÇMİŞ «BİNƏ» TİCARƏT MƏRKƏZİNİN YERİNDƏ APARILAN YAŞILLAŞDIRMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*24 dekabr 2009-cu il........................................................................111*

ABŞERON RAYON İCRA HAKİMİYYƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2009-cu il ......................................................................114*

XALQ ARTİSTİ ƏMİNƏ XANIM DİLBAZİYƏ

*25 dekabr 2009-cu il........................................................................120*

GƏNCLƏR TƏŞKİLATLARI MİLLİ ŞURASININ XI QURULTAYININ İŞTİRAKÇILARINA

*25 dekabr 2009-cu il........................................................................121*

HÖVSAN AERASİYA STANSİYASININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2009-cu il..........................................................................123*

MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İDMANÇILARA, MƏŞQÇİLƏRƏ VƏ İDMAN MÜTƏXƏSSİSLƏRİNƏ MÜKAFATLARI TƏQDİM ETMƏSİ MƏRASİMİ

*25 dekabr 2009-cu il..........................................................................126*

ŞAĞAN QƏSƏBƏSİNDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2009-cu il..........................................................................132*

SƏMƏD VURĞUN VƏ «MUĞAM» BAĞLARINDA APARILMIŞ ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*28 dekabr 2009-cu il..........................................................................134*

RESPUBLİKA PERİNATAL MƏRKƏZİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*28 dekabr 2009-cu il..........................................................................136*

MYANMA İTTİFAQININ DÖVLƏT SÜLH VƏ İNKİŞAF ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ BAŞ GENERAL CƏNAB TAN ŞVEYƏ

*29 dekabr 2009-cu il..........................................................................139*

DÜNYA AZƏRBAYCANLILARINA

*29 dekabr 2009-cu il..........................................................................140*

DÖVLƏT NEFT FONDUNUN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*29 dekabr 2009-cu il..........................................................................142*

METRONUN «28 MAY» STANSİYASININ
İKİNCİ ÇIXIŞININ AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2009-cu il*.......................................................................*147*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ
GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*31 dekabr 2009-cu il*.......................................................................*155*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*3 yanvar 2010-cu il*.........................................................................*161*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2010-cu il*.........................................................................*162*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM PRATİBHA PATİLƏ

*13 yanvar 2010-cu il*.......................................................................*163*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MAHİNDA RACAPAKSAYA

*13 yanvar 2010-cu il*.......................................................................*164*

AVSTRALİYA İTTİFAQININ GENERAL-
QUBERNATORU ZATİ-ALİLƏRİ XANIM KVENTİN
BRAYSA

*13 yanvar 2010-cu il*.......................................................................*165*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ

*13 yanvar 2010-cu il*.......................................................................*166*
DÖVLƏT BAYRAĞI MEYDANINDA İNŞAAT
İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*13 yanvar 2010-cu il*..........................................................................*167*

HAİTİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RENE PREVALA

*14 yanvar 2010-cu il*..........................................................................*168*

BAKI BUXTASINDA TİKİLƏN QURU YÜK LİMAN
MƏNTƏQƏSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ
TANIŞLIQ

*14 yanvar 2010-cu il*..........................................................................*169*

DƏNİZKƏNARI MİLLİ PARKDAKI YAXT-KLUBDA
APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*14 yanvar 2010-cu il*..........................................................................*170*

GÖRKƏMLİ NEFTÇİ-ALİM XOŞBƏXT YUSİFZADƏNİN
80 İLLİK YUBİLEY MƏRASİMİ

*14 yanvar 2010-cu il*..........................................................................*171*

ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ
MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ
RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 yanvar 2010-cu il*..........................................................................*175*

SƏBAİL RAYONUNDA «DALĞA PLAZA»
İŞ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*15 yanvar 2010-cu il*..........................................................................*176*

RESPUBLİKA MEHMANXANASINDA APARILAN
ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*15 yanvar 2010-cu il*..........................................................................*177*
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN

2009-cu İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ
NİTQİ

*18 yanvar 2010-cu il.............................................................................178*

YEKUN NİTQİ .........................................................................................186

«EURONEWS» TELEKANALINA MÜSAHİBƏ

*19 yanvar 2010-cu il ............................................................................199*

«20 YANVAR» DAİRƏSİNDƏ ŞƏHİDLƏRİN
XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏ KOMPLEKSİNİN
AÇILIŞI MƏRASİMİ

*20 yanvar 2010-cu il.............................................................................208*

RESPUBLİKA KLİNİK UROLOJİ XƏSTƏXANASININ
ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*21 yanvar 2010-cu il.............................................................................211*

XALQ QƏHRƏMANI KOROĞLUYA UCALDILACAQ
ABİDƏNİN HAZIRLIQ
İŞLƏRİ İLƏ TANIŞLIQ

*21 yanvar 2010-cu il.............................................................................214*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
İLƏ GÖRÜŞ

*21 yanvar 2010-cu il.............................................................................215*

TÜRKİYƏNİN TƏHSİL NAZİRİ XANIM NİMET
ÇUBUKÇUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*21 yanvar 2010-cu il.............................................................................216*

*bp* ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ
ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*22 yanvar 2010-cu il..........................................................................217*

HUMANİTAR ƏMƏKDAŞLIQ ÜZRƏ BİRİNCİ
AZƏRBAYCAN–RUSİYA FORUMUNUN
İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*22 yanvar 2010-cu il..........................................................................218*

RUSİYA FEDERASİYASI PREZİDENTİ
ADMİNİSTRASİYASININ RƏHBƏRİ
SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*23 yanvar 2010-cu il..........................................................................223*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*25 yanvar 2010-cu il..........................................................................224*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN
GÖRÜŞÜ

*25 yanvar 2010-cu il..........................................................................225*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN
PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*25 yanvar 2010-cu il..........................................................................226*

SOÇİDƏ DAĞ XİZƏKSÜRMƏ MƏRKƏZİNDƏ

*25 yanvar 2010-cu il..........................................................................227*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI-
NIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MÖVLUD ÇAVUŞOĞLUNA

*26 yanvar 2010-cu il..........................................................................228*

EFİOPİYA FEDERATİV DEMOKRATİK
RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB GİRMA VOLDE-GİORGİSƏ

*26 yanvar 2010-cu il.........................................................................229*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL SÜLEYMANA

*26 yanvar 2010-cu il.........................................................................230*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ

*27 yanvar 2010-cu il.........................................................................231*

SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ GÖRÜŞ

*27 yanvar 2010-cu il.........................................................................232*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
TONİ HEYVORD İLƏ GÖRÜŞ

*27 yanvar 2010-cu il.........................................................................233*

RWE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU YURGEN
QROSMAN İLƏ GÖRÜŞ

*27 yanvar 2010-cu il.........................................................................234*

«CHEVRON» KORPORASİYASININ VİTSE-PREZİDENTİ
CEY PRİOR İLƏ GÖRÜŞ

*27 yanvar 2010-cu il.........................................................................235*

«EDİSSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
UMBERTO KUADRİNO İLƏ GÖRÜŞ

*27 yanvar 2010-cu il.........................................................................236*

«BLOOMBERG» AGENTLİYİNİN MÜXBİRİNƏ
MÜSAHİBƏ

*27 yanvar 2010-cu il .......................................................................237*

İSVEÇRƏ PREZİDENTİ DORİS LOYTHARD İLƏ GÖRÜŞ

*28 yanvar 2010-cu il..........................................................................242*

«QLOBAL ENERJİ MƏNZƏRƏSİ» MÖVZUSUNDAKI İCLASDA İŞTİRAK

*28 yanvar 2010-cu il..........................................................................243*

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*28 yanvar 2010-cu il..........................................................................245*

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GÖRÜŞ

*28 yanvar 2010-cu il..........................................................................246*

BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*28 yanvar 2010-cu il..........................................................................247*

İORDANİYA KRALI II ABDULLAH İLƏ GÖRÜŞ

*28 yanvar 2010-cu il..........................................................................248*

DÜNYA İQTİSADİ FORUMUNUN «QLOBAL ENERJİ MƏNZƏRƏSİ» MÖVZUSUNDAKI İCLASINDA İŞTİRAK

*28 yanvar 2010-cu il..........................................................................249*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ

*4 fevral 2010-cu il ..........................................................................253*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ALMANİYA KANSLERİ ANGELA MERKELİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*4 fevral 2010-cu il ..........................................................................254*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MÜNHENƏ SƏFƏRİ

*4 fevral 2010-cu il* ......................................................................... *257*

ALMAN–AZƏRBAYCAN FORUMUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*5 fevral 2010-cu il* ......................................................................... *258*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞÜ

*5 fevral 2010-cu il* ......................................................................... *259*

ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STEYNBERQ İLƏ GÖRÜŞ

*5 fevral 2010-cu il* ......................................................................... *260*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ «TƏBİİ SƏRVƏTLƏRİN TƏHLÜKƏSİZLİYİ VƏ DƏYİŞƏN QLOBAL GÜC» MÖVZUSUNDAKI MÜZAKİRƏLƏRDƏ İŞTİRAK

*5 fevral 2010-cu il* ......................................................................... *261*

İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MUTTƏKİ İLƏ GÖRÜŞ

*6 fevral 2010-cu il* ......................................................................... *272*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*8 fevral 2010-cu il* ......................................................................... *273*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

*8 fevral 2010-cu il* ......................................................................... *274*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*8 fevral 2010-cu il* ........................................................................*275*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BORİS TADİÇƏ

*8 fevral 2010-cu il* ........................................................................*276*

XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOVA «İSTİQLAL»
ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*8 fevral 2010-cu il* ........................................................................*277*

BRUNEY DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT
HACI HƏSSƏNAL BOLKİAHA

*10 fevral 2010-cu il* ......................................................................*279*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*10 fevral 2010-cu il* ......................................................................*280*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX
SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*10 fevral 2010-cu il* ......................................................................*281*

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ

*10 fevral 2010-cu il* ......................................................................*282*

AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN
ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*10 fevral 2010-cu il* ......................................................................*283*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

*11 fevral 2010-cu il ........................................................................284*

GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*11 fevral 2010-cu il ........................................................................287*

UKRAYNA REGİONLAR PARTİYASININ LİDERİ
CƏNAB VİKTOR YANUKOVİÇƏ

*12 fevral 2010-cu il ........................................................................290*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
AĞDAŞ RAYONUNA SƏFƏRİ

*12 fevral 2010-cu il ........................................................................291*

AĞDAŞ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞ

*12 fevral 2010-cu il ........................................................................297*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
GÖYÇAY RAYONUNA SƏFƏRİ

*12 fevral 2010-cu il ........................................................................302*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ KANAT
SAUDABAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*15 fevral 2010-cu il ........................................................................312*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*16 fevral 2010-cu il ........................................................................314*

DƏNİZKƏNARI MİLLİ PARKDA İNŞA EDİLƏN BAKI
BİZNES MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ
TANIŞLIQ

*17 fevral 2010-cu il* ......................................................................................*315*

POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN
RƏHBƏRİ ALEKSANDR ŞÇIQLONUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 fevral 2010-cu il* ......................................................................................*316*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
EKOLOJİ PROBLEMLƏRƏ HƏSR OLUNMUŞ
MÜŞAVİRƏDƏ NİTQİ

*18 fevral 2010-cu il* ......................................................................................*317*

YEKUN NİTQİ ...............................................................................................*322*

QEYDLƏR ......................................................................................................*328*

*Şəxsi adlar göstəricisi*...........................................................................*366*

*Coğrafi adlar göstəricisi*......................................................................*371*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5.
Uçot vərəqi 26,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.